RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 284 (9739) 24 dekabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR

## ...Tarixin ən qüdrətli Azərbaycanının, tarixin ən abad Qarabağının

Azərbaycan cəmi 21 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Cənubi Qafqazın lider ölkəsi olub, dünyada söz sahibi kimi tanınıb. Ölkəmiz bütün sahələr üzrə böyük inkişaf yolu keçib və dünyanın enerji, nəqliyyat qovşağına çevrilib. O da əbəs yerə deyil ki, bu gün bölgə ilə bağlı reallaşdırılan bütün layihələr, gerçəkləşdiriləcək planlar Azərbaycanla razılaşdırılır. Beynəlxalq miqyaslı məsələlərlə bağlı müzakirələrin, dialoqların aparıldığı unikal platforma olan Azərbaycan qlobal problemlərin həllində fəallıq göstərir, dünyada sülhü təşviq edir. COP29 kimi beynəlxalq əhəmiyyətli tədbirə evsahibliyi etməsi üçün dünyanın əksər ölkələrinin yekdilliklə Azərbaycan lehinə səs verməleri də təsadüfi xarakter daşımırdı. COP29-da iştirak etmək üçün Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən Azərbaycana 196 ölkədən 70 mindən çox iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir gəldi. Bakıya gələn dövlət başçıları, digər rəsmi nümayəndələr ölkəmizin bu tədbirə hazırlığını yüksək qiymətləndirdilər, Azərbaycanın məharətlə sədrlik etdiyi bu nəhəng tədbirin layiqli səviyyədə təşkilinə görə şəxsən Prezident İlham Əliyevə təşəkkürlərini bildirdilər. Noyabrın 12-də - Liderlər Sammitinin açılış mərasimində Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UNHABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxışında Prezident İlham Əliyevə xitabən söylədi: "Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız".

Bu mötəbər tədbirdə məhz İlham Əliyevin adının sülhlə qoşa çəkilməsi heç də təsadüfi deyildi...

Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə birbaşa rəvac verib.

Ümumilikdə regiona barış əhvalı gətirən Qarabağ Zəfəri ölkəmizin taleyinə də dönüş nöqtəsi kimi yazıldı. Azərbaycan torpaqları işğal altında olan ölkədən Zəfər ölkəsinə, Azərbaycan xalqı məğlub xalqdan qalib xalq zirvəsinə ucaldı. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə yetişən vətənpərvər gənclik milli mənafelərimiz, torpaqlarımızın azadlığı, şəhidlərimizin qisası uğrunda düşmənlə haqq savaşına atıldılar. Qəhrəman oğullarımız Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarını layiqincə yerinə yetirərək hələ müharibənin ortalarında Onun bir növ parol xarakteri daşıyan "Şuşasız bizim işimiz yarımçıq qalar", - deyə, verdiyi mesajı ildırım sürəti ilə yerinə yetirərək Qarabağın ürəyi Şuşanı bir həmlədə azad etdilər. Vətən savaşının 44 günündə həm də informasiya cəbhəsində savaşan, ölkəmizin düşmənlərini təkbaşına susduran Müzəffər Lider İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Ağdam, Kəlbəcər, Laçın bir güllə atılmadan, bir itki verilmədən azad edildi.

Azərbaycan tarixinin Zəfər salnaməsini qızıl hərflərlə yazan Müzəffər Lider İlham Əliyev suverenliyimizi təmin etdi, bayrağımızı Xankəndidə dalğalandırdı. 2023-cü ilin sentyabrında "dəmir yumruq" heç bir gün də çəkməyən antiterror tədbirləri ilə Qarabağda kök salmış erməni separatçılarının yuvasını birdəfəlik dağıtdı. Status cəhənnəmə getdi, sərsəm "böyük Ermənistan" planları məhv edildi.

Son dörd ildə Prezident İlham Əliyev ölkəmizə qələbə ardınca qələbə bəxş etdi. Azərbaycan xalqı olaraq biz heç Şuşa Zəfərinə doymamış, Xankəndi qələbəsini yaşadıq, ərazi bütövlüyümüz, suverenliyimiz təmin edildi. Təqvimimizə neçə-neçə yeni bayram günləri yazıldı. Şuşa, Ağdam, Laçın, Kəlbəcər, Cəbrayıl, Xocalı... şəhərlərinin azadlıq günləri oldu. Ən şirin bayramımız təsis olundu - 20 Sentyabr Dövlət Suverenlik Günü.

→ 21

# Əhalinin sosial rifahı Prezidentin daim diqqət mərkəzindədir

## Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 101 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

4. Bu Sərəncamın 1-ci və 3-cü hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

# "Sizin rəhbərliyinizlə Azərbaycan dünya arenasında öz mövqeyini möhkəmləndirir"



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə dost Azərbaycan sosial-iqtisadi inkişaf yolu ilə inamla addımlayır, dünya arenasında öz mövqeyini möhkəmləndirir. Dövlətlərimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin qurulmasına və möhkəmləndirilməsinə şəxsi töhfənizi olduqca yüksək qiymətləndirirəm.

Mehriban yoldaşlıq əlaqələrimizi çox dəyərləndirirəm. Əlbəttə, ikitərəfli və beynəlxalq gündəliyin aktual məsələləri ilə bağlı birgə sıx işimizin davam etdirilməsinə şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə ürəkdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram. Ailənizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

# "Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər" mövzusunda Azərbaycan Din Xadimləri Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi - "Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər" mövzusunda keçirilən forumun iştirakçılarını salamlayıram.

Ayrı-ayrı dini etiqad və inanclara mənsub icmaların əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni münasibətlər sistemi formalaşmışdır. Yüz illərlə nümunəvi tolerantlıq ənənələrinin mövcud olduğu ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Təsadüfi deyil ki, dünya dini liderlərinin mötəbər beynəlxalq tədbirlərinə uğurla evsahibliyi edən Azərbaycan bu gün mədəniyyətlərarası əməkdaşlıq və dialoq məkanına çevrilmişdir.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, zəngin multikulturalizm dəyərlərinin təbliği və təşviqi dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə din siyasəti demokratik, hüquqi, dünyəvi dövlətçilik prinsiplərinə və beynəlxalq normalara uyğun həyata keçirilir. Biz bu təcrübəni ictimai-siyasi sabitliyin və həmrəyliyin vacib amili kimi qiymətləndiririk.

Hazırda dünyada cərəyan edən mürəkkəb proseslər, dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsi, ksenofobiya, ekstremizm, məzhəbçilik kimi mənfi təzahürlər beynəlxalq sülhə və əmin-amanlığa ciddi təhdidlər yaratmaqdadır. Belə təhlükəli amillərin vaxtında qarşısının alınması üçün dinin cəmiyyət həyatında yerinin və rolunun düzgün qiymətləndirilməsi, mənəvi-əxlaqi tərbiyə işinin təkmilləşdirilməsi, dini təhsil və maarifləndirmə istiqamətində fəaliyyətin gücləndirilməsi günümüzün zəruri məsələlərindəndir. Bu sahədə din xadimlərinin üzərinə böyük vəzifələr düşür.

Azərbaycanda müxtəlif konfessiyaları təmsil edən din adamlarının, ilahiyyatçıların, alim və mütəxəssislərin aktual problemlərin müzakirəsi ilə bağlı bir araya gəlməsini təqdirəlayiq hesab edirəm. Əminəm ki, toplantınız konstruktiv müzakirələr şəraitində keçəcək, ölkəmizdə dini maarifləndirmənin müasir tələblərə uyğun təşkilinə və mənəvi-əxlaqi dəyərlərin təbliğinə layiqli töhfə verəcəkdir.

Bir daha sizə ən xoş diləklərimi yetirir, forumun işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

# Roma Papası Fransisk Həzrətlərinə

Zati-müqəddəsləri!

Müqəddəs Milad bayramı münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Mərhəmət, xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirən, yeni ruh gətirən bu nurlu bayram özünün bütün məramı ilə insanlar arasında qarşılıqlı anlaşmanı, dəstəyi və birliyi tərənnüm edir. Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan xristian icması tərəfindən bu bayramın daim xüsusi coşqu və yüksək əhval-ruhiyyə ilə qeyd edilməsi ölkəmizdə hökm sürən etnik-mədəni müxtəliflik, zəngin multikulturalizm ənənələrinin bariz təzahürüdür.

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, əsrlər boyu milli-mədəni rəngarənglik və tolerantlıq mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı etimad və hörmət şəraitində birgə yaşadığı nadir diyarlardan biridir. Biz bütün bunlarla fəxr edir və bu dəyərləri milli sərvət kimi qoruyuruq. Təsadüfi deyil ki, xalqlararası dostluğun və dinlərarası harmoniyanın, multikulturalizm və tolerantlıq ənənələrinin qorunması Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən olmaqla yanaşı, ilk növbədə xalqımızın təbii yaşam tərzidir.

Müasir Azərbaycan cəmiyyətində xristian icmasının özünəməxsus yeri vardır. Yüz illər boyu Azərbaycanda məskunlaşıb vahid ailə kimi yaşayan xristian vətəndaşlarımız vətənlərinin ictimai-siyasi və sosial-mədəni həyatının bütün sahələrində yaxından iştirak edərək doğma ölkəmizin rifahına böyük töhfələr verirlər. Ərazimizdə mövcud olan qədim xristian irsi, məbədlər, kilsələr və digər ibadət yerləri, məscidlər və sinaqoqlar kimi eyni səviyyədə Azərbaycan dövləti tərəfindən mühafizə olunur. Ölkəmiz eyni zamanda dünya mədəni irsinin incilərindən sayılan xristian abidələrinin qorunmasında fəal rol oynayaraq mədəniyyətlərarası dialoqu təşviq edir.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında formalaşmış münasibətlər bizi sevindirir. İkitərəfli əlaqələrimizin tarixi çoxsaylı qarşılıqlı səfərlər, daimi təmaslar və əlamətdar hadisələrlə zəngindir. Məmnunluqla qeyd etmək istərdim ki, ölkəmizdə sayca ikinci olacaq və Papa II İohann Pavelin şərəfinə ucaldılacaq yeni katolik kilsəsi ölkəmizdə katolik dini icmasına göstərilən böyük diqqət və qayğının təzahürü, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksəksəviyyəli əlaqələrin yeni rəmzidir.

Zati-müqəddəsləri!

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında münasibətlərin möhkəmlənməsinə verdiyiniz töhfəyə görə Sizə təşəkkürümü bildirir, ölkəmizin multikulturalizm və tolerantlıq ənənələrini daim yüksək dəyərləndirdiyiniz üçün minnətdarlığımı ifadə edirəm.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı səmərəli əməkdaşlıq bundan sonra da dünyada dinlərarası və mədəniyyətlərarası anlaşmanın təşviqi, ümumbəşəri dəyərlərin qorunub saxlanması, insanlar arasında həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə doğum gününüz və qarşıdan gələn Yeni 2025-ci il münasibətilə də ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, xeyirxah və müqəddəs missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2024-cü il*

# Naxçıvan Muxtar Respublikasında yeni istilik-elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar dövlət-özəl tərəfdaşlığı imkanlarından istifadə edilməklə Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalının artırılmasını və elektrik enerjisi ixracının həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti beynəlxalq təcrübə nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasında yeni istilik-elektrik stansiyasının tikintisi üçün potensial tərəfdaş investorlarla danışıqlar aparılmasını, məsləhətçi şirkətlərin cəlb edilməsini, Texniki İqtisadi Əsaslandırmanın və digər layihə sənədlərinin hazırlanmasını və layihənin həyata keçirilməsi ilə bağlı yekun təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə tikiləcək yeni istilik-elektrik stansiyasının ötürücü şəbəkəyə qoşulması və bundan irəli gələn digər zəruri infrastrukturun təkmilləşdirilməsi üzrə işlərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin layihənin həyata keçirilməsi mərhələsinə uyğun olaraq dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə (investisiya xərcləri) nəzərə alınmasını təmin etsin;

2.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla istilik-elektrik stansiyasının tikilməsi üçün torpaq sahəsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə təqdim edilməsini və bundan irəli gələn məsələlərlə əlaqədar müvafiq tədbirlər görülməsini bir ay müddətində təmin etsin;

3.2. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə istilik-elektrik stansiyasının Naxçıvan Muxtar Respublikasının enerji sisteminə qoşulması, enerji sisteminin tənzimlənməsi və Naxçıvan Muxtar Respublikasının daxili tələbatının ödənilməsi üçün zəruri olan elektrik enerjisi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

# Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Bağırov Natiq Nadir oğlu
Bunyatəliyev Rauf Əli-Heydər oğlu
Qurbanov Cavanşir Kazım oğlu
Sadıqov Sadıq Asəf oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasova Zərqələm Məstan qızı
Abdullayev Vasif İslam oğlu
Cəfərov İqrar İsa oğlu
Əliyev Fərhad Vaqif oğlu
Mamedov Musa Saleh oğlu
Məmmədov Aydın Ağa-Əli oğlu
Musayev Nəsimi Hüseyn oğlu
Rəsullu Rəşad Fərhad oğlu
Tahirov Tahir Sahibcan oğlu
Verdiyev Vüqar Mürvət oğlu.

2. Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Abdullayev Nəriman Sadıx oğlu
Umudov Rövşən Ağahüseyn oğlu.

3. Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Qarayev Faiq Əli oğlu
Qiyasov Mirağa Şahbudağ oğlu
Tağıyev Ramiz Cahangir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

# Azərbaycan Respublikasında qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında rəqabətqabiliyyətli qeyri-filiz faydalı qazıntı yataqlarının istismara cəlb edilməsi üçün əlverişli mühit yaradılması məqsədilə **qərara alıram:**

1. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti:

1.1. nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı sahəsində mövcud vəziyyətin təhlil edilməsi, müvafiq bazarın öyrənilməsi və aparılacaq təhlillərin nəticəsindən asılı olaraq bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. beynəlxalq standartlar nəzərə alınmaqla, qeyri-filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı sahəsində milli standartların təkmilləşdirilməsi üçün təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

# Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Biznesinin İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

3. Ləğvetmə prosesində olan müvəkkil kredit təşkilatları vasitəsilə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinə verilmiş güzəştli kreditlər üzrə 189.751.707,0 (bir yüz səksən doqquz milyon yeddi yüz əlli bir min yeddi yüz yeddi) manat həcmində qalıq aktivlər Sahibkarlığın İnkişafı Fondunun nizamnamə fondundan silinsin və tələb hüququ həmin müvəkkil kredit təşkilatlarının aktivlərinə transfer edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın (bundan sonra - Qayda) 1.3.1-ci yarımbəndinə uyğun olaraq, sahibkarlıq subyektlərinin güzəştli kreditlərlə maliyyələşdirilməsi qaydasını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. Qaydanın 1.3.3-cü yarımbəndinə uyğun olaraq, investisiya qoyuluşunun həyata keçirilməsi qaydasını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. iqtisadiyyatın tələbləri nəzərə alınmaqla, Qaydanın 1.3.1-ci yarımbəndində göstərilən güzəştli şərtlərlə digər maliyyələşmə mexanizmlərinin tətbiqi imkanlarını öyrənsin və nəticəsindən asılı olaraq təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Fondun strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368 (Cild I) 4-cü hissəsində "İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Biznesinin İnkişafı Fondunun" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 4-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

7.1. ikinci abzas ləğv edilsin;

7.2. üçüncü abzasda "Sahibkarlığın" sözü "Azərbaycan Biznesinin" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1510 (Cild I) 3-cü hissəsi, 5.2-5.6-cı bəndləri və 6-cı hissəsi ləğv edilsin.

9. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2603 (Cild I) 2.1-ci bəndində "Respublikasının Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə, "Respublikası Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlər üzrə daxilolmalarının (faiz, cərimə və sair)" sözləri "Biznesinin İnkişafı Fondunun dəstək mexanizmləri üzrə yerləşdirilmiş vəsaitindən və fəaliyyətindən əldə olunmuş gəlirlərin (faiz, cərimə, dividend və s.)" sözləri ilə, "güzəştli kreditlər üzrə daxilolmaların" sözləri "dəstək mexanizmləri üzrə yerləşdirilmiş vəsaitdən və fəaliyyətindən əldə olunmuş gəlirlərin" sözləri ilə əvəz edilsin.

10. "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli 1052 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 694 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

11. "Sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1461 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1105 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3.2-ci bənddə "9 (doqquz)" sözləri "5 (beş)" sözləri ilə əvəz edilsin;

11.2. 3.3-cü bəndin birinci abzasında "5 (beş)" sözləri "2 (iki)" sözləri ilə və "4 (dörd)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

11.3. 3.3.3-cü yarımbənd ləğv edilsin;

11.4. 3.3.4-cü yarımbənddə "Turizm Agentliyi" sözləri "Neft Fondu" sözləri ilə əvəz edilsin;

11.5. 3.5-ci bəndin birinci cümləsinə "rəhbərliyi" sözündən sonra "sədr və 4 (dörd) müavin olmaqla" sözləri əlavə edilsin.

12. "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 283 (Cild I) 2-ci və 3-cü hissələri ləğv edilsin.

13. "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1680 (Cild I) 3.2-ci bəndində "Sahibkarlığın" sözü "Azərbaycan Biznesinin" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli 3406 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2115 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondunun, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 260, № 11, maddə 2287 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 263 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 fevral tarixli 3668 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 271 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 977 (Cild I) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın 5.0.3-cü yarımbəndində "Sahibkarlığın İnkişafı Fondunun, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin," sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

19. "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarlara kredit təşkilatları tərəfindən verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2461 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 142 (Cild I); 2024, № 5, maddə 527) aşağıdakı dəyişikliklər edilsin:

19.1. 1-ci, 2-ci, 6-cı hissələrdə və 5.1-ci bənddə "Respublikasının Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə əvəz edilsin;

19.2. həmin Fərmanla təsdiq edilmiş "Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası"nın adında və 1.1-ci bəndində "Respublikasının Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə əvəz edilsin.

20. İqtisadiyyatın qeyri-neft sahələrinin inkişafını təmin edən və ölkə daxilində, eləcə də ölkə xaricində yerli biznesin inkişafı ilə əlaqədar olaraq həyata keçirilən layihələrə investisiya qoyuluşu, o cümlədən bu sahələrdə fəaliyyət göstərən təsərrüfat cəmiyyətlərinin və digər kommersiya təşkilatlarının nizamnamə kapitalındakı iştirak payını (səhmlərini) almaqla müddətli investisiya qoyuluşu fəaliyyəti bu Fərmanın 4.2-ci bəndində nəzərdə tutulan normativ hüquqi aktlar qüvvəyə minənədək "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası tərəfindən müəyyən edilmiş qaydalarla tənzimlənir.

21. Bu Fərman (10-cu hissə istisna olmaqla) 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

22. Bu Fərmanın 10-cu hissəsi bu Fərmanın 4.1-ci bəndində nəzərdə tutulan normativ hüquqi aktla eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

*Fərmana edilmiş əlavələrlə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ürəkdən gələn arzularımı qəbul edin.

Yorulmaz səyləriniz və uzaqgörən siyasətiniz sayəsində Azərbaycan sosial sabitliyinin, iqtisadi davamlılığının və beynəlxalq nüfuzunun möhkəmləndirilməsində heyrətamiz uğurlar əldə edib. Sizin müdrik rəhbərliyinizlə ölkə irimiqyaslı layihələr həyata keçirərək və xalqın rifahını yaxşılaşdıraraq inamla irəli addımlayır.

Qazaxıstan ilə Azərbaycan arasında çoxəsrlik dostluğa və qarşılıqlı dəstəyə əsaslanan strateji tərəfdaşlığın dərinləşdirilməsinə böyük töhfənizi yüksək qiymətləndirirəm.

Ölkələrimiz sıx qarşılıqlı fəaliyyətin daha da inkişafı üçün böyük potensiala malikdir. Əminəm ki, biz birgə səylərimizlə nailiyyətlərimizi artıracaq və Qazaxıstan-Azərbaycan çoxşaxəli dövlətlərarası əlaqələrini məhsuldar əməkdaşlığın yeni səviyyəsinə yüksəldəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ailənizə firavanlıq və qardaş Azərbaycanın mənafeyi naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu, dəyərli Qardaşım!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizi Azərbaycan Respublikasının hərtərəfli inkişafına, ölkənin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunmasına, əhalinin rifahının yüksəldilməsinə, eləcə də beynəlxalq arenada dövlətinizin nüfuzunun möhkəmləndirilməsinə həsr olunmuş misilsiz xidmətlər göstərən görkəmli dövlət və siyasət xadimi, xalqınızın əsl vətənpərvər və fədakar övladı kimi tanıyır, Sizə yüksək hörmət bəsləyirik.

Ölkənizin bütün prioritet sahələrdə əldə etdiyi mühüm nailiyyətlər Azərbaycanın əsas maraqlarına cavab verən, onun böyük məqsəd və hədəflərini tam əks etdirən uzaqgörən və səmərəli siyasətinizin parlaq nəticəsidir.

Biz Özbəkistan ilə Azərbaycan arasında qədimdən mövcud olan tarixi dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinə, çoxtərəfli və uzunmüddətli qarşılıqlı münasibətlərin genişləndirilməsinə verdiyiniz böyük töhfəni yüksək qiymətləndiririk.

Xüsusilə son illərdə Sizinlə aramızda olan qardaşlıq və həmrəylik münasibətlərinin daha da gücləndiyini, yüksəksəviyyəli daimi dialoqların və qarşılıqlı səfərlərin fəallaşdığını böyük məmnuniyyətlə qeyd etmək istəyirəm.

Hörmətli Prezident, zati-aliləri.

Əminəm ki, birgə səylərimiz nəticəsində ölkələrimiz arasında qarşılıqlı etimad, bir-birini dəstəkləmək ruhunda qurulan strateji tərəfdaşlıq münasibətləri dost xalqlarımızın ümumi inkişafı naminə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Əziz qardaşım, Sizi həyatınızın bu yaddaqalan və sevincli günü münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, Uca Allahdan Sizə və ailə üzvlərinizə uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik, xalqınızın rifahı naminə həyata keçirdiyiniz yüksək məsuliyyətli fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq, davamlı yüksəliş və rifah arzulayıram.

*Sonsuz hörmət və ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz dostum!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram. İsrail Dövləti bu əlamətdar günü Sizinlə birgə qeyd edir.

Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadi inkişafın, firavanlığın, sülhün və sabitliyin hökm sürdüyü dinamik inkişaf edən dövlətə çevrilib. Bunun, əlbəttə ki, ən gözəl təcəssümü ölkənizin nümunəvi dini tolerantlıq və anlayış modelidir. Xüsusilə antisemitizmin bütün dünyaya yayıldığı bu dövrdə Azərbaycan birlikdə harmoniyada yaşamaq üçün kollektiv potensialın parlaq nümunəsidir. Bununla da Siz atanız, möhtərəm Heydər Əliyevin əziz xatirəsini uca tutaraq bütün sahələrdə olduğu kimi, onun sülh yolunu da davam etdirirsiniz.

Sizin gözəl qeyd etdiyiniz kimi, multikulturalizm qəbul edilməli olan bir nemətdir. Sizdən bu səmimi münasibəti birbaşa hiss edən Azərbaycanın yəhudi icması xalqlarımızı daha möhkəm birləşdirən canlı körpü rolunu oynayır. Sizin ölkənizlə strateji tərəfdaşlığımız həm İsrail, həm də daha geniş regionumuz üçün sabitliyi təmin edir. Biz bir çox sahələrdə əməkdaşlığımızı inkişaf etdirmək və möhkəmləndirmək üçün Sizinlə işləməyə davam etmək fürsətinə görə dərin minnətdarlığımızı bildiririk.

Gözəl ölkənizə səfərimiz zamanı Sizin və birinci xanım Mehriban Əliyevanın məni və xanım Mixalı səmimi və xoş qarşılamağınızı həmişə xatırlayır və bunu yüksək qiymətləndiririk. Ümid edirəm ki, yaxın gələcəkdə həm Sizi, həm də birinci xanım Mehriban Əliyevanı İsraildə qarşılamaq şərəfinə nail olacağam. Əlbəttə, mən də Sizi növbəti dəfə Davosda keçiriləcək Dünya İqtisadi Forumunda görməyi səbirsizliklə gözləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizi keçən ay COP29-a uğurla evsahibliyi etməyiniz münasibətilə təbrik etmək istərdim. Azərbaycan millətlər birliyində liderdir və bu, gələcək nəsillərin sağlamlığının, təhlükəsizliyinin təmin edilməsinə sadiq olduğunuzun növbəti təzahürüdür.

2024-cü ili yola salıb 2025-ci ili qarşıladığımız vaxtda mən də səmimi-qəlbdən arzu edirəm ki, yeni il Sizin üçün, ailəniz və bütün Azərbaycan xalqı üçün uğur və firavanlıq ili olsun.

*Səmimiyyətlə,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə davamlı sosial-iqtisadi inkişaf yolunda irəliyə doğru inamla addımlamaqda davam edir, regional və beynəlxalq məsələlərdə mühüm konstruktiv rol oynayır. Bu istiqamətdə ardıcıl fəaliyyətiniz Sizə həmvətənləriniz arasında və dünya arenasında yüksək nüfuz qazandırıb.

Ölkələrimiz arasında dostluq münasibətlərinin və əməkdaşlığın hərtərəfli genişləndirilməsinə Sizin daimi diqqətinizi xüsusi qeyd etmək istərdim. Möhkəm siyasi iradə sayəsində biz bu il Tacikistan-Azərbaycan qarşılıqlı münasibətlərini keyfiyyətcə yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik. Qardaş xalqlarımızın köklü maraqlarına uyğun olaraq bu prosesin gələcəkdə də inkişaf etdirilməsinə hazırıq.

Dostluğumuzun və şəxsi münasibətlərimizin etimada əsaslanan xarakterini yüksək qiymətləndirirəm. Əminəm ki, biz birgə səylərlə gələcəkdə də ölkələrimizin çoxtərəfli əlaqələrini yeni quruculuq nümunələri ilə zənginləşdirəcək və əməkdaşlığımızın daha da möhkəmlənməsinə nail olacağıq.

Əziz İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Səmimiyyətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının dünya proseslərinin fəal iştirakçılarından birinə çevrildiyini məmnunluqla qeyd edirəm.

Dünyada ən böyük tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ilk dəfə olaraq qardaş ölkədə keçirilməsi və yüksək səviyyədə təşkil edilməsi faktı bizi sevindirir.

Əminəm ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq ölkələrimizin xalqlarının rifahı naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ailə səadəti və ali dövləti fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, cansağlığı, şəxsi həyatınızda və ali dövləti fəaliyyətinizdə çoxlu uğurlar arzulayıram.

Əminəm ki, bizim dost ölkələrimiz bundan sonra da ümumi əlaqələrimizin yaxşılaşdırılmasına və əməkdaşlığın yeni formalarının tapılmasına çalışacaq. Ölkələrimizin malik olduğu iqtisadi imkanlar daha yaxşı və daha məzmunlu əməkdaşlığı təşviq edə bilər.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizə cansağlığı və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırım.

Azərbaycan Macarıstan üçün böyük əhəmiyyət daşıyır. Mən şadam ki, əlaqələrimiz ötən illər ərzində möhkəmlənməkdə davam edib və müstəsna əhəmiyyət kəsb edən strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Cənab Prezident, əminəm ki, Sizin fədakarlığınız olmadan bizim ümumi uğurlarımız mümkün olmazdı. Fürsətdən istifadə edərək dəstəyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Ölkələrimiz arasında əməkdaşlığın xüsusilə enerji və su idarəçiliyi kimi əsas sahələrdə daha da genişlənməsi üçün böyük potensialı var.

Sizi əmin edirəm ki, gələcəkdə əməkdaşlığımızı dərinləşdirmək və ümumi məqsədlərimizə nail olmaq üçün mənim şəxsi dəstəyimə və hökumətimin dəstəyinə arxayın ola bilərsiniz.

Sizə möhkəm cansağlığı, mühüm önəm kəsb edən vəzifələrinizin həyata keçməsində böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim. Sizə möhkəm cansağlığı, əmin-amanlıq və uğurlar arzulayıram.

Azərbaycan Respublikasının inkişafında və rifahında Sizin xidmətiniz əvəzolunmazdır.

Eyni zamanda Gürcüstan ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın güclənməsində Sizin şəxsi töhfələrinizi minnətdarlıq hissi ilə qeyd etmək istərdim.

Şadam ki, ölkələrimiz arasında mövcud olan ənənəvi möhkəm dostluğumuz və strateji tərəfdaşlığımız bütün sahələrdə uğurla inkişaf edir. İnanıram ki, çoxşaxəli və qarşılıqlı faydalı əlaqələrimizi ölkələrimizin və regionun rifahı naminə gələcəkdə də uğurla davam etdirəcəyik.

Zati-aliləri, Sizi bir daha səmimi-qəlbdən təbrik edir və Sizə ən dərin ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırırıq. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, hər zaman yüksək əhvali-ruhiyyə, xalqınızın davamlı sevgi və dəstəyini arzu edirik.

Bu il Sizin uzaqgörən liderliyinizin və Azərbaycanın tərəqqisi naminə mühüm fədakarlığınızın daha bir sübutunun şahidi olduq. Azərbaycanın COP29 sədrliyi ölkənin iqlim dəyişmələri, qlobal əməkdaşlıq kimi məsələlərdə liderlik bacarığını, beynəlxalq dialoq və fəaliyyətdə rolunu bir daha nümayiş etdirdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə təşəkkürümüzü bildiririk. Bizə və missiyamıza olan inamınızın nəticəsidir ki, mərkəz 2024-cü ildə də böyük nailiyyətlər əldə etdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin getdikcə genişlənən yüksəksəviyyəli beynəlxalq fəaliyyəti Azərbaycanın mühüm ölkə kimi nüfuzunu artırmaqda davam edir, ona yeni dost və tərəfdaşlar qazandırır.

Zati-aliləri, doğum gününüz münasibətilə Sizi bir daha ürəkdən təbrik edirik, Azərbaycan naminə həyata keçirdiyiniz uzaqgörən siyasətinizdə Sizə yeni-yeni uğurlar diləyirik. Əminik ki, Sizin rəhbərliyinizlə xalqınız qarşıdakı illərdə daha böyük nailiyyətlər qazanacaqdır. Sizinlə 2025-ci il martın 13-15-də keçirilməsi nəzərdə tutulan XII Qlobal Bakı Forumunda görüşməyi səbirsizliklə gözləyirik.

*Ən yüksək ehtiramımızla,*

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Mariya Fernanda ESPİNOZA,***
***BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri,***
***2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri***

***Tarya HALONEN,***
***2000-2012-ci illərdə Finlandiyanın Prezidenti***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***İv LÖTERM,***
***2009-2011-ci illərdə Belçikanın Baş naziri***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin xarici işlər naziri***

***Jan BADERŞNEYDER,***
***"Müasir Köləliyə Son Qoyaq" Qlobal Fondunun İdarə Heyətinin sədri, "ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Çau Çak VİNQ,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qlobal Dərnəyinin həmsədri, Çinin Kingold Qrupunun sədri***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***David PAN,***
***Çinin Tsinxua Universiteti Şvarzman kollecinin baş dekanı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə Azərbaycanın qarşıya qoyduğu bütün məqsədlərə nail olmasını, bundan sonra da sürətlə inkişaf etməsini diləyir, Sizə ən xoş arzularımı çatdırıram.

Əminəm ki, qardaş xalqlarımız arasında mövcud olan sıx dostluq və əməkdaşlıq bundan sonra da hərtərəfli möhkəmlənəcəkdir.

Mən bizim münasibətlərimizi çox yüksək qiymətləndirirəm və Sizinlə olan bütün görüşlərimizi həmişə səmimi hisslərlə xatırlayıram.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və böyük müvəffəqiyyətlər, ailənizə xoşbəxtlik və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və rifah arzulayıram.

*Səmimi diləklərlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz müdrik lider kimi uzun illərdir ölkənin möhkəmləndirilməsində böyük nəticələr əldə edərək Azərbaycan xalqını tərəqqi yolu ilə irəli aparırsınız. Dövlətin ahəngdar inkişafı prosesi Sizin ən yüksək rəhbər nüfuzunuza, siyasi müdrikliyinizə, uzaqgörənliyinizə, problemləri müxtəlif tərəflərdən görmək və onların optimal həllini tapmaq bacarığınıza əsaslanır.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasında Sizin Rusiya-Azərbaycan strateji tərəfdaşlığının möhkəmlənməsinə, o cümlədən parlament xətti ilə çoxplanlı əməkdaşlığa verdiyiniz əvəzsiz töhfəni xüsusi qeyd edirlər.

Rusiya və Azərbaycan qanunvericiləri arasında dialoqa göstərdiyiniz diqqətə görə Sizə minnətdaram. Əminəm ki, Sizin dəstəyinizlə bu mühüm qarşılıqlı fəaliyyət kanalı həmişə ikitərəfli müttəfiqlik münasibətlərinin bütün kompleksinin intensivləşdirilməsi üçün səmərəli vasitə olaraq qalacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə uğurlar arzulayıram. Qoy təcrübə və biliyiniz, qətiyyət və məqsədəyönlülüyünüz Azərbaycan Respublikasının rifahı naminə səmərəli fəaliyyətiniz üçün həmişə etibarlı bünövrə rolunu oynasın!

Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Türk Dövlətləri Təşkilatının Katibliyi adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycan Respublikası Sizin liderliyiniz və müdrik siyasətiniz sayəsində dünyadakı nüfuzunu daha da möhkəmləndirmiş, beynəlxalq sülh, sabitlik və əmin-amanlığın təminatına ciddi töhfə verməklə regional siyasətin formalaşdırılmasında mühüm rol oynayan dövlətə çevrilmişdir.

Bu yaxınlarda Bişkek şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə Görüşü zamanı Sizinlə görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsində mühüm rol oynadığını vurğulayır, təşkilatın inkişafı məqsədilə göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının - TÜRKSOY-un Baş Katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin yürütdüyü müdrik və sülhsevər siyasət nəticəsində Azərbaycan Respublikası davamlı surətdə inkişaf edir, dünya ölkələri arasında tutduğu layiqli yerini daha da möhkəmləndirir.

Türk dünyasının aparıcı ölkələrindən biri olan qardaş Azərbaycanın zəngin mədəni irsinin TÜRKSOY təşkilatı vasitəsilə dünyada tanıdılması istiqamətində aparılan işlərə verdiyiniz daimi dəstək bizi daha da ruhlandırır.

Əmin ola bilərsiniz ki, Azərbaycan və TÜRKSOY arasında mövcud olan mədəni əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edəcək, üzv ölkələrimizdə və dünyanın müxtəlif ölkələrində həyata keçirəcəyimiz tədbirlərlə türk xalqları arasında mədəni inteqrasiyanın və həmrəyliyin daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, TÜRKSOY-un fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası genişmiqyaslı transformasiyaların, fəal sosial-iqtisadi inkişaf prosesinin həyata keçirilməsində, islahatların aparılmasında, davamlı iqtisadi artımın təmin edilməsində, habelə əhalinin həyat səviyyəsinin yüksəldilməsində böyük nailiyyətlər qazanmaqda davam edir.

Sizə möhkəm cansağlığı, uğurlar, Azərbaycan Respublikasına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Türk dünyasının fəxri və qalib sərkərdəsi!

Sizi doğum gününüz münasibətilə Türk Dünyası Mediatorlar Birliyi adından səmimi-qəlbdən təbrik edirəm. Türkdilli dövlətlərin mediasiya birlikləri və mediatorları adından Sizə, ailə üzvlərinizə uzun ömür, cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Cənab Prezident, Sizin Azərbaycan Respublikasında bütün istiqamətlərdə apardığınız islahatlar, o cümlədən mediasiya islahatları nəinki ölkə daxilində, eyni zamanda dünya miqyasında və türkdilli dövlətlərdə də müsbət əks-səda doğurur və öyrənilir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasındakı tarixi imzanız təkcə türk dünyasının deyil, bütün dünyanın tarixinə qızıl hərflərlə yazılıb.

Sizin barənizdə ən xoş sözləri, ən yüksək fikirləri cümlələrlə ifadə etməkdə çox çətinlik çəkirik. Sizinlə, gördüyünüz işlərlə qürur duyuruq. Dünya səviyyəsində qəbul olunan liderlərdən biri kimi hər zaman Sizin izinizlə, getdiyiniz yolla addımlamaq bizim üçün böyük şərəf və iftixardır.

Gördüyünüz işlər sayəsində Azərbaycan beynəlxalq mərkəzə çevrilir. Biz hər zaman Azərbaycanımızı türk dünyasının əsas mərkəzlərindən biri kimi görmüşük. Məhz bu səbəbdən Türk Dünyası Mediatorlar Birliyinin 2024-cü il 28 noyabr-3 dekabr tarixlərində Ankara şəhərində keçirilən Beynəlxalq Qurultayında 2025-ci ildə türkdilli dövlətlərin mediatorlarının Beynəlxalq Qurultayının Azərbaycanda keçirilməsi qərara alınmışdır. Qurultay çərçivəsində 10 ölkəni təmsil edən 400 mediatorun iştirakı ilə Azərbaycan Respublikasının Mediasiya Şurası ilə birlikdə təşkil etdiyimiz Qarabağ Gecəsinin açılışı Sizin sözlərinizlə başlamış və rəhbərliyinizlə işğaldan azad edilmiş ərazilər uğrunda şəhid olan qardaşlarımızın, eyni zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsi ehtiramla yad edilmiş, Ulu Öndərin müdrik fikirləri ekranda səsləndirilmişdir. Həmçinin Ümummilli Lider Heydər Əliyevin Ankara şəhərində adını daşıyan parkda ucaldılmış abidəsi qurultay iştirakçıları tərəfindən ziyarət edilmiş, xatirəsi hörmət və ehtiramla anılmışdır.

Bunları qeyd etməkdə məqsədim odur ki, biz türk dünyasının liderlərindən olan Heydər Əliyevin xatirəsini hər zaman uca tuturuq, Azərbaycan, türk dünyası, bütün dünya üçün gördüyü tarixi işlərə görə onun xatirəsini hörmət və ehtiramla anırıq. Bu isə bizim keçmişimizə, dahi şəxsiyyətlərimizə dəyər verməyimizin bariz nümunəsidir. Biz Ümummilli Lider Heydər Əliyevin xatirəsini bütün türkdilli dövlətlərə səfərlərimiz zamanı böyük hörmət və ehtiramla anmaqla tariximizə sədaqətimizi hər zaman göstərmişik.

Sizi əmin etmək istəyirəm ki, biz hər zaman Sizin tutduğunuz yola, apardığınız siyasətə uyğun olaraq fəaliyyətimizi davam etdirəcəyik. Siz Azərbaycanda yüzlərlə ilklərin müəllifisiniz. Məhz Sizin təşəbbüsünüzlə hazırlanan və imzaladığınız Azərbaycan Respublikasının "Mediasiya haqqında" Qanunu və bu qanundan irəli gələrək ölkədə aparılan islahatlar çərçivəsində mediasiya institutunun inkişafı, Azərbaycan mediasiyasının beynəlxalq aləmdə örnək kimi qəbul olunması bizi qürurlandırır.

Cənab Prezident, biz Sizinlə fəxr edirik.

Allah Sizi, ailənizi və Azərbaycan xalqını qorusun!

*Dərin hörmət və ehtiramla,*

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

Müzəffər Ordumuz 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və hazırda Sizin rəhbərliyinizlə Qarabağ bölgəsində bərpa işləri sürətlə həyata keçirilir, ölkəmizin iqtisadi gücü artır.

Bu şanlı Qələbə Sizin düşünülmüş siyasətiniz, qətiyyətli və ardıcıl diplomatik addımlarınız nəticəsində mümkün oldu. Eyni zamanda Sizin ordu quruculuğu siyasətiniz dünyaya nümayiş etdirdi ki, bu gün Azərbaycan həm iqtisadi, həm də hərbi baxımdan regionun ən güclü və önəmli ölkələri sırasındadır. Azərbaycanın D-8-ə qəbul olunması iqtisadi artımın gücləndiyini təsdiq edir.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə bu gün Azərbaycan beynəlxalq aləmdə sabit, öhdəsinə düşən vəzifələri vaxtında yerinə yetirən ölkə kimi qəbul olunur. COP29 konfransının Azərbaycanda yüksək səviyyədə keçirilməsi bunun əyani sübutudur.

Sizin digər sahələrdə həyata keçirdiyiniz konstruktiv və praqmatik siyasət ölkəmizin inkişafına, insanların həyatına öz bəhrələrini verməkdədir. Əminəm ki, Sizin siyasətiniz Azərbaycana daha böyük uğurlar və qələbələr qazandıracaqdır.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, cansağlığı arzulayır, Azərbaycanın gələcəyi naminə apardığınız siyasətdə böyük uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim və Sizə möhkəm cansağlığı, xoşbəxtlik, doğma Azərbaycanın gələcəyi naminə bundan sonra da nailiyyətlər arzulayım.

Doğma Şuşanın azad edildiyi həmin unudulmaz gündən, bütün dünyanın Azərbaycan Ordusunun Qələbəsi barədə xəbər tutmasından və ölkənin ərazi bütövlüyünün bərpasından daha bir il ötdü. Bu illər ərzində ən çətin tarixi dövrdə Azərbaycan xalqı öz suveren maraqlarını inamla və ardıcıl şəkildə qoruyub, müdafiə qabiliyyətini və beynəlxalq mövqelərini möhkəmləndirib, iqtisadi potensialını artırıb. Bütün bu proseslərin arxasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı olaraq Sizin qətiyyətli mövqeyiniz və dəmir iradəniz hiss olunur.

Ölkədə vüsət alan böyük quruculuq işləri Sizin bütün dünyadakı soydaşlarınızın, dostlarınızın, tərəfdarlarınızın qürur mənbəyidir və onların diqqət mərkəzindədir. Bu proses gələcəyə inamla baxmağa və Sizin rəhbərlik etdiyiniz Azərbaycanın ən parlaq, genişmiqyaslı nailiyyətlərinin hələ irəlidə olduğunu deməyə imkan verir.

Möhtərəm İlham Heydər oğlu, qoy qarşıdan gələn il Sizə və bütün Azərbaycan xalqına rifah, tərəqqi gətirsin!

Sizə və yaxınlarınıza xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Natiq AĞAMİROV,***
***Rusiya Notariuslar Assosiasiyasının sədri,***
***Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, professor***

# Zamanın seçdiyi və zamandan uca lider



**Müstəqillik tariximizdə ilk dəfə olaraq ölkəmizin bütün ərazisində fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri sadəcə seçki deyil, sevinc, şadyanalıq, birlik, bərabərlik günü oldu. Həmin hadisədən ötən sonrakı aylarda həyata keçirilən fəaliyyətlərin bəzisinə qısa nəzər yetirmək onların nə qədər böyük əhəmiyyət daşıdığını göstərir.**

***Milli iradə hər şeydən üstündür!***

Növbədənkənar prezident seçkiləri müstəqillik illərində ən çox seçicinin iştirakı ilə tarixə yazıldı. Həmin gün Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə Xankəndidə səs verdi. Seçki Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində döyüş meydanında, siyasi-diplomatik, informasiya savaşında düşmənlər üzərində qazandığı zəfərin, demokratik yolla, millətin səsi ilə təsdiqi oldu. Bu Zəfər seçkisi idi. Millət onun başını uca edən, üstündəki ləkəni silən və başlıca hədəfinə çatdıran İlham Əliyevə səs verdi. Milli iradə üstün gəldi.

***Yeni hədəflər nədir?***

Yeni mərhələdə qarşıda dayanan hədəfləri Prezident İlham Əliyev fevralın 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimindəki nitqində açıqladı: ordunu, Silahlı Qüvvələri daha da gücləndirmək, güclü hərbi sənaye kompleksini yaratmaq, sərhədləri, milli təhlükəsizliyi etibarlı təmin etmək, ideoloji risklərdən qorunmaq, gənc nəsli vətənpərvərlik, milli ənənələr ruhunda tərbiyə etmək, milli birliyi möhkəmləndirmək, milli-mənəvi dəyərlərə sadiq olmaq, ailə tərbiyəsi, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək, texnoloji inkişaf, bərpaolunan enerji, nəqliyyat sahəsində işləri davam etdirmək, Türk Dövlətləri Təşkilatını gücləndirmək, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında fəal iştirak etmək, xarici siyasət istiqamətində yeni üfüqlər açmaq, dünyanı narahat edən problemlərin həllində aktiv, islamofobiyaya qarşı mübarizədə ön sıralarda, neokolonializm əleyhinə mübarizə aparan ölkələrin yanında olmaq, Azərbaycana qarşı atılan addımlara adekvat cavab vermək və sairə. Dövlət başçısı dedi ki, bizim ailəmiz türk dünyasıdır.

Bu vəzifələrin yerinə yetirilməsindən ötrü geniş fəaliyyətə başlandı.

***Xankəndidə Novruz tonqalı***

Soyqırımı günündə Xocalı şəhərində soyqırımı qurbanlarının xatirə kompleksinin təməlini qoymaqla Prezident İlham Əliyev millətin arzularından birini yerinə yetirdi, indiki və gələcək nəsillərin tarixini unutmamalarından ötrü yol xəritəsi verdi. Millət bu hadisəni qürur hissi ilə qarşıladı. Artıq Xocalı soyqırımı qurbanlarının ruhu şaddır.

Prezidentin Xankəndidə Zəfər meydanında Novruz tonqalı qalaması da böyük məna daşıyırdı. Xankəndi indiyədək belə bir Novruz tonqalı görməmişdi. Bu tonqalda Ermənistanın "miatsum" və separatçılıq niyyətləri yandırılıb külə döndərildi. Qürurlu tarix yaradıldı. Milli dəyərlərimiz Xankəndiyə qaytarıldı. Müstəqillik illərində ilk dəfə olaraq tək sağlam can kimi Vətənimizin hər bir guşəsində İlaxır çərşənbə və Novruz bayramı keçirildi.

***Böyük qayıdış proqramı uğurla həyata keçirilir***

İşğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işləri, Böyük qayıdış proqramı uğurla həyata keçirilir. Heç bir dövlətin və beynəlxalq təşkilatın yardımı olmadan qısa müddətdə Zəngilan, Cəbrayıl, Laçın, Füzuli, Şuşa və Kəlbəcərdə dövlət büdcəsi hesabına tikilmiş müasir evlərə keçmiş məcburi köçkünlərin planlı şəkildə qaytarılması dövlətimizin gücünü göstərir. Artıq Şuşa, Laçın və digər şəhərlərdə toylar keçirilir, uşaqlar doğulur.

Təsis etdiyi şəhər günlərində dövlət başçısı sakinlərlə görüşür, bir sıra yeni müəssisələr açılır və infrastruktur layihələrinin təməli qoyulur. Onlarla faktdan yalnız birinə diqqət yetirək. Cəbrayıl Şəhəri Günü ərəfəsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilan şəhərlərinə rəmzi məna daşıyan səfərləri müəyyənləşdirilmiş ümumi strateji xəttin tərkib hissəsi idi. Ona görə rəmzi məna daşıyırdı ki, dövlət müstəqilliyi bərpa edildikdən sonra xalqımız daim şəhər, rayon və kəndlərimizin işğal günlərini acıyaraq xatırlayıb, dədə-baba torpaqlarına nə vaxt qayıdacağını düşünüb. Bu milli istəyi yerinə yetirən Prezident İlham Əliyev tariximizdə ilk dəfə olaraq millətimizin həyatına bayram ovqatlı şəhər günlərini gətirib. Şəhər günləri ərəfəsində həmin rayonlara səfər edib. Ona görə ümumi strateji xəttin tərkib hissəsidir ki, dövlət başçısı işğaldan azad edilmiş ərazilərin ən müasir şəkildə - "ağıllı kənd", "ağıllı şəhər" kimi qurulmasını, qeyri-neft sektorunun inkişafını irəli sürüb və bu iş planlı olaraq davam etdirilir. Araz Vadisi İqtisadi Zonası Sənaye Parkında bir neçə fabrik və zavodun təməlinin qoyulması, tam orta məktəbin, yeni su-elektrik stansiyasının açılışı, yaşayış massivinin, istirahət mərkəzinin tikintisi ilə tanışlıq həmin məqsədin yerinə yetirilməsinə yönəlib. Bu, eyni zamanda turizmin inkişafına imkanların açılması, iş yerlərinin yaradılması və insanların rifahının yaxşılaşdırılması deməkdir. Prezident Cəbrayıldakı nitqində millətə daxili enerjisindən güc almağını və özünə güvənməyini belə tövsiyə etdi: "Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında".

Dövlət başçısı işğaldan azad edilmiş ərazilərə qədim və zəngin Azərbaycan elmi, təhsili və mədəniyyətini qaytarır. İnsanlar yeni məktəblərin, mədəniyyət ocaqlarının tikildiyini görürlər. Şagirdlər müasir məktəblərə gedirlər. Qarabağ Universitetinin fəaliyyətə başlaması böyük tarixi hadisədir. İşğalçı Ermənistan tərəfindən dağılmış tarix və mədəniyyət abidələri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun hesabına bərpa edilir.

***Quruculuq işləri bütün ölkə ərazisində aparılır***

Torpaqların düşmən tapdağından xilas edilməsindən qısa müddət keçməsinə, başlıca diqqətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsinə yönəldilməsinə baxmayaraq, ölkənin hər bir yerində geniş tikinti-quruculuq işləri aparılır. Prezident İlham Əliyevin bir neçə rayonda infrastruktur obyektlərini açması və yenilərinin təməlini qoyması işlərin planlı şəkildə aparıldığını göstərir. Məsələn, Hacıqabul rayonunda yenidən qurulan və adından Yuxarı ifadəsi çıxarılmış Şirvan su kanalının təməlinin qoyulması bu qəbildəndir. Kanal istifadəyə verildikdən sonra ölkədə kənd təsərrüfatının inkişafı genişlənəcək, şəxsi təsərrüfatlar canlanacaq, məşğulluq artacaq, vətəndaşların rifah halı daha da yaxşılaşacaq, ölkə iqtisadiyyatının neftdən asılılığı azalacaq və qeyri-neft sektorunun çəkisi artacaqdır. Azərbaycan xarici bazarlara daha geniş çıxış əldə edəcək və ölkəyə əlavə vəsaitlər daxil olacaqdır.

***Parçalanmış dünyanı necə xilas etməli?***

Prezident İlham Əliyev bəzi dövlətlərin siyasəti ucbatından parçalanmış və qarşıdurmanın artdığı dünyada islam dini əleyhinə güclənən fəaliyyətlərə qarşı prinsipial mövqeyini qəti şəkildə ortaya qoyub. Mart ayının əvvəllərində Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" adlı beynəlxalq konfransa göndərdiyi məktubundakı fikirləri gerçəklikləri həmin dairələrin üzünə çırpması idi: "Müsəlmanların hisslərini təhqir edən bu cür təzahürlərlə mübarizə aparmaq, cinayətkarları məsuliyyətə cəlb etmək əvəzinə, həmin ölkələrin hökumətləri islamofob əhvali-ruhiyyəni daha da qızışdırır, müsəlmanlara qarşı təqibləri təlqin edir və bu kimi mövzuları davamlı olaraq



gündəlikdə saxlamağa çalışırlar. Təəssüflər olsun ki, özlərini demokratik adlandıran bəzi Qərb təsisatları da antiislam fəaliyyətini həyata keçirirlər".

Həmin dövlətlərdən fərqli olaraq Azərbaycan bütün dinlərin və etnik qrupların tək bayraq altında tək vətəndə, tək dövlətdə bir millət kimi bərabər yaşadığı bir ölkədir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumunda etdiyi nitqində Prezident İlham Əliyev qarışıq, parçalanmış, qarşı-qarşıya dayanan, münaqişələrlə dolu dünyanın bərpası istiqamətində Azərbaycanın nümunə olduğunu, özünün modelini yaratdığını göstərdi. Azərbaycanın dövlət suverenliyinin tam bərpa edilməsindən sonra ilk dəfə keçirilən bu forum Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq toplantılarla bir cərgədə dayanır, coğrafiyası getdikcə genişlənir və nüfuzu artır. Bu o deməkdir ki, sürətlə dəyişən dünyada Azərbaycan dövləti beynəlxalq məsələlərin müzakirə edildiyi məkanlardan biridir, dünya işlərində rolu artır və mövqeləri daha da möhkəmlənir.

Sülh və Əməkdaşlıq naminə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Prezident İlham Əliyevin nitqi də dünyanın xilası yolunu göstərdi. Bu, sülh və əməkdaşlıq yoludur. Prezident İlham Əliyev qan tökülməsinə qarşı qətiyyətlə çıxan dövlət başçısıdır.

Azərbaycan bir neçə il əvvəl bəzi dövlətlərin əsgərlərini ölümdən qurtarmışdı. Mart ayında NATO-nun baş katibi Yens Stoltenberqin səfəri zamanı Prezident İlham Əliyev bildirdi ki, Əfqanıstanı ən gec tərk edən ölkənin Azərbaycan olması o deməkdir ki, Azərbaycan NATO qüvvələrinin xilas edilməsində müstəsna rol oynayıb. Yens Stoltenberq etiraf etdi ki, Azərbaycanın Əfqanıstanı sonuncu tərk edən ölkə olması NATO qüvvələrinin təhlükəsiz çıxmasında müstəsna rol oynayıb ki, bu da Prezident İlham Əliyevin müstəsna xidmətidir.

***"Yaşıl enerji"də etibarlı körpü***

Prezident İlham Əliyev dünyanı narahat edən ətraf mühitin qorunması məsələlərinin həllində Azərbaycanı nümunə ölkə halına gətirib. Mart ayının əvvəllərində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına verdiyi müsahibəsində enerji təhlükəsizliyi və iqlim dəyişikliyi məsələlərinin real vəziyyətini, yaranmış şəraitdən çıxış yollarını göstərdi. Ötən illər ərzində Azərbaycan dövləti "Cənub qaz dəhlizi"ni reallaşdırmaqla bu məsələnin gerçəkləşdirilməsinə bədbin yanaşanların fikirlərinin yanlış olduğunu göstərmiş, geniş əməkdaşlıq qurmuş, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynamışdı. Bu isə Azərbaycanın beynəlxalq mövqelərini gücləndirmiş, onunla əməkdaşlıq etmək istəyən dövlətlərin sayını artırmışdı.

Ətraf mühitin vəziyyətinə görə neft və qaza malik ölkələrin günahlandırılmasının düzgün olmadığını, ətraf mühitin mühafizəsi və "yaşıl enerji"yə keçid məsələsi ilə necə məşğul olduqlarına görə onların qiymətləndirilmələrinin vacibliyini bildirən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacarıb. Məlum olduğu kimi, çarizm və sovet dövrlərində Azərbaycanın nefti və qazı imperiya mərkəzi tərəfindən sorulub aparılır, yerində mazutlu gölməçələr qalırdı. Əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu yeni neft strategiyasının uğurla həyata keçirilməsi bu şəraiti kökündən dəyişdirmiş, Azərbaycan digər ölkələrin üzləşdiyi təzahürlərlə qarşılaşmamışdı. Təbii sərvət olan neftin və qazın milli sərvətə çevrilməsi, ədalətli paylanması hesabına ölkə yenidən qurulmuş, əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdı.

Bu mövqe aprel ayında ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda 30 ölkədən 64 şəxsin iştirakı ilə keçirilən beynəlxalq forumda Prezident İlham Əliyevin cavablarında bir daha bəyan edildi. Prezident İlham Əliyevin Almaniyaya səfəri zamanı keçirdiyi görüşlər Azərbaycanın iqlim dəyişikliklərinin ağır nəticələrinin aradan qaldırılmasına töhfələrini verməyə hazır olduğunu göstərdi. Almaniyanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın böyük rol oynadığını qəbul etməsi və buna əməkdaşlığın maddi təməllərindən biri kimi baxması, Azərbaycanın panavropa qaz təchizatçısı kimi qiymətləndirilməsi Prezident İlham Əliyev siyasətinin qəbul edilməsi, Avropa üçün vacib ölkə olması demək idi.

Bakı Enerji Həftəsində də Prezident İlham Əliyevin nitqindən çıxarılası çoxlu dərslər vardır. "Euronews" televiziyasında "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində iyul ayında keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" - "Caspian Power" sərgilərindən yayımlanan reportajda Prezident İlham Əliyevin müsahibəsi dövlətimizin ənənəvi və bərpaolunan enerji sahələrində siyasətinin mahiyyətini bir daha göstərdi. Müsahibədə Prezident münaqişələrin, müharibələrin və qarşıdurmaların artdığı dünyaya örnək olan və gələcəyə işıq tutan çox vacib belə bir məsələni söylədi: "... evsahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər".

Dövlət başçısının bu fikirləri bir-biri ilə didişən dövlətlər və şirkətlər üçün dərsdir. Öyrəniləsi çox şey vardır.

***Dünyanın ürəyinə - Avrasiyaya gedən yol Azərbaycandan keçir***

Azərbaycanın dünya siyasətində rolunu artırmaqdan ötrü Prezident İlham Əliyevin istifadə etdiyi platformalardan biri Şanxay Əməkdaşlıq təşkilatıdır. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri məsələsində qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsidir. ŞƏT-in iyul ayında keçirilən toplantısına Prezident İlham Əliyevin ikinci dəfə dəvət edilməsi şəxsi nüfuzu və əməkdaşlıqla bağlı idi. "ŞƏT plyus" formatındakı toplantıda çıxışında ən vacib məsələlərdən biri kimi həyata keçirilən beynəlxalq layihələrin nəticəsində Azərbaycanın nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsini və dünya siyasətində yerinin möhkəmləndirilməsini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib, Orta dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini artırıb, Azərbaycan, həmçinin "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır.

Toplantı çərçivəsində Prezident İlham Əliyevin keçirdiyi görüşlər və "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə Bəyannamənin imzalanması xarici siyasət fəaliyyətinin sistemli şəkildə həyata keçirildiyini göstərir. Bu sənəd həm iki ölkə, həm Cənubi Qafqaz, həm də dünya məsələləri baxımından qəti mövqeləri özündə əks etdirir. Azərbaycan uzun illər boyu Çini narahat edən, bədənində qara yara olan "Tayvan məsələsi"ndə Pekini müdafiə edir, "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi kimi tanıyır, istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxır və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, Çinin birləşdirilməsi səylərini dəstəkləyir. Bu o deməkdir ki, Çin ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi məsələsində əlavə siyasi-diplomatik güc alır. Çin Azərbaycanın təklif etdiyi sülh gündəliyini qətiyyətlə müdafiə edir və qarşıdurmanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları səmərəsiz sayır.

44 günlük Vətən müharibəsində ölkəmizin haqq işini siyasi-diplomatik, mənəvi-psixoloji və informasiya baxımından birmənalı müdafiə edən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif və Prezident İlham Əliyevin üçtərəfli görüşü qardaşlığı və ortaq maraqları göstərdi.

***Qardaşlar müqəddəs Azərbaycan torpağındadırlar: Qarabağ Bəyannaməsi***

Tarixin təcrübəsi göstərir ki, türk xalqları milli və mənəvi köklərinə dayanaraq yeniləşəndə qüdrətli olurlar. Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində yeni dövrdəki hədəfləri müəyyənləşdirərkən demişdi ki, türk dünyası bizim ailəmizdir.

Prezident seçildikdən sonra İlham Əliyevin ilk rəsmi səfərini qardaş Türkiyə Cümhuriyyətinə etməsi Azərbaycan dövlətinin xarici siyasətində Türkiyə və türk dövlətlərinə verdiyi önəmi göstərdi. Dövlət rəhbəri Ankarada mətbuata bəyanatında türk dünyasının birləşməsi və güclənməsinin əhəmiyyətini belə ifadə etdi: "…Türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək. Bu gün bu məsələ ilə də bağlı geniş müzakirə aparılmışdır. Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşü hörmətli Prezidentin qeyd etdiyi kimi, bu ilin iyul ayında keçiriləcəkdir. Eyni zamanda müşahidəçi statusunda olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti də mənim dəvətimlə bu görüşdə iştirak edəcək və bu, bizim ümumi işimizə, türk xalqlarının birliyi işinə növbəti güclü təkan verəcək".

Digər türk dövlətləri ilə də əməkdaşlıq genişləndi. Mart ayında Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri, imzalanan sənədlər, Füzuli və Şuşaya gediş, mətbuata verilən bəyanatlar münasibətlərin yüksək səviyyəsini göstərdi. Prezident İlham Əliyev Qazaxıstanı Azərbaycan üçün qardaş ölkə, strateji tərəfdaş və müttəfiq adlandırdı. Dövlət başçısı işğaldan azad olunmuş Füzuli şəhərində Prezident Kasım-Jomart Tokayevin şəxsi təşəbbüsü ilə inşa edilən Qazaxıstanın xalq musiqiçisi, bəstəkarı Saqırbayulu Kurmanqazının adını daşıyan Uşaq Yaradıcılıq Mərkəzini dostluğun və qardaşlığın mərkəzi, Azərbaycana qardaş köməyi, hədiyyəsi və azad edilmiş ərazilərin bərpasına dəstəyi kimi qiymətləndirdi. Prezident Kasım-Jomart Tokayevin "müqəddəs Azərbaycan torpağında olduğumuz ilk dəqiqədən ev sahibinin səmimi münasibətini hiss etdik. Bu dövlət səfəri dövlətlərimiz arasında əməkdaşlığın inkişaf perspektivləri nöqteyi-nəzərindən çox mühümdür" deməklə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qazandığı qələbəni böyük tarixi nailiyyət, uzun illər ərzində Azərbaycan rəhbərinin dövlət suverenliyinin bərpasına yönəlmiş, son nəticədə tarixi həqiqətin bərpası ilə nəticələnən səylərinin qanunauyğun yekunu olaraq qiymətləndirməsi bu qələbənin bütün türk dünyasına başucalığı gətirdiyini göstərdi.

Türk Dövlətləri Təşkilatının fəaliyyətində mühüm səhifəni Şuşada keçirilən qeyri-rəsmi görüş təşkil etdi. Görüş ərəfəsində iyulun əvvəlində Prezident İlham Əliyev 30 ildən çox müddətdə millətin həsrət qaldığı Xocalı hava limanına getdi və Qarabağ Universitetində görülən işlərlə tanış oldu. Bu, dövlət başçısının elm və təhsilə qayğısının nümunəsidir.

Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Cümhuriyyətinin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin iştirakı ilə keçirilən Zirvə görüşü tarixi əhəmiyyət daşıdı. İlk növbədə ona görə ki, 2023-cü ildə Azərbaycan dövləti bütün ərazisində suverenliyini tam bərqərar etdikdən sonra birinci dəfə keçirilən bu toplantı türk dövlətlərinin birliyini və həmrəyliyini nümayiş etdirdi. Toplantıdakı nitqində Prezident İlham Əliyev vacib vəzifələr kimi türk ölkələri ilə əməkdaşlığın daha da genişləndirilməsini, enerji sahəsində strateji tərəfdaşlığı, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığı, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsini, dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməsini müəyyənləşdirdi. Bunun təbii əsaslarını da dedi: böyük coğrafi məkanı əhatə edən üzv ölkələrdə müşahidə olunan müsbət demoqrafik dinamika, döyüş meydanlarında özünü dəfələrlə göstərən hərbi potensial, zəngin təbii ehtiyatlar, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tarix, eyni etnik köklər, ənənəvi dəyərlərə sadiqlik və sairə türk dövlətləri rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlığın təzahürüdür.

Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycan dövləti örnək olan bir addım atdı, təşkilatın büdcəsi nəzərdə tutulan hədəflərin reallaşdırılması üçün yetərli olmadığından katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürdü. Ən vacib addımlardan biri İstanbulda Türk İnvestisiya Fondunun təsis edilməsidir.

Dünyada baş verən geosiyasi və təhlükəsizlik çağırışları türk dövlətlərinin vahid güc kimi çıxış etməsini, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərə dair mütəmadi məsləhətləşmələrin aparılmasını zəruri edir. Zirvə görüşünün yekununda Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanmış Qarabağ Bəyannaməsi dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf, tərəqqi ideyalarına sadiq olan, ortaq etnik köklərə, zəngin və qədim tarix, dil, mədəniyyət, ənənələri və dəyərlərinə söykənən, tarix boyunca sivilizasiyaların inkişafında böyük rol oynamış bir ailənin - türk dünyası ailəsinin bütün dünyanı düşündürən nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması məsələlərinə baxışını ifadə edirdi.

Türk dünyasının bir araya gəlməsində zəfər və mədəniyyət rəmzi olan Şuşa şəhərinin mənəvi əhəmiyyətinin sənəddə qeyd edilməsi bütün türk xalqlarının ortaq fikrini ifadə edirdi. Qardaş ölkələrin işğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpasında Azərbaycan hökuməti və xalqı ilə həmrəylik bəyan etmələri də vahid mövqeyi göstərdi. Konkret məqsədlərin qarşıya qoyulması, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından Türk Dövlətləri Təşkilatının məqsəd və vəzifələrinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqi təşəbbüsü irəli sürüldü.

Müasir dünyada beynəlxalq ticarətin və iqtisadiyyatın rolu artdığından transregional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyinin sənəddə vurğulanması strateji əhəmiyyət daşıyırdı. Bu o deməkdir ki, Avropa-Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta dəhlizi türk dünyasının beynəlxalq aləmdə yerini möhkəmləndirir, ona olan ehtiyac artır, nəqliyyat-tranzit məsələlərində "qızıl körpü" rolu güclənir.

Sənəddə strateji məsələlərdən biri kimi üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətlərinin bəyan edilməsi türk dünyasının vahid, çevik müdafiə sisteminin qurulmasına və türk xalqlarının tarixi arzularının gerçəkləşdirilməsinə xidmət edir.

*Qarabağ Bəyannaməsi göstərdi ki, türk dünyasının böyük gələcəyi var və Prezident İlham Əliyev yeni təşəbbüsləri, qətiyyətli addımları ilə bu birlik, həmrəylik, təhlükəsizlik və rifah yolunda nəhəng işlər görür.*

*(Ardı var)*

**Musa QASIMLI,**
*Milli Məclis Sədrinin müavini*



# Dahiliyin şəxsiyyət faktoru

**Azərbaycanın dövlətçilik tarixinin ən qürurverici səhifələrindən olan, Ali Baş Komandan, Prezident İlham Əliyevin mahir sərkərdəliyi ilə müzəffər Azərbaycan Silahlı Qüvvələrinin şücaəti nəticəsində Böyük Qələbəmizlə bitən Vətən müharibəsi, dövlət siyasətinin strateji istiqamətləri, savaşda tətbiq edilən döyüş taktikaları, müharibəsonrası Böyük qayıdış proqramı, azad edilən torpaqlarımızda həyata keçirilən işlərin uğurlu konsepsiyası bir neçə ildir ki, bütün dünyanın diqqətini Azərbaycana yönəltmişdir.**

Dünya ictimaiyyəti Qarabağın qısa müddət ərzində işğaldan azad edilməsindən sonra geri qaytarılmış torpaqlarda aparılan sürətli quruculuq və bərpa işlərini heyrət və təəccüb içərisində izləməkdədir. Maraq doğuran əsas məqamlardan biri də Qarabağ bölgəsində gedən gərgin və intensiv bərpa prosesinin, bu ərazilərə yönəldilən böyük investisiyaların, ümumilikdə, Azərbaycanın digər bölgələrinin inkişafına mane olmaması, bu inkişafı ləngitməməsidir.

Prezident İlham Əliyevin müəllifi olduğu Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdış proqramının strateji planlaması heyrət doğurur. Bu səbəbdən də Azərbaycan dövlətinin keçdiyi bu tarixi mərhələ hələ uzun müddət dünya ekspertləri tərəfindən dərindən araşdırılacaq, ölkəmizin istər döyüşdə və müharibədə əldə etdiyi, istərsə də siyasi və iqtisadi arenada qazandığı uğurun əsasları öyrəniləcək, müxtəlif elmi tezislərin meydana çıxmasına və tətbiqinə səbəb olacaqdır.

Aradan keçən qısa müddət ərzində Qarabağda mühüm əlamətdar hadisələr baş verdi. Sürətli bərpa-quruculuq işləri ilə, böyük infrastruktur layihələrlə, beynəlxalq səviyyəli ictimai-mədəni hadisələrlə də dünyanın diqqətini Qarabağa çəkməyi bacardıq. Silahlı Qüvvələrimizin postmüharibə dövründə Zəfər missiyasını davam etdirməsi, Xankəndi və ətraf ərazilərin azad edilməsi, unikal antiterror əməliyyatı və separatçıların təslim olması, müharibənin nəticələrinin və yaratdığı reallıqların beynəlxalq səviyyədə qəbul edilməsinə necə nail olunduğu, Azərbaycan diplomatiyasının bu sahədə qazandığı uğurlar, Qarabağ regionunun intensiv şəkildə bərpası prosesinin başlanması və digər vacib məsələlər Prezident İlham Əliyevin liderliyində Azərbaycanın qazandığı əlahiddə nailiyyətlərdir.

Akademik politologiyada ədalətli müharibədən bəhs edən "Maykl Uoltser nəzəriyyəsi" mövcuddur. Bu nəzəriyyəyə əsasən, o müharibə ədalətli hesab edilir ki, döyüşlərdən əvvəl ("just ad bellum") olduğu kimi, döyüşlərin gedişatı zamanı da öz ədalətliliyini qoruyub saxlamış olsun ("just in bellum"). "Ad bellum" ədalət meyarı müharibənin məqsədinə mənəvi bəraət qazandırılmasını, Ali Baş Komandanın legitimliyini, döyüşən tərəfin "xeyirxah məramını", müharibəyə məcburiyyət qarşısında və ən son vasitə kimi üz tutulmasını, uğur qazanmaq üçün mövcud olan real ehtimalları və müharibənin ağırlığının onun məqsədlərinə adekvat olduğunu özündə ehtiva edir.

Qarabağ uğrunda Vətən müharibəsi də məhz müzəffər Ali Baş Komandan İlham Əliyevin müəyyənləşdirdiyi hərbi strategiyaya uyğun olaraq, "ad bellum" ədalət meyarı çərçivəsində baş tutmuşdur. Eynilə 44 günlük müharibə kimi, 2023-cü ildə keçirilən birgünlük antiterror əməliyyatı da özünümüdafiə məqsədilə və beynəlxalq səviyyədə qəbul edilmiş sərhədlər çərçivəsində ərazi bütövlüyümüzün, suverenliyimizin bərpası naminə aparılmışdır. Hərbi əməliyyatlara isə məhz ümumxalq seçkilərində dəfələrlə legitimliyi təsdiq olunmuş bir Lider rəhbərlik edirdi.

Vətən müharibəsinin xeyirxah məqsədlər naminə aparılması amili həm də onunla özünü təsdiq edir ki, Prezident İlham Əliyev hər zaman hər iki icmanın Azərbaycanın öz yurisdiksiyası daxilində sülh şəraitində yaşaması çağırışını etmiş, bunun üçün real şərait də yaratmışdı. Eynilə 2023-cü ildə keçirilən birgünlük antiterror əməliyyatı da 44 günlük müharibə kimi qeyri-adekvat siyasi ambisiyalar naminə və ya ölkənin həyati əhəmiyyət daşımayan hansısa maraqları üçün reallaşdırılmamışdı. Azərbaycan otuz il ərzində böyük səbir və ümidlə münaqişənin zorakılığa yol verilmədən həll edilməsi üçün bir çox danışıqlara getmişdir. Hərbi əməliyyatlar isə yalnız qarşı tərəf danışıqları məqsədli şəkildə çıxılmaz bir dalana saldığı, üstəlik, Azərbaycan ərazilərini yenidən atəşə tutduğu zaman başladılmışdır. O da nəzərə alınmalıdır ki, Azərbaycan müharibədə qələbə qazanmaq üçün real hüquqi bazaya sahib idi. Yəni müharibədə müharibə etmək xatirinə iştirak etmirdi.

"Just in bellum" ədalət meyarı özündə proporsionallığı, mülki əhali və hərbçilər arasında fərq qoyulmasını ehtiva edir. Qeyd edək ki, Azərbaycanın hərbi əməliyyatlarda iştirakı, əslində, Ermənistanın hücumuna qarşı əks-hücum əməliyyatı idi. Yəni cavab idi. Başladığı ilk gündən sonuncu - 44-cü günə qədər müharibədə olduğu kimi, antiterror əməliyyatı da, istisnasız olaraq, öz xarici himayədarlarına ümid bağlayan qarşı tərəfin mənasız inadkarlığı üzündən zərurətə çevrilmişdi.

Azərbaycan bu müharibəni apara bilmək üçün yüksək dəqiqliyə malik silahlar əldə etdi. Döyüşlər zamanı yalnız və yalnız hərbi hədəflər vuruldu, mülki əhaliyə zərər yetirilmədi. Ən əsası, bu faktlar çoxsaylı beynəlxalq ekspert tərəfindən də təsdiqləndi.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağda həyata keçirilən antiterror əməliyyatı sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Qarabağda qazanılan Böyük Qələbə regionda və dünyada yeni reallıqların meydana çıxmasına şərait yaratdı. 2020-ci il sentyabrın 27-də başlayan və Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında üçtərəfli Bəyanatın imzalanması ilə başa çatan 44 günlük müharibə regiondakı vəziyyəti kökündən dəyişdi. Regional təhlükəsizlik və geosiyasi konfiqurasiya tamamilə yeni bir hal aldı, bununla da, erməni məsələsi uzun illərdən bəri ilk dəfə olaraq öz mövcudluq perspektivini itirdi.

Əslində, bəşəriyyətin tarixi bir çox hallarda mənəvi cəhətdən əsaslandırılmamış, ədalətsiz, qanlı, dağıdıcı və mənasız müharibələrin tarixindən ibarətdir. Təqdirəlayiq haldır ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan yuxarıda qeyd edilən məsələlərlə bağlı öz adına zərrə qədər də olsa, ləkə vurmadı. Əksinə, dövlətimizin adı ədalətin yaradıcıları və qoruyucuları cərgəsinə yazıldı.

Çünki İkinci Qarabağ müharibəsindən əvvəl uzun-uzadı, səbirlə aparılan danışıqlar prosesinin mövcudluğu heç kəsə sirr deyil. Bu məsələnin beynəlxalq hüquq müstəvisində və BMT-nin qətnamələri çərçivəsində həll edilməsi ilə bağlı səsləndirilmiş çoxsaylı çağırışlar mövcuddur. Və müharibə tarixini əks etdirən mühüm sənədlər təhlil olunarkən açıq-aşkar görünür ki, məsələnin hərbi yolla həlli üçün əsaslı bir hüquqi baza yaradılmışdı.

Bir tarixçi kimi qeyd edə bilərəm ki, bəşəriyyətin tarixində baş vermiş hərbi hərəkatların bütünlüklə hüquqi cəhətdən əsaslandırılması ilə bağlı faktlar elə də çox deyildir. Vətən müharibəsinin, daha sonra həyata keçirilən antiterror əməliyyatının hüquqi cəhətdən əsaslandırılması isə Prezident İlham Əliyevin idrakının, diplomatik istedadının nəticəsidir. Bu eyni zamanda onu nümayiş etdirir ki, müstəqillik dövründə Azərbaycan dövlətinin qarşısına qoyulmuş vəzifələr yerinə yetirilmiş, ölkənin ən taleyüklü problemi olan Qarabağ problemi məhz bunun sayəsində həll edilmişdir.

Müharibəsonrası mərhələ Ali Baş Komandanın parlaq diplomatik qələbəsindən başlayır. Xüsusi olaraq vurğulanmalıdır ki, 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata müvafiq bəndi salmaqla Prezident İlham Əliyev Azərbaycan əsgərlərinin dəyərli həyatını qoruyaraq Ermənistanı Ağdamdan, Kəlbəcərdən və Laçından çıxmaq məcburiyyətində qoydu. Azərbaycan ermənilərə yuxarıda adı qeyd edilən rayonları dinc bir şəkildə tərk etmək üçün şərait yaratdı.

Daha sonra - 2023-cü ildə isə birgünlük antiterror əməliyyatı həyata keçirərkən Qarabağın erməni icmasının dinc sakinlərinə Azərbaycan öz yurisdiksiyası altında yaşamağı təklif etdi. Lakin bu alicənablığa qarşı ermənilər meşələri qırmaqla, evləri yandırmaqla, eyni zamanda da könüllü şəkildə Qarabağdan çıxmaqla cavab verdilər. Azərbaycan Qarabağın dinc mülki sakinlərinin təhlükəsizliyi ilə bağlı zəmanət verdiyini dəfələrlə bəyan etdi. Ozamankı hərbi xunta Qarabağın erməni sakinləri arasında guya "aclıq" hökm sürdüyünü bildirdikdə Azərbaycan Ağdamdan keçməklə humanitar yardım göstərilməsini təklif etdi. Azərbaycan tərəfinin hər zaman nümayiş etdirdiyi humanist münasibəti bu dəfə də erməni icmasından əsirgənmədi.

Lakin Qarabağın azad edilməsi ilə gözlərimizin önündə meydana çıxan mənzərə, dağıntıların miqyası və digər hadisələr arasında paralellər və müqayisələr aparmağa şərait yaradır. Yaddan çıxarmayaq ki, Birinci Qarabağ müharibəsi zamanı yaşadıqları yeri tərk etmək məcburiyyətində qalan azərbaycanlılar özləri ilə yalnız evlərinin açarlarını və sənədlərini götürmüşdülər. Çünki tezliklə geri qayıdacaqlarına əmin idilər. Ermənilər isə Qarabağdan çıxarkən evləri yandırır, məhv edirdilər. Bu isə o deməkdir ki, onlar özlərinə aid olmayan, sahibi olmadıqları evləri tərk edirdilər. Artıq "artsax" adlandırdıqları qurumun diriləcəyinə, yaxud "böyük Ermənistan"ın geri qayıdacağına inanmırdılar.

Azərbaycanlılar isə əksinə, Qarabağa qayıdacaqlarına inandıqları kimi, onu dirçəldəcəklərinə, ayağa qaldıracaqlarına, öz evlərini yenidən quracaqlarına ürəkdən inanırdılar. Bu inamın arxasında isə Ali Baş Komandanın sözü, bu sözə olan etimad hissi dayanırdı.

Prezident İlham Əliyev özünün andiçmə nitqində müharibəsonrası mərhələ ilə bağlı dəyərləndirməni çox dəqiq vermişdir: "Yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. ...Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".

Postmüharibə dövründə baş verən hadisələrin, proseslərin gedişatını izlədikdə sistemli, məqsədyönlü və ən incə detallarına qədər işlənmiş bir fəaliyyət planının reallaşdığını görməmək mümkün deyil. Əvvəla, azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə başlamazdan əvvəl qarşıda duran əsas vəzifələrdən biri, hətta birincisi hərbi bölmələrin bu ərazilərdə yerləşdirilməsi, əhalinin etibarlı müdafiəsinin təşkili oldu. İlk növbədə, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi həyata keçirilməyə başlanıldı.

Digər mühüm vəzifə düşmən tərəfindən aparılacaq kəşfiyyat-diversiya fəaliyyətinin və təxribatların qarşısının alınması idi. Azad edilmiş torpaqların bərpa olunması prosesi isə demək olar ki, sıfırdan başladı. Bir zamanlar çiçəklənən, inkişaf edən bu şəhərlərin bütünlüklə dağıntılar altında qalmış mənzərəsi insanı vahiməyə salırdı. Eyni zamanda da XXI əsrdə belə bir dağıntıların ola biləcəyi heyrət doğururdu. Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Zəngilan, demək olar ki, bütünlüklə yer üzündən silinmişdi.

Böyük Qayıdışa dair I Dövlət Proqramında əsas hədəflərdən biri bölgədə beynəlxalq statuslu hava limanlarının tikintisi, magistral, rayonlararası yol infrastrukturunun inşa edilməsi idi. Bu hədəflərə sistemli ardıcıllıqla nail olunur. Qarabağda avtomobil magistral yolları, dəmir yolları çəkilir, aeroportlar tikilir, şəhər və kənd təsərrüfatı infrastrukturu bərpa edilir və qurulur. Prezident İlham Əliyevin təşəbbüsü ilə qısa müddətdə çəkilən Zəfər yolu Füzuli Hava Limanından Şuşaya ən yaxın yol oldu. Bu yola alternativ olaraq Füzuli-Şuşa yolu çəkilir. Böyük infrastruktur layihələrindən biri də tikintisinə 2021-ci ildən başlanılmış və uzunluğu 81 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur.

İşğaldan azad edilmiş bölgələrimizdə enerji təminatının həyata keçirilməsi ilk görülən işlərdən oldu. İstər infrastruktur layihələrin hazırlanmasında, istərsə də sosial obyektlərin tikintisində, şəhər, qəsəbə və kəndlərin salınmasında reallaşdırılan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası artıq özünü doğruldur. Təbiətin qorunması məqsədilə Qarabağ və Şərqi Zəngəzur ekoloji cəhətdən təmiz əraziyə çevrilir. COP29-u qəbul edən bir ölkə olaraq Qarabağın bərpasında ekoloji komponentə xüsusi diqqət yetirilməsinin özü də bir qanunauyğunluq hesab oluna bilər. Biomüxtəlifliyin bərpa edilməsi və genişləndirilməsi, ekoloji tarazlığa nail olmaq üçün təbii resurslardan, su ehtiyatlarından effektiv istifadə və "yaşıl energetika" layihələrinin reallaşdırılması ilə bağlı vəzifələr müəyyənləşdirilir və yerinə yetirilir.

Tamamlanmış layihələr arasında "Güləbird" Su-Elektrik Stansiyası, Suqovuşan və Talış yolları, Ağalıdakı "ağıllı kənd" layihəsi, Şuşa şəhərinin su və elektrik təminatı qeyd edilə bilər. Bülbülün ev-muzeyi, Kərim bəy Mehmandarovun malikanə kompleksi, Molla Pənah Vaqifin məqbərəsi, Üzeyir bəy Hacıbəylinin abidəsi görülən bərpa işləri sırasındadır. "Xarıbülbül" və "Qarabağ" mehmanxanaları, Şuşa Rəqəmsal İdarə Mərkəzinin açılışı xüsusi olaraq qeyd edilməlidir. Bundan başqa, Şuşada hər il bir neçə beynəlxalq və respublika əhəmiyyətli ictimai-siyasi, iqtisadi, mədəni-humanitar tədbirlər keçirilir. "Xarıbülbül" Festivalı, Vaqif Poeziya Günləri və bu tədbirlərdə Türk Dövlətləri Təşkilatı ölkələrinin mədəniyyət, incəsənət xadimlərinin iştirakı qarşıya qoyulan məqsədlərin reallaşdırılması istiqamətində atılan əhəmiyyətli addımlardır.

Qarabağın bərpa edilməsi haqqında danışarkən Qarabağ Universitetinin açılması kimi əhəmiyyətli bir hadisənin üstündən sükutla keçmək mümkün deyil. Qarabağın düz mərkəzində - Xankəndi şəhərində açılan Qarabağ Universiteti bu ilin sentyabr ayından altı əsas istiqamət üzrə öz fəaliyyətinə başlamışdır: pedaqogika, iqtisadiyyat, mühəndislik, sosial-humanitar elmlər, incəsənət və turizm. Prezidentin məşhur hikmətamiz kəlamının təməl daşı olan "Əziz Şuşa (Qarabağ), biz səni dirçəldəcəyik!" ideyası bu istiqamətdə də həyata keçirilir. Axı Qarabağın iqtisadiyyatını və turizmini dirçəltmək üçün mövcud problemləri elə yerindəcə həll edə biləcək kadrlara ehtiyac var: dağıdılmış memarlıq və incəsənət abidələrini bərpa etmək üçün o abidələrlə bilavasitə tanış olan mühəndislər və sənətşünaslar lazımdır. Qarabağdakı sosial həyatı canlandırmaq və Azərbaycanın beynəlxalq meydanlarda mövqeyinin möhkəmləndirilməsi üçün təcrübəli pedaqoqlar, sosioloqlar, tarixçilər, beynəlxalq hüquq mütəxəssisləri və hüquqşünaslar lazımdır. Məhz onlar kimin etnik təmizləməyə və genosidə məruz qoyulduğunu hər kəsə göstərəcək və sübut edəcəklər.

Azərbaycan Prezidentinin bu gün apardığı təhlilin, planlaşdırdığı hərəkət taktikasının hərtərəfli olmasına və dərinliyinə heyrət etməmək mümkün deyil. Qarabağın bərpa olunması ilə bağlı Prezident İlham Əliyevin tətbiq etdiyi proqramı nüfuzlu mütəxəssislərin, elmi mərkəzlərin hazırladıqları qanunlarla, iqtisadi nəzəriyyələrlə müqayisə etməklə təhlil etmək mümkündür. Azərbaycan rəhbərliyinin nəzəri biliklərinin ölçüyəgəlməz dərəcədə böyük olan idarəetmə təcrübəsi ilə sintezi Qarabağın hərtərəfli şəkildə bərpa və inkişafı üçün hərəkətverici qüvvəyə çevrilib.

Bir daha qeyd edək ki, Qarabağın bərpa olunması ölkənin başqa bölgələrinin rifahına və inkişafına mənfi təsir göstərmir. 2022-ci ildən 2023-cü ilə qədər istehsal müəssisələrinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadə olunmasının effektivliyinin artırılması, aqrar sektorun inkişaf etdirilməsi, həmçinin müasir infrastrukturun və yeni iş yerlərinin yaradılması ilə bağlı 4 dövlət proqramı üzrə regionlara qoyulan investisiyanın həcmi 104 milyard manat təşkil etmişdir. Bu günün özündə belə Qarabağın bərpası paytaxtın, yaxud ölkənin digər regionlarının inkişaf sürətinin azaldılması hesabına baş vermir. Cənab İlham Əliyevin balanslaşdırılmış yanaşması və məharətli strateji idarəetməsi sayəsində ölkənin müxtəlif regionlarının inkişaf sürəti bir-birinə yaxınlaşır, bu sahədə titanik işlər aparılır.

Təqdiredici haldır ki, münaqişəsonrası mərhələdə Azərbaycanın azad olunmuş ərazilərinə Avropa İttifaqı ölkələrinin, NATO, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Qoşulmama Hərəkatı ölkələrinin nümayəndələri də baş çəkmişlər. 30 il ərzində Ermənistan və erməni diasporu Birinci Qarabağ müharibəsinin tarixini təhrif etmək və məhz Azərbaycanı təcavüzkar tərəf kimi göstərmək üçün xeyli zaman və resurs sərf etmişdir. Qarabağa səfər edən dövlət başçıları, eyni zamanda da Azərbaycanda olan diplomatik korpusun nümayəndələri iki vacib həqiqəti öz gözləri ilə gördülər. Birincisi, Ermənistan sistemli şəkildə Qarabağın maddi və mənəvi irsini məhv etmiş, ərazilərin talanması ilə məşğul olmuşdur. Azərbaycanın boş qalmış rayonları Ağdamın timsalında "Qafqazın Xirosiması" adlandırılaraq "Qarabağ ermənilərin vətənidir" mifini bütünlüklə darmadağın etdi. İkinci həqiqət isə budur ki, Qarabağ azərbaycanlıların vətənidir, çünki məhz Azərbaycan müharibə başa çatdıqdan dərhal sonra Qarabağın bərpası prosesinə başladı.

Bütün bunlar Ermənistanın Praqada Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıması kimi diplomatik bir qələbə ilə müşayiət olundu. Prezident İlham Əliyev ona nail oldu ki, hələ 2019-cu ildə "Qarabağ Ermənistandır və nöqtə", - deyən adam bütün dünyaya "Qarabağ Azərbaycandır" həqiqətini elan etmək məcburiyyətində qaldı. Bu diplomatik uğur tərəflərin Rusiyada Soçi deklarasiyasını imzalayaraq qəbul olunmuş beynəlxalq sərhədlər çərçivəsində bir-birinin ərazi bütövlüyünü tanıması ilə daha da möhkəmləndirildi.

Dahi şəxsiyyət İlham Əliyev elə bir Liderdir ki, özünün prezidentlik dövründə Rusiya qoşunlarını ərazilərimizdən iki dəfə çıxarmağa, həm də bunu Moskva ilə münasibətləri pozmadan etməyə nail olmuşdur. Birinci belə bir hadisə Qəbələ RLS-nin bağlanması zamanı, ikinci dəfə isə Rusiya sülhməramlılarının Qarabağdan vaxtından əvvəl çıxarılması ilə reallaşdı. Onu da qeyd edək ki, 2020-ci ildə üçtərəfli Bəyanatın 4-cü bəndinə əsasən, "Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 il və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır" olaraq nəzərdə tutulurdu. Lakin Azərbaycan Ermənistanın bütün gözləntilərinin, səylərinin və ümidlərinin əksinə, Rusiya sülhməramlılarının Qarabağdan vaxtından əvvəl çıxarılmasına nail oldu.

Bir məqam da xüsusi olaraq vurğulanmalıdır ki, Azərbaycanın Qələbəsi eyni zamanda bütün türk dünyasının qələbəsidir. Təəccüblü deyildir ki, türk dövlətlərinin rəhbərləri bu qələbəni çox yüksək qiymətləndirdilər və Azərbaycan Prezidentinə "Türk Dünyasının Ali Ordeni" təqdim edildi. Prezident İlham Əliyevin 14 fevral 2024-cü il tarixdəki andiçmə nitqində ifadə olunan "Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirməliyik. Bu bizim üçün prioritetdir. Çünki bu bizim ailəmizdir. Bizim ailəmiz türk dünyasıdır" sözləri də təkcə Azərbaycan üçün deyil, bütün türk dövlətləri üçün aktualdır.

Bu gün otuzillik tarixə nəzər saldıqda aydın olur ki, Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev kimi liderlərlə bizim qələbəmiz qaçılmaz idi. İqtisadiyyat üzrə Nobel mükafatı laureatları Edvard Preskott və Finn Kidlandın "İqtisadi siyasətlərin və biznes dövrlərinin zaman ardıcıllığı" nəzəriyyəsinə əsasən, yaxşı hazırlanmış və elan edilmiş strategiyaya əməl olunması situativ taktiki manevrlərdən daha sərfəlidir. 44 günlük müharibə zamanı Ermənistan öz xarici siyasət doktrinasını dəfələrlə dəyişdi. Əvvəlcə Qarabağ hərbi xuntası ilə hərbi-siyasi ittifaq haqqında söhbət gedirdi. Daha sonra onun müstəqilliyinin qəbul edilməsindən, sonra isə "xilas olmaq naminə ayrılma"dan və "birləşmək naminə ayrılma"dan danışılırdı. Qeyd edək ki, beynəlxalq hüquqda və təcrübədə bütün yuxarıda sadalanan doktrinalar bir-birindən fərqlidir və birindən digərinə keçmək mümkün deyil.

Ermənistandan fərqli olaraq, Azərbaycan Heydər Əliyevin konseptual siyasi görüşlərindən və hərbi maksimlərindən başlayaraq bütün bu illər ərzində yeganə, ölçülüb-biçilmiş və zamanına görə uyğunlaşdırılmış strategiyaya sadiq qalmışdır - bu strategiya da bizi Prezident İlham Əliyevin rəhbərliyi altında çoxdan gözlənilən Qələbəyə gətirib çıxardı. İndi isə müzəffər Lider Azərbaycan xalqını əmin bir halda Qarabağın bərpasına, keçmiş məcburi köçkünlərin Qarabağa, Şərqi Zəngəzura qayıtması kimi bir çox başqa qələbələrə doğru aparır.

Əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin müəllifi olduğu Azərbaycan dövlətinin iqtisadi və siyasi model siyasəti özünün yüksək effektivliyini sübut edərək sınaqdan uğurla çıxmışdır. Diplomatik sahədə və informasiya mübarizəsində qazanılan qələbə inkişafın müdrik strategiyasının göstəricisidir. Ərazilərin hərbi yolla və minimal qurbanlar verməklə azad edilməsi, bu ərazilərin tez bir zamanda respublikanın digər hissələrinin inkişafını ləngitmədən bərpa edilməyə başlanması Azərbaycan dövlətinin iqtisadi imkanlarının və onun rəhbərinin müdrikliyinin göstəricisidir.

*İkinci Qarabağ müharibəsinə qədər və ondan bu günədək olan vəziyyəti təhlil edərkən Prezident İlham Əliyevin görkəmli siyasətçi və müasir Azərbaycanın Dahi Şəxsiyyəti faktorunu görməmək, etiraf etməmək, sadəcə, mümkün deyil.*

**Eldar ƏZİZOV,**
***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***

# "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi"




**Dekabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi" mövzusunda tədbir keçirilib.**

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, zəngin idarəçilik təcrübəsinə, dönməz əqidəyə, xalqın birmənalı dəstəyinə - yüksək etimadına malik lideri olan dövlətlər möhtəşəm nailiyyətlərə imza ataraq adlarını tarixə əbədi həkk etdiriblər. Onun sözlərinə görə, Şərqdə ilk demokratik respublika yaratmış və 33 il əvvəl öz müstəqilliyini bərpa etmiş Azərbaycanın təcrübəsi də bu baxımdan əlamətdardır: "Çağdaş Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır. Heydər Əliyev milli maraqlara əsaslanan uzaqgörən siyasəti ilə Azərbaycanın müstəqilliyinin daimiliyi, dönməzliyi və əbədiliyini təmin etməklə xalqımıza çoxsaylı uğurlar qazandırmışdır. Bu gün iftixarla qeyd edirik ki, hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır".

Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Ulu Öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınmışdır: "Ən əsası, iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksəlmişdir. Ata vəsiyyətini və xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirən Prezident İlham Əliyev Azərbaycanı Ulu Öndərimizin görmək istədiyi qalib və qüdrətli dövlətə çevirməklə bərabər, strateji hədəfləri ardıcıl olaraq gerçəkləşdirərək nəinki ölkəmiz, bütövlükdə regionumuz üçün yeni perspektivlər yaratmışdır".

YAP Sədrinin müavini deyib ki, qazanılan tarixi nailiyyətlərlə yanaşı, qarşımızda gələcəyə yönəlik çox önəmli vəzifələr durur: "Dünyada qlobal kataklizmlərlə müşayiət olunan gərgin geosiyasi proseslərin baş verdiyi, yeni çağırışların meydana çıxdığı bir dönəmdə Azərbaycan Prezidentinin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənmişdir. Azərbaycanın bu günlərdə D-8 təşkilatına yekdilliklə üzv seçilməsi də bunun növbəti bariz təzahürüdür. Şübhə yoxdur ki, öz Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaqdır".

"Tariximizin bu şanlı dövründə yaşayıb yaratmaq hər bir azərbaycanlı üçün hədsiz xoşbəxtliklə bərabər, həm də böyük məsuliyyətdir. Hər birinizə dövlətimiz və xalqımızın firavan gələcəyi naminə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə müqəddəs amallara doğru bu şərəfli yolda inam və əzmlə addımlamağı arzulayır, fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı və fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə!", - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında bildirib ki, dövlət idarəçiliyində sözlə əməlin vəhdəti uğurlu inkişafın əsası olmaqla bərabər, həm də sosial sabitliyin möhkəmləndirilməsi, davamlı yüksəlişin təmin edilməsi və vətəndaş cəmiyyətinin bərqərar olması sahəsində mühüm amildir: "Prezident İlham Əliyevin "Bizim sözümüz imzamız qədər dəyərlidir" fikri Onun verdiyi vədlərin əməli fəaliyyətində öz əksini tapdığını göstərir. Dövlətimizin başçısının xalqa verdiyi vədləri yerinə yetirməsinin ən parlaq nümunəsi torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın bütün ərazilərimizdə ucaldılmasıdır".

"Hər bir azərbaycanlının Prezidenti olacağını vəd edən və ötən müddət ərzində sözünün sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə sübuta yetirən cənab İlham Əliyev xalqın yüksək rəğbət və məhəbbətini qazanıb. Dövlət başçısının Azərbaycanın milli maraqlarını daim və hər yerdə uca tutması xalqımızı Onun ətrafında sıx birləşdirib. Zəfər seçkisində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsi bunun bariz nümunəsidir, - deyə YAP Veteranlar Şurasının üzvü əlavə edib.

V.Novruzov qeyd edib ki, Prezident İlham Əliyevin söz ilə əməlin vəhdətinə verdiyi önəm ölkənin inkişafında, eləcə də milli maraqların qorunmasında öz əksini tapır: "Bu yanaşma Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin ölkəmizə iqtisadi, siyasi və sosial dividendlər qazandırmış daxili və xarici siyasəti qloballaşma dövründə xüsusi önəm kəsb edir. Dövlət başçısının siyasəti Azərbaycanı dünyada sabitlik adasına, geosiyasi inteqrasiya və multikulturalizm mərkəzinə, qlobal tədbir və görüşlərin keçirildiyi təhlükəsiz məkana çevirib".

"Əminliklə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Azərbaycanın daha da güclənməsinə xidmət edəcək. Yeni Azərbaycan Partiyasının hər bir üzvü də bu amal uğrunda fəal rol oynamalıdır", - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli bildirib ki, tarixi şəxsiyyətlər öz əməlləri ilə xalqların taleyində müstəsna rol oynayırlar: "Belə şəxsiyyətlərdən biri dünyaşöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi varisi - Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir".

Onun sözlərinə görə, uzun illər beynəlxalq təşkilatların, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyi bir şəraitdə Azərbaycan böyük iradə və qətiyyət nümayiş etdirdi: "Prezident İlham Əliyevin uzaqgörən siyasəti və prinsipial mövqeyi nəticəsində Azərbaycan təkcə hərb cəbhəsində deyil, eyni zamanda diplomatik müstəvidə də tarixi qələbə qazandı. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "dəmir yumruq" əməliyyatı uzun illər işğalda qalan torpaqlarımızın azad olunmasını təmin etdi. Bu nəinki Azərbaycanın ərazi bütövlüyünün bərpası, həm də beynəlxalq hüququn və tarixi ədalətin təntənəsi oldu".

G.Gəraybəyli qeyd edib ki, bu gün Azərbaycan hər bir istiqamətdə, o cümlədən təhsil, səhiyyə və gənclərin inkişafı sahəsində davamlı olaraq irəliləyişlər əldə edir: "Ölkəmizdə sağlam, savadlı və milli dəyərlərə sadiq gənclər yetişir ki, bu da cəmiyyətimizin üstün göstəricilərindən biridir. Gənclərin sağlam həyat tərzi keçirmələri, onların fiziki və psixoloji cəhətdən sağlam yetişmələri üçün zəruri addımlar atılmaqdadır".

Çıxış edən YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib ki, bu gün Azərbaycan düşünülmüş siyasət sayəsində mühüm nailiyyətlərə imza atır: "Dünyada gedən proseslər və mürəkkəb geosiyasi vəziyyət fonunda əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan uğurla inkişaf edir. Ən önəmli amillərdən biri olan ictimai-siyasi sabitlik qətiyyətlə qorunur".

Onun sözlərinə görə, Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsidir: "Azərbaycan torpaqlarını öz gücü hesabına azad etdi. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsindən əvvəl hər fürsətdə biz dünya ictimaiyyətini işğal faktı, ədalətsizlik, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə məlumatlandırmışdıq, lakin onlar təcavüzkarı cəzalandırmaq əvəzinə, ikili standartlara davam etmək yolunu seçdilər. Bütün bunlara rəğmən, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində sonda ədalət zəfər çaldı".

Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edən S.Xasayeva qeyd edib ki, 1993-cü ildə Ulu Öndərin xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra diqqət yetirilən əsas məsələlərdən biri də məhz gənclər siyasəti idi. Onun sözlərinə görə, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Cəmiyyətin dinamik qüvvələrinin, o cümlədən gənclərin enerjisinin ümummilli məqsədlərə yönləndirilməsi üçün sistemli fəaliyyət aparılır. Bu gün ölkəmizdə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biri gənclərin cəmiyyətin müxtəlif sahələrində yüksək fəallığının təmin olunması və onların milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Dövlət başçısı tərəfindən gənclərə göstərilən bu yüksək diqqət Azərbaycanın parlaq gələcəyini inşa edir".

"Bu gün hər birimiz ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də milli qürurumuzu bərpa edən Liderimiz - Prezident İlham Əliyevə minnətdarıq və bundan sonrakı mərhələdə daha böyük uğurlara çatacağımıza inanırıq", - deyə S.Xasayeva vurğulayıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**Türkçülük idealları dərin tarixi köklərə və mənəvi dəyərlərə əsaslanır, milli yaddaşımızdan qaynaqlanır. Minillik dövlətçilik tarixi olan türk xalqlarının ayrı-ayrı boyları öz tarixi yaddaşında bu ideyanı daima yaşatmışlar.**




# Türk birliyinin istinad gücü

Bu mədəni irsin siyasi platformaya çevrilməsi üçün hələ ötən əsrin əvvəllərində türk dünyasının fikir adamları İsmayıl bəy Qaspıralı, Yusif Akçura, Zəki Vəlidi Toğan, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Ayaz İsaki, Sədri Maksudi Arsal və digərləri çalışsalar da, onu gerçəkləşdirmək mümkün olmamışdır. Bu amal türk xalqlarının təhtəl şüurunda gerçəkləşməmiş arzu kimi qalmışdır.

Bu ideyanın siyasi platformaya çevrilməsi, türk xalqlarının bir təsisat altında birləşməsi ideyası məhz Heydər Əliyevin simasında öz intibah dövrünü yaşamağa başladı. Təsadüfi deyil ki, böyük dövlət xadimi Süleyman Dəmirəl "Azərbaycan Prezidenti, qardaşım Heydər Əliyev" adlı məqaləsində (2003) Azərbaycan xalqının Ümummilli Liderinin tarixi xidmətlərini dünyanın böyük dövlət adamlarının öz xalqları qarşısındakı böyük xidmətləri ilə müqayisə edərək göstərir ki, Çörçilin 1940-cı, Ruzveltin 1942-ci, Adenaurun 1946-cı, De Qollun 1958-ci ildə gördükləri işləri Heydər Əliyev 1993-cü ildə gördü. Və Heydər Əliyevin "intəhasız təcrübəsi, qətiyyəti, əzmi, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz məhəbbəti, türk tarixinə, mədəniyyətinə və türklüyə bağlılığı, vətənpərvərliyi hər cür tərifdən yüksəkdə dayanır".

Tarixi keçmişinə biganə qalan xalq kökündən qurumağa başlayan ağaca bənzəyir. Qüdrətli düha sahibi olan öz müdriklərini milli düşüncə örnəyi kimi qəbul edən, ağıllı, kamil şəxsiyyətlər yetişdirən xalq özünün tarixi milli-mənəvi dəyərlər zənginliyi ilə öyünməkdə haqlıdır.

Tariximizi tanıdan, yazılı qaynaqlarımızı əbədiləşdirən şəxsiyyətlər indi gözümüzün önündə olmasalar da, onların tarixi bizə tanıdan əsərləri hamımızı sevindirir, qürurlandırır. Gələcəyimizə bu prizmadan baxmaq bizim ən vacib vətəndaşlıq borcumuzdur.

Məhz bu kontekstdən yanaşsaq, Ulu Öndər Heydər Əliyevin türkçülüyə bağlılığı sonradan Türk Dövlətləri Təşkilatının qurulmasına təkan oldu. Bu siyasət Müzəffər Ali Baş Komandan İlham Əliyevin vaxtında sistemli şəkildə davam etdi və ən yüksək zirvəsinə çatdı.

Hələ 2013-cü ildə Prezident İlham Əliyev qeyd edirdi: "Dünyanın müxtəlif yerlərində, əfsuslar olsun ki, islam dünyasında vəziyyət fərqli istiqamətdə gedir. Qarışıqlar, vətəndaş müharibələri, xoşagəlməz hallar baş verir. Bizim türkdilli coğrafiyada isə inkişaf prosesi gedir. Bu, böyük sərvətdir. XXI əsr türk dünyası əsri olmalıdır. Biz bütün müsbət meyilləri gücləndirməliyik".

İlham Əliyevin "türk xalqlarına yönəlik bütün müsbət meyilləri gücləndirməliyik" tezisi türk dünyasının hərəkətverici qüvvəsinə çevrildi, türk dünyasının müxtəlif platformalarda inteqrasiyasını intensivləşdirdi.

Dünyanın yeni düzən arayışında olduğu indiki dönəmində türk dövlətlərinin birgə hərəkət etməsi üçün həm yaxşı şans yaranmış, həm də onların hər birinin milli maraqları baxımından böyük zərurətə çevrilmişdir. Hazırda zəngin təbii resurslara, məhsuldar torpaqlara və nisbətən yüksək insan kapitalına sahib olmaları, mühüm beynəlxalq və regional nəqliyyat və kommunikasiya şəbəkələrinin mərkəzində yerləşmələri, əsasən, Türkiyə, Qazaxıstan və Özbəkistanda olmaqla nisbətən inkişaf etmiş sənaye sahələrinin formalaşması, ortaq tarix, dil, mədəniyyət və coğrafiyanı bölüşmələri türk dövlətlərinin sürətli inteqrasiyası üçün əlverişli zəmin yaradır.

Bu gün müstəqil türk dövlətlərinin toplam göstəricilərinə baxdıqda, ərazilərinə görə dünya ölkələri arasında 7-ci, əhali sayına görə 9-cu, ümumi daxili məhsullarına görə 16-cı, təbii qaz rezervlərinə görə Rusiya, İran və Qətərdən sonra 4-cü, neft istehsalına görə 9-cu, qızıl və bor rezervlərinə görə 1-ci, uran rezervlərinə görə 2-ci, xrom ixracına görə isə 2-ci sırada olduqları görünür. 2023-cü ilin sonunda müstəqil türk dövlətləri əhalisinin 165 milyona çatdığını görmüş olarıq. Qeyd edək ki, 1,1 trilyon dollar milli gəliri və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi ilə türk dövlətləri böyük iqtisadi potensiala malikdirlər.

Dünya xalqları içərisində özünəməxsus mədəni inkişaf səviyyəsi, dövlətçilik şüuru olan türklər ən qədim dövrdən müasir günümüzədək Avrasiyasının aparıcı super etnosu olduğunu təsdiq etmişdir. Avrasiyanın geniş "çöl-step" zonalarında təşəkkül tapan, müxtəlif dilli tayfaların əhatəsində formalaşan, cəsurluğu ilə hərb tarixinə adını yazdıran, dünya elm və mədəniyyət xəzinəsini qiymətli əsərlərlə zənginləşdirən türklər müxtəlif coğrafiyalarda fərqli inkişaf mərhələsindən keçmişlər. Dünyanın ən dinamik, passionar xalqlarından olan türklər məhz bu keyfiyyətlərinə görə ümumdünya sivilizasiyasının formalaşmasında yaxından iştirak etmişlər.

Yer kürəsinin sıx məskunlaşmış xalqlarından olan türklərin böyük bir hissəsi tarixən Avrasiya materikində yaşasalar da, müxtəlif zamanlarda müəyyən səbəblərdən uzaq Amerika və Avstraliya qitələrinə də yayılmışlar. Müasir dövrdə türk dünyasının coğrafiyası qərbdə Balkan yarımadasından şərqdə Sakit okeana, şimalda Şimal Buzlu okeandan cənubda Tibetə qədər uzanan 11,2 milyon kvadrat kilometrlik ərazini əhatə etməkdədir. Türk xalqlarının yaşadığı ərazi Yer kürəsinin quru sahəsinin 7,5 faizini təşkil edir. Bu geniş coğrafiyada 250-300 milyon civarında türk əhalisi yaşayır ki, bu da bütövlükdə ümumdünya əhalisinin 3-4 faizini təşkil edir.

Dövlətçilik şüuruna daha tez yiyələnən türklər tarixdə ən çox dövlət, imperiyalar qurmağa müvəffəq olmuşlar. Belə ki, türklər ümumilikdə 110 dövlət yaratmışlar ki, bunların 15-i xaqanlıq (imperatorluq), 38-i dövlət, 34-ü bəylik, 4-ü atabəylik, 17-si xanlıqdır.

SSRİ-nin süqutu nəticəsində imperiya parçalandı, türk dövlətləri müstəqilliyin bərpası uğrunda yenidən mübarizəyə başladılar. Beləcə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan respublikaları dövlət müstəqilliyini bərpa edərək BMT-nin tamhüquqlu üzvü oldular. Türkiyə Cümhuriyyəti də daxil olmaqla, artıq müstəqil türk respublikalarının ərazisi türk dünyasının 43 faizini təşkil edir. Bu da türk dünyasının 4,8 milyon kvadrat kilometrini təşkil edir. Yerdə qalan 57 faizlik (6,4 milyon kvadrat kilometrlik) ərazi isə digər ölkələrin sərhədləri daxilindədir.

Türk Dövlətləri Təşkilatını formalaşdıran dövlətlərin ərazisində qədim dövrdən Türk-Turan sivilizasiyası mövcud olmuşdur. Qeyd edək ki, Turan sözü ilk dəfə Sasani şahənşahı I Şapura (III əsr) məxsus qaya yazısında çəkilmişdir. İlkin mərhələdə Avrasiyanın türklər yaşayan ərazilərinə şamil edilən Turan coğrafi adı daha sonralar türklərin ümumi vətəni anlamını ifadə etməyə başladı.

Ucsuz-bucaqsız türk coğrafiyasını vahid Turan dövlətində birləşdirmək uğrunda mübarizə aparan Atilla, Çingiz xan və digər görkəmli türk xaqanlarının 40 yaşlarında hakimiyyətə gəlmələri və bu ağır yükü çiyinlərinə götürmələrində bir tale oxşarlığı vardır. Qərb alimlərinin yekdil fikirlərinə görə, əgər Atilla I minilliyin ən qüdrətli hökmdarı olmuşdursa, Çingiz xan da II minilliyin ən qüdrətli hökmdarı kimi qəbul edilmişdir.



Məhz onların və varislərinin səyləri nəticəsində e. ə. VII əsrdən XIX əsrin ortalarınadək (1858-ci ildə Moğol imperiyası süqut etmişdir) Sakit okeandan Qara dənizin şimal sahillərinə və Macarıstana qədərki ərazilərdə - Pannoniyada düzlərində türk hakimiyyəti bərqərar olmuş, türk dövlətləri bir-birini əvəzləmiş, qurd başlı bayraq davamlı şəkildə dalğalanmışdır.

Böyük İpək yolu üzərində yerləşən nəhəng türk dövlətləri dünyanın siyasi taleyini həll edəcək bir duruma gəlmiş, ilk diplomatik əlaqələr qurulmuşdur. Türk ehtişamının yüksəldiyi bu dövrdə dövlətçiliyin nüvəsini "başı olanlara baş əydirin, dizi olanlara diz çökdürün" şüarı olmuşdur. Türk xaqanı Bilgə xaqanın Orxan kitabələrində öz xalqına xitab etdiyi fikirlərə diqqət yetirək: "Ey türk, üstdə mavi göy çökmədikcə, altda yağız (əsmər) yer dəlinmədikcə, sənin elini və törəni kim poza bilər". Bu Turan elində dövlət-törə birliyinin monolitliyindən xəbər verir və dövlətçilik fəlsəfəsinin əsasını təşkil edirdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi fəaliyyətində türk dünyası daxilində əlaqələrin inkişaf etdirilməsi və dərinləşdirilməsi də mühüm yer tutmuşdur. Ulu Öndər respublikamızda 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri ilə siyasi, iqtisadi, mədəni, nəqliyyat və kommunikasiya sahələrində əməkdaşlığa xüsusi diqqət yetirmişdir. O, çıxışlarında, rəsmi görüşlərində türk xalqlarının ortaq mənəvi dəyərlərə malik olmalarını yüksək qiymətləndirmiş, bu zəmində münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını zəruri saymışdır. Bu baxımdan, Ulu Öndərin fikirləri günümüz üçün çox aktualdır: "Bizim türk mənşəli, türkdilli xalqlarımız, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür".

Ulu Öndər Heydər Əliyev 1994-cü il fevralın 9-da Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı üzünü millət vəkillərinə, hökumət rəsmilərinə tutaraq Mustafa Kamal paşanın Türkiyə Cümhuriyyətinin Türk Dünyasının lideri kimi çox önəmli bir missiyanı öz üzərinə götürməsi gərəkliyi haqqında məşhur fikrini xatırlatmışdır: "Burada mən Mustafa Kamal Atatürkün çox dəyərli bir fikrini yadınıza salmaq istəyi-rəm, çünki onun bu fikri Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğuna və Mustafa Kamal Atatürkün çox uzaqgörən bir şəxsiyyət olduğuna dəlalət edir. O, Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında demişdir: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız var. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların, tarixi köklərin bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır".

Möhtərəm Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizin inkişafında yeni mərhələ başlamışdır. Azərbaycan dövləti iqtisadi, siyasi və hərbi cəhətdən güclənmiş, xalqımızın mübarizə ruhu, əzmkarlığı daha da yüksəlmişdir. 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə, beynəlxalq arenada nüfuzunun artmasına, türk dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşməsinə şərait yaratmışdır.

12 noyabr 2022-ci ildə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə "Səmərqənd Bəyannaməsi"nin qəbul edilməsi isə təşkilatın "2040-cı il baxışı"nın reallaşdırılması istiqamətində atılacaq addımların aydınlaşması baxımından mühüm əhəmiyyət daşımaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2023-cü il martın 16-da Türkiyənin paytaxtı Ankara şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının növbədənkənar Zirvə toplantısı türk birliyinin yeni daha yüksək zirvəyə yüksəlməsi ilə əlamətdar olmuşdur. Bu fövqəladə Zirvə toplantısında qardaş Türkiyədəki 6 fevral fəlakəti əsas müzakirə mövzusu olmuş, fövqəladə halların idarə edilməsi sahəsində yardımlaşmanı inkişaf etdirmək və Türkiyəyə humanitar yardım göstərilməsi qərara alınmışdır. Bununla da türk dövlətləri bir daha dünyaya nümayiş etdirdilər ki, ən ekstremal durumda, böyük fəlakətlə üzləşdikləri zamanda belə, türk özünü, milli kimliyini, məğrurluğunu itirmir, bütün ağrılara, acılara, fəlakətlərə, sınaqlara mərdi-mərdanə sinə gərir.

Həmin görüşdə Azərbaycan Prezidenti cənab İlham Əliyev Türk Dövlətləri Təşkilatının bütün türklər üçün arxalanacaqları böyük güc olduğunu və öz fəaliyyətində bunu daim nəzərə almalı olduğunu xüsusi vurğulamışdır: "Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır".

Qeyd edək ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlətləri tərəfindən təsis edilmiş TDT-nin sıraları Özbəkistan, Türkmənistan və Macarıstan dövlətlərinin qoşulması ilə 7-yə çatmışdır. Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Təşkilatın sıralarına müşahidəçi qismində daxil edilməsi də TDT-nin coğrafiyasının genişlənməsinə xidmət edir.

Türk dünyasının mənəvi və siyasi baxımdan birləşib güc mərkəzi kimi birgə fəaliyyətinə toxunarkən deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin təməl prinsipləri əsasında türk dünyasının liderləri başda Müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla bunu uğurla davam etdirirlər.

Prezident İlham Əliyevin özü qardaşlıq nümunəsini formalaşdıran örnək bir şəxsdir. Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitində (24 aprel 2014-cü il) bu mövzuda ən yaddaqalan hadisələrdən biri baş verdi. Ermənistan eks-prezidenti Serj Sarkisyan Türkiyənin sammitdə təmsil olunmamasından sui-istifadə edərək plenar iclasın mövzusundan tamamilə kənara çıxaraq qondarma "soyqırımı" məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçmişdir. S. Sarkisyan bir tərəfdən Türkiyəni qondarma "soyqırımı" ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. Ermənistan prezidenti çıxışında hər cəhdlə çalışıb ki, Avropa ictimaiyyəti qondarma "soyqırımı" ilə bağlı daha təsirli mövqe tutsun.

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə adından dərhal məsələyə reaksiya verməsi türk dövlətlərinin beynəlxalq miqyasda vahid platformadan çıxış etməsinin ən gözəl nümunəsinə çevrildi. Prezident İlham Əliyev: "Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur: Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi ermənilər idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl - Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir".

Əlbəttə həmin dövrlər arxada qalıb. Türkiyədə baş verən dövlət çevrilişi cəhdi zamanı Azərbaycan xalqı və dövləti birmənalı şəkildə türk xalqının haqq səsinə səs verdi. Həmin günləri indi də həyəcanla xatırlayırıq. Biz Türkiyənin Azərbaycandakı səfirliyinə gedərək öz həmrəyliyimizi bildirdik, hətta gecə səhərə qədər səfirlikdə qaldıq.

Türkiyədə baş vermiş ağır zəlzələ zamanı sadə Azərbaycan ailələrinin yardımı Türkiyədə minnətdarlıq sevgisi ilə qarşılandı. Qardaş ölkədə irimiqyaslı meşə yanğınları zamanı ilk yardıma gedən də məhz Azərbaycan türkləri oldu. Türk xalqlarının birliyi, qardaşlığı Türkiyə-Azərbaycan münasibətləri fonunda bütün türk dünyasına örnək oldu.

İlham Əliyevin prezidentliyi dönəmində uzun illər mübahisələrə səbəb olan Türkmənistanla Azərbaycan arasında mübahisəli qaz yataqları ilə bağlı razılıq əldə edildi.

44 günlük Zəfər müharibəsi zamanı da türk dünyasının mənəvi birliyinin şahidi olduq. Türkiyə dövlətinin mənəvi dəstəyi qələbəmizin təmin olunmasında mühüm rol oynadı.

Zəfər müharibəsindən sonra Türkiyə ilə Azərbaycan arasında 15 iyun 2021-ci ildə Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ilə bu dostluq və qardaşlığın artıq daha geniş platformada özünü ifadə etdiyinin şahidi olduq. Şuşa Bəyannaməsində Qars müqaviləsinə sadiqliyin bir daha vurğulanması türk birliyinin tarixi ənənələrə söykəndiyini nümayiş etdirdi.

Müharibədən sonra Qarabağda aparılan tikinti-quruculuq işlərinin həyata keçirilməsində Türk Dövlətləri Birliyi üzvü olan ölkələrin iştirakı da ən vacib addımlardan biridir.

Şübhəsiz ki, türk xalqlarının yaxınlaşmasında ortaq mədəniyyət və dil birliyinin mühüm rolu danılmazdır. İki türk dövlətinin başçısı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şövkət Mirziyoyevlə rəsmi görüşdə türk dilində danışmaları ortaq türkcənin eyni soy-kökə malik türk xalqlarının yaxınlaşmasında müstəsna rolunu bir daha təsdiqləmiş oldu.

Uzun müzakirələrdən sonra 9 sentyabr 2024-cü ildə Bakı şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) dəstəyi ilə Türk Akademiyasının Atatürk Mədəniyyət, Dil və Tarix Ali Şurası yanında Türk Dilçilik Cəmiyyəti ilə birgə təşkil etdiyi Türk Dünyasının Ortaq Əlifba Komissiyasının üçüncü iclasında türk dövlətlərinin vahid 34 hərfdən ibarət əlifbası qəbul edildi. Bu artıq türk birliyinin inteqrasiyasının ən yüksək səviyyədə olmasının ən gözəl nümunəsi kimi bu birliyin alternativsizliyinə inamı bir daha artırdı.

Türk xalqları ilə münasibətlər fonunda qardaş Özbəkistanla son illər artırılan qarşılıqlı intensiv səfərlər gözəl nəticələrə səbəb oldu. İşğaldan azad olmuş Füzuli şəhərində 23 avqust 2023-cü ildə Azərbaycan və Özbəkistan Prezidentlərinin iştirakı ilə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı oldu.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu məktəb Özbəkistan-Azərbaycan dostluğunun, qardaşlığının bir mərkəzi olacaq".

2023-cü ildə Azərbaycan ilə Türkiyə arasında ortaq universitet layihəsi Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı görüşdən sonra açıqlanmışdır. Artıq 2024-cü ildə Türkiyə-Azərbaycan Universiteti (TAU) fəaliyyətə başladı.

*Beləcə, Ulu Öndər Heydər Əliyevin başlatdığı, cənab İlham Əliyev tərəfindən uğurlu şəkildə davam etdirilən Türk Birliyi yaradılması və inkişaf etdirilməsi strategiyası təkcə Anadoluda, Qafqazda və Mərkəzi Asiyada yaşayan və müstəqil dövlətə malik türk xalqları üçün deyil, həm də bütün dünyaya səpələnmiş, fərqli ölkələrdə yaşayan türklər üçün ümid işığı, güvənc yeri kimi son dərəcə qiymətlidir və gələcəyə daha inamla baxmağa imkan verir.*

**Sadiq QURBANOV,**
***Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Milli etimadın gücü



**Prezident İlham Əliyevin doğum günü 2003-cü ildən mühüm və bir qədər mürəkkəb dövrdə Ulu Öndər Heydər Əliyevdən sonra siyasi estafeti qəbul edən, bununla bərabər xalqımızın böyük ideallarını və gələcək strateji baxışlarını özündə birləşdirən liderin şəxsi tərcümeyi-halının bir günüdür. Lakin on illər sübut etdi ki, İlham Əliyev xalqımızın qarşısında dayanan ən ümdə, ən mühüm vəzifələri yerinə yetirməklə şəxsi tərcümeyi-halının gününü millətin, dövlətin gününə qovuşdura bildi.**



XXI əsrin əvvəllərində mürəkkəb situasiyada Heydər Əliyevdən sonra dövlətimizin gələcəyini qeyri-müəyyənliyə, məchulluğa daxil etmək istəyən qüvvələr var idi. Onlar meydanlarda müxtəlif toqquşmalara da əl atdılar. Cəmi iki il sonra müxtəlif inqilabi proseslər dünyanı bürüdü. Tam məsuliyyətlə deyə bilərik ki, qızılgül inqilabları, əslində, qanlı inqilablar silsiləsi məhz Azərbaycanda dayandırıldı. Ondan sonrakı dövrdə bağlanan neft müqavilələri dağılmış iqtisadi sferanın bərpasına, bölgələrimizin inkişafına, ən başlıcası ordu quruculuğuna imkan yaratdı.

Prezident İlham Əliyevin strateji gücü, iradəsi imkan verdi ki, Azərbaycan güclü ordu formalaşdırsın. Ondan sonrakı illərdə regional və beynəlxalq şəraitin dəyişməsindən asılı olmayaraq, ölkəmiz həmişə hərbi siyasəti prioritet saxlayaraq yüz illər ərzində adına müxtəlif yarlıqlar yapışdırılan, həmişə yalnız ermənilərin timsalında güclü Qafqaz orduları kimi vəsf edilən, müəyyən qüvvələrin, dövlətlərin iradəsi ilə şişirdilən xalqların qarşısında böyük gücünü təqdim etməyi bacardı.

İlham Əliyevi xarakterizə edən ən mühüm xüsusiyyətlərdən biri proqramlı idarəçiliyə üstünlük verməsidir. Elə bir sahə yox idi ki, onunla əlaqədar 5-7, bəzən 10 illik proqram qəbul edilməsin. Bu, çox önəmlidir. Düşünürəm ki, bu, Azərbaycanın ümumi simasını, iqtisadi-siyasi həyatını fərqli şəkildə dəyişə bildi. Ən başlıcası Prezident İlham Əliyevin dəqiq strateji xətti var. Humanitar, mədəni, idman, o cümlədən iqtisadi, sosial, siyasi tədbirlərin də əsas hədəfi, məqsədi məhz torpaqlarımızın bütövlüyünə qovuşmaq idi. Müxtəlif qlobal konfranslardan, tədbirlərdən ümumiləşdirərək bir cümlə deyə bilərəm ki, ölkə rəhbəri həmişə tariximizdəki acılara ağrıyaraq yanaşıb. Bakı Dövlət Universitetinin 100 illiyi ilə bağlı tədbirdə dövlət başçısı "Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlər boyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur?" fikirlərini səsləndirərək, eyni zamanda o dövrün rəhbərlərinin də məsuliyyətsizliklərini ortaya qoyaraq lider xarizması, iradəsi, gücü ilə tarixlə müasir dövrümüz arasında güclü vəhdət yaratdığını göstərdi.

İlham Əliyevin adı tarixi salnaməmiz olan Vətən müharibəsində qalacaq. Biz 27 sentyabr - savaşın başlanması günündə millətimizin necə vüqarlı olduğunun, ruh yüksəkliyi göstərdiyinin şahidiyik. Eyni zamanda İlham Əliyevin sərkərdəlik məharəti təqdim olundu. Bunu Aprel və Günnüt əməliyyatları, digər ərazilərdə ermənilərə vurulan hərbi zərbələr də göstərmişdi. Bütün bu döyüşlər mahiyyət etibarilə Vətən müharibəsinin məşqləri idi. Şübhəsiz ki, dünya tarixində savaş dövründə xalqa müraciət, siyasi müstəvidə prosesi güclü formada millətimizin iradəsi çərçivəsində saxlamaq, informasiya məkanında öncüllüyü qorumaq, düşmənə psixoloji zərbələr vurmaq, o dövrdə xalqın hər bir cəbhədə iradəsini və qüvvəsini ayaqda saxlamaq hər hansı xəyanətlərə, xarici müdaxilələrə yol verməmək, XXI əsrin savaş nümunəsini müasir texnologiyaların gücü ilə gerçəkləşdirmək - bütün bunların hamısı Prezident İlham Əliyevin nailiyyətləri sırasındadır. Sonrakı dövrdə beynəlxalq təhlükəsizlik sistemindəki vəziyyət, böhranlar hər birimizə bəllidir. Lakin baş verən hərbi toqquşmalar, silahlı əməliyyatlar fonunda sanki böyüdülmüş Qarabağ prosesini görməkdə idik. Lakin XXI əsrdə qələbə qazanan, millətini bütövlüyə daşıyan hələ ki yeganə rəhbər məhz İlham Əliyevdir. 8 noyabr Şuşa Zəfəri ilə İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi millətin dilində epiqrafa çevrildi. O cümlədən bütün şəhidlərimizin, Qarabağı görmədən dünyadan gedən insanlarımızın, xalqımızın qarşısında böyük abidəyə çevrildi.

Qələbəmizi gözdən salmağa çalışan, zəfərimizi yarımçıq kimi dəyərləndirən qüvvələr Qarabağ məsələsini hakimiyyət uğrunda mübarizənin predmeti kimi görərək edənlər hücuma keçdilər. Biz İlham Əliyevin strateji səbrinin şahidi olduq. İlham Əliyev bir tərəfdən Qərb soyuqqanlılığına malikdir, digər tərəfdən, millətin hər bir nəfərini qorumaq üçün böyük fədakarlıq göstərir. Minlərlə insan itkisinin qarşısını aldı, ancaq ən başlıcası regional və beynəlxalq situasiyanı dərindən dəyərləndirərək dövlətlərarası toqquşmalara yol vermədən, Azərbaycanı tarixən gücsüz və əldən salan yanlışları törətmədən qələbəyə apardı.

İndi biz, sözün həqiqi mənasında, 7 fevral prezident seçkilərini xalqın ümumi ruh paradı kimi dəyərləndiririk. İlham Əliyev gənc yaşlarından dövlətin idarəetmə sükanını qəbul edərək, onu uğurla aparır, müxtəlif region və daha üst ərazilərdə baş verən siyasi çöküşlərin, ayrı-ayrı ölkələrin süquta uğradığı ağır bir dönəmdə elə siyasət sərgiləyir ki, xalqımızı qorusun. Biz bununla həm qələbəmizi hifz etməyə, həm də onun üzərinə yeni uğurlar gətirməyə nail olaq. Mehriban xanımla dövlətimizin, xalqımızın ən ümdə ideallarını çiyinlərində daşıyan və bunu uğurlu şəkildə həyata keçirən liderimizə cansağlığı arzulayır, İlham Əliyevin başlatdığı Azərbaycanın uzaqvədəli, çoxəsrlik strategiyasının uğurlu təməl yaratdığına inanırıq.

**Zahid ORUC,**
***Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin İdarə heyətinin sədri***

# Müzəffər lider

*Dövlətləri və xalqları dünyaya daha yaxından tanıdan tarixi və milli-mədəni dəyərləri ilə yanaşı, həm də onların müdrik və görkəmli siyasi liderləridir. Məhz belə liderlər öz siyasi və dövlətçilik fəaliyyətləri ilə tarixi proseslərə təsir göstərir, onların inkişaf istiqamətlərini müəyyənləşdirir, əməlləri ilə təmsil etdikləri xalqın qürur mənbəyinə çevrilirlər. Parlaq ideyalarının, siyasi-diplomatik fəaliyyətlərinin nəticəsi olaraq onlar dövlətin tərəqqisində, xalqın birliyində həlledici rol oynayırlar.*

## Heydər Əliyev dövlətimizin təməl prinsiplərini və inkişaf yollarını müəyyən etdi

Siyasi liderlərin fəaliyyətlərinin nəticələri barədə tarixdən çoxlu misallar gətirmək olar. Olduqca qürurvericidir ki, müstəqil Azərbaycan dövlətinin müasir yüksəliş nümunəsində müdrik siyasi liderlərin dövlətlərin və xalqların taleyindəki böyük rolu aydın görünür. Bəli, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi və ötən 21 ildə möhtərəm Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi kursun nəticəsi olaraq Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi siyasi liderlərin xalqların taleyindəki rolu barədə dolğun fikir yürütmək üçün böyük mənbədir.

Əgər Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanı keçmiş ittifaqın geridə qalmış aqrar üzvündən öndə gedən, inkişaf etmiş sənaye respublikasına çevirmişdisə, 90-cı illərin əvvəllərində müstəqilliyimizi qorudu, respublikamızın parçalanmasının qarşısını aldı. Bu gün hər kəs belə bir həqiqəti bölüşür ki, əgər 1993-cü ildə Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasaydı, Azərbaycan xalqının tamamilə fərqli və həm də faciəli taleyi və tarixi yazıla bilərdi. Çünki həmin dövrdə AXC-Müsavat hakimiyyətinin yürütdüyü yarıtmaz siyasətin, onların milli xəyanət yolunu tutmasının nəticəsi olaraq respublikada yaranmış dərin siyasi xaos, separatizmin baş alıb getməsi və Ermənistanın işğalçılıq planlarının genişlənməsi başqa cür düşünməyə əsas vermir.

Yalnız Heydər Əliyevin siyasi müdrikliyinin nəticəsi olaraq siyasi böhran aradan qaldırıldı, müstəqilliyimiz və dövlətçiliyimiz üçün yaranmış bütün təhlükələr dəf edildi. Ulu Öndər görkəmli dövlət xadimi kimi özünün zəngin siyasi və idarəçilik təcrübəsinə söykənərək mütərəqqi dövlət quruculuğunu uğurla həyata keçirdi, iqtisadi tənəzzülün qarşısını alaraq, iqtisadi inkişafın əsasını qoydu. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan dünyada tanındı. Dünyanın tanınmış neft şirkətləri məhz Heydər Əliyevə inanaraq "Əsrin müqaviləsi"nə qoşuldular, ölkəmizə sərmayə yatırdılar.

Hər bir xalq öz dövlətçiliyinin idarə olunmasında müəyyən ideoloji prinsiplərə söykənir. İdeologiyasız dövlətçilik mümkün deyil. Xalq ideologiyaya söykənmədən irəli gedə bilməz. Dünyanın inkişaf etmiş dövlətlərinin keçdiyi tarixi inkişaf yoluna nəzər salsaq, onların müəyyən prinsiplərə əsaslandığını görərik. Təsadüfi deyil ki, Heydər Əliyev həm də müasir Azərbaycanın təməl prinsiplərini müəyyən etdi. Bunlardan birincisi, müstəqil dövlətçilik, azərbaycançılıq, qanunçuluq, siyasətdə varislik və sosial ədalət prinsipləridir.



## Böyük siyasətin layiqli davamçısı

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti qarşısında ən böyük tarixi xidmətlərindən biri də müəyyən etdiyi siyasi kursu layiqincə davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi varisini yetişdirməsidir.

2003-cü ildə Azərbaycan xalqı İlham Əliyevi ilk dəfə prezident seçməklə həm də Heydər Əliyevə, onun siyasi yoluna sadiqliyini nümayiş etdirdi. Bu, xalqımızın Ümummilli Liderə sevgisinin və sonsuz inamının bir daha təsdiqi oldu. Prezident kimi fəaliyyətə başlayan İlham Əliyev andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirdi, Heydər Əliyev siyasətinə sadiq qalacağını bəyan etdi.

Ötən 21 ildə müdrik rəhbərliyi ilə verdiyi bütün vədləri doğruldan, dövlətimizin qarşısında dayanan taleyüklü problemlərin həllinə nail olan cənab Prezident İlham Əliyev öz əməlləri ilə Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi davamçısı olduğunu sübuta yetirib, dövlətə və xalqa xidmətin mükəmməl nümunəsini yaradıb. Prezident İlham Əliyev ötən 21 il ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişlənib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənib. Regionda reallaşdırılan bütün beynəlxalq irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Bu baxımdan qürurla qeyd etməliyik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində son 21 illik zaman kəsiyi Azərbaycan tarixinin iqtisadi yüksəlişlə başlayıb tarixi Zəfərlə davam edən ən qüdrətli mərhələsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə geridə qoyduğumuz 21 il ərzində ölkəmiz ən şanlı dövrünü yaşayıb və bundan sonra da yaşayacaqdır.

Davamlı inkişafı təmin edən Prezident İlham Əliyev müstəqilliyimizin, ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinə və iqtidar-xalq vəhdətinin daha da güclənməsinə nail olub. Diqqəti çəkən siyasi məqamlardan biri də odur ki, yüksək dövlətçilik və idarəçilik təfəkkürünə malik lider kimi Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə rasional davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirib, siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı və milli siyasi etika nümunəsi təqdim edib.

Prezident İlham Əliyevin rəhbərliyi altında bu dövrdə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizm, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilib, nəhəng transmilli, energetika layihələri reallaşdırılıb. "Zəngin və qüdrətli Azərbaycan uğrunda" çağırışı ilə milyonları öz ətrafında toplayan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycan demokratik və hüquqi dövlət kimi inkişaf edib. Heydər Əliyev siyasətinə söykənərək ölkəmizin uğurlara imza atdığı bu illər Azərbaycan tarixinin ən parlaq dövrüdür. Azərbaycan Prezidenti fəaliyyətinin bütün sahələrində milli və dövlətçilik maraqlarını öndə saxlayıb, Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirib.

## Xalqa və dövlətçiliyə layiqli xidmətin nümunəsi

Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Bu baxımdan ötən 21 ilin əsas həqiqətlərindən biri də budur ki, Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət yürüdür.

Bütün bunların fonunda Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, Sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Vaxtilə müharibə şəraitində yaşayan ölkəmizin bütün sahələrindəki davamlı inkişaf Prezident İlham Əliyevin qarşısına qoyduğu məqsədləri uğurla yerinə yetirdiyini göstərir.

Prezident İlham Əliyev ictimai rəyi nəzərə alır və ölkədəki ictimai-siyasi durumu düzgün qiymətləndirir. Bunlara əsasən də strateji hədəflərini, taktiki gedişlərini, idarəçilik aparatını davamlı təkmilləşdirir və Azərbaycanda misli görünməmiş dəyişikliklərə müəlliflik edir. Dövlət başçısının gələcəyə baxış konsepti çoxşaxəli olduğu qədər də konkret və məqsədyönlüdür. Bu, yalnız iqtisadi və siyasi aspektləri deyil, həm də milli dəyərlər sistemi olan geniş mənəvi spektri əhatə edir. Cənab İlham Əliyev dövlətin inkişafında müasir dövrün çağırışlarını nəzərə alıb həm də xalqımızın milli identikliyinin sütunlarını möhkəmləndirir.

Prezidentin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı davamlı xarakter daşıyır. Siyasətinin əsasında Azərbaycan xalqının maraqlarını müdafiə etməyin vacibliyinin dayandığını söyləyən cənab Prezident xalqın rifah içində, təhlükəsizlik şəraitində yaşaması üçün əlindən gələni edir. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində ardıcıl addımlar atır. Ümumi daxili məhsulun artımı, sənaye və kənd təsərrüfatı istehsalının yüksəlməsi, yeni iş yerlərinin açılması, bütövlükdə əhalinin real gəlirlərinin artması kimi faktorlar bunun əyani sübutudur. Prezident İlham Əliyevin apardığı uğurlu sosial siyasət nəticəsində işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılır.

Bu sahədə əldə olunmuş nailiyyətlər bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması da bu sahəyə cənab Prezidentin qayğısını bir daha təsdiq edir.

Hər bir xalqın genetik yaddaşını möhkəmləndirmək, mənəvi irsini və əxlaqi dəyərlərini qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək kimi çətin missiyanın yerinə yetirilməsi uzaqgörən liderlərin fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Onlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə gedərək, göstərdikləri tarixi fəaliyyətlə rəhbərlik etdikləri dövlətlərin mütərəqqi yolla inkişafına nail olurlar. Bu baxımdan Prezident İlham Əliyev xalqımızın milli-mənəvi bütövlüyünün təmin olunmasında özünəməxsus yer tutan milli şüurun inkişafını daim diqqət mərkəzində saxlayır ki, bu da təsadüfi deyildir. Çünki milli şüur hər bir insanın mənsub olduğu xalqa bağlılıq hisslərini möhkəmləndirməklə milli özünüdərketmədə ciddi rol oynayır. Prezident İlham Əliyev xalqımızın mənəvi tərəqqisinə, milli özünüdərkin və qürur hissinin güclənməsinə Azərbaycanın inkişaf strategiyasının tərkib hissəsi kimi yanaşır.

## Şərəfli tariximizin yaradıcısı

Əsrə bərabər 21 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Prezident İlham Əliyev Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı oldu. Prezident, Ali Baş Komandan İlham Əliyev öz qüdrətli ordusunu yaratdı, qələbə qazandı və işğaldan azad edilmiş ərazilərimizə səfərlər edərək möhtəşəm Zəfərini bütün dünyaya bəyan etdi. Böyük Qələbə bilavasitə dövlət başçısının mükəmməl siyasi savadı, strateqliyi, güclü təfəkkürü, diplomatik ustalığı, dəmir iradəsi sayəsində əldə edildi. Sadalanan keyfiyyətlər nəticəsində hərb meydanından əlavə, siyasi və diplomatik arenada da üstünlük birbaşa Azərbaycanın tərəfinə keçdi. Hamımız qürurla şahidi olduq ki, İlham Əliyev beynəlxalq KİV vasitəsilə erməni faşizminin mahiyyətini bütün dünyaya göstərdi. Xalqın etimadına, haqq yolunda ədalətə söykənən lider tarixi ədaləti bərpa etdi. Cənab İlham Əliyevin adı möhtəşəm Zəfər qazanan, Azərbaycan torpaqlarını 30 illik işğaldan 44 günə azad edən, ərazi bütövlüyümüzü bərpa edən böyük sərkərdə kimi tarixə düşdü.

Azərbaycan dövləti torpaqlarımızı erməni işğalçılarından azad etməklə bölgədə yeni reallıq yaratdı və 27 il BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi, "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü".

Qarabağ iqtisadi rayonunda ermənilərin törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş torpaqlarımıza qayıdan dinc əhalinin, bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü il sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması və uğurla başa çatdırılması nəticəsində Azərbaycanın suverenliyinin tam bərpa edilməsi, ərazilərimizdə qanunsuz məskunlaşmış erməni separatçılarının şərtlərimizi qəbul edərək təslim olmaları qalib ölkəmizin böyük uğuru olaraq hər birimizi qürurlandırdı, tariximizin növbəti şərəf səhifələri oldu.

## Azərbaycan tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəlib

Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan inkişaf strategiyasını siyasətinin ana xəttinə çevirən Prezident İlham Əliyev özünün müdrik fəaliyyəti ilə Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsinin müəllifidir. Müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin davam etdirilməsi nəticəsində ölkəmiz bu gün dövlət kimi dünyada böyük nüfuz qazanıb.

Məhz yuxarıda qeyd edilənlərin nəticəsidir ki, Prezident İlham Əliyev 2003-cü ildən sonra keçirilən bütün prezident seçkilərinin qalibidir. Bir məsələni də qeyd etmək yerinə düşər ki, siyasi liderə inam onun hakimiyyət səlahiyyətlərinin legitimliyində və cəmiyyətdə böyük nüfuz qazanmasında xüsusi yer tutur. Xüsusilə seçkilər liderə inamın hansı səviyyədə olduğunu sübut edən göstərici rolunu oynayır. Cəmiyyətdə gedən proseslərə obyektiv mövqedən yanaşması və ictimai şüurda baş verən dəyişiklikləri daim diqqət mərkəzində saxlaması siyasi liderin böyük uğurlar əldə etməsinə yol açır. Seçicilər, adətən, elə siyasi lideri dəstəkləyirlər ki, onun ideya və baxışları ictimai tələblərə tam şəkildə cavab verir. Siyasi liderin nüfuz qazanması üçün ümummilli mənafeləri üstün tutması, xalqı düşündürən məsələlərə böyük həssaslıqla yanaşıb onları həll etməsi vacib şərtdir. Buna görə də Azərbaycan xalqının Prezident İlham Əliyevə inamı onun müxtəlif illərdə keçirilmiş prezident seçkilərində böyük səs çoxluğu ilə qələbə qazanmasına həlledici təsir göstərmişdir və bunun əsasında siyasi elektoratın rasional seçimi dayanır.

Dövlət başçısının apardığı düşünülmüş və milli maraqları ehtiva edən siyasi kurs xalqımızı şanlı dövlətçilik tariximizin ən uğurlu illərini yaşatmaqla yanaşı, Azərbaycanı regionun aparıcı dövlətinə, dünyada söz sahibinə çevirib. Ötən ay Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bunu bir daha təsdiq etdi. Bu mötəbər tədbir dünya ictimaiyyətinin nəzərlərini iqlim dəyişikliklərinin yaratdığı fəsad və problemlərə yönəltməklə yanaşı, Prezident İlham Əliyevin ölkəmizə qazandırdığı böyük siyasi-diplomatik uğur kimi tarixə düşdü. Dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində keçirilən İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycanın yekdilliklə D-8 təşkilatının üzvü seçilməsi isə respublikamızın növbəti mühüm diplomatik nailiyyəti oldu.

Prezident İlham Əliyevin müdrik rəhbərliyinin nəticəsi olaraq Azərbaycan beynəlxalq miqyasda sürətli inkişaf yolunda olan, dünyadakı aktual problemlərin həllinə töhfələr verən dövlətlərdən biri kimi tanınır. Dünya Azərbaycanı həm də torpaqlarını döyüş yolu ilə işğaldan azad edən dövlət kimi tanıyır. Ona görə Prezident İlham Əliyev Azərbaycanın şərəf tarixini yazan və yaradan Müzəffər Liderdir.

**Mübariz QURBANLI,**
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı***

# Yeni əsrin Lideri



**Dünyada sülhün, əminamanlığın, təhlükəsizliyin təmin edilməsi, dövlətlərin və xalqların azadlığı, firavanlığı, həyatın mənalandırılması, ömrün xoşbəxtliyi böyük şəxsiyyətlərin amalları, dövlət rəhbərlərinin siyasi baxışları, əməli fəaliyyətləri ilə sıx bağlıdır. Bəşəriyyət tarix boyu belə insanların varlığına, əməllərinə ehtiyac duyub, bu şəxsiyyətlərə arxalanıb və bu gün də xalqlar onların adını əbədiləşdirməklə dünyanı təlatümlərdən, faciələrdən, müharibələrdən qurtarmağa, insanları yaşatmağa çalışan liderlərə böyük ehtiram göstərir, adlarını uca tuturlar.**

Türkdilli dövlətlərin tarixinə, uzaq keçmişinə deyil, dününinə, elə bu gününə nəzər salanda da bunu aydın görər və bir daha qürur hissi keçirərik. Tanrı XX əsrdə Azərbaycan və Türkiyə xalqına dünyada böyük hörmətə, ehtirama sahib olan dahi şəxsiyyətləri, müdrik rəhbərləri Mustafa Kamal Atatürkü, Heydər Əliyevi, yeni əsrdə isə öz sülhsevər, humanist çağırışları, əməlləri, mübarizələri ilə dünyanı heyrətə salan Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevi bəxş etməklə onların timsalında insanlığa, ədalətə, haqqa geniş meydan verib.

Atatürk və Heydər Əliyev ölkələrinin ən çətin anlarında hakimiyyətə gəldilər vətənlərinin, xalqlarının azadlığı, gələcəyi üçün mübarizədən çəkinmədilər, həyatları bahasına dövləti parçalanmadan, işğaldan qurtardılar. Dünyaya yeni bir Türkiyə, Azərbaycan bəxş etdilər. Türkçülüyü, azərbaycançılığı - iki dövlət bir millət olmağı, dərdin, kədərin, sevincin-vüsalın vahidliyini, birliyini nəsillərə elan etdilər, Türk dövlətlərinin həmrəyliyinin əsasını qoydular.

Əlbəttə, bu iki dahi insan olmasaydı bu gün Azərbaycanın və qardaş Türkiyənin varlığından, inkişafından, dünyada qazandıqları uğurlardan, bəşəriyyətə bəxş edilən faydalı töhfələrdən danışmaq mümkün olmazdı. Keçilən keşməkeşli mübarizə yolu həm də ibrət, təcrübə məktəbi idi və bugünkü dövlət rəhbərləri cənab Rəcəb Tayyıb Ərdoğan və cənab İlham Əliyev həmin məktəblərin yetirmələri və həmin yolun sədaqətli davamçılarıdır. İndi iki qardaş ölkənin - Türkiyə və Azərbaycanın beynəlxalq aləmdə qazandıqları uğurlar, iqtisadi inkişaf, sülhə, əməkdaşlığa verdikləri faydalar dünyaya bir nümunə kimi göstərilir və bu, xalqlarımızı qürurlandırır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev yeni əsrin yeni, uzaqgörən lideri kimi Ulu Öndərimiz Heydər Əliyevin ölməz ideyalarına arxalanaraq ölkəmizi uğurla irəli aparır. O, beynəlxalq aləmdə baş verən hadisələri aydın görür, ətraflı təhlil edir, eləcə də ölkədaxili, geosiyasi və qlobal müstəvidə mövcud reallıqları düzgün qiymətləndirir və bildirdiyi kimi nəyi nə vaxt və necə etməyi yaxşı bacarır. Dövlətin təhlükəsizliyi, suverenliyimizin qorunması, milli maraqlarımızın təmin edilməsi, xalqın rifah halının yaxşılaşdırılması Prezident İlham Əliyevin daxili və xarici siyasətinin əsasıdır və o, bunu ən möhtəbər beynəlxalq təşkilatların tribunasından bəyan edir, insanlarla görüşlərdə dönə-dönə xatırladır və yürütdüyü müstəqil siyasətlə, qlobal böhranlardan çıxış yolu axtarmaqla, xalqlara və dövlətlərə sağlam münasibəti ilə seçilir və sevilir. Ölkənin dinamik inkişafı, demokratik təsisatlara meydan verilməsi, söz, mətbuat azadlıqları, sürətli modernləşmə, dünya ölkələri ilə münasibətlərin günbəgün yaxşılaşdırılması və möhkəmləndirilməsi, beynəlxalq əməkdaşlığa üstünlük verilməsi, milli-mənəvi, bəşəri dəyərlərə xidmət edən tədbirlərə evsahibliyi Azərbaycana dünyada böyük şöhrət qazandırmaqla bərabər, həm də rəhbərimizə böyük hörmət və ehtiram doğurmuşdur. Xarici ölkə rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, beynəlxalq təşkilatlar cənab İlham Əliyevin fəaliyyətini təqdir edir, onun öz xalqı, eləcə də bəşəriyyətin rahatlığı və təhlükəsizliyi naminə gördüyü işləri yüksək qiymətləndirirlər.

Cənab İlham Əliyev ölkənin tərəqqisini, təhlükəsizliyinin təmin edilməsini, ordunun gücləndirilməsini və insanların firavan həyatlarını iqtisadi inkişafda görür və prezident seçildiyi ilk gündən iqtisadi məsələləri ön plana çəkir, yeni dövlət proqramlarının hazırlanmasına, layihələrin həyata keçirilməsinə, sahibkarlığın inkişafına böyük önəm verir. Dövlətimizin rəhbəri bildirir ki, "Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır".

Əlbəttə, bu reallıqdır və son 21 ildə əldə olunan nəticələr bunu deməyə əsas verir. Belə ki, bu dövrdə ölkənin ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox yüksəlib. Yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5.5 faizə düşüb. Valyuta ehtiyatlarımız 1.6 milyard dollardan 72 milyard



dollara yüksəlib. Minimum əməkhaqqı 9 manatdan 345 manata, minimum pensiyalar 20 manatdan 280 manata çatıb. Əmək haqları, sosial müavinətlər və yardımlar dəfələrlə artıb.

2025-ci ilin Dövlət büdcəsinin gəlirlərinin 38.4 milyard manata, xərclərinin 41.4 milyard manata çatması yürüdülən iqtisadi siyasətin səmərəli olmasının nümunəsidir. Davamlı və dayanıqlı iqtisadiyyata əsaslanan ölkədə bu il ümumi daxili məhsulun 3.5 faiz, qeyri-neft sektoru üzrə 4.9 faiz artımı proqnozlaşdırılır ki, bu sürət qənaətbəxşdir. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərclərinin ümumi büdcə xərclərinin 20.6 faizini, sosialyönümlü xərclərin 41 faizini təşkil etməsi dövlətin, ölkə rəhbərinin insanların təhlükəsizliyinə və rifah halının yaxşılaşdırılmasına göstərdiyi qayğının və diqqətin ifadəsidir. Minimum əməkhaqqı, pensiya və digər sosial ödənişlərdə yeni artımlar gələn il 3 milyona yaxın vətəndaşı əhatə edəcəkdir ki, bu da sosial məsələlərə daim önəm verilməsinin əyani göstəricisidir. Növbəti ildə əmək pensiyalarının orta məbləği 535 manata, yaşa görə pensiyaların orta məbləği 571 manata çatacaqdır. Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, abadlaşdırılması, ölkə iqtisadiyyatına reinteqrasiyası, Böyük qayıdışın təmin edilməsi, işğaldan azad olunmuş ərazilərdə həyatın canlandırılması və iş yerlərinin açılması Azərbaycan Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdəndir. 2020-ci ildən bu məqsədlə 18 milyard və gələn il 4 milyard manat, cəmi 22 milyard manat vəsait ayrılmış və həmin ərazilərdə bərpa-təmir, tikinti işləri sürətlə davam etdirilir. Bu günədək 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülmüşdür və məskunlaşdırma tədbirləri mərhələli şəkildə aparılmaqdadır.

2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1.1 milyard manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılmışdır ki, bu da bir çox vacib məsələlərin həll edilməsinə imkan yaradacaqdır.

Göründüyü kimi, Azərbaycan Prezidentinin iqtisadi siyasət kursu məqsədlidir, davamlıdır və ölkənin inkişafına, xalqın rifahına hesablanmışdır. Bu kursun səmərəliliyi bütün sahələrdə - beynəlxalq münasibətlərdə, qarşılıqlı əməkdaşlıqda, dünya əhəmiyyətli tədbirlərdə özünü göstərir və dövlətimizin rəhbərinin liderliyini möhkəmləndirir, sözünü gücləndirir, imkanlarını daha da şaxələndirir. Cənab İlham Əliyev qeyd edir ki, "ləyaqətli siyasət, kifayət qədər cəsarət və ölkənin gələcəyi üçün aydın strategiya mövcud olduğu halda müstəqil siyasət yürütmək mümkündür. Müstəqil ölkə kimi Azərbaycan bu gün də müstəqil siyasət aparır. Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır".

Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi çətin illərdə - COVID19-un dünyanı təhlükə qarşısında qoyduğu bir vaxtda cənab İlham Əliyev hansı müdrik siyasətə, diplomatik məharətə, praqmatik baxışa, bəşəri dəyərlərə malik olduğunu dünyaya sübut etdi. O, bu hərəkatı Birləşmiş Millətlər Təşkilatı səviyyəsində dünyanın böyük həmrəylik hərəkatı səviyyəsinə yüksəltməklə, humanist amalları, əməlləri reallığa çevirməklə imkansız ölkələrə, xalqlara dəstək verməklə dövlətimizin, həm də özünün beynəlxalq aləmdə nüfuzunu qat-qat yüksəltdi. Qoşulmama Hərəkatı dünyaya yeni formada, yeni baxışda, ən əsası insanlığa, sülhə, azadlığa, xalqların bərabərliyinə xidmət edən hərəkat, birlik kimi təqdim edildi və az müddətdə dünya xalqlarının böyük rəğbətini qazandı.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası bu gün ölkəmizin rəhbəri tərəfindən uğurla həyata keçirilir. Azərbaycan öz təbii sərvətlərinin sahibidir və enerji sahəsində əməkdaşlıq əlaqələrini milli maraqlara uyğun reallaşdırır. Artıq enerji siyasəti ilə bağlı təşəbbüslər, müqavilələr və reallaşan layihələr regional çərçivəni keçərək qlobal miqyas alıb və Azərbaycanı böyük enerji potensialına malik ölkə kimi tanıdıb. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin davamı olan, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan TANAP-TAP layihələri cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

Azərbaycanın nəhəng iqlim sammitinə - COP29-a evsahibliyi etməsi dövlətimizə göstərilən böyük etimadın ifadəsi idi və bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi cənab İlham Əliyevin yüksək təşkilatçılıq bacarığına, siyasi iradəyə malik olduğunu sübut etdi. Beynəlxalq əhəmiyyətli tədbirin az müddətdə yüksək səviyyədə təşkili, həm də boykot cəhdlərinin qarşısının alınması və sammitdə istənilən nəticənin əldə edilməsi - iqlim mövzularına illik 300 milyard dolların razılaşdırılması İlham Əliyev siyasətinin uğuru kimi qiymətləndirilməlidir. Rəhbərimiz bu uğuru müsahibəsində belə dəyərləndirir: "Əlbəttə ki, 197 ölkə, 80 dövlət və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 min iştirakçı, həm də bu, boykot cəhdlərinin fonunda oldu. Bu, bir növ ölkələrin təqdimatı idi". Bu, ölkəmizin təqdimatı ilə yanaşı, cənab Prezidentin təqdimatı idi. Bu, möhtəşəm, unudulmaz, daim xatırlanacaq və dövlətimizin başçısına rəğbət yaradan, hörmət qazandıran bir təqdimat idi. Prezidentimizin milli maraqlara söykənən və ölkədə davamlı inkişafı təmin edən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları və 2003-cü ildən başlayaraq bu istiqamətdə görülən tədbirlər nəticəsində rayon və şəhərlərimizdə davamlı yüksəlişə imza atılmış, genişmiqyaslı yenidənqurma və abadlıq-quruculuq işləri həyata keçirilmiş, yeni infrastruktur layihələri yerinə yetirilmiş, müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələri, iş yerləri açılmışdır. Ölkədə biznes mühiti daha da yaxşılaşdırılmış, sahibkarlara geniş imkanlar yaradılmışdır.

Aqrar sahənin inkişafı dövlətimizin rəhbərinin daim diqqət mərkəzindədir. 2025-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı xərclərinin 1172.0 milyon manat nəzərdə tutulması və həmin vəsaitin 510,7 milyon manatının mövcud olan su ehtiyatlarından səmərəli istifadəsinin təmin olunmasına, müasir texnologiyaların tətbiq edilməsinə, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməsi, həm də toxumçuluğun, heyvandarlığın inkişafı üçün əlavə vəsaitlərin ayrılması aqrar sahəyə dövlətin qayğısı kimi dəyərləndirilməlidir. Bu qayğının nəticəsidir ki, bu ilin keçən dövrü ərzində aqrar sənaye məhsullarının ixracının dəyəri xeyli dərəcədə artıb. Kənd təsərrüfatının ümumi məhsullarının faktiki qiymətlərlə dəyəri 12 milyard manata yaxındır. Aqrar sektor ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında başlıca rola malik gəlir gətirən sahəyə çevrilməkdədir.

Bu gün işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı üçün əsaslı tədbirlər görülür. Yüz min hektarlarla torpaq sahəsi artıq minalardan təmizlənmiş, xeyli torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmiş, bu ərazilərdə hazırda taxıl, qarğıdalı və digər kənd təsərrufatı məhsulları yetişdirilməkdədir.

Azərbaycan Prezidentinin fəaliyyəti geniş, çoxsahəli və səmərəlidir. Cənab İlham Əliyevin son 21 ildə daxili və xarici siyasətdə əldə etdiyi uğurları, xalqına və bəşəriyyətə göstərdiyi xidmətləri nəzərə alınmaqla onun 44 günlük müharibədə və 23 saatlıq antiterror tədbirlərində göstərdiyi iradəni, siyasi yetkinliyi, xalqa və torpağa məhəbbətini, sədaqətini göz önünə gətirməklə qürurla deyə bilərik ki, rəhbərimiz, Ali Baş Komandanımız əbədi bir ömrün, qəhrəmanlığın sahibidir.

O əsrlərlə həllini tapmayan və tapmağı güman edilməyən bir problemi siyasi ustalıqla, zərgər dəqiqliyi ilə həll etdi, 30 il erməni təcavüzkarlarının işğalı altında olan torpaqlarımızı əsarətdən qurtardı, erməni faşistlərinin ayaqlarını Qarabağ torpaqlarından kəsdi, xalqımızı bütün dünyaya mübariz, qəhrəman xalq, ordumuzu yenilməz, döyüşkən ordu kimi təqdim etdi. Bu qələbə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası olmaqla bərabər, milli birliyimizin, xalqımızın yenilməzliyinin ifadəsi oldu. Zəfərimiz Azərbaycanın beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirdi. Güclü iqtisadiyyat, qüdrətli ordu, daxili sabitlik, xalq-iqtidar birliyi ölkə rəhbərinin söylədiyi kimi, ölkəmizin öz fəaliyyət dairəsini regiondan kənarda da genişləndirmək üçün hər cür imkanlara malik olmasını, Azərbaycan dövlətçiliyinin artan potensialını bir daha təsdiq edir.

Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirir və bu siyasət, bu yol liderimizin uğurlarına yeni uğur bəxş etməklə yanaşı, cənab Prezident İlham Əliyevə dünyanın ən uzaqgörən, müdrik rəhbəri adını qazandırmışdır.

Azərbaycanın, xalqın xoşbəxtliyi naminə cənab İlham Əliyevə fəaliyyətində daha böyük müvəffəqiyyətlər arzulayırıq.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Dünyada ehtiramla qarşılanan şəxsiyyət

**Bütün çətinliklərdən və sınaqlardan çıxaraq öz hədəflərinə çatan, dövlətçiliklərini, müstəqilliklərini təmin edə bilən, milli kimliklərini qoruyan xalqları bir sıra vacib siyasi dəyər və meyarlar birləşdirir. Tarix göstərir ki, bunların arasında ən mühümü öz məqsədləri uğrunda tarixi mübarizələrdə həmin xalqlara müdrik və qətiyyətli liderlərin rəhbərlik etməsidir. Böyük fəxrlə qeyd etməliyik ki, respublikamızın son 55 illik tarixi Ulu Öndər Heydər Əliyevin ümummilli missiyaları və möhtərəm Prezident İlham Əliyevin Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirməsinin fonunda bunu təsdiq edən həqiqətlərlə zəngindir.**

Diqqət yetirsək görərik ki, Ulu Öndər Heydər Əliyev həm sovet, həm müstəqillik illərində respublikamıza rəhbərliyə başlayanda ölkədə vəziyyət heç də ürəkaçan olmayıb. Əgər sovet illərində Azərbaycan öz inkişafına görə keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri idisə, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyimiz itirilmək, ölkəmiz parçalanmaq qarşısında idi. Böyük şəxsiyyət Heydər Əliyev hər iki mərhələdə özünün tarixi missiyalarını qətiyyətlə, inamla, milli və vətəndaş təəssübkeşliyi ilə yerinə yetirdi. Təsadüfi deyil ki, sovet dövründə Azərbaycanın hərtərəfli yüksəlişi, milli dəyərlərimizin qorunması və bütün bunların ən böyük nəticələrindən biri kimi müstəqilliyimizə gedən yolların əsaslarının yaradılması birmənalı olaraq Heydər Əliyevin liderlik missiyasının, xalqımız qarşısında misilsiz tarixi xidmətinin göstəricisidir. Bu siyasi kursun tariximizin növbəti mərhələsində davamı olaraq bizə müstəqil və sabitliyin hökm sürdüyü bir dövlətdə yaşamağı nəsib etdiyinə görə xalqımız hər zaman Ulu Öndər Heydər Əliyevə minnətdar olacaqdır.

Ona görə Heydər Əliyev siyasəti inkişaf, yüksəliş, müstəqil və güclü Azərbaycan deməkdir. Ona görə 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş prezident seçkilərində xalqımız cənab İlham Əliyevə ilk dəfə etimad göstərməklə Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə, Azərbaycanın inkişafına, qüdrətlənməsinə, sabitliyə səs verdi. Geridə qoyduğumuz illərin mənzərəsi göstərir ki, Heydər Əliyev yolunun alternativi yoxdur. Ötən 21 ildə Prezident İlham Əliyevin Azərbaycana bəxş etdiyi uğurlar o qədər çoxdur ki, sanki 2 onillikdən deyil, əsrə bərabər bir dövrdən bəhs edirik. Bəli, bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan dövlətlər buna nail olmaq üçün 50 il, 100 il qət etməli olublar.

Statistik iqtisadi göstəricilər Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə keçdiyimiz inkişaf yolunun nə qədər zəngin və əzəmətli olduğunu göstərir. Məsələn 21 il əvvəl Azərbaycanın dövlət büdcəsinin gəlirləri təxminən 1,2 milyard manat həcmində idi. 2025-ci ildə isə dövlət büdcəmizin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407 milyon manat olacaq. Müdafiə və milli təhlükəsizlik xərclərimizin dövlət büdcəsindəki ümumi məbləği 8 milyard 555 milyon manata çatdırılacaq. Respublikamızın strateji valyuta ehtiyatları 2003-cü ildə təxminən 1,8 milyard dollar həcmində idi. Bu gün isə strateji valyuta ehtiyatlarımız 72 milyard ABŞ dollarını ötmüşdür. Təbii ki, artan maliyyə imkanları büdcəmizin böyüməsi, iqtisadiyyatın digər sahələri üçün əlavə imkanların yaranması deməkdir. Eyni zamanda artan maliyyə imkanları vətəndaşların sosial-rifahının yüksəlişində, əmək haqlarının və pensiyaların artımında özünü göstərir. Əlbəttə, ötən 21 ilin sosial-iqtisadi göstəriciləri ilə bağlı pensiyalardan başlamış, ÜDM-in həcminin, xarici ticarət dövriyyəsinin ölkəmizə yatırılan investiyaların miqyasının, sahibkarlıq subyektlərinin artımına qədər çoxsaylı rəqəmlər səsləndirmək mümkündür. Bu rəqəmlərin hər biri üzrə artım fərqi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafını ehtiva edən mühüm sosial-iqtisadi amillərdir.

Bəli, Azərbaycan bu dövrdə bütün inkişaf göstəricilərinə və nailiyyətlərinə görə zamanı qabaqlayıb və müstəqilliyinin üçüncü onilliyindən etibarən öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəlməyə nail olub. İndi dünyanın harasında olmasından asılı olmayaraq Azərbaycan deyəndə, güclü, qlobal səviyyədə nüfuz və söz sahibi olan dövlət göz önünə gəlir.

Bütün bunlarla yanaşı, indi dünyada Azərbaycanın adı gələndə həm də beynəlxalq münasibətlərdə ədalətsizliyin və hüquq prinsiplərinin tapdalandığı bir şəraitdə öz milli haqqını təmin etməyi bacaran, torpaqlarını müharibə yolu ilə işğaldan azad edən dövlət yada düşür. Prezident İlham Əliyevin memarı olduğu ən böyük tarixi uğurlarımız əlbəttə ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ötən ilin sentyabrında Qarabağda erməni separatizminə son qoyulmasıdır. Məhz Prezident İlham Əliyevin sayəsində son bir neçə əsrlik tariximizdə ilk dəfə olaraq zəbt edilmiş torpaqlarımız azad olundu. Bununla da Prezident İlham Əliyev dövlət və xalq qarşısında misli olmayan bir tarixi missiyanı layiqincə



yerinə yetirdi. Cənab İlham Əliyev bununla da Ulu Öndər Heydər Əliyevin vəsiyyətini, xalqımıza verdiyi vədi şərəflə yerinə yetirdi.

Böyük Zəfərin məntiqi davamı olaraq bu gün Qarabağ və Şərqi Zəngəzurun sürətli bərpası, azad edilmiş torpaqlarımızın dirçəlişi, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı bir daha Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətini və vətən sevgisini özündə ehtiva edir.

Azərbaycanın uğurları respublikamızın beynəlxalq nüfuzunun daha da yüksəlməsi ilə müşayiət olunur. Təsadüfi deyil ki, dünyada söz sahibi olan dövlətlərdən biri kimi qarşılanan Azərbaycan qlobal problemlərin müzakirəsində fəal iştirak edən dövlətlər sırasında yer alır. Bütün bunları təmin edən Prezident İlham Əliyev isə dünyanın nüfuzlu dövlət başçıları ilə bir cərgədə dayanan siyasi liderdir. Ötən ay Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, bu günlərdə isə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv seçilməsi respublikamızın mühüm siyasi-diplomatik nailiyyətlərinin təcəssümü oldu. Görünən həm də odur ki, Prezident İlham Əliyevin uğurlu diplomatiyası nəticəsində Azərbaycan qlobal səviyyədə mühüm tərəfdaş kimi tanınır. Eyni zamanda bu siyasi-diplomatik hadisələr Prezident İlham Əliyevin yüksək qlobal siyasi nüfuzunun növbəti uğurlu nəticələri kimi tarixə düşdü.

Bu günlərdə doğum günü münasibətilə Prezident İlham Əliyevin ünvanına dövlət başçıları, siyasi liderlər tərəfindən təbrik məktubları gəlir. Bu məktubların hər birinin məzmunu da ilk növbədə cənab İlham Əliyevin dünyada ehtiramla qarşılanan siyasi lider olmasından xəbər verir.

Doğum günü münasibətilə bütün seçicilərimiz adından Prezident İlham Əliyevi təbrik edir, dövlətimizin inkişafı naminə şərəfli missiyasında yeni uğurlar arzu edirik.

**Nəsib MƏHƏMMƏLİYEV,**
***Milli Məclisin deputatı***

*2025-ci ilin astanasından geriyə, ötən dövrün reallıqlarına nəzər salarkən həqiqətən də, qürur duyuruq.*

*Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır...*

*Xalqımız öz taleyinin ən xoşbəxt günlərini yaşayır...*

*Vətəndaşlarımız öz həyatlarının ən rifahlı, təhlükəsiz anlarını yaşayırlar...*

*Bunlar tarixi uğurlardır,..*

*Bunlar xalqımızın, dövlətimizin, vətəndaşlarımızın ən böyük nailiyyətləridir.*

*Və bütün bu zəfərlərin bir müəllifi var - Prezident İlham Əliyev...*

# İlham Əliyevin Azərbaycanı




### İlham Əliyevin yüksək nüfuzunun səbəbi nədir?

Cənab İlham Əliyev haqqında yazmaq, fikir söyləmək asan, həm də olduqca çətindir. Çünki ətrafımızda hansı uğur, zəfər, nailiyyət varsa, onların hər biri İlham Əliyevin zəhmətinin, əməyinin məhsuludur. Eyni zamanda, cənab İlham Əliyevin fəaliyyəti o qədər şaxəli, o qədər çoxvektorludur ki, onu tam şəkildə araşdırıb izah etmək çətindir. Bu iş şərəfli olduğu qədər də məsuliyyətlidir.

Xalqımız Ümummilli Lider Heydər Əliyevə həm də ona görə minnətdardır ki, o, öz yolunun layiqli davamçısını yetirmiş və onu Azərbaycana əmanət etmişdir.

Azərbaycanı Ulu Öndər Heydər Əliyevin görmək istədiyi kimi dünyaya Günəş tək doğan ölkəyə çevirən Prezident İlham Əliyevin nüfuzu gündən-günə yüksəlir. Bəs, bunun səbəbi nədir?!

Birincisi, bütün dünya Prezident İlham Əliyevin liderliyində Azərbaycanın necə dəyişdiyini, necə sürətlə inkişaf etdiyini görür. İkincisi, dövlət başçımız Azərbaycana tarixinin ən böyük Zəfərini qazandırıb. Dünyada separatçılığın geniş yayıldığı, müharibələrin daha da artdığı, yeni müharibələrin alovlandığı dövrdə İlham Əliyev ikiəsrlik münaqişəni, otuzillik müharibəni sonlandırdı.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan bir şəxsiyyətdir.

Elə bir mötəbər beynəlxalq toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud prblemlərinin həlli yolları barədə fikirlər səsləndirməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq, İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü qlobal təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Bütün bunlarla yanaşı, Azərbaycan həm də mühüm qlobal konfransların, forumların, toplantıların, idman yarışlarının keçirildiyi məkan kimi də tanınmaqdadır. Elə ay yoxdur ki, ölkəmizdə, xüsusən də Bakıda hər hansısa mötəbər tədbir keçirilməsin. Bütün toplantılara ən yüksək səviyyədə evsahibliyi etmək isə Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə böyük töhfə verir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi isə həm ölkəmizin, həm də İlham Əliyevin qlobal nüfuzuna verilən ən dəyərli qiymət idi. Azərbaycan gözlənildiyi kimi, COP29-a çox yüksək səviyyədə evsahibliyi etdi. Dünyanın diqqəti 10 gün Azərbaycana yönəldi. Sammitin yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Rəsmi Bakı noyabrın 11-də start götürən qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etmişdi. Azərbaycan genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksəksəviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir.

### Qüdrət və söz sahibi

İlham Əliyevin qurduğu Azərbaycanın yüksəlişi, artan rifahı bütün dünyada müşahidə olunan tendensiyalarla uyğunlaşmır. Çünki bu gün dünyanın əksər dövlətlərində iqtisadi böhran, sosial gerilik, tənəzzül halı yaşanır. Bütün bunların müqabilində isə İlham Əliyevin Azərbaycanında nə iqtisadi böhran, nə sosial gerilik, nə də tənəzzül var.

İlham Əliyev ötən 21 illik fəaliyyəti dövründə məhz ölkə üçün taleyüklü, strateji əhəmiyyətli hadisələrin müəllifinə çevrilib, onun ardıcıl və sistemli surətdə həyata keçirdiyi islahatlar vətəndaşların rifahının yüksəlməsinə, cəmiyyətin mənəvi yüksəlişinə və birliyinə xidmət edib. Dövlət başçısının özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı Azərbaycan xalqının ona sonsuz etimadının əsas səbəblərindən biri kimi qiymətləndirilir.

İlham Əliyev Azərbaycanı dünyanın kosmik ölkələr ailəsinin üzvü edib. Bu gün orbitdə Azərbaycanın 3 peyki mövcuddur.

İlham Əliyev Azərbaycanı güc və söz sahibinə çevirib. Bu gün Azərbaycan dünyada ən etibarlı tərəfdaş kimi tanınır.

İlham Əliyev bir vaxtlar öz əhalisini enerjisi ilə təmin edə biməyən Azərbaycanı Avropanın enerji təminatçısına çevirib. İndi Avropanın 12 dövləti (Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya) Azərbaycandan enerji alır.

İlham Əliyev qlobal transmilli layihələrin müəllifi kimi Azərbaycanı "Şərq-Qərb", "Şimal-Cənub", "Orta dəhliz" kimi mühüm beynəlxalq nəqliyyat-tranzit layihələrinin fəal iştirakçısına çevirib. Onun müəllifi olduğu transmilli layihələr



regionda tamamilə yeni mənzərə yaradıb. Azərbaycan regionun enerji və nəqliyyat xəritələrini yenidən tərtib edib.

İlham Əliyevin özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı Azərbaycan xalqının ona sonsuz etimadının əsas səbəblərindən biri kimi qiymətləndirilir. Ölkə həyatının bütün sahələrində əldə olunan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında təqdir olunur və respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır.

### İqtisadi müstəqilliyin təminatçısı

Azərbaycan özünün ən qüdrətli dövrünü yaşayır. Əgər son 21 ilin sosial-iqtisadi göstəricilərinə nəzər yetirsək bunu aydın şəkildə görə bilərik.

İqtisadi baxımdan özünü tam təmin edən və ciddi maliyyə çətinliyi olmayan Azərbaycan artıq 2024-cü ili də uğurla başa vurur. Ümumiyyətlə, 2003-2024-cü illərdə, son 21 ildə Azərbaycan sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin edən ölkə kimi dünyada tanınır. 2003-2024-cü illər ərzində dövlət büdcəsi xərclərinin təxminən 30 dəfə, ÜDM-in real ifadədə 3,6 dəfə, investisiyaların 4,4 dəfə artımı fonunda Azərbaycanda yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,2 faizə, işsizliyin səviyyəsi 9,2 faizdən 5,5 faizə endirilməsi söylədiyimiz fikirlərin təsdiqidir.

21 ilin iqtisadi və sosial göstəricilərinə nəzər yetirək:

Əgər 2003-cü ildə ölkənin ümumi daxili məhsulu 7 milyard dollar idisə, keçən ilin yekunlarına görə bu rəqəm 72 milyard dollar olub. Bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir.

Əgər ölkənin 2003-cü ildə valyuta ehtiyatları 1,6 milyard dollar idisə, bu göstərici indi 72 milyard dollardır. Bu da ölkəyə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir.

Aparılan uğurlu siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, hələ ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən azdır.

2003-cü ildə növbəti ilin dövlət büdcəsi müzakirə edilərkən onun gəlirləri 7518400 milyon manat, xərcləri isə 7833400 milyon manat həcmində təsdiq edilmişdi. 2025-ci ilin dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407,6 milyon manatdır. Belə yüksəliş göstəricisi hər ölkəyə nəsib olmur. Bu, iqtisadi artımın bariz təcəssümüdür.

Bu ilin ötən 11 ayında iqtisadiyyatımız 4,1 faiz, o cümlədən qeyri-neft sektorumuz 6,4 faiz artıb. Strateji valyuta ehtiyatlarımız 72 milyard dolları ötüb. Birbaşa xarici dövlət borcumuz ÜDM-in cəmi 7,3 faizini təşkil edir.

Sosial sahədə görülmüş işlərə nəzər yetirsək, böyük uğurların əldə edildiyinin şahidi olarıq.

Əgər 2003-cü ildə minimum əməkhaqqı 9 manat idisə, indi bu rəqəm 345 manatdır.

Əgər minimum pensiya 2003-cü ildə 24 manat idisə, bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır.

Bir sözlə, əldə edilən bütün sosial-iqtisadi uğurlar ölkə iqtisadiyyatının dinamik inkişafı, islahatların ardıcıl xarakter daşıması ilə bağlı olub. Hazırda ölkə iqtisadiyyatının dayanıqlılığının şaxələndirilməsi və rəqabət qabiliyyətinin təmin edilməsi qarşıya iqtisadi islahatlar üzrə əsas vəzifə kimi qoyulub.

### Dünya ermənilliyinə böyük zərbə vuran, neokolonializmə qarşı mübarizə aparan Lider

İlham Əliyev 44 günlük Vətən müharibəsindəki Zəfəri ilə həm də dünya ermənilliyinə böyük zərbə vurdu. Bu qələbə təkcə işğal altında olan torpaqların alınması, Azərbaycanın bütövləşməsi deyil, bu, İlham Əliyevin böyük ermənilliyə ağır zərbəsi idi. Dünyanın gözü qarşısında İlham Əliyev cəmi 44 günə erməni diasporunun böyük planını puç etdi.

Bu, 200 illik təşkilatlanmanın, iki əsrlik məkrli planın məhvi idi. Bu, o xülyaya zərbə oldu ki, 200 il bundan əvvəl dünya ermənilliyi təşkilatlanıb "dənizdən-dənizə" dövlət ideologiyasını düşünüb illərlə həyata keçirirdilər.

İkinci Qarabağ müharibəsində və ondan sonra apardığımız siyasi və diplomatik mübarizədə erməni faşizminə ölümcül zərbə vuran Prezident İlham Əliyev bu prosesi davam etdirdi. Qarabağdakı qondarma separatçı qurumun ləğv edilməsi üçün onlara vaxt verdi. Amma bu vaxtdan istifadə edən separatçılar yenidən silahlanaraq təxribatlara əl atdılar. Bunun nəticəsi yenə də özlərinə ağır zərbə oldu. 23 saatlıq antiterror tədbirləri ilə İlham Əliyevin qüdrətli ordusu erməni separatizminə son qoydu.

Demək olar ki, dünyanın əksər xristian dövlətləri Azərbaycana qarşı savaş açdı. Başda Fransa olmaqla Avropa İttifaqının üzv dövlətləri, beynəlxalq təşkilatların bütün hücumlarının qarşısını İlham Əliyev diplomatiyası aldı. Bu məsələdə də İlham Əliyevin cəsarətinə dünya bir daha şahidlik etdi.

Azərbaycan dövləti daim beynəlxalq müstəvidə atdığı hər bir addımla sübut edib ki, o, müstəmləkəçiliyin, siyasi, iqtisadi, mənəvi istismarın hər cür təzahürünə qarşıdır və bunu yolverilməz hesab edir. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitindəki çıxışlarda da Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən addımları təqdir edildi. COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürlər ifadə edildi.

Prezident İlham Əliyevin hər bir çıxışı bəzi dünya güclərinə çağırışları ilə zəngindir. İlham Əliyev Sammitdəki çıxışında da Avropa təsisatlarına xəbərdarlıq etdi. Bildirdi ki, əgər Avropanın əsas diplomatı Cozep Borel Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə də dostlarını dəstəkləməkdə davam edəcək.

Göründüyü kimi, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyev müstəqil siyasəti ilə istənilən basqıya, yalana, iftiraya layiqli cavab verməklə gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. COP29-a uğurlu evsahibliyi ilə cənab İlham Əliyev Azərbaycanın gücünə güc qatmış oldu.

### Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq

İlham Əliyev 4 ildir işğaldan azad edilən torpaqlarımızda misli görünməyən tikinti-quruculuq işləri həyata keçirir. O təkcə Azərbaycanın yox, dünyanın ən möhtəşəm ağıllı, smart şəhərlərini, rayon və kəndlərini qurur.

Hazırda işğaldan azad edilən torpaqlarımızda həyata keçirilən tikinti-quruculuq işləri, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir. Həm yurd yerlərimiz yenidən qurulur, həm də keçmiş məcburi köçkün soydaşlarımız demək olar hər gün doğma el-obalarına qayıdırlar.

Möhtərəm Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri uğurla davam edir. 2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən bərpa-quruculuq işlərinə toplam 22 milyard manata yaxın vəsait ayrılıb. Gələn il isə dövlət büdcəsindən bu istiqamətdə 4 milyard manat ayrılacaq.

Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi prosesi uğurla həyata keçirilir. Bugünədək 2417 ailə - 9306 nəfər bu xoşbəxtliyə nail olub.

Ötən dövr ərzində işğaldan azad olunmuş ərazilərin ümumi planı ilə yanaşı, 8 şəhərin baş planının hazırlanması üzrə işlər tamamlanıb, bundan əlavə 90-a yaxın kənd və qəsəbədə ərazi planlaşdırılması işləri icra edilib. Bugünədək 30-dan çox yaşayış məntəqəsində tikinti işlərinə start verilib. Şəhər, kənd və qəsəbələrdə müfəssəl planlaşdırma normalarına və müasir şəhərsalma prinsiplərinə uyğun olaraq yeni yaşayış infrastrukturu, sosial təyinatlı obyektlər, ictimai məkanlar yaradılır. Yaşıllıqların qorunması və artırılması, yeni açıq ictimai məkanların təqdim edilməsi nəticəsində Qarabağ və Şərqi Zəngəzurun bütün şəhərləri "yaşıl şəhər" prinsiplərinə uyğun yenidən qurulur.

İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda Azərbaycanın yox, dünyanın ən müasir yollarını, körpü-tunellərini, ən uzun tunellərini yaradır. Bütün dünya şahiddir ki, İlham Əliyevin 4 ildə işğaldan azad edilən ərazilərimizdə gördüyü irimiqyaslı layihələr bəlkə də bir çox ölkələrdə onilliklər boyu reallaşmayıb.

### Böyük dayaq və yeni dövrün inkişaf hədəfləri

Prezident İlham Əliyevin Azərbaycan naminə həyta keçirdiyi siyasət tariximizin ən şanlı səhifələri kimi yazılır. Nəyi nə zaman edəcəyini yaxşı bilən, sözü imzası qədər keçərli olan İlham Əliyev Avropada ən arzuolunan liderdir.

Məhz bütün söylənilən, izlənilən və yüksək səviyyədə qiymətləndirilən işlərə görə Azərbaycan xalqı öz liderinə böyük məhəbbət bəsləyir. Elə İlham Əliyevin də məhz bu möhtəşəm nailiyyətlərə imza atmasında xalq sevgisi ilə yanaşı, hörmətli birinci xanım, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da böyük dəstəyi, fədakar xidmətləri var.

Ümummilli Lider Heydər Əliyev ideyalarını, onun humanizm siyasətini olduqca mükəmməl şəkildə davam etdirən birinci xanım Mehriban Əliyevanın həyat yoluna nəzər saldıqda aydın şəkildə görünür ki, onun fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır.

Prezident İlham Əliyevlə birgə Mehriban xanım Əliyevanın ölkənin inkişaf strategiyasının uğurla həyata keçirilməsində, həmçinin sosial-humanitar layihələrin gerçəkləşməsində böyük əməyi var. Bir məsələni xüsusi olaraq vurğulayaq ki, Mehriban xanım Azərbaycan adına həyata keçirdiyi bütün işlərə qəlbinin sevgisi ilə yanaşır və bu səbəblə də reallaşdırdığı işlər uğurlu alınır.

Bu bir həqiqətdir ki, son 21 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların, qazanılan böyük Zəfərin, uğurlu daxili və xarici siyasətin ən böyük dəstəkçisi Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Məhz əldə olunan uğurlarda ölkənin birinci xanımının əvəzsiz xidmətləri var. Mehriban xanım Əliyevanın dövlət başçısının ən sadiq silahdaşı kimi göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir.

Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın gördüyü işləri təhlil etsək, əminliklə deyə bilərik ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir.

Bu gün işğaldan azad edilən torpaqlarımızda aparılan tikinti-quruculuq işlərinə onun rəhbərlik etdiyi, Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu mühüm töhfələr verir. Dörd ildir ki, minlərlə abidəyə yeni nəfəs verən Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırır. Qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev Fondu qədim Qarabağ və Şərqi Zəngəzur torpaqlarında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə tariximizə çox böyük töhfə verir.

Bir sözlə, tarixi Zəfər və Böyük qayıdış hərəkatı Prezident İlham Əliyev erasının zirvəsidir. Bununla belə Şanlı Zəfərimizdən sonra yaranan yeni reallıqlar və görülən işlər onu deməyə əsas verir ki, qarşıda Azərbaycanı daha möhtəşəm zəfərlər gözləyir. Azərbaycanın, sözün əsl mənasında, tam suverenliyini təmin edən möhtərəm Prezidentimiz xalqına verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirib.

2024-cü ili uğurla başa vurmaqdayıq. Bu il də ölkəmizin ictimai-siyasi həyatında tarixi uğurlar qeydə alınıb. Təkcə BMT-nin COP29 sammitinə yüksəksəviyyəli evsahibliyini göstərmək yetərlidir.

Tarixin ən qüdrətli Azərbaycanının ictimai-siyasi həyatında, daxili və xarici siyasətində artıq yeni dövr başlayır. Ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycanın yeni inkişaf konsepsiyası, modern yüksəlişin istiqamətləri və hədəfləri də artıq bəllidir. İndi əsas hədəflər dövlətçiliyimizin, suverenliyimizin, milli təhlükəsizliyimizin, daxili və xarici siyasətimizin, mütərəqqi yüksəlişimizin daha da güclənməsi istiqamətində mühüm addımların atılmasıdır.

*Cənab İlham Əliyev VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı proqram xarakterli nitqində bu məsələlərə xüsusu olaraq toxunmuş və qarşıdakı illər üçün inkişafın yol xəritəsini müəyyənləşdirmişdir. Bu yol xəritəsi Azərbaycanı daha uğurlu, daha möhtəşəm gələcəyə aparacaq.*

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı*

# Qlobal liderliyin İLHAM ƏLİYEV nümunəsi



**Lider amili dövlətin inkişafının, onun milli yüksəlişə xidmət edən dayanıqlı əsaslarının yaradılmasının, bütöv bir ölkənin, xalqın gələcək taleyini müəyyən edən ideyaların reallığa çevrilməsinin ən mühüm şərtidir. Tarixi təcrübə də göstərir ki, bir çox hallarda cəmiyyətin xilası, dövlətin tərəqqisi məhz lider faktorundan asılı olur. Xalqın yetirdiyi liderlər milli ideyaların yaradıcıları kimi çıxış edir və cəmiyyəti onların həyata keçirilməsi uğrunda səfərbər edə bilir.**

## Heydər Əliyev müasir Azərbaycanın etibarlı təməllərini yaratdı

Azərbaycanın çağdaş tarixində bu missiyanı xalqımızın Ümummilli Lideri Heydər Əliyev yerinə yetirmişdir. Azərbaycanın milli dövlətçilik konsepsiyasını irəli sürən Ulu Öndər tarixi ənənələrə və müasir inkişaf meyillərinə əsaslanaraq bu konsepsiyanı böyük uğurla həyata keçirmiş, ölkəmizin inkişaf strategiyasının əsasını qoymuşdur. Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dünya birliyində öz layiqli yerini tutması, dövlətin xalqa xidmət missiyasını həyata keçirməsi Heydər Əliyevin tarixi xidmətləridir. Ulu Öndər qurub-yaratdığı dövlətin hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəminin yaradılması, onun güclü daxili potensiala malik olması yönündə möhtəşəm nailiyyətlərə imza atmış, dövrün çağırışlarına adekvat reaksiya verərək Azərbaycanın dünyaya uğurlu inteqrasiyasını təmin etmişdir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır" fikirləri ilə xalqına, Vətəninə necə bağlı olduğunu bəyan etmişdir. Dahi şəxsiyyət haqqında dünyanın görkəmli dövlət başçılarının dediyi fikirlərdə də ümumi rəy bundan ibarətdir ki, Heydər Əliyev Azərbaycan xalqına Uca Yaradanın ən böyük qisməti idi. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, tarixi ilə qürur duyduğu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Onun uzun illər Azərbaycana rəhbərlik etməsinin özü Heydər Əliyev şəxsiyyətində formalaşan, müstəqilliyə və xalqına sədaqət, millilik və vətənə məhəbbət hissindən qaynaqlanan inamın təzahürüdür.

Heydər Əliyev 34 ildən artıq bir dövrü əhatə edən zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız Ulu Öndərin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev müasir Azərbaycanın etibarlı və möhkəm təməllərini yaratdı. Respublikamızın hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcək.

## Böyük siyasi yolun layiqli davamçısı

Hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən liderlər həm də dövlətçilikdə siyasi varislik ənənələri formalaşdırır, mütərəqqi ideyaların davamlılığını təmin edirlər. Tarixi təcrübə belə bir həqiqəti sübuta yetirir ki, varislik prinsipi gözlənilmədən dinamik inkişaf, xalqın rifahına xidmət edən ideyanın davamlı xarakter alması mümkün deyildir. Yəni varislik prinsipi gözlənilmədiyi halda mövcud olan mütərəqqi ideya aşınmalara məruz qala, beləliklə, məhvə məhkum ola bilər. Lakin xalqa, cəmiyyətə xidmət edən ideyaların sivil qaydada varislik prinsipi əsasında ötürülməsi dinamik inkişaf üçün vacib amildir.

Sevindirici haldır ki, ötən əsrdə xalqımızın yetirdiyi belə nadir şəxsiyyətlərdən birincisi olan Heydər Əliyev də müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını irəli sürməklə yanaşı, həm də bu strateji kursu qloballaşma dövrünün diktə etdiyi yeni şərtlərlə davam etdirməyə qadir olan, istedadlı, praqmatik, rasional təfəkkürlü, xalqını və dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı - lider yetişdirmişdir. Hələ 2003-cü ilin oktyabrında Azərbaycan xalqına müraciətində Heydər Əliyev demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Qeyd edək ki, buna qədər cənab İlham Əliyev çalışdığı bütün vəzifələrdə ona bəslənən inam və etimadı layiqincə doğrultmuş, Heydər Əliyev siyasi məktəbinin ən böyük yetirməsi kimi respublikamızın əldə etdiyi tarixi uğurlara özünün layiqli töhfələrini vermişdi. Eyni zamanda 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqımızı düşündürən yeganə məsələ Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi idi. Çünki ölkə vətəndaşlarının heç bir alternativ görmədikləri və birmənalı olaraq qəbul etdikləri Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olunması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdı. Elə buna görə də xalq Ulu Öndərin çağırışına dəstək verdi, İlham Əliyevi özünə Prezident seçdi.

2003-cü ildə Prezident kimi Vətənə və xalqa sədaqət andı içən İlham Əliyev ölkəmizin inkişaf perspektivləri və gələcək prioritetlərlə bağlı öz proqramını belə bəyan etmişdi: "Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Xüsusilə qeyri-neft sektoruna



böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".

Ötən 21 ildə Azərbaycanın keçdiyi inkişaf yolu, ilk növbədə, Ulu Öndər Heydər Əliyevin nə qədər müdrik və uzaqgörən şəxsiyyət olduğunu, onun düzgün seçimini təsdiq edir. Bu 21 ildə Azərbaycanın əldə etdiyi bütün uğurlar ondan xəbər verir ki, Prezident İlham Əliyev ilk dəfə dövlət başçısı kimi and içərkən verdiyi bütün vədləri layiqincə yerinə yetirir, qarşıya qoyduğu milli hədəflərə inamla çatır. Ötən 21 ilin reallıqları Heydər Əliyev siyasi kursunun diktə etdiyi sabitlik, quruculuq və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir. Geridə qoyduğumuz hər bir ilin yekunları təsdiq edir ki, Prezident İlham Əliyev Ulu Öndərin ən layiqli davamçısı olaraq onun başladığı, təməlini qoyduğu taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə irəli aparır, ölkəmizin şərəfli tarixini yazır. Məhz Heydər Əliyevin dühasından və qüdrətli zəkasından ilham alan milli inkişaf strategiyası Azərbaycanın müstəqillik və inkişaf yolunda inamla addımlamasını təmin edir.

## Dövlətə və xalqa layiqli xidmətin nümunələri

2003-cü ildə xalqın etimadını qazanaraq ölkə Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin qarşıya qoyduğu məqsədlərdən biri ölkədə aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatında qazanılan uğurların miqyasını daha da genişləndirmək, bütün regionları sosial-iqtisadi baxımdan yüksək səviyyədə inkişaf etdirmək idi. Aydındır ki, iqtisadiyyatın, xüsusən regional baxımdan inkişafının zəifliyi ölkədə ümumən sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətə mənfi təsir göstərir, əhalinin iş dalınca ölkə paytaxtına axınını sürətləndirirdi. Qarşıya qoyulan yeni hədəflərə çatmaq üçün isə regionlarda mövcud potensialdan istifadənin səmərəsini artırmaq, yeni iş yerlərinin açılmasını, iqtisadiyyatın və sənayenin ayrı-ayrı sahələrinin, aqrar sektorun, turizmin tərəqqisini təmin etmək, bir sözlə, kompleks inkişafa nail olmaq lazım idi.

Bu vəzifələrin yerinə yetirilməsində, o cümlədən bölgələrin tərəqqisinin yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları böyük əhəmiyyət kəsb etdi. Ötən dövr ərzində regionların inkişafı istiqamətində 4 dövlət proqramı qəbul olunmuşdur. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, bölgələrin potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.

Bu mənada, ötən illər ərzində Azərbaycanın nail olduğu ən böyük uğurlar sırasında iqtisadiyyatın inkişafı, ölkəmizin bütün regionlarının inkişaf yoluna çıxarılması, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi, nəinki şəhər və qəsəbələrin, hətta kəndlərin simasının dəyişməsi xüsusi əhəmiyyət kəsb edir. Mübaliğəsiz demək olar ki, 21 ildə bütün Azərbaycan yenidən qurulub, siması dəyişib. İqtisadi inkişaf nəticəsində ölkədə on minlərlə yeni istehsal sahələri açılıb.

Bu dövrün bəzi statistik göstəricilərinə nəzər salmaqla haradan-haraya qədər bir inkişaf yolu keçdiyimizi görə bilərik. Dövlətin iqtisadi yüksəliş səviyyəsini və inkişafın sürətini xarakterizə edən əsas iqtisadi alətlərdən biri dövlət büdcəsi hesab olunur. İlk növbədə büdcə göstəricilərinə nəzər yetirməyimiz 21 ildə nail olduğumuz iqtisadi inkişafın miqyası barədə aydın və dəqiq təsəvvür yaradır. 2003-cü ildə respublikamızda dövlət büdcəsinin həcmi 1 milyard 220,9 milyon manat idi. Gələn ilin büdcəsi isə artıq 41 milyard manatı ötüb. Hərbi xərclərimiz 21 il əvvəl təxminən 255 milyon manat səviyyəsində idi. Bu ildən etibarən büdcəmizin müdafiə və təhlükəsizlik xərcləri 6 milyard manatdan çoxdur. 21 il əvvəl respublikamızın 1,8 milyard dollar həcmində strateji valyuta ehtiyatları var idi. 2024-cü ildə isə Azərbaycanın strateji valyuta ehtiyatları 73 milyard dolları ötüb. Bu, 2003-cü illə müqayisədə təxminən 40,5 dəfə çoxdur.

Dövlətin inkişafını səciyyələndirən başqa bir göstərici ümumi daxili məhsul (ÜDM) istehsalıdır. Artıq ötən ildən etibarən respublikamızda ÜDM istehsalı 100 milyard manatı ötüb. Bu il isə ÜDM istehsalının nominal ifadədə 121,3 milyard manata çatacağı gözlənilir. Ən mühümü də odur ki, ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payı ildən-ilə artır. 21 ildə Azərbaycan iqtisadiyyatının real ifadədə 3,4 dəfədən çox böyüməsi ÜDM istehsalının artımının əsas mənbəyidir.

Əlbəttə, bu cür müsbət makroiqtisadi göstəricilərə nail olunmasında özəl sektorun inkişafına, biznes mühitinin yaxşılaşdırılmasına xidmət edən addımların atılması böyük rol oynayıb. 21 ildə sahibkarlara imtiyazlı şərtlərlə ayrılan kreditlərin həcmi 3 milyard manatı ötüb. Bu illər ərzində sahibkarlıq subyektlərinin sayının 180 mindən 1,5 milyona qədər artması, sənaye məhsulunun ümumi həcmində özəl sektorun payının 54,9 faizdən 87,6 faizə qədər yüksəlməsi, bölgələrdə 52 mindən artıq yeni müəssisənin yaradılması ölkədəki sağlam biznes mühitindən və sahibkarlığın stimullaşdırılmasına xidmət edən tədbirlərdən xəbər verir.

Təbii ki, əldə edilən bütün uğurlarda Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji siyasətinin təntənəsinin böyük rolu var. Ötən dövrdə Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etmişdir. Bu baxımdan Azərbaycanın iqtisadi arxitekturasının əsas sütunlarından olan karbohidrogen ehtiyatlarının təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarılması və əldə edilən gəlirlərin ölkənin inkişafına və digər ehtiyaclarına yönəltmək prosesi uğurla gerçəkləşib. Nəzər yetirsək görərik ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi bu sahədə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməklə, respublikamıza yeni qlobal siyasi və iqtisadi dividendlər gətirmişdir. 2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və ondan bir qədər sonra Bakı-Tbilisi Ərzurum qaz kəmərinin işə düşməsi həmin dövrdən başlayaraq Azərbaycanda iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində, xüsusən regionların və qeyri-neft sektorunun inkişafında əvəzsiz rol oynamışdı.

Xəzərin karbohidrogen ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri ilə, başqa cür desək, alternativ yollarla çıxarılmasına nail olunması respublikamızın iqtisadi inkişafına böyük töhfələr verməklə yanaşı, həm də ölkəmizin beynəlxalq və regional təhlükəsizlikdə əsas söz sahiblərindən birinə çevrilməsini də şərtləndirmişdir.

Prezident İlham Əliyev həm də Ulu Öndərin enerji siyasətini yeni ştrixlərlə zənginləşdirən liderdir. Belə ki, möhtərəm Prezidentimizin siyasi iradəsi ilə ərsəyə gələn "Cənub qaz dəhlizi" Azərbaycanın qlobal enerji bazarlarındakı və beynəlxalq münasibətlər sistemindəki yerini daha da möhkəmləndirib, ölkəmizi qlobal miqyasda söz sahibinə çevirib. Təsadüfi deyil ki, Avropa İttifaqı dövlətlərinin üçdəbiri bu gün Azərbaycanın strateji tərəfdaşıdır. Ukraynada davam edən müharibənin fonunda yeni çağırışlarla üzləşən Şərqi Avropa ölkələri bu gün məhz Azərbaycan qazı ilə təmin olunurlar.

Prezident İlham Əliyevin uğurla icra etdiyi digər strateji hədəf isə respublikamızın regionun tranzit-logistik mərkəzinə çevrilməsidir. Bu mənada, son 21 ilin ən böyük iqtisadi, həm də siyasi uğurlarından biri Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin həm keçdiyi, həm kəsişdiyi bir məkan kimi qəbul olunmasıdır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi, ölkəmizdəki bütün hava yollarının yenidən qurulması, avtomobil yollarının genişləndirilməsi, Xəzər dənizində üzən gəmi və bərələrimizin sayının artırılması, Bakıda Beynəlxalq Dəniz Limanının salınması, Ələt Azad İqtisadi Zonasının yaradılması Prezident İlham Əliyevin nə qədər uzaqgörən və müdrik dövlət xadimi olduğunu göstərir. İndi Şimaldan Cənuba, Şərqdən Qərbə gedən nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Prezidentimizin bu sahədə gördüyü işlər, həyata keçirdiyi layihələr qlobal iqtisadi zəncirin lokomotivlərindən olan Çin dövləti tərəfindən diqqətlə izlənilir. Təsadüfi deyil ki, Çin dövləti "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycandan keçən nəqliyyat dəhlizlərinə böyük maraq göstərir.

## Müzəffər Sərkərdə

Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin ən əlamətdar hadisəsi isə sözsüz ki, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunmasıdır. Hələ 2003-cü ildə birincə dəfə prezident seçilən zaman andiçmə mərasimində cənab İlham Əliyev demişdi: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Artıq 4 ildir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin söylədiyi bu sözlərin öz təsdiqini tapmasının, verdiyi vədin həyata keçməsinin tarixi təntənəsini yaşayır. Cənab İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən artıq tarixə qovuşmuş Qarabağ probleminin həllini xüsusi diqqət mərkəzində saxladı. Möhtərəm Prezidentin həyata keçirdiyi inkişaf siyasətinin təməlində dayanan əsas məqsəd həm də torpaqlarımızın işğaldan azad edilməsi oldu. Artan maliyyə imkanlarımız Silahlı Qüvvələrimizin döyüş qabiliyyətini ən müasir standartlar səviyyəsinə yüksəltməyə imkan verdi. Eyni zamanda cənab İlham Əliyev hər zaman açıq şəkildə bəyan etdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan dövləti güc yolu ilə torpaqlarını işğaldan azad edəcək.

Prezident İlham Əliyev necə demişdisə, elə də etdi. İşğalçı Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribatdan sonra ordumuz özünün müqəddəs missiyasını layiqincə yerinə yetirdi. 44 gün davam edən savaşda Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu yalnız 30 illik müasir müstəqillik tariximizin deyil, son bir neçə əsrlik tariximizin ən şərəfli səhifəsini yazdı. Bu savaş Prezident İlham Əliyevin qətiyyətli siyasətinin təntənəsi oldu. Bu qələbə ilə Prezident İlham Əliyev sərkərdə qətiyyəti ilə Azərbaycanın dövlətçilik tarixində böyük bir tarixi missiyasını yerinə yetirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu savaşda yalnız Ermənistanı məğlub etmədi. Bu savaşda həm də dünya erməniliyi məğlubiyyətə uğradıldı, Fransa kimi dövlətlərin Azərbaycana qarşı diplomatik cəbhə açmaq niyyətləri iflas etdi.

Vətən savaşından 3 il sonra Qarabağdakı erməni separatizminin tam məhv edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpa olunması tariximizə bir daha Prezident İlham Əliyevin qətiyyətli və cəsarətli siyasətinin təntənəsi kimi düşdü. Bu zəfərlə Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması kimi rəzil ideya tarixdən birdəfəlik silindi. Bir daha təsdiq olundu ki, öz milli maraqlarını təmin edən Azərbaycan dövlətinin qarşısını heç bir qüvvə ala bilməz.

Hazırda Azərbaycanın məqsədi regionda dayanıqlı və möhkəm sülhün təmin olunmasıdır. Ermənistan rəhbərliyi zahirən sülhə tərəfdar olduğunu bildirsə də, reallıqda tamam başqa proseslərin həyata keçirilməsinə şahidlik edirik. Belə ki, Ermənistanın sürətli silahlanması heç bir halda xoş mərama xidmət etmir və Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan bizimlə silah yarışında tab gətirməyəcək və onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar.

Hər birimizin qarşısında dayanan ümdə vəzifə harada, hansı sahədə çalışmağımızdan asılı olmayaraq, ölkəmizin inkişafına xidmət etməkdir. Hesab edirəm ki, bu məsələdə ən gözəl örnək respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlərdir. Ulu Öndər Heydər Əliyev ideyalarına söykənən Mehriban Əliyeva özünün çoxşaxəli və məzmunlu fəaliyyəti ilə məhz ölkəmizin yüksəlişinə, beynəlxalq nüfuzunun yüksəlməsinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına xidmət edir. Ona görə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyəti bütün Azərbaycan cəmiyyətinin, xalqımızın qürur mənbəyidir. Bütövlükdə, Prezident İlham Əliyevin ən böyük silahdaşı kimi Mehriban Əliyevanın fəaliyyəti hər kəs üçün mükəmməl nümunədir.

Prezident İlham Əliyevin adı Azərbaycan tarixinə torpaqlarımızı işğaldan azad edən lider kimi həkk olunub. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi hər bir azərbaycanlını sevindirir və qürurlandırır. Qarabağ və Şərqi Zəngəzurda davam edən bərpa və quruculuq işləri bir daha dövlətimizin qüdrətini, Prezident İlham Əliyevin quruculuq əzmini dünyaya bəyan edir. Ərazi bütövlüyümüzün təmin olunmasından sonra qədəm qoyduğumuz yeni inkişaf mərhələsində də İlham Əliyev siyasəti tariximizi ən möhtəşəm uğurlarla zənginləşdirəcək.

**Asif ƏSGƏROV,**
***Milli Məclisin deputatı***

# Qalib xalqın Qalib Lideri




**"Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir".**

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu il Xankəndi şəhərində Novruz tonqalını alovlandırdıqdan sonra Azərbaycan xalqını bayram münasibətilə təbrikində səsləndirdiyi bu fikirlər, əslində, son 21 ilin hesabatı kimi dəyərləndirilə bilər.**

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

## Heydər Əliyev yolu

Azərbaycanın müstəqillik tarixinin 1993-cü ildən bu gunədək olan dövrünü müstəqilliyinin bərpasının ilk illəri ilə müqayisə etdikdə Vətəninə, dövlətinə, xalqına bağlı Liderin ölkəsini hansı çətinliklərdən, faciələrdən, təhlükələrdən xilas etmək gücünə, qüdrətinə malik olduğunu əsaslı şəkildə indiki və gələcək nəsillərə çatdırmaq zərurəti yaranır. Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. 1993-cü ildən başlanan Heydər Əliyev yolu Azərbaycanı uğurdan-uğura, Zəfərdən-Zəfərə aparır.

Ulu Öndər Heydər Əliyevin hər bir çağırışı bu günümüz və gələcəyimiz üçün yol xəritəsi idi. Dahi Liderin ifadə etdiyi inama, Onun arzu və istəklərinə əsas verən isə təbii ki, dövlətimizin gücü, qüdrəti, tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasəti idi. Ümummilli Lider Heydər Əliyev elə bir möhkəm təməl yaratdı ki, bu gün Azərbaycan həmin bünövrəyə söykənərək yeni-yeni hədəflərə doğru inamla addımlayır, uğurları, zəfərləri ilə hər kəsi heyrətləndirir. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər dirçəliş, inkişaf, Azərbaycanın dünyaya Günəş kimi doğması dövrü kimi xarakterizə edilir. Həmin illərdə Azərbaycan müstəqil dövlət kimi varlığını təsdiqlədi, imzası imzalar arasında göründü, hər bir sahədə zəngin təcrübəsi ilə dünyanın diqqətində oldu. Ən əsası ölkəmizin sabitlik diyarı kimi tanınması və nüfuz qazanması iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsində əsas amilə çevrildi.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Ulu Öndər Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün zamanlarda Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Müstəqil Azərbaycan Ümummilli Liderin indiki və gələcək nəsillərə əmanəti, Onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Dahi şəxsiyyət Heydər Əliyevin xalqa 1 oktyabr 2003-cü il tarixli müraciəti hakimiyyətinin hər iki dövründə Azərbaycanın bu günü və gələcəyi üçün gördüyü işlərin, eyni zamanda bu uğurların davamı üçün növbəti inam və etimad ünvanının təqdimatı oldu. Həmin müraciətdə bu çağırış edildi ki, üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Həmin tarixi müraciətdən ötən 21 il Ulu Öndərin ümid və etimadının doğrulduğu, bütün hədəflərin reallığa çevrildiyi dövrdür. Bu illərin reallıqlarından bəhs edərkən təbii ki, ilk olaraq tarixi Zəfərimizdən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsindən bəhs edirik. Çünki bu zəfərlər bütün uğurların zirvəsi olmaqla yanaşı, Ümummilli Liderin cənab İlham Əliyevə etimadının və inamının doğrulduğunun təsdiqidir. Prezident İlham Əliyev Vətən müharibəsinə qədərki 2003-2020-ci illərdə Azərbaycanın bütün sahələrdə davamlı inkişafına nail oldu. İqtisadi qüdrətimiz artdı, əhalinin sosial müdafiəsi daha da gücləndirildi, Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirildi, Azərbaycanın diplomatik uğurlarının davamlılığı təmin edildi.

## Tarixi Zəfərimizin rəmzi

Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın imza atdığı diplomatik uğurlardan bəhs edərkən bu mühüm məqam xüsusi qeyd edilir ki, 2019-cu il oktyabrın 3-də ölkə Prezidenti Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik plenar sessiyasında Ermənistanın əsassız ərazi iddialarını tarixi faktlarla ifşa etdi. Dövlət başçısı dünyaya bəyan etdi ki, Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş nizamnaməsi, onun Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır. O da bildirildi ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Həmin iclas dövlətimizin başçısı İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" bəyanatına cavabı ilə yadda qaldı: "Mən Ermənistan baş nazirinin, təəccüb doğuran "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" bəyanatına toxunmaq istərdim. Birincisi, bu, yumşaq desək, yalandır. Qarabağ aranlı-dağlı bütün dünyada Azərbaycanın ayrılmaz hissəsi kimi tanınmışdır. Qarabağ Azərbaycandır və nida işarəsi." "Valday"da "Qarabağ Azərbaycandır və nida işarəsi", deyən Prezident İlham Əliyev bir ilin tamamında, 2020-ci ilin 10 noyabr tarixində Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması ilə xalqımıza tarixi Zəfərimizin sevincini yaşatdı. Dövlətimizin başçısı İlham Əliyev 10 noyabr 2020-ci ildə bu müjdəni xalqa çatdırarkən bildirdi ki, "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq Qələbəmizin rəmzi idi, rəmzinə çevrildi: "Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

## Növbəti hədəf: Ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası

Bütün bunlar 44 günlük İkinci Qarabağ müharibəsində rəşadətli ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə imza atdığı şanlı Qələbənin reallıqları idi. Təbii ki, bu bəyanatın imzalanması ilə işlər tamamlanmadı. Dövlətimizin başçısı İlham Əliyev ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının əsas hədəf olduğunu və buna sülh yolu ilə nail olacağımızı qeyd etdi. Qarşı tərəfin sözügedən bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirmək barədə düşünməməsi, mütəmadi olaraq hərbi təxribatlar törətməsi Azərbaycan tərəfinin haqlı narazılığına səbəb oldu. 2023-cü ilin 23 aprel tarixində Azərbaycan Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsini yaratmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini təsdiqlədi. Azərbaycan öz suveren ərazisində nəzarət-buraxılış məntəqəsi yaratdı, dövlət sərhədində bayrağını ucaltdı. Həmin ilin sentyabr ayında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin həyata keçirdiyi birgünlük antiterror tədbirləri növbəti hədəfin tam reallaşmasına vəsilə oldu.

Cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi.

## Hər bir Azərbaycan vətəndaşının Prezidenti

Ötən 21 ilin təhlili verilən hər bir vədin konkret əməldə öz təsdiqini tapdığını nümayiş etdirir. Prezident-xalq birliyi uğurlarımızın əsası kimi daim vurğulanır. Bu fikir beynəlxalq ekspertlər tərəfindən də qeyd olunur ki, Azərbaycan xalqının Prezidentinə inamı sonsuzdur. Bu inamın olduğu ölkədə heç bir narazılıqdan söhbət gedə bilməz. Təbii ki, bu inamı dövlətimizin başçısı İlham Əliyev uğurlu siyasəti, liderlik keyfiyyətləri ilə qazanıb. Ümumilikdə vətəndaş amili dövlət siyasətinin əsasıdır. Hər bir addımda özünə diqqətin və qayğının şahidi olan xalqda Prezidentinə inam, etimad, sevgi böyükdür. Cənab İlham Əliyev jurnalistlərə ilk müsahibəsində "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" söyləyərək onu da bildirmişdir ki, mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin.

Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətini uğurla həyata keçirməsi qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, yeni iş yerlərinin açılmasını, məşğulluq və işsizlik problemlərinin həllini şərtləndirir. Bu gün ölkəmizdə iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Azərbaycan dünyada sosial dövlət kimi tanınır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, hər şey iqtisadiyyat üzərində qurulub. Azərbaycanın bütün sosial-iqtisadi göstəriciləri təsdiqləyir ki, ölkə dinamik şəkildə inkişaf edir.

Azərbaycan sabitlik məkanı kimi qazandığı mövqeyə yeni-yeni əlavələr edərək bütün sahələrdə beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi ilə inkişafın Azərbaycan modelinin mövcudluğunu dünyaya təqdim edir. Dövlətimizin başçısının əsas çağırışlarından biri bu oldu ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Dövlət başçısının "Neft kapitalını insan kapitalına çevirək!" tezisi iqtisadi islahatların dərinləşməsində öz təsdiqini tapdı. Hazırda işğaldan azad edilmiş ərazilərimizlə yanaşı, bütün bölgələrimiz inkişaf, tərəqqi dövrünü yaşayır. Azad edilmiş ərazilərdə tətbiq olunan yeniliklərin, müasir idarəçilik sisteminin gələcəkdə digər bölgələrdə də tətbiq olunacağı əsas prioritetlər sırasındadır. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dayanıqlı inkişafını, enerji amilindən asılılığın minimuma endirilməsini təmin edir. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurlu nəticələrini bu gün Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq əhəmiyyətli tədbirlərin fonunda daha aydın görürük. Azərbaycana beynəlxalq baxış yüksək səviyyədədir. Bunu ötən ay ölkəmizin evsahibliyi etdiyi COP29 tədbiri də təsdiqləyir.

Yeri gəlmişkən, onu da qeyd edək ki, son 21 ilin reallıqlarına diqqət yetirdikdə cənab İlham Əliyevin sərəncamı ilə hər yeni ilin bir sahənin, eyni zamanda ölkəmiz üçün əlamətdar hadisənin adı ilə bağlanması hərtərəfli inkişafın təmin edilməsində mühüm rol oynayır. Bunun üçün təkcə son illərin özündə ehtiva etdiyi məqsəd və vəzifələrə diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin, xalqının qarşısındakı misilsiz xidmətlərinin təhlilində və yeni nəslə çatdırılmasında mühüm rol oynadı. Təbii ki, bu işlər yalnız bir il ilə məhdudlaşmır. Lakin konkret bir sahənin, hadisənin adı ilə bağlanması həmin il çərçivəsində görülən işlərin daha mühüm və məsuliyyətli olduğunu nümayiş etdirir. Azərbaycanın bugünkü gündəliyinin "yaşıl enerji" ilə bağlı olması dövlət başçısı İlham Əliyevin sərəncamı ilə cari ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsində öz təsdiqini tapır. Ötən ay keçirilən COP29 tədbiri Azərbaycanın beynəlxalq nüfuzunun, bərpaolunan enerji potensialının, iqlim dəyişmələrinin yaratdığı problemlərin həllinə verdiyi töhfələrin təqdimatı oldu. Prezident İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və



Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində bu tədbirin hansı səbəbdən "Bakı dönüşü" adlandırıldığını əsaslı şəkildə diqqətə çatdıraraq COP29-da 197 ölkənin, 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 min iştirakçının təmsil olunmasını Azərbaycanın təqdimatı kimi dəyərləndirdi.

## Yeni dövr

Hazırkı dövr müasir çağırışlarla zəngindir. Bu çağırışlar hər bir sahədə yeniliyi, təkmilləşməni bir tələb kimi qarşıya qoyur. Artıq qeyd etdiyimiz kimi, suverenliyimizin tam bərpası ilə Azərbaycan yeni dövrə qədəm qoyub. Prezident İlham Əliyev bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində keçirilən prezident seçkilərini belə əsaslandırdı ki, ötən ilin sentyabr ayında elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın çoxəsrlik tarixində buna oxşar Zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Prezident seçkiləri bu yeni dövrə xeyir-dua verəcək.

Bu ilin 7 fevral tarixində prezident seçkiləri keçirildi. Bu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin inamlı qələbəsi yeni hədəflərin uğurlu icrasına yol açdı. Dövlətimizin başçısı andiçmə mərasimində "Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm" söyləyərək inamla bildirdi ki, 2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq. Öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik. Andiçmə mərasimində 20 ilin uğurları əsasında qarşıda dayanan hədəfləri açıqlayan dövlətimizin başçısı qeyd etdi ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun: "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!"

Prezident seçkilərindən ötən qısa zamanda Azərbaycanın uğurlarının miqyası qarşıdakı yeni hədəflərə də çatacağımıza əminlik yaradır. Hazırda əsas hədəf işğaldan azad edilmiş ərazilərimizin bərpası, yenidən qurulmasıdır. Bu ilin əvvəlində dövlətimizin başçısı İlham Əliyev sakinlərinə qovuşacaq şəhərlərimizin adını açıqladı. Laçın və Füzuli şəhərlərinin sırasına Şuşa, Xocalı, Xankəndi, Cəbrayıl və Kəlbəcər şəhərlərinin də daxil olacağını bildirdi. Hazırda 5 şəhər - Laçın, Füzuli, Şuşa, Xocalı və Cəbrayıl şəhərləri və 4 kənd - Ağalı, Talış, Zabux və Sus kəndləri sakinlərinə qovuşub.

Bu ilin mühüm hadisələri sırasında şuşalıların, xocalılıların və cəbrayıllıların öz doğma yurd-yuvalarına qayıdışını deyə bilərik. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri xalqımızda böyük qürur hissi yaradır. Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak etdilər və yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim etdilər. Dövlətimizin başçısı tədbirdəki çıxışında bildirdi: "Bu gün biz azad edilmiş torpaqlarda yaşayırıq. Bu gün bütün azad edilmiş torpaqlarda, o cümlədən Xankəndidə və Xocalıda Azərbaycan Bayrağı dalğalanır. Azərbaycan vətəndaşları artıq Şuşada, Laçında, Füzulidə, Xankəndidə, Xocalıda, Cəbrayılda - bu şəhərlərdə və bir neçə kənddə yaşayır. 100-ə yaxın kəndin bərpası davam edir və biz Böyük qayıdış proqramını uğurla icra edirik".

Dövlətimizin başçısı İlham Əliyev iki il bundan öncə, 2022-ci ilin 24 dekabr tarixində - doğum günündə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə tarixi ədalətə söykənən bu hədəfi açıqladı - Biz Qərbi Azərbaycana qayıtmalıyıq. Ötən bu müddət ərzində hədəfə doğru mühüm addımlar atılır. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlanıb və uğurla icra edilir. Dövlət başçısı İlham Əliyevin tarixi Zəfərimizdən sonra bütün çıxışlarında, müsahibələrində bu məsələyə xüsusi diqqət yönəldilir. Bu əminlik ifadə edilir ki, gün gələcək qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar. Buna əsas verən amil xalqımızın tarixi yaddaşıdır.

Qeyd etdiklərimizin fonunda Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsinin gedişi dövründə Rusiyanın "Ria Novosti" agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibəsində "Siz tarixdə necə qalmaq istərdiniz" sualına cavabını xatırlatmaq istərdik: "Bilirsiniz, mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək. Ona görə düşünürəm ki, bu məsələni o adamların mülahizəsinə saxlamaq lazımdır ki, onların fikri məndən ötrü bu və ya digər qərarların, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı qərarların qəbul edilməsində həmişə əsas olub".

*Daim xalqına arxalanan, xalqdan güc alan Prezident İlham Əliyevə milyonların sevgisi şəksizdir. Bunu ölkədə xalq-Prezident birliyinin sarsılmazlığı, keçirilən seçkilərdə xalqın inamı və etimadı təsdiqləyir. Xalqımız bundan sonra da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm uğurlara, zəfərlərə imza atacaq, söz sahibliyini qoruyacaq. Yeni hədəf növbəti uğurların başlanğıcıdır.*

**Vüqar RƏHİMZADƏ,**
***Milli Məclisin deputatı***



Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də, Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur.

# Tariximizin ən fərəhli dövrünün müəllifi



**Azərbaycan Ulu Öndər Heydər Əliyevin müdrik idarəçiliyi, tarixi qərarları ilə iyirmi birinci əsrə böyük nailiyyətlər və dinamik inkişafla qədəm qoydu. Ümummilli Liderimizdən dərin siyasi bilik, zəngin dövlətçilik təcrübəsi əxz edən cənab Prezident İlham Əliyev isə Azərbaycanı tarixinin ən uca zirvəsinə qaldırdı, regionun lider dövlətinə çevirdi və dünyada söz sahibi etdi. Hazırda Azərbaycan xalqı düzgün seçimi, verdiyi tarixi qərarlar sayəsində ən fərəhli dövrünü yaşayır.**

Böyük qələbələrlə, misilsiz nailiyyətlərlə zəngin olan belə bir dövrdə yaşadığımız, bu dövrə şahid olduğumuz üçün xalqımızın hər bir nümayəndəsi kimi, həqiqətən də, çox xoşbəxtik.

Cənab Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlətimizin başçısı xalqımızın sülh, əmin-amanlıq şəraitində yaşaması, sosial qayğı ilə əhatə olunması üçün mühüm işlər görür. 2003-cü ildə Azərbaycan Prezidenti seçiləndən sonra ölkə iqtisadiyyatını və infrastrukturunu daha da inkişaf etdirmək, xalqın həyat standartlarını yüksəltmək üçün strateji planlar həyata keçirdi. Son illər enerji sahəsindəki irimiqyaslı layihələr və digər sahələrdə görülən böyük işlər Azərbaycanın iqtisadi gücünün daha da artmasına səbəb olub. Həyata keçirilən uğurlu sosial proqramlar vətəndaşlarımızın xoşbəxt yaşamasını, gənc nəslin sağlam və firavan böyüməsini təmin edir. Təsadüfi deyil ki, dövlətimizin başçısı ad günlərində də xalqın yanında olur, sosial obyektlərin açılışını edir, şəhid ailələri ilə görüşür. Bu onun idarəçiliyinin mahiyyətini, xalqına olan dərin məhəbbətini göstərir. Əlli illik yubileyini o vaxtlar doğma yurd-yuvasından didərgün düşmüş soydaşlarımızla Ağcabədidə qeyd edən möhtərəm Prezident 60 illik yubileyini də Qarabağda - Şuşada keçirdi. Azərbaycan xalqına sıx bağlılığı, milli-mənəvi dəyərlərimizə sonsuz hörmət və ehtiram bəsləməsi cənab İlham Əliyevə ümumxalq sevgisini qazandırıb. Dövlətimizin başçısı bu sevginin şəriksiz ünvanıdır.

Şimalla Cənub, Şərqlə Qərb arasında Azərbaycan tutduğu strateji coğrafi mövqe, həyata keçirdiyi qlobal layihələr sayəsində dünyada nüfuzunu davamlı olaraq artırır. Cənab Prezident İlham Əliyev sülhü və konstruktiv əməkdaşlığı tərənnüm etdiyi üçün onun beynəlxalq təşəbbüsləri xüsusi önəm kəsb edir.

Bütün bunların nəticəsidir ki, ölkəmizin beynəlxalq imici daha da yüksəlir, beynəlxalq tərəfdaşlarımızın sayı sürətlə artır. Heç də təsadüfi deyil ki, bu gün paytaxt Bakı mütəmadi olaraq nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməklə dünyanın əsas mərkəzlərindən birinə çevrilib. Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu və onlarla digər mühüm tədbirlərin keçirilməsi nəticəsində Azərbaycan qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan biri kimi tanınır.

Bu sırada cari ilin noyabrında keçirilən qlobal iqlim dəyişikliyi ilə mübarizəyə həsr olunan COP29 başda dayanır. Dünyanın ən böyük tədbiri sayılan COP29-un ölkəmizdə keçirilməsi hər bir azərbaycanlını qürurlandırır. Xalqın maraq və istəklərini hər şeydən uca tutan dövlətimizin başçısı cənab İlham Əliyevin Azərbaycanın milli mənafeyinə əsaslanan qətiyyətli fəaliyyətində ən yaxın silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlara, irəli sürdüyü təşəbbüslərə görkəmli dövlət xadimi Mehriban xanım Əliyeva yaxından dəstək olur, gördüyü işlərlə xalqımızın davamlı olaraq yüksələn rifahını reallaşdırır.

Ölkə rəhbəri cənab İlham Əliyev yüksək sərkərdəlik bacarığı və zəngin diplomatik səriştəsi ilə uzun illərin münaqişəsinə son qoydu, Şərqi Zəngəzur və Qarabağ əbədi azadlığa qovuşdu. Bu möhtəşəm Zəfərin qazanılmasında xalqımızın sıx birliyindən, effektiv ordu quruculuğundan tutmuş, ana yurda bağlılıq və dərin sevgi, Ali Baş Komandanın mətin iradəsi, qətiyyəti, dəqiq və vaxtında verilmiş düzgün qərarları mühüm rol oynadı. Rəşadətli ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 günə düşmən üzərində bənzərsiz qələbə qazandı, təcavüzkarı diz çökdürərək ağ bayraq qaldırmağa məcbur etdi. Qələbəmizdən 4 ildən çox vaxt keçməsinə baxmayaraq, dünya hələ də bu Zəfərin sirrini axtarır, misli görünməyən hərbi uğurumuzla bağlı məqalələr yazılır, geniş tədqiqat işləri aparılır. Əminliklə deyə bilərik ki, Qələbənin əldə olunması, ölkəmizin ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması cənab Prezident İlham Əliyevin Zəfər zirvəsidir. Bu Zəfərlə Azərbaycan vətəndaşlarının, həmçinin ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızın öyünməyə, qürurlanmağa tam haqqı var.

Azərbaycanın işğalçı dövlət üzərində qazandığı parlaq Qələbə ümumilikdə regionun inkişafına geniş yol açıb. Qarabağ və Şərqi Zəngəzur Ermənistanın işğalı altında olduğu dövrdə terror yuvasına çevrilmişdi. Bu isə bütövlükdə region üçün böyük təhlükə mənbəyi idi. Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyat və lokal xarakterli antiterror tədbirləri Qarabağda terror yuvasını dağıtdı, qanunsuz və başıpozuq silahlı birləşmələrin darmadağın edilməsi ilə nəticələndi. Azərbaycan bu fəaliyyəti ilə dünyada sülhün və ədalətin təmin olunmasına əvəzsiz töhfələr verdi. Tərəqqipərvər bəşəriyyət bu tarixi missiyaya görə Azərbaycan dövlətinə, onun müdrik rəhbəri cənab İlham Əliyevə və Azərbaycan xalqına minnətdar olmalıdır.

**Sahib MƏMMƏDOV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# İLHAM ƏLİYEV fenomeni

## Hər bir azərbaycanlının Prezidenti



Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapır. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi "mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır" sözləri Ümummilli Liderin uzaqgörənliyinin və seçiminin alternativsizliyinin bariz nümunəsi sayıla bilər. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, cənab İlham Əliyevin keçdiyi həyat yolu, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi 2003-cü il oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkilərində onun şəksiz qələbəsini təmin etdi. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən cənab İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən illərin reallıqları zamanın dahisi Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən, respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və Azərbaycan durmadan çiçəklənir.

Azərbaycan dövləti İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və ölkənin hər bir vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

## Yeni mərhələ

Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də andiçmə mərasimində islahatların yeni dalğasını anons etmiş, ölkənin ictimai-siyasi, mədəni həyatının hər bir sahəsini əhatə edən çoxşaxəli islahatların yeni mərhələsi başlanmışdır. Dövlətimizin başçısı islahatlar modelini belə ifadə etmişdir: "Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik". Bu gün hakimiyyətin bütün qollarında-qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində islahatlar gedir, prosesi asanlaşdırmaq məqsədilə yeni hüquqi aktlar qəbul edilir, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır.

2020-ci ildə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si, həmin il oktyabrın 10-da Fransanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu ədalətsiz mövqeyə dair 50 siyasi partiya, oktyabrın 12-də Ermənistanın yeni hərbi təcavüzü, dinc sakinləri, uşaqları, mülki obyektləri, beynəlxalq nəqliyyat-kommunikasiya və tranzit xətlərini hədəfə alması haqqında 50 siyasi partiya sədri daxil olmaqla 140 tanınmış ziyalı, ictimai-siyasi fəal, etnik azlıqların nümayəndələri beynəlxalq və regional təşkilatlara birgə bəyanat və müraciətlər ünvanlamışlar. Bəyanat və müraciətlərdə siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları Müzəffər Ali Baş Komandanın Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi-hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildirmiş, beynəlxalq təşkilatların, ATƏT-in Minsk qrupu həmsədrlərinin ikili standartlardan çıxış etməsi tənqid olunmuşdur.

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması münasibətilə 50 siyasi partiya Prezident, Müzəffər Ali Baş Komandanı təbrik edərək, bu qələbəni illərlə yürüdülmüş müdrik siyasətin, uzaqgörənliyin, iqtisadi islahatların, xalqın iqtidara göstərdiyi yüksək etimadın, xalq-dövlət vəhdətinin ən ali təcəssümü olduğunu bildirmişdi.

## Çoxəsrlik tariximizin ən böyük uğuru

Xalqımız öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu-bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Uzaqgörən lider İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzü birmənalı olaraq təsdiq etdi. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Xalqımız öz dövlət başçısının xalqın, dövlətin maraqları naminə böyük qətiyyətini bir daha gördü. Cənab Prezidentin xarici televiziya kanallarına verdiyi müsahibələr dünyanın dörd tərəfinə yayılan haqq səsimiz idi. Cənab Prezidentin dediyi kimi: "Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik".

Zamanın gedişini haqqın ədalətin bərpası istiqamətində dəyişən müdrik lider və yenilməz sərkərdə İlham Əliyev dühasının Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərməğan oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis olunması ötən il Qarabağda aparılmış qısamüddətli antiterror əməliyyatı nəticəsində əzəli yurdlarımızın erməni separatçılarından tam təmizlənməsi, Xankəndidə dövlət bayrağımızın ucaldılması, Azərbaycanın qəlbindəki illərin yarasının sağalması ilə yaddaşımıza yazılmış böyük bir gün əlamətdar tarix kimi təqvimə qovuşdu.

Birmənalı olaraq haqq savaşımızda əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya bəyan etdi. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatdı.

## Xalqın inam və etimadı

44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı.

Xalqın öz liderinə yüksək inamının nəticəsi idi ki, 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyev inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçildi. Bu seçki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi idi. Son 20 ildə bütün bu uğurların şahidinə çevrilən Azərbaycan xalqı əldə olunan nailiyyətləri ölkə Prezidenti cənab İlham Əliyevin ümummilli maraqlara söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi hesab edərək səsini cənab İlham Əliyevə verməklə, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini nümayiş etdirdi.

## Lider amili: beynəlxalq proseslərə istiqamət verən ölkə

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib.

Ölkə Prezidenti cənab İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. Nəticədə Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, Prezident İlham Əliyevi Avropa üçün ən önəmli LİDER hesab edirlər.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu evsahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Bununla bərabər, Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması onun COP29-a evsahibliyi etmək imkanını daha da gücləndirdi. Azərbaycanın bu sahədə uzun illərdir həyata keçirdiyi ardıcıl siyasət və layihələr, enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerjisi stansiyalarının qurulması baxımından ölkəmiz böyük işlər reallaşdırdı.

Bu il COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisi oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında vurğuladığı kimi: "Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".

Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. COP29-da 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçı, onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlərin təmsil olunması Azərbaycanın növbəti qələbəsi, nailiyyətidir.

Bəli, COP iqlim dəyişikliyi ilə mübarizədə vacib olmağı ilə yanaşı, həm də dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın qazandığı bütün bu uğurlar isə Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü müdrik və uzaqgörən siyasətin nəticəsindədir. Qazanılan uğurlar sayəsində bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib.

## Milyonların sevgisini qazanan LİDER

Ölkəmizin uğurları, tarixə yazılan möhtəşəm qələbələr, deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail olmuşdur. Prezident İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan alternativsiz LİDERdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çox qısa zaman kəsiyində ölkəmizin qazandığı bütün bu uğur və qələbələr Ümummilli Liderin dediyi "Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" sözlərini gerçəkləşdirdi.

Son 21 ildə bütün bu uğurların şahidinə çevrilən Azərbaycan xalqı əldə olunan nailiyyətləri ölkə Prezidenti cənab İlham Əliyevin ümumilli maraqlara söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi hesab edir, ölkəmizin gələcəyini bu siyasi kursun ətrafında sıx birləşməkdə görür.

**Arzu ABDULLAYEV,**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Adı Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılmış Müzəffər Sərkərdə

**Həm hərbi, həm də diplomatik sahədə liderliyini nümayiş etdirən, Azərbaycan tarixində torpaq qaytaran, işğalçını qovan qalib sərkərdə cənab İlham Əliyev 2020-ci ildə Ermənistanın işğalında olan torpaqlarımızın azad edilməsi ilə Azərbaycanın müstəqilliyini möhkəmləndirərək ölkənin hərbi, siyasi və iqtisadi gücünü daha da artırdı. 2023-cü ildə 23 saatlıq antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.**



Sözsüz ki, güclü siyasi rəhbərlik sayəsində Azərbaycan beynəlxalq hüququn tələblərini özü yerinə yetirdi, Müzəffər Ali Baş Komandan Qarabağın və ətraf ərazilərin azad edilməsi ilə Azərbaycan xalqının 30 illik həsrətinə son qoydu. Ali Baş Komandan müasir ordu quruculuğu siyasəti ilə Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətini artıraraq, onu Cənubi Qafqazda ən güclü orduya çevirdi. Beləliklə, İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində tarixi qələbə qazandı.

### *Şəhid və qazilərimizə böyük ehtiram*

Möhtərəm Prezident Azərbaycanın möhtəşəm qələbəsinə nail olunmasında canından keçən şəhid və qazilərimizi daim ehtiramla yad edir, onların fədakarlığını, qəhrəmanlığını yüksək qiymətləndirir, xatirəsini əziz tutur.

Müharibə dövründə və ondan dərhal sonra şəhidlərimizin xatirəsinin əbədi yaşadılması üçün mühüm tapşırıqlar verib. İmzaladığı fərman və sərəncamlar ilə şəhid ailələri dövlət qayğısı ilə təmin olunub, qazilərin müalicəsi təşkil edilib və onların təminatları artırılıb. Prezident olaraq xalqın və ordunun birliyini təmin edərək ümummilli dəstək qazanıb.

### *Qarabağ və Şərqi Zəngəzurun bərpası*

Müharibədən sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpası üçün genişmiqyaslı layihələrə start verdi. İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunması, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyünün göstəricisidir.

### *İqtisadi yüksəliş*

İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizdə yeni dövr başlamışdır. Onun rəhbərliyi altında ölkədə iqtisadi yüksəliş baş vermiş, Azərbaycan öz iqtisadiyyatını gücləndirərək regionda ən sürətlə inkişaf etmiş dövlətlərdən birinə çevrilmişdir. Prioritetlərdən biri iqtisadiyyatın şaxələndirilməsi və bu xüsusda qeyri-neft sektorunun inkişafıdır.

Bu dövrdə ölkədə genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmiş, müasir avtomobil yolları, dəmir yolları və hava limanları inşa olunmuşdur. Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" kimi qlobal layihələr Azərbaycanın dünya enerji bazarına inteqrasiyasını təmin etmişdir. Bu layihələr Azərbaycanı regionun enerji mərkəzinə çevirməklə yanaşı, ölkənin iqtisadi sabitliyini də möhkəmləndirmişdir. Prezidentin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalmış, yeni iş yerləri yaradılmış və əhalinin sosial rifahı yüksəlmişdir. Dövlətin biznes mühitini yaxşılaşdırmağa yönələn siyasəti kiçik və orta sahibkarlığın inkişafına təkan vermiş, ölkənin qeyri-neft ixracatı əhəmiyyətli dərəcədə artmışdır.

### *Beynəlxalq arenada nüfuz*

İlham Əliyev Azərbaycanın beynəlxalq mövqeyini gücləndirmək üçün müstəqil və balanslı xarici siyasət həyata keçirib. BMT-dən sonra ən böyük platforma olan, ölkələrin sayına və fəallığına görə seçilən Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə uğurlu rəhbərlik edən cənab İlham Əliyev təşkilatın beynəlxalq nüfuzunu artırıb və inkişafına böyük töhfə verib.

Prezident İlham Əliyevin növbəti uğuru BMT-in İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına evsahibliyinin dünyanın 200-ə yaxın ölkəsi tərəfindən Azərbaycana həvalə olunması ilə bağlıdır. Uğurlu COP29 tədbirinin keçirilməsi beynəlxalq arenada qazandığımız böyük nailiyyət idi.

Türk Dövlətləri Təşkilatının regionda güc mərkəzinə çevrilməsində məhz cənab Prezident İlham Əliyevin böyük dəstəyi olmuş, türk dövlətlərinin inteqrasiyasını təşviq edərək regional əməkdaşlığı gücləndirmişdir.

### *Məzlumların lideri*

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Koordinasiya Bürosunun Bakıda keçirilən nazirlər iclasındakı çıxışında rəsmi Parisin müstəmləkə siyasətini qeyd etmiş və tarixi soyqırımlarla dolu olan Fransanın işğalı dövründə 1,5 milyona yaxın əlcəzairlinin qətlə yetirildiyini xatırlatmışdır. Dövlətimizin başçısı Şuşada keçirilən qlobal media forumunda müstəmləkəçilikdən əziyyət çəkən xalqların haqlı mübarizəsini dəstəkləyən Bakı Təşəbbüs Qrupunun fəaliyyətini vurğulayaraq, onun üzvlərinə dəstək verməyə davam edəcəklərini bildirmişdir. Ölkə rəhbəri kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini hər zaman nümayiş etdirir.

Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə Azərbaycan 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişdir. Dövlət başçımız COP29 zamanı kiçik ada dövlətlərinin sammitində XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkən xalqların problemlərinə işıq tutmuşdu. Cənab Prezidentin humanist və həssas yanaşmasının göstəricisidir ki, kiçik ada dövlətlərində ətraf mühitlə bağlı problemlərin həlli məqsədilə Millətlər Birliyi ilə birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayrılıb.

### *Azərbaycan regional qovşağa çevrilib*

İlham Əliyevin prezidentliyi dövründə həyata keçirilən infrastruktur layihələri ölkənin iqtisadi gücünü artırıb, sosial rifah sahəsində həyata keçirilən islahatlar isə xalqın həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

İnfrastrukturun yenilənməsi və genişləndirilməsi Azərbaycanı regionda nəqliyyat və logistika mərkəzinə çevirib. Müasir avtomobil yolları və magistrallar inşa edilib, həm daxili, həm də beynəlxalq əlaqələri asanlaşdıran yol şəbəkəsi qurulub. Hava nəqliyyatı sahəsində də böyük nailiyyətlər əldə edilib. Yeni hava limanları tikilib, mövcud olanlar isə beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulub. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə Füzuli, Zəngilan hava limanlarının istifadəyə verilməsi, Laçın hava limanında davam edən işlər Azərbaycanın iqtisadi və strateji imkanlarını daha da artırıb.

### *Sosial siyasət*

Bu dövrdə sosial rifah sahəsində də mühüm addımlar atılıb. Sosial siyasət xalqın həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Pensiyalar, maaşlar və sosial ödənişlər mütəmadi olaraq artırılıb, aztəminatlı ailələrə dövlət dəstəyi gücləndirilib. Sosial infrastrukturun, o cümlədən xəstəxanaların, məktəblərin və idman obyektlərinin inşası xalqın rifahının yüksəlməsinə birbaşa təsir edib. Bu addımlar sosial ədalətin təmin edilməsinə, ümumilikdə cəmiyyətin sosial inkişafına töhfə verib. Beləliklə, çoxsaylı nailiyyətlər nəticəsində Azərbaycanın hərtərəfli inkişafı təmin edilib.

Prezident İlham Əliyev həm milli, həm də beynəlxalq səviyyədə böyük hörmət qazanmış liderdir. Onun müdrik siyasəti və qətiyyətli addımları Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, dövlətimizin gələcək təhlükəsizliyini təmin edib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin adı Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılıb.

**Pərvanə VƏLİYEVA,**
***Milli Məclisin deputatı***



# Zəfər və inkişaf salnaməsinin müəllifi

**Bu gün Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri olan, tarixə Müzəffər Ali Baş Komandan kimi düşən, Azərbaycan xalqının milli qürurunu özünə qaytaran Prezident İlham Əliyevin doğum günüdür. Onun rəhbərliyi ilə ölkəmiz həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə müstəsna nailiyyətlər əldə edib, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənib və xalqımızın suverenliyi güclənib.**



Prezident İlham Əliyev Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı böyük Zəfərin əsas memarıdır. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın 30 ilə yaxın davam edən işğalına son qoyaraq ərazi bütövlüyünü bərpa edib.

2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması tarixi Zəfər Günü kimi qeyd olunur. Bu Qələbə Azərbaycanın həm hərbi qüdrətini, həm də beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirdi.

2023-cü ildə isə lokal antiterror əməliyyatları nəticəsində ölkə daxilində təhlükəsizlik təmin edildi və terror təhdidləri tamamilə aradan qaldırıldı. Bununla Azərbaycan suverenliyini tam bərpa edərək beynəlxalq səhnədə öz gücünü bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin xarici siyasəti Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasında mühüm rol oynayıb. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi, BMT Təhlükəsizlik Şurasında uğurlu fəaliyyəti və COP29-un ölkəmizdə keçirilməsi bu uğurların əyani sübutudur. COP29 Azərbaycan üçün yalnız ekoloji məsələlərdə deyil, həm də diplomatik mövqelərin gücləndirilməsi baxımından əhəmiyyətli hadisədir.

Dünya liderləri Prezident İlham Əliyevi sözünə sadiq, məqsədyönlü, dürüst, praqmatik, səmimi insani keyfiyyətləri özündə təcəssüm etdirən mükəmməl siyasi xadim kimi dəyərləndirirlər. Onun beynəlxalq müstəvidə istənilən siyasi gedişi örnək kimi qəbul edilir, təcrübə və biliyin uğurlu sintezi, milli maraqların ana xətti kimi müəyyənləşdirdiyi xarici siyasət kursu müasir Azərbaycanı nüfuzlu dövlət kimi tanıdıb.

Azərbaycanın siyasi uğurları iqtisadi inkişafla vəhdət təşkil edir. Ölkəmiz Şərqlə Qərb arasında əsas nəqliyyat qovşağına çevrilərək beynəlxalq logistik şəbəkələrdə mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu və digər nəqliyyat layihələri Azərbaycanın strateji əhəmiyyətini daha da artırır.

Son 21 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ÜDM-i 3,6 dəfə, dövlət büdcəsinin gəlirləri isə 30 dəfə artıb. Dövlət valyuta ehtiyatları 67 milyard dollara çatıb və bu, xarici borcları 10 dəfə üstələyir. Azərbaycan iqtisadiyyatına yatırılan 300 milyard dollarlıq investisiya ölkənin qeyri-neft sektorunu gücləndirib. İqtisadiyyatın şaxələndirilməsi nəticəsində işsizlik və yoxsulluq göstəriciləri əhəmiyyətli dərəcədə azalıb.

Sosial sahədə də böyük irəliləyişlər əldə edilib. Minimum əməkhaqqı və pensiya dəfələrlə artırılıb, ölkədə 2 milyondan çox yeni iş yeri yaradılıb. Bu siyasət xalqın rifahını artırmaqla yanaşı, sosial ədaləti də təmin edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Zəngilan, Ağdam, Şuşa və digər şəhərlər müasir infrastrukturla təchiz olunur, bu ərazilər yenidən həyata qayıdır. Ermənistanın dağıtdığı mədəni irs bərpa edilir, yeni yaşayış məskənləri salınır. Aparılan bərpa-quruculuq işləri öz miqyasına görə unikaldır və beynəlxalq səviyyədə yeni Azərbaycan modelini formalaşdırır.

Prezident İlham Əliyev hər zaman vurğulayır ki, ölkəmizin uğurlarının əsasında xalqın ona olan güvəni və xalqla iqtidarın birliyi dayanır. O, ölkəni zirvədən zirvəyə apararaq, Azərbaycan xalqına həm güc, həm də qürur hissi bəxş edir. Prezident İlham Əliyev həm daxildə, həm də xaricdə müdrik siyasət apararaq Azərbaycanı regional liderdən qlobal aktora çevirib.

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan həm zəfərlər, həm də davamlı inkişaf yolu ilə irəliləyir. Onun müdrik siyasəti, ədalətli yanaşması, uzaqgörən və bacarıqlı idarəetməsi, yüksək intellekti ölkəmizin sabitliyinin və rifahının əsas təminatıdır. Azərbaycan xalqı onun rəhbərliyi ilə aydın yolda daha işıqlı bir gələcəyə doğru inamla addımlayır.

**Sevil MİKAYILOVA,**
***Milli Məclisin deputatı***

# Qarabağ həsrətinə son qoyan rəhbər

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin növbəti doğum günüdür. Ölkə başçısı artıq 4 ildir ki, ad gününü həm də qalib sərkərdə kimi qarşılayır. İlham Əliyevin Ali Baş Komandan olaraq rəhbərliyi altında İkinci Qarabağ savaşında qazanılan möhtəşəm qələbə sayəsində düşmən işğalından azad olunmuş torpaqlarımızda ucaldılan müqəddəs üçrəngli bayrağımız təkcə Azərbaycan tarixinin deyil, bütövlükdə Cənubi Qafqaz tarixinin yenidən yazıldığının sübutu oldu və dünya ermənilərinə, eləcə də onların havadarlarına gözdağı olmaqla yanaşı, həm də şəhidlərimizin qanının yerdə qalmadığını nümayiş etdirdi.**



İlham Əliyev harada yaşamasından asılı olmayaraq, ürəyi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlının ən böyük arzusunu həyata keçirərək adını Azərbaycan tarixinə Qarabağ həsrətinə son qoyan şəxsiyyət kimi yazdırdı. Bununla da bütün dünya azərbaycanlılarının Lideri olduğunu birmənalı olaraq təsdiq etdi.

O da danılmazdır ki, İlham Əliyevin prezidentliyi dönəmində Azərbaycan Respublikası yalnız öz müstəqilliyini möhkəmləndirməklə kifayətlənmədi, həm də qlobal miqyasda əhəmiyyətli və strateji mövqelərə yüksəldi. Cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan hər ötən gün daha da qüdrətlənir və böyük dövlətlər sırasında öz yerini möhkəmləndirir.

Qürurvericidir ki, Prezidentin məsələlərə strateji yanaşması yalnız Azərbaycan xalqının deyil, bütövlükdə bütün türk dünyasının gələcəyinə yönəlib. Belə ki, bölgədə yeni infrastruktur layihələrin gerçəkləşməsi və bu prosesə qardaş Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər qardaş türk dövlətlərinin, eləcə də dost ölkələrin cəlb edilməsi Azərbaycanın gücünü və qüdrətini bütün dünyaya göstərməkdədir.

İstər regional, istərsə də qlobal güclərin bölgədə iqtisadi, siyasi və hərbi maraqlarının olduğu mövcud reallıqlara rəğmən ölkəmizin müstəqil siyasət yürütməklə hazırkı nailiyyətləri əldə etməsi bilavasitə Azərbaycan Prezidentinin yürütdüyü çoxvektorlu uğurlu xarici siyasət sayəsində mümkün olub. Təsadüfi deyil ki, bu gün regionda Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşa bilməz.

Prezidentin yeni siyasi münasibətlər sisteminin formalaşması kontekstində siyasi partiyalara yönəlik siyasətinin partiyaların ölkənin siyasi həyatında daha yaxından iştirakını stimullaşdırmasının da fərqindəyik və bunu olduqca təqdirəlayiq hal hesab edirik.

Mən bu əlamətdar gün münasibətilə Prezident cənab İlham Əliyevi təbrik edir, ona müvəffəqiyyətlərlə dolu bir ömür arzulayıram!

**Arzuxan ƏLİZADƏ,**
***Milli Məclisin deputatı,***
***Milli İstiqlal Partiyasının sədri***

# Yüzillərə sığmayan tarixi missiyanın lideri

**Liderlik, sadəcə, pərdəarxası oyunlar, manevrlər, bir çox hallarda isə təsadüflər nəticəsində siyasi proseslərin ön cərgəsinə çıxmaq bacarığı, yaxud imkanı deyil, bəlkə də daha çox öz xalqının maraqlarını sonuna qədər qətiyyətlə, bir addım belə geriyə çəkilmədən, dəmir məntiqə, iti zəkaya əsaslanaraq müdafiə etmək, eyni zamanda istibdadın, zülmün, neokolonializmin məngənəsində sıxılan xalqların hüquq və azadlıqlarını qorumaq, başqalarına münasibətdə də ədalətli olmaq məharətidir.**



Siyasi liderlərin cılızlaşdığı və bir çox hallarda nəinki yönəltdikləri dövlətlərin, hətta təmsil etdikləri siyasi qrupların "sərhədlərini qorumaq" potensialına malik olmadığı, gücün ədalətə, istibdadın istiqbala meydan oxuduğu müasir dünyada belə şəxsiyyətlərin sayı çox azdır. Hətta bir əlin barmaqlarının sayı qədər də deyil...

Məhz bu baxımdan Prezident İlham Əliyevin Azərbaycan xalqı ilə yanaşı, dünyanın ədalətsiz düzənindən əzab çəkən, bu və ya digər səbəblərdən hüquq və azadlıqlarını açıq, cəsarətli və qətiyyətli bir şəkildə müdafiə edə bilməyən xalqların yanında olması, hətta onların rəhbərlərinin deyə bilmədiklərini yüksək məntiq və prinsipiallıqla dilə gətirməsi XXI əsr üçün özündə klassik liderlik ənənələri ilə çağdaş düşüncəni birləşdirən fenomenal liderlik nümunəsi kimi dəyərləndirilə bilər.

Bu xüsusda əsərlərinə tez-tez müraciət etdiyim böyük rus filosofu Nikolay Berdyayevin insan azadlığı ilə bağlı məqaləsindən gətirəcəyim kiçik bir iqtibasla fikirlərimi əsaslandırmaq istəyirəm. Nikolay Berdyayev yazır: "Azadlıq ən dərin qatlarda hüquq deyil, vəzifədir, insanın tələb etdiyi yox, əsl insan olmaq üçün ondan tələb olunandır".

Bəli, yalnız haqqın keşiyində dayandıqlarına əmin olanlar azadlığı ilk növbədə öz vəsifələri hesab edir və başqalarının azadlığı, hüquqları uğrunda yorulmadan, hətta qeyri-bərabər şəraitdə belə mübarizə apara, qalib gələ bilirlər, tarixin axarını belə dəyişməyi bacarırlar.

İlham Əliyev Azərbaycanın dövlət başçısı seçildiyi gündən ölkəmizə qarşı həyata keçirilən saysız-hesabsız yalan və böhtan kampaniyaları, sabotaj, təhdid və təzyiqlərlə, ölkəmizin inkişafdan saxlanılmasına, "buyruq quluna" çevrilməsinə xidmət edən çoxsaylı ssenarilərin müəllifləri və icraçılarıyla mücadilə aparıb və qalib gəlib. Prezident İlham Əliyev bir azərbaycanlı və bir övlad olaraq atasının və ataların vəsiyyətinin yerinə yetirilməsi istiqamətində bu gün sözlə ifadə edilməyəcək qədər çətin bir vəzifəni addım-addım, səbirlə, inadla, xalqını kataklizmlərdən, məhrumiyyətlərdən qoruyaraq yerinə yetirməyi bacarıb.

Geridə qalan zaman kəsiyində diplomatiya, iqtisadiyyat, ordu quruculuğu, mədəniyyət, idman və digər istiqamətlərdə həyata keçirilən siyasətin ayrı-ayrı detallarını incələdikcə, sözügedən sahələrdə atılan addımın Zəfər yürüşümüzün tərkib hissəsi olduğunu görə bilərik. Prezident İlham Əliyev təkcə Müzəffər Ali Baş Komandan deyil, bütün dünya azərbaycanlılarının milli birliyini təmin edən, onları vahid Vətən ideyası altında birləşdirən, böyük hədəflərə doğru aparan, mənəvi yükü yüzillərə sığmayan tarixi bir missiyanın lideri, qələbəmizin memarıdır.

Prezident İlham Əliyev böyük bir coğrafiyada zülmə məruz qalan, haqqı tapdanan, öz tarixi vətəninə, ana südü kimi halal torpağına, tarixinə, mədəniyyətinə və gələcəyinə sahiblənmək istəyən bütün xalqlar üçün liderlik nümunəsidir.

Bu gün dünyada, xüsusilə də yaşadığımız bölgədə baş verən hadisələr Azərbaycan xalqının azad və müstəqil yaşamaq istəyini, istiqlal ideallarını, dağlarına, çaylarına, bütövlükdə hər qarışına ad verdiyi, uğrunda canını, ömrünü fəda etdiyi torpaqlarına sahiblənmək kimi müstəsna haqqını qəbul edə bilməyən gizli-aşkar, yaxud gizlindən aşkara çıxan düşmənlərimizin xəyanətkar simalarını daha aydın görə bilərik.

Ədalət hissini itirmiş, hiyləgər, məkrli düşmənlərin bitib tükənməyən tələlərindən sıyrılaraq dünya hərb tarixinə qızıl hərflərlə yazılan qəhrəmanlıq salnaməsini yazmaq, sadəcə, iti zəka, strateji düşüncə deyil, vətəninə və xalqına nəhayətsiz sevgi, ideallarına sonsuz sədaqət, milli iradəyə söykənən qətiyyət və xalqını bir yumruq kimi birləşdirmək, səfərbər etmək bacarığı tələb edir.

Bizi təslimçi sülhə sövq etmək, meydanda tək qoymaq, hər cür dəstəkdən məhrum etmək istəyənlərin oyunlarını, Azərbaycan xalqının və dövlətinin müqavimətinin qırılmasına xidmət edən "rəngli inqilab" ssenarilərinin, milli birliyimizin pozulmasını, milli-mənəvi dəyərlərimizin sıradan çıxarılmasını hədəfləyən layihələri, "beşinci kolon"un xəyanətlərini və daha nələri... unutmamışıq. Bu günün yol ayrıcından geriyə baxanda bütün bu ədalətsizliklərin, haqsızlıqların və xəyanətlərin fonunda yalnız İlham Əliyevin qalib obrazının İkinci Qarabağ savaşında əldə etdiyimiz Zəfərlə işıqlanan aydın obrazını görmək mümkündür.

Bütün bu təzyiqlərin isə əsas hədəfi Azərbaycanı inkişafdan saxlamaq, ölkəmizdə dirijor çubuğu, yaxud "fit"lə idarə olunan marionet idarəçilik rejimi formalaşdırmaq, dövlətimizi, ordumuzu gücləndirməyə və təbii ki, Qarabağımızı azad etməyə imkan verməməkdən ibarət idi...

Amma Azərbaycan öz liderinin qətiyyəti və ölkəmizin gələcəyi ilə bağlı aydın təsəvvürlərə, strateji baxış bucağına, konseptual yol xəritəsinə malik olması səbəbindən üzərinə dünyanın dörd bir yanından hücum çəkən şərə, qaranlığa, ədalətsizliyə sinə gərməyi və bu qeyri-bərabər mücadilədə müzəffər olmağı bacardı. İndi bizi heç kim mühakimə edə bilməz. Çünki həm güclü, həm də haqlıyıq!

**Elçin MİRZƏBƏYLİ,**
***Milli Məclisin deputatı, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini***

# Prezident İlham Əliyev Sumqayıtın yeni intibahının müəllifidir



**Dövlətlərin taleyində liderlərin rolu, onlar tərəfindən həyata keçirilən missiyalar, dövlətçilik ənənələrinin və siyasi varisliyin təmin edilməsi tarixin bütün mərhələlərində vacib amillər kimi özünü göstərmişdir. Bir çox dövlətlərin təcrübəsindən bununla bağlı çoxlu misallar çəkmək olar. Lakin hesab edirəm ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başlatdığı, bu gün isə Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf və yüksəliş siyasəti liderlərin dövlətin taleyindəki rolu barədə daha aydın və müfəssəl fikir yürütməyə imkan verir.**

## Liderlik fenomeni

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərliyə başlayanda respublikamız iqtisadi göstəricilərinə görə sovet ittifaqının ən geridə qalmış üzvlərindən biri idi. Lakin qısa müddət sonra Azərbaycanın öz inkişaf göstəricilərinə görə 14-cü yerdən qabaqcıllar cərgəsinə çıxması ilk növbədə Ulu Öndərin liderlik keyfiyyələrindən irəli gəlirdi. Sovet ideologiyasının hakim olduğu bir rejimdə milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət edən tədbirlərin həyata keçirilməsini, Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsini yalnız Heydər Əliyev kimi güclü siyasi liderlər edə bilərdilər.

1993-cü ilin məlum hadisələri orta və yaşlı nəslin xatirindədir. Əgər həmin ağır günlərdə Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasaydı, müstəqilliyimizin itirilməsi, respublikamızın parçalanması qaçılmaz idi. Ulu Öndər Azərbaycanı sonu görünməyən problemlər burulğanından xilas etdi. Bəli, məhz Ümummilli Lider Heydər Əliyev kimi böyük siyasi dühalar bunu bacara bilərdilər. Elə buna görə də dahi şəxsiyyətin adı tarixə müasir və müstəqil Azərbaycan dövlətinin banisi kimi həkk edilib.

Heydər Əliyevin böyük siyasətçi və görkəmli dövlət xadimi olaraq Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də müəyyən etdiyi siyasi kursu layiqincə davam etdirməyə qadir siyasi varisini yetişdirməsidir. Azərbaycanın ötən 21 illik tarixinin, bu dövrün bütün reallıqlarının fonunda Ulu Öndərimiz Heydər Əliyevin nə qədər müdrik şəxsiyyət olduğu bir daha öz təsdiqini tapır. O cümlədən ötən 21 ilin bütün həqiqətləri cənab Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin bariz təcəssümüdür.

## Azərbaycanın qürur doğuran yüksəlişini təmin edən lider

Bu gün Azərbaycan Cənubi Qafqazın lider və söz sahibi olan dövlətidir. Azərbaycan həm də qlobal səviyyədə yüksək ehtiramla qarşılanan, beynəlxalq münasibətlər sistemində özünün xüsusi yeri olan dövlətdir. Respublikamız hər zaman əməkdaşlığa sadiq olub, çətin vəziyyətə düşən tərəfdaşlarına arxa durub. Bütün bunlarla yanaşı Azərbaycan qlobal problemlərin yoluna qoyulmasına mühüm töhfələr verən, beynəlxalq enerji təhlükəsizliyinin həllində iştirak edən, dünyanın enerji xəritəsinə mühüm korrektələr edən dövlətdir. Prezident İlham Əliyevin qətiyyətinin nəticəsi olaraq ərsəyə gələn "Cənub qaz dəhlizi" artıq 4 ildir ki, təbii qazı Avropa bazarlarına çatdırır. Son illərdə dünyada baş verənlər Azərbaycanın enerji siyasətinin nə qədər düzgün və uzaqgörən olduğunu göstərir. Elə buna görə də respublikamız sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən və sözünə sadiq dövlətlər sırasında yer alır.

Eyni zamanda Azərbaycanın razılığı və iştirakı olmadan Cənubi Qafqazda hər hansı transmilli layihənin həyata keçirilməsi qeyri-mümkündür. Azərbaycan o dövlətdir ki, tarixdə ilk dəfə olaraq Xəzərin karbohidrogen ehtiyatlarını alternativ yollarla dünya bazarlarına çıxarır. Eyni zamanda Azərbaycan qlobal nəqliyyat dəhlizlərinin kəsişdiyi məkandır. Nəqliyyat dəhlizlərinin qlobal münasibətlərdəki əhəmiyyətini zamanında qiymətləndirən Prezident İlham Əliyevin sayəsində respublikamız bu gün həm də qlobal nəqliyyat yollarının kəsişdiyi coğrafi məkana çevrilib. Təsadüfi deyil ki, dünyanın ikinci ən böyük iqtisadi gücü olan Çin dövləti respublikamızın bu sahədəki təşəbbüslərini təqdir edir, Azərbaycanla nəqliyyat əməkdaşlığını yüksək qiymətləndirir.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik illəri həm də mühüm və tarixi diplomatik nailiyyətlərlə zəngindir. Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik etməsi, ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirilməsi, son olaraq Azərbaycanın dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində keçirilən inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı bu quruma üzv seçilməsi cənab Prezidentin yürütdüyü uğurlu xarici siyasətin göstəriciləridir. Və bu uğurlar həm də dövlətimizin başçısının yüksək liderlik keyfiyyətlərinin nəticələridir.

Prezident İlham Əliyevin Azərbaycana bəxş etdiyi uğurların ən möhtəşəmi isə torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Cənab İlham Əliyev bu məsələdə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursu qətiyyətlə davam etdirərək, bütün qüvvə və imkanları torpaqlarımızın azadlığı uğrunda səmərəli şəkildə səfərbər etdi. Ümumiyyətlə cənab İlham Əliyevin qətiyyətli siyasətinin fonunda xalqımız əmin idi ki, torpaqlarımız tezliklə işğaldan azad ediləcək. 2020-ci ilin Vətən müharibəsi xalqımızın bu əminliyini reallığa çevirdi. Müharibə günlərində bir daha Prezidentimizin qətiyyətinin və cəsarətinin şahidi olduq. Bu savaşda Prezidentimiz vətənpərvərliyin ən mükəmməl nümunəsini ortaya qoydu. Torpaqlarımızın işğaldan azad edilməsi ilə Prezident İlham Əliyevin adı Azərbaycan tarixinə həm də Müzəffər Ali Baş Komandan kimi həkk olundu.

## Sumqayıt yenidən sənaye mərkəzi kimi şöhrət qazanıb

2003-cü ilin prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində cənab İlham Əliyev demişdir: "Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".

Ötən 21 ilin sosial-iqtisadi statistikası Prezidentin öz vədini layiqincə yerinə yetirdiyini göstərir. Belə ki, bu dövrdə ölkəmizdə ümumi daxili məhsul 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-in real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, artıq bu rəqəm 3500 manatı ötüb. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub.

Əlbəttə qeyd edilən nailiyyətlərdə regionların inkişafının da böyük rolu var. Prezident İlham Əliyevin inkişaf siyasətində regionların inkişafı prioritet istiqamət təşkil edir. İndiyə kimi bu məqsədlə 4 dövlət proqramı qəbul edilərək icra olunub. Bu proqramlar əsasında regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb.

Bundan başqa, ötən müddət ərzində əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 450-dən çox uşaq bağçası, 760-a yaxın tibb müəssisəsi, 21 min kilometrdən çox avtomobil yolu tikilib və ya təmir olunub, 43 olimpiya idman kompleksi inşa edilib. Azərbaycanın hər yerində bu gün də davam edən, Qarabağ və Şərqi Zəngəzurun bərpasının timsalında daha da möhtəşəm görünən quruculuq işləri Prezident İlham Əliyevin qurub-yaratmaq, Azərbaycanı dünyanın ən abad ölkələrindən birinə çevirmək məqsədinin göstəriciləridir.



İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionlarının inkişafı proqramlarının ardıcıl olaraq gerçəkləşdirilməsi ölkəmizin simasını tanınmaz dərəcədə dəyişdirmişdir. Aparılan məqsədyönlü və möhtəşəm quruculuq işləri paytaxtımız Bakını dünyanın müasir şəhərləri sırasına çıxarmışdır. Eyni fikri Sumqayıt barəsində də səsləndirmək mümkündür. Çünki Sumqayıtın son illərdə keçdiyi sürətli və möhtəşəm inkişaf yolu onu paytaxtımızın standartlarına çatdırmış, Azərbaycanın ən abad şəhərlərindən birinə çevirmişdir. Bəli, bir vaxtlar Sumqayıt deyəndə çirkli havası olan bir şəhər göz önünə gəlirdisə, indi Sumqayıt gözəlliklər diyarı kimi respublikamıza səs salır.

Bir məsələni də qeyd etmək istərdim ki, istənilən şəhərin inkişafını xarakterizə edən, onun tarixi yüksəliş yollarının təqdimatı olan ştrixlər var. Sumqayıt üçün bu, sənaye şəhəri kimi yaranması və bu gün də nəinki Azərbaycanın, bütün Cənubi Qafqazın aparıcı sənaye mərkəzi kimi tanınmasıdır.

Sumqayıtın sənaye mərkəzi kimi daha sürətli inkişafı isə xalqımızın Ulu Öndəri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir. O dövrdə Sumqayıtın sənaye potensialının böyük olduğunu nəzərə alan Heydər Əliyev şəhərin Azərbaycan iqtisadiyyatına verdiyi töhfələri daha da yüksəltmək üçün diqqət və qayğısını əsirgəmədi. Məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində şəhərimizdə xüsusən neft və kimya sənayesinin sürətli inkişafı üçün geniş imkanlar açılmış, zamanın tələblərinə uyğun texnologiyalar əsasında yeni-yeni istehsal sahələri istismara verilmişdir. Bütün bunların nəticəsi kimi həmin dövrdə Azərbaycanın əldə etdiyi inkişaf göstəricilərində Sumqayıtın payı daha da yüksəlmişdi. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi həm də Sumqayıtın yüksəlişinin qızıl dövrü kimi tarixə düşmüşdür.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də əvvəlki kimi Sumqayıta diqqət və qayğısını əsirgəməmişdir. Müstəqil Azərbaycana rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyevin ölkəmizin şəhər və rayonları arasında ilk olaraq məhz Sumqayıta səfər etməsini şəhər ictimaiyyəti hər zaman böyük minnətdarlıqla xatırlayacaqdır.

Ümummilli Lider Heydər Əliyev həmişə Sumqayıtın daha da inkişafını, onun yenidən sənaye mərkəzi kimi fərqlənməsini, sakinlərinin yüksək rifah içində yaşamalarını arzulayırdı. Böyük məmnunluqla qeyd etməliyik ki, cənab Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasəti Heydər Əliyevin Sumqayıtla bağlı bütün arzularının layiqincə yerinə yetirilməsini təmin edir. Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin tərkib hissəsi kimi Sumqayıtda yeni sənaye kompleksinin formalaşdırılması ayrıca diqqət mərkəzində saxlanılmış və bu məqsədə nail olunmuşdur. Bunun nəticəsi kimi Sumqayıt intensiv sosial-iqtisadi inkişaf prosesləri dövrünü yaşamış, şəhərin sənaye potensialı dəfələrlə artmışdır. Bu gün Sumqayıtda fəaliyyət göstərən müəssisələrin sayı və onların istehsal həcmi göstərir ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Sumqayıt tarixi ənənələrini sürətlə özünə qaytararaq, yenidən Azərbaycanın sənaye mərkəzinə çevrilmişdir. Bu dövrdə yaradılan "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsi, "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsi, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsi, "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisəsi, "Texnoil" MMC mühərrik yağları istehsalı müəssisələri, Kimya Sənaye Parkındakı İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verir.

Sumqayıtda "SOCAR Karbamid" və "SOCAR Polymer" kimi zavodların yaradılması, təkcə şəhərimizin deyil, respublikamızın iqtisadi həyatında mühüm hadisəyə çevrilmişdir.

Sumqayıt yenidən sənaye mərkəzi kimi şöhrət qazanıb. Prezident İlham Əliyev bu barədə deyib: "Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir!" Dövlət başçısının bu fikri Ulu Öndər Heydər Əliyevdən gələn ənənənin novator üslub və dəst-xətlə davam etdirilərək, Sumqayıtla bağlı əldə olunan möhtəşəm uğurun ifadəsidir.

## Abad, təmiz və gözəl şəhər

Sumqayıt həm də respublikamızdakı abadlıq və quruculuğun əsas ünvanlarından biridir. Həyata keçirilən kompleks abadlıq və quruculuq işləri, möhtəşəm infrastruktur layihələrinin reallaşdırılması, şəhər təsərrüfatının yenidən qurulması Sumqayıtda tamamilə fərqli və müasir abhava yaratmışdır. Genişmiqyaslı quruculuq işləri şəhərimizin simasını dəyişmiş, onu regionun ən gözəl şəhərlərindən birinə çevirmişdir. Bu gün Sumqayıta gələnlər şəhərin sanki yenidən qurulduğu qənaətinə gəlirlər.

Bu quruculuğun nəticəsi kimi Sumqayıtın çoxsaylı yeni ünvanları yaranıb. Məsələn, əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, Muğam Mərkəzi, Sumqayıt Məhkəmə Kompleksi Sumqayıtın yeni ünvanlarıdır. "Kimyaçılar" Mədəniyyət Sarayının, Dram Teatrının, Tarix Muzeyinin, "Nizami" kinoteatrının yüksək zövqlə təmir olunaraq yenidən qurulan binaları şəhərimizin simasına yeni rəng qatıb. Məhkəmə Kompleksi, Mərkəzi Bankın Ehtiyat Sistemi binası, şəhər prokurorluğunun binası Sumqayıtın görkəminə əlavə gözəllik gətirən inşaat nümunələridir.

Sumqayıtın yeni ünvanlarından biri də dənizkənarı bulvardır. Sumqayıt dəniz sahilində yerləşsə də burada dənizkənarı bulvar heç vaxt olmamışdı. Son illərdə həyata keçirilən quruculuq işləri sırasında Xəzərin sahilində bulvarın yaradılması şəhərin simasını tamamilə yeniləyib. Bununla həm də Ulu Öndər Heydər Əliyevin Sumqayıtla bağlı arzularından biri reallaşıb. Bir neçə il əvvəl isə Madriddə keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq Üstünlük və Liderlik Forumunda Sumqayıt bulvarı "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt Bulvarının dünyanın diqqət mərkəzinə düşməsi də olduqca qürurverici hadisədir.

Şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də həyata keçirilib, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, Əlillərin Bərpa Mərkəzi, əlil və şəhid ailələri üçün yeni yaşayış binaları inşa olunub. 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları da əsaslı təmir olunub, şəhərdə 2 "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olmuş Sumqayıt sakinlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilib. 1992-ci ildə salınan Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunub, kompleksdə yenidənqurma işləri aparılıb, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılıb. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılıb, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb, şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılıb.

Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 23-də Sumqayıta ötən 21 ildə etdiyi sayca 33-cü səfəri də şəhərin abadlığı və quruculuğu baxımından mühüm hadisələrlə əlamətdar idi. Həmin gün Prezident İlham Əliyev Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş və iki-üç min azarkeş üçün hesablanan bu stadion müasir tələblərə cavab vermirdi və azarkeşlərin çoxu yarışları yer darısqallığından canlı izləyə bilmirdi. Dörd tərəfi açıq olan stadion əhəmiyyətli futbol yarışlarını keçirən məkana bənzəmirdi. Bir sözlə, yeni stadionun tikintisinə ehtiyac vardı. Prezident İlham Əliyevin 2019-cu il 21 noyabr tarixli Sərəncamı ilə yenidən qurulan stadion indi ən müasir standartlara cavab verir.

Şəhərin yeni ünvanlarından biri də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasıdır. Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan 150 çarpayılıq bu xəstəxana tək Sumqayıtda deyil, respublikamızda ən müasir tibb müəssisələrindən biridir.

Sumqayıtın sosial-iqtisadi yüksəlişi və abadlaşdırılması ilə bağlı işlərin miqyası o qədər çoxdur ki, onların hamısını bir yazıda ümumiləşdirmək mümkün deyil. Qısaca onu deyə bilərik ki, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısının nəticəsində Sumqayıtın görkəmi tamamilə dəyişib, şəhərdə yeni infrastruktur yaradılıb. Yaradılan bu infrastruktur uzun illər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, sənaye müəssisələrinin ekoloji baxımdan narahatlıq doğurması bütün dövrlərin aktual problemlərindən biri olub. Sənaye baxımından inkişaf etmiş bütün dövlətlərdə ekoloqlar bununla bağlı hər zaman həyəcan təbili çalıblar. Elə Sumqayıtın özündə də bəzi sənaye müəssisələrinin vaxtilə şəhərin ekologiyasına necə təsir göstərməsi yaşlı nəslin xatirindədir. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərləri sırasında yer alır. Çünki şəhərdə son dövrdə yaradılmış yeni sənaye müəssisələri tamamilə modern texnologiyalar əsasında fəaliyyət göstərdiklərindən ekoloji normalara tam cavab verir. Cənab Prezident İlham Əliyevin də şəhərin sənayesinin inkişafı ilə bağlı qarşıya qoyduğu əsas vəzifələrdən biri ekologiyanın qorunmasıdır.

Bütövlükdə, 21 ildə şəhərdə qazanılan hər bir sosial-iqtisadi uğur cənab Prezidentin adı ilə bağlıdır. Bu illər ərzində Sumqayıt daim Prezident İlham Əliyevin qayğısını hiss etmişdir. Bunu ölkə başçısının Sumqayıta 33 dəfə səfər etməsi də təsdiqləyir. Bu səfərlərin hər biri ali qayğının təcəssümü olmaqla Sumqayıtın inkişafına təkan vermiş, şəhərin tarixində əlamətdar hadisəyə çevrilmişdir. Bir vaxtlar Ulu Öndər Heydər Əliyevin sayəsində inkişaf mərhələsinə qədəm qoyan şəhər indi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə yenidən çiçəklənir. Başqa cür desək, bir vaxtlar Sumqayıtın şöhrətini dünyaya çatdıran unudulmaz Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev bu şəhərin yeni intibahının memarıdır və buradakı inkişaf nümunələri müasir Azərbaycan dövlətinin yüksəlişini özündə simvolizə edir.

"Sumqayıt kiçik Azərbaycandır"! Ümummilli Lider Heydər Əliyevin vaxtilə Sumqayıta verdiyi bu dəqiq tərif hər zaman aktuallığını qoruyur. Sumqayıt doğrudan da kiçik Azərbaycana oxşayır! Öz gücünü artırmaqla dünyaya meydan oxuyan, çoxhədəfli, məzmunlu, humanist mahiyyətli, sülh, barış, əmin-amanlıq istəyi ilə xilas yolları arayan, mədəniyyət körpüləri quran, multikultural dəyərlərlə yaşayan Azərbaycana!

2024-cü ilin noyabrında Sumqayıt şəhərinin 75 yaşı tamam oldu. 75 il zaman-zaman fəth olunan nəhəng zirvə deməkdir. Və bu zirvədə hər şey - birinci növbədə Sumqayıtın əzəli və əbədi gözəlliyi yeni estetik mərhələyə adlayıb. Başqa cür desək, Sumqayıt yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişafın müəllifi möhtərəm Prezidentimiz İlham Əliyevdir. 75 illik münasibətilə Sumqayıtın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında xidmətləri olan şəxslərin Prezident İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni və "Tərəqqi" medalı ilə təltif olunmaları dövlətimizin başçısının şəhərimizə və onun sakinlərinə yüksək ehtiramının təcəssümünə çevrildi. Bu diqqət bizim üçün şərəf və məsuliyyət deməkdir. Bundan sonra da Prezident İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələr Sumqayıtda layiqincə yerinə yetiriləcək, şəhər ictimaiyyəti bu işlərə özünün layiqli töhfəsini verəcək.

**Zakir FƏRƏCOV,**
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı***










**Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlu nəticələr - yaradılmış iqtisadi, sosial, maliyyə, habelə, hərbi potensial, insan kapitalı, infrastruktur, institusional baza, eyni zamanda əhalinin sosial rifahının yaxşılaşması Prezident İlham Əliyevə dinamik, davamlı inkişaf konsepsiyasına keçidi əməli bir vəzifə kimi qarşıya qoymağa imkan verdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dinamik və davamlı inkişafa keçidi təmin etmək məqsədilə mərhələ-mərhələ, məntiqi ardıcıllıqla formalaşdırdığı və uğurla reallaşdırdığı islahatlar dönməz xarakter daşımaqla cəmiyyətin bütün fəaliyyət sahələrini əhatə etmişdir ki, bu da son nəticədə milli iqtisadiyyatın keyfiyyətcə yeni mərhələsinə daxil olmasına imkan verdi.**




# İlham Əliyevin zəfər strategiyası

Fundamental əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkəmizin dövlətçilik tarixində yeni mərhələnin əsasını qoymuş sosial-iqtisadi inkişaf kursu 2003-cü il oktyabrın 31-dən başlayaraq, onun layiqli davamçısı İlham Əliyev tərəfindən varislik prinsipi gözlənilməklə, uzaqgörənliklə və yaradıcılıqla inkişaf etdirilir. İlham Əliyevdə lider üçün bütün zəruri keyfiyyətlərin olduğunu böyük müdrikliklə və dəqiqliklə hiss edən Heydər Əliyev qeyd etmişdir ki, hər bir peşə üçün hansısa genetik qabiliyyət olmalıdır: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin ən böyük arzularından biri torpaqlarımızın işğaldan azad olunması idi. İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması və Azərbaycanın dövlət suverenliyinin bərpasından sonra, Prezident İlham Əliyev Ulu Öndərin məzarı qarşısında fəxrlə bəyan etdi ki, "Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatlarında torpaqlarımızı işğaldan azad etməsi, dövlət suverenliyimizin tam bərpa olunması, ölkəmizdə həyata keçirilən uğurlu inkişaf strategiyasının məntiqi nəticəsidir.

Son illərin təcrübəsi birmənalı sübut etdi ki, İlham Əliyev prezident kimi, dünyada baş verən iqtisadi, siyasi, hərbi, qlobal və regional prosesləri öncədən görmək, onları çox dəqiq qiymətləndirmək, müvafiq obyektiv nəticələr çıxarmağı bacaran fenomen qabiliyyətə malik praqmatik bir Liderdir. İlham Əliyev həmçinin sosial-iqtisadi, siyasi vəziyyəti bir qayda olaraq obyektiv dəyərləndirir, ölkəmizdə baş verməsi mümkün ola biləcək böhran hallarının qarşısını almaq, makroiqtisadi sabitliyi təmin etmək üçün preventiv tədbirlər görür. O, mürəkkəb, ziddiyyətli qlobal maliyyə böhranı, pandemiya və ondan sonrakı dövrlərdə həmişə nəyi nə vaxt və hansı intensivliklə, optimal müddətdə həyata keçirməklə, əslində, iqtisadi ədəbiyyatda "gecikmə effekti" adını almış bir prosesin neqativ nəticələrini minimuma endirir.

Ölkə Prezidenti İlham Əliyevin iqtisadi, sosial, hərbi islahatlar konsepsiyasının əsasını, xarakterini, ümumiyyətlə, sistem dəyişiklikləri ilə bağlı həyata keçirilən tədbirlərin istisna bilməyən şərti, bütün səviyyələrdə milli maraq və mənafelərin qorunması, başqa sözlə, iqtisadi təhlükəsizliyin təmin olunması təşkil edir. Koordinasiya, sistemlilik və prioritetlərin düzgün seçilməsinə müstəsna əhəmiyyət verilir. Dövlətimizin başçısı özünün əməli fəaliyyətində həmişə belə bir prinsipial müddəaya əsaslanır ki, milli iqtisadiyyatın cari və perspektiv inkişaf problemlərini həll edərkən hökmən, dövlət və bazar mexanizmlərinin optimal nisbətdə tətbiqinə çalışılmalıdır. Prezident İlham Əliyev eyni zamanda daim ölkədə reallaşdırılan iqtisadi siyasətdə çevikliyin təmin edilməsinə, struktur dəyişiklikləri ilə institusional islahatların sistemliliklə paralel aparılmasına, konkret maliyyə imkanlarına uyğun inkişaf proqramlarının hazırlanaraq icra olunmasına xüsusi diqqət yetirir. Məhz onun həyata keçirdiyi məqsədyönlü və düşünülmüş iqtisadi siyasətin bariz nəticəsi olaraq, hazırda ölkəmiz yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə nail olmuşdur.

Belə ki, 2003-2023-cü illərdə iqtisadi inkişafın ümumi nəticəsini özündə əks etdirən ümumi daxili məhsul real olaraq 3,6 dəfə, adambaşına düşən ümumi daxili məhsul isə 2,9 dəfə artmışdır. Bu illər ərzində iqtisadiyyata bütün mənbələrdən cəlb edilmiş investisiyaların ümumi həcmi 318,9 milyard dollar, o cümlədən qeyri-neft-qaz sektoruna yönəldilən vəsait 197,8 milyard dollar olmuşdur.

Son illərdə ölkəmizdə neft-qaz sektoru üzrə ÜDM 2,3 milyard manatdan 45,3 milyard manata çatmışdır. Hazırda Azərbaycanda büdcə gəlirlərinin formalaşmasında neft və qaz gəlirlərinin xüsusi çəkisi kifayət qədər yüksəkdir. Belə ki, 2003-cü ildən 2024-cü ilin oktyabrına kimi olan müddətdə Neft Fondundan Dövlət büdcəsinə 152,7 milyard manat vəsait transfert olmuşdur. Belə bir şəraitdə yaxın perspektivdə qarşıda duran əsas məqsəd ölkə büdcəsinin gəlirlərinin formalaşmasının neft-qaz gəlirlərindən asılılığını mümkün qədər azaltmaqdır.

Ölkəmizdə həyata keçirilən iqtisadi inkişaf strategiyasının xarakterik cəhətlərindən biri də neft-qaz gəlirlərindən əldə edilən böyük maliyyə vəsaitlərinin əhəmiyyətli bir hissəsinin qeyri-neft sektorunun inkişafına yönəltmək təşkil edir.

Ölkəmizdə son illərdə iqtisadi-sosial inkişafla bağlı qəbul olunmuş proqramlar bir qayda olaraq hər bir mərhələdə milli iqtisadiyyatın güclü və zəif tərəflərini, imkanlarını, təhlükə və təhdidlərini nəzərə almaqla hazırlanaraq reallaşdırılmışdır.

Son 20 ildə ölkəmizdə milli iqtisadiyyatın formalaşdırılması və inkişafı ilə bağlı qəbul olunan və uğurla reallaşdırılan strateji inkişaf proqramlarının, tədbirlərin və qəbul olunmuş qərarların mahiyyətini məntiqi ardıcıllıqla tam xarakterizə etmədən, bu illərdə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin ana xəttini, prioritetlərini, miqyasını, effektiv nəticələrini kifayət qədər obyektiv qiymətləndirmək mümkün deyildir.

Cənab İlham Əliyev hakimiyyətə gəldiyi 2003-cü ildə ilk olaraq həmin dövrdə ölkənin gələcək inkişaf prioritetlərinə uyğun olan "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Daha sonra, regionların mövcud iqtisadi, sosial potensialına və infrastrukturuna əsaslanaraq 2004-2023-cü illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişafına dair" dörd dövlət proqramı qəbul olundu.

Məlumdur ki, müstəqilliyimizin ilk 10 ilində regionların inkişafının maliyyə mənbələri, əsasən, neft strategiyasının reallaşdırılması nəticəsində yaranan gəlirlər hesabına formalaşırdı. Bu proqramlarda qarşıya qoyulan əsas məqsəd regionların inkişafının dövlət büdcəsindən bilavasitə asılılığını tədricən minimuma endirməkdən ibarət idi. Onların uğurla reallaşdırılması ölkəmizdə məşğulluq səviyyəsinin artmasına, habelə, qeyri-neft sektorunun inkişafına da müsbət təsir göstərdi.

Prezident İlham Əliyev ilk dövrlərdən başlayaraq sosial məsələlərə xüsusi diqqət yetirirdi. Belə yanaşmaya uyğun olaraq ölkəmizdə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" qəbul olundu. Bu proqramın uğurla yerinə yetirilməsini nəzərə alaraq, 15 sentyabr 2008-ci il tarixində Prezident İlham Əliyev tərəfindən "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı" təsdiq olundu. Sonrakı illərdə də milli iqtisadiyyatın sosial-iqtisadi inkişaf proqramlarında yoxsulluğun və işsizliyin azaldılması, məşğulluğun artırılması və davamlı inkişafa keçid daima mərkəzi bir problem kimi irəli sürüldü. Məhz onun nəticəsidir ki, 2003-2023-cü illərdə yoxsulluq səviyyəsi 8,6 dəfə azalaraq, 44,7 faizdən 5,2 faizə enmişdir.

Bütövlükdə 2003-2009-cu illərdə Azərbaycanda milli iqtisadiyyatın formalaşması və təkmilləşdirilməsi ilə bağlı aparılan islahatlar strategiyasının müsbət nəticələrini əsas götürərək 2009-cu ildə ölkə Prezidenti İlham Əliyev qeyd etmişdir: "Azərbaycan iqtisadiyyatında keçid dövrü başa çatmışdır. Biz mövcud reallıqları təhlil etməklə nəticələr çıxarmalı, yeni paradiqmalar haqqında düşünməli və Azərbaycan iqtisadiyyatının davamlı inkişafa keçidlə bağlı iqtisadi inkişaf modelinin konseptual əsaslarını müəyyənləşdirməliyik. Bütün bu məsələlər yaxın gələcək üçün ölkəmizdə işlənib hazırlanan dövlətin strateji iqtisadi siyasətinin ana xəttini təşkil etməlidir". Məhz bu dövrdən başlayaraq ölkəmizdə işlənib hazırlanan bütün strateji inkişaf proqramlarında iqtisadi, sosial və ekoloji problemlərin həllinə vəhdət halında yanaşılması prioritet bir vəzifə kimi qarşıya qoyuldu.

Ümumiyyətlə, İlham Əliyevin prezidentliyinin ilk on illiyində ölkəmizin iqtisadi inkişafının xarakterində baş verən mütərəqqi irəliləyişləri nəzərə alaraq, onun müvafiq sərəncamı ilə 2011-ci ildə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olundu. Həmin dövrdə ölkəmizin gələcək inkişafı ilə bağlı qəbul olunmuş bu proqram sənəddə, iqtisadi artımın keyfiyyətini yüksəltmək məqsədilə konkret istiqamətlər üzrə tədbirlər planı irəli sürüldü. Konsepsiyada qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və loqistika infrastrukturunun təkmilləşdirilməsi, informasiya cəmiyyətinə keçidin təmin edilməsi və səmərəli sosial müdafiə sisteminin qurulması və s. kimi məsələlər öz əksini tapmışdır.

Son illərdə ölkəmizdə iqtisadi inkişafdan xüsusən, neft strategiyasının uğurla reallaşdırılmasından qaynaqlanan maliyyə imkanları növbəti illərdə dayanıqlı sosial-iqtisadi inkişaf üçün güclü zəmin yaratdı.

Belə ki, iqtisadi artımın xarakterində baş verən keyfiyyət dəyişikliklərini nəzərə alaraq, ölkə prezidenti İlham Əliyev 16 mart 2016-cı ildə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ni və həmin ilin 6 dekabr tarixində, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin qəbul olunması haqda müvafiq sərəncam imzaladı. Qəbul olunmuş strateji yol xəritələri özündə ölkəmizin yaxın, orta və uzunmüddətli bir dövrdə əsas inkişaf istiqamətlərini və orada irəli sürülən məqsəd və hədəflərə çatmağın başlıca yollarını özündə əks etdirdi. Bu sənədlərdə ölkəmizin dinamik və davamlı inkişafını təmin etmək məqsədilə real və maliyyə sektorları arasında optimal nisbətin gözlənilməsi problemlərinə xüsusi diqqət yetirildi.

Torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin müdafiə qabiliyyətinin kəskin artırılması zərurəti öz növbəsində bu məqsədlərə kifayət qədər maliyyə vəsaitlərinin ayrılması tələbini nəzərə alan ölkə prezidenti çıxışlarında dəfələrlə qeyd etmişdir ki, bu prioritet məqsədlərə bu gün və yaxın gələcəkdə biz tələb olunan qədər vəsait ayıracağıq. O, daim bu problemə uzaqgörənliklə yanaşaraq, xüsusi vurğulayırdı ki, ölkəmizin milli gəlirini elə optimal nisbətdə bölüşdürməliyik ki, iqtisadiyyatın və əhalinin cari tələbatlarını ödəyərkən, onların gələcəkdə daha yaxşı ödənilməsi imkanlarını məhdudlaşdırmasın, başqa sözlə, milli gəlirin bölgüsünə davamlı inkişaf prinsipləri baxımından yanaşılsın.

Bütövlükdə son illərdə ölkəmizdə təsdiq olunmuş inkişaf proqramlarının, qəbul edilmiş qərarların təhlili göstərir ki, onlar sosialyönümlü bazar iqtisadiyyatının başlıca prinsiplərinə əsaslanaraq formalaşdırılmışdır. Belə ki, 2003-2023-cü illərdə dövlət büdcəsinin gəlirləri 29,1 dəfə, xərcləri isə 29,5 dəfə artmışdır. Bu illərin məlum çətinliklərinə baxmayaraq, büdcə xərclərinin strukturunda sosialyönümlü xərclər 19,3 dəfə artmışdır. Bu dövrdə böyük əhali təbəqəsinin həyat səviyyəsini əks etdirən minimum aylıq əməkhaqqı 38 dəfə, orta aylıq nominal əməkhaqqı 12 dəfə və minimum aylıq pensiya məbləği isə 14 dəfə artmışdır. Bu meyil son illərdə xüsusilə güclənmişdir. Belə ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat planlaşdırılır. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti cəmi 2,4 faizdir. Növbəti ilin dövlət büdcəsinin struktur təhlili göstərir ki, əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaqdır. Bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 40 faizdən çox hissəsini təşkil edəcəkdir. Növbəti ilin dövlət büdcəsi müasir Azərbaycan tarixində ən böyük büdcədir.

2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi sayəsində yaranan yeni reallıqlara adekvat keyfiyyətcə yeni inkişaf konsepsiyasının işlənib hazırlanmasını obyektiv zərurətə çevirdi. Qeyd olunanlar nəzərə alınaraq, dayanıqlı inkişaf məqsədlərinə əsaslanaraq, ölkə Prezidentinin müvafiq sərəncamı ilə 2021-ci ildə "Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyası qəbul olundu. Bu konsepsiya növbəti on illikdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi 5 Milli Prioritet irəli sürüldü.

Birinci Milli Prioritetin reallaşdırılmasının xüsusi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu müasir dövrdə xarici bazarlara rəqabətqabiliyyətli məhsullarla çıxış, qlobal məkanda cərəyan edən iqtisadi proseslərdə aktiv iştirak və bütün bunların kontekstində milli maraqların müdafiə olunması müasir dövrdə müstəqil dövlətlərin davamlı inkişafının təmin edilməsinin zəruri şərtinə çevrilib. Bu məqsədin səmərəli reallaşdırılması öz növbəsində dayanıqlı və yüksək iqtisadi artımın, daxili və xarici təsirlərə dayanıqlılığın təmin olunmasını tələb edir.

İkinci Milli Prioriteti effektiv reallaşdırmaq üçün inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət, paytaxt və regionların tarazlı inkişafı problemlərini optimal nisbətdə həll etmək zəruridir.

Üçüncü Milli Prioritet rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı adlanır. Müasir dövrdə inkişaf etmiş ölkələr iqtisadi artımın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcəyi bilavasitə insan kapitalının inkişafı ilə bağlıdır. Belə bir şəraitdə yaxın perspektivdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdan ibarət olmalıdır. Bu isə öz növbəsində müasir təhsil, innovasiyaları təşviq edən münbit şəraitin yaradılmasını tələb edir. Müasir dünyada rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı yalnız ölkədə güclü təhsil əsasında mümkündür. Belə ki, ancaq təhsil vasitəsilə insan kapitalını inkişaf etdirməklə onun ölkənin milli sərvətindəki payını stabil artırmaq mümkündür.

İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış 2030-cu ilə qədər ölkəmizdə müəyyənləşdirilən milli inkişaf strategiyasının mühüm prioritetlərindən biridir. İkinci Qarabağ müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatları nəticəsində bütün tarixi torpaqlarımız işğaldan azad olundu və Azərbaycanın bütün ərazisində dövlət suverenliyimiz tam bərpa olundu. Azərbaycan xalqı öz tarixində ən böyük zəfərə nail oldu. Belə bir şəraitdə Böyük qayıdışla bağlı dövlət proqramının həyata keçirilməsi qarşıya qoyulan məqsədlərin uğurla reallaşdırılması dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya kimi iki mühüm prinsiplərə əsaslanaraq həyata keçirilir. Azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən hal-hazıra kimi, ümumilikdə 22 milyard manat vəsait sərf olunmuşdur. Böyük qayıdış çərçivəsində bu günədək 2544 ailənin, başqa sözlə, 9857 nəfərin öz doğma yurduna qayıtması təmin olunmuşdur.

Son illərdə qlobal iqlim dəyişikliklərinin kəskinləşməsini nəzərə alaraq, ekoloji təmiz texnologiyaların tətbiqinə geniş yer verilməsi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı, çirklənmiş ərazilərin bərpası zərurətə çevrildi. Bu problemin müasir dövrdə aktuallığını nəzərə alaraq, Azərbaycanda təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi perspektiv dövr üçün mühüm bir milli prioritet kimi irəli sürüldü.

Son illərdə təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi milli prioritetinin reallaşdırılması istiqamətində ciddi işlər görülmüşdür. İlk növbədə Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonları və Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan edilmişdi. Bu baxımdan təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş və ölkəmizdə "yaşıl enerjiyə" keçidlə bağlı böyük layihələrin konkret reallaşdırılmasına başlanmışdı.

Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında ötən il BƏƏ-nin MASDAR şirkəti Qaradağ rayonunda 230 meqavatlıq günəş enerji stansiyasını istifadəyə vermiş, Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını inşa edir. Ümumiyyətlə, 2027-ci ilə qədər Azərbaycanda "yaşıl enerji" mənbəli 8, 2030-cu ilə qədər isə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulmuşdur. Bunlarla yanaşı, daha bir neçə 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanmışdır. Göründüyü kimi, son illərdə ölkəmizdə "yaşıl iqtisadiyyata" keçidlə bağlı kifayət qədər işlər görülmüş, lakin yaxın gələcəkdə bu istiqamətdə daha böyük layihələrin reallaşdırılması nəzərdə tutulur. Proqnoz məlumatlarına görə, bu layihələrin həyata keçirilməsi nəticəsində, ölkəmizin enerji balansının strukturunda "yaşıl enerjinin" xüsusi çəkisi 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyulmuş gücü üzrə payını 30 faizə çatdırmaq, habelə 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq nəzərdə tutulur.

2030-cu ilədək müəyyənləşdirilən 5 milli prioritetlərin konkret tələblərinə uyğun olaraq sosial-iqtisadi inkişafı təmin etmək məqsədilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" qəbul olundu. Bu zərurət ondan yarandı ki, 2023-cü ildə antiterror əməliyyatları nəticəsində bütün ərazilərimizdə dövlət suverenliyinin bərpa olunması, son nəticədə ölkəmizdə sosial-iqtisadi inkişafa dair qəbul olunmuş milli prioritetlərin xarakterinə, əhatə dairəsinə, reallaşdırılması müddətinə və mexanizminə də mühüm təsir göstərdi. Ölkəmizdə milli iqtisadiyyat səviyyəsində keyfiyyətcə yeni reallıqları nəzərə alaraq Prezident İlham Əliyev 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında" bir sıra dəyişikliklər etdi. Bu dəyişikliklər, əsasən, "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" kimi adlandırılan birinci Milli Prioritetin daha səmərəli və optimal müddətdə reallaşdırılmasına istiqamətlənmişdir.

İlham Əliyevin iqtisadi inkişaf strategiyasında türk dövlətləri ilə iqtisadi-ticari əlaqələrin şaxələndirilməsi xüsusi yer tutur. Bu baxımdan Prezident İlham Əliyevin təşəbbüsü ilə Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü və burada imzalanan Qarabağ Bəyannaməsi türk dünyasının iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətində mühüm addımdır. Zirvə görüşündə qəbul olunan qərarlar "Türk dünyasına baxış-2040" çərçivəsində iqtisadi inteqrasiyanın dərinləşdirilməsini hədəfləyir. Qarabağ Bəyannaməsi türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün mühüm prinsipləri özündə ehtiva edir. Bəyannamə çərçivəsində həyata keçiriləcək tədbirlər ölkələr arasında ticarət maneələrinin azaldılması, nəqliyyat və logistika infrastrukturunun təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində vacib addımların atılmasını nəzərdə tutur. Üzv dövlətlər arasında ticarətin artmasında xüsusi önəm kəsb edən Orta dəhlizin Çindən Avropaya gedən ən sürətli marşrut kimi əhəmiyyəti xüsusi qeyd olunmuşdur. Belə ki, 2040-cı ilə qədər bu dəhliz vasitəsilə tranzit yüklərin həcminin illik 500 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Bütün bunlar Azərbaycanda beynəlxalq nəqliyyat və logistikanın inkişafı ilə bağlı dövlət başçısının qəbul etdiyi qərarların tarixi rolunu bir daha aydın ifadə etməklə, ölkəmizdə illər öncədən başlayaraq bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyətini əyani surətdə göstərir.

Onu da qeyd edək ki, Azərbaycanın inkişaf strategiyasında ətraf mühitin mühafizəsinə və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələlərinə xüsusi önəm verilir. Məhz bunun nəticəsidir ki, dünyanın 200 ölkəsinin yekdil rəyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) qlobal Sammitinin Bakıda keçirilməsi qərara alınmışdır. COP29-un Bakıda keçirilməsi qərarı, həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstək kimi qiymətləndirilməlidir. 2024-cü il noyabr ayının 11-23 tarixlərində Bakı şəhərində keçirilən COP29 Qlobal Sammitində dünyanın 197-i ölkəsindən 76000 nümayəndə qeydə alınmış, o cümlədən 80 ölkənin prezidenti, vitse-prezidenti və baş nazirləri iştirak etmişdir.

Konfransın Bakı şəhərində keçirilməsinin əhəmiyyətini prezident İlham Əliyev çox dəqiq və obyektiv dəyərləndirərək COP29-un Liderlər Sammitinin açılış mərasimindəki dərinməzmunlu və proqram xarakterli giriş sözündə qeyd etmişdir: "COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".

Konfransın sonunda qəbul olunmuş qətnaməsində İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət hədəfi qəbul olundu. Həmin sənəddə inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə əvvəlki 100 milyard ABŞ dolları həcmindəki məbləğin artırılaraq, 2035-ci ilədək 300 milyard ABŞ dollarına çatdırılması qərara alınmışdır. Qeyd etmək lazımdır ki, COP29 iştirakçılarının yekdil rəyinə görə, Bakı Sammiti təşkilatçılıq və idarəetmə baxımından çox yüksək səviyyədə reallaşdırılmışdır.

COP29 konfransının Azərbaycanda keçirilməsi ölkəmizin potensialının və iqtisadi imkanlarının daha yaxından təqdim edilməsinə şərait yaratmışdır. Bütün bunlar bizə belə qənaətə gəlməyə tam əsas verir ki, BMT-nin COP29 Qlobal Sammitinin Bakıda keçirilməsi son 20 ildə ölkəmizdə Prezident İlham Əliyevin bütün istiqamətlər üzrə həyata keçirdiyi inkişaf strategiyasının nəticə baxımından zirvəsi hesab olunmalıdır. Son nəticədə Azərbaycanın beynəlxalq miqyasda nüfuzu kəskin artmış və o, bu gün regionun aparıcı dövləti kimi statusunu gücləndirmişdir.

Ölkə Prezidenti İlham Əliyev son illərdə Azərbaycanda milli iqtisadiyyatın inkişafında əldə olunan uğurlara, yaradılan potensiala və bütünlükdə iqtisadi artım amillərinin strukturunda baş verən keyfiyyət dəyişikliklərinə əsaslanaraq 2024-cü il 23 sentyabr tarixində Milli Məclisdəki çıxışında qeyd etmişdir: "İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır. 30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır".

Onu da xüsusi qeyd etmək lazımdır ki, 2024-cü il ölkəmiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə zəngin olmuşdur. Belə ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün suveren ərazilərimizdə cari ilin fevral ayında növbədənkənar prezident seçkiləri keçirilmişdi. Bu seçkinin nəticəsi birmənalı olaraq Prezident İlham Əliyevin tarixi zəfərlərə yol açan bütün istiqamətlər üzrə müəyyənləşdirilən uğurlu və məqsədyönlü siyasətinə xalqımızın inam və etimadını nümayiş etdirdi.

Bütün bunlar bir daha onu əyani surətdə sübut edir ki, fundamental əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və müasir dövrdə ölkə Prezidenti İlham Əliyev tərəfindən reallıqları nəzərə alaraq formalaşdırılan siyasət Azərbaycanın bugünkü və sabahkı zəfərini təmin edən inkişaf strategiyasıdır.

**Ədalət MURADOV,**
*UNEC-in rektoru, professor*

**Müasir beynəlxalq münasibətlər sistemində qabarıq nəzərəçarpan yeni reallıqlar siyasi-iqtisadi münasibətlərin forma və konturlarını, ölkələrin modernləşdirilməsinin xarakterini dəyişir, dövlətlə cəmiyyətlərin bir-birini endogen surətdə gücləndirməsini şərtləndirir. Avropa ilə Asiyanın qovuşduğu mühüm geosiyasi məkanda yerləşən Azərbaycanda sivilizasiya Şərq təməli üzərində intişar etsə də, Qərbin güclü təsirini, coğrafi determinizm amilini inkar etmək mümkün deyil. Bəşəriyyət tarix boyu geniş coğrafi məkanda sıx inteqrasiyaya, vahid siyasi, iqtisadi, sosiomədəni birliyə can atmışdır.**

# Şəxsiyyət zirvəsi



İkinci və üçüncü minilliyin ayırıcında Azərbaycanda konservatizm və liberalizm ideyalarının konvergensiyası milli siyasətin determinantı kimi qabarıq təzahür etməyə başladı. Bu səbəbdən cəmiyyətimiz tarixi köklərə bağlıdır və simbioz tradisionalist şüurun antimodernləşdirmə əhvali-ruhiyyəsinin qarşısını almağa qadirdir. Ötən əsrin 90-cı illərindən başlayaraq, Ümummilli Lider Heydər Əliyev demokratik dövlət quruculuğu prosesində mühüm islahatlar həyata keçirdi. Sonrakı proseslər və qazanılan uğurlar sübut etdi ki, transformasiya dövrünü yaşayan cəmiyyətlərdə güclü dövlət olmadan ölkənin xaos və anarxiya mühitinə sürüklənməsi qaçılmazdır.

Ulu Öndər Heydər Əliyevin tarixi missiyası təkcə ölkəni təhdid edən təhlükələrin aradan qaldırılmasından ibarət deyildi. Bu böyük dövlət xadimi Azərbaycanda yeni siyasi, iqtisadi situasiya yaradılmasını, genişmiqyaslı, sistemli islahatlar həyata keçirilməsini, müstəqilliyimizə əbədi, dönməz xarakter verilməsini, ölkənin suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasını özünün xilaskarlıq missiyasının başlıca qayəsi hesab edirdi. O yaxşı bilirdi ki, milli və fərdi maraqlar kompleksini özündə ehtiva etməyən ideyalar sistemi uğur qazana bilməz, cəmiyyətin ümummilli vəzifələrin həlli istiqamətində səfərbər edilməsi yalnız ideyanın şüura hakim olması, praktiki fəaliyyətə transformasiyası şəraitində mümkündür.

Bütün reallıqları nəzərə alan Heydər Əliyev ölkənin yeni dövrdə demokratik inkişaf strategiyasını işləyib hazırlayırdı, mütərəqqi dəyişikliklərin cəmiyyətin ictimai şüuruna hakim kəsilməsinə xüsusi önəm verirdi. Bunun fonunda Azərbaycan müxalifəti cəmiyyətə postindustrial epoxanın tələblərinə uyğun rasional və cəlbedici proqram, konsepsiya təqdim edə bilmədiyindən sosial bazasını sürətlə itirməyə başladı. Nəticədə siyasi hakimiyyətə opponentlik edən müxalif qüvvələrin dövlətin idarəçilik sükanının arxasına keçmək planları iflasa uğradı.

Azərbaycanda 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkiləri ölkənin inkişafı yolunda yeni dövrün başlanğıcı oldu. Xalq yaxşı bilirdi ki, güclü dövlət, güclü iqtisadiyyat, intellektual düşüncəyə malik realistlərin və praqmatiklərin mövcudluğu Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu davam etdirməyin mühüm şərtidir. Azərbaycan seçicisinin yekdilliklə cənab İlham Əliyevə səs verməsi bir daha sübut etdi ki, Heydər Əliyevin siyasi xətti onu qane edir və xalq tərəfindən dəstəklənir.

Prezident seçkilərindən sonra ölkədə siyasi paradiqma yeni reallıqlar müstəvisində formalaşmağa başladı. Seçkidə ağır məğlubiyyət radikal müxalifəti etibardan saldı, siyasi subyekt kimi onun daxilindəki ziddiyyətləri və ixtilafları daha da gücləndirdi. Yaranmış marginal mühit böhran keçirən müxalif cəbhədə vahid liderin müəyyənləşdirilməsi məsələsini birdəfəlik müşkül problemə çevirdi.

Beynəlxalq ictimaiyyətin xüsusi diqqət mərkəzində olan seçkidən az sonra ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq müşaviri, görkəmli siyasi xadim Zbiqnev Bjezinski yazırdı: "Bakıda son on ildə baş verən dəyişikliklər bizə böyük təsir bağışladı. Bütün bu dəyişikliklər Heydər Əliyev siyasətinin nəticəsidir. Bu dəyişikliklər gələcək gözəl inkişaf üçün zəmin yaratdı. Biz Azərbaycanın ABŞ üçün həqiqətən vacib ölkə olmasını qəbul edir və bunu gözəl anlayırıq. Azərbaycanın ABŞ üçün əhəmiyyətini heç bir amil azalda bilməz. Əslində, ABŞ ilə Azərbaycan arasında münasibətləri alyans kimi səciyyələndirmək olar. Azərbaycanda keçirilmiş seçkilərin nəticələri məlumdur: İlham Əliyev qələbə qazandı və başlıcası da budur".

Zbiqnev Bjezinski fikrini olduqca sərrast ifadə etmişdir. Cənab İlham Əliyevin qələbəsi həqiqətən mühüm əhəmiyyət kəsb edirdi. Onun prezidentliyinin ilk beş illik dövründə qazanılan nailiyyətlərə faktlar və rəqəmlər əsasında nəzər salaq. 2003-2008-ci illərdə Azərbaycan iqtisadiyyatına 44 milyard dollar sərmayə qoyulmuş, qeyri-neft sektorunun inkişafında böyük uğurlar əldə edilmişdir. Minimum pensiyanın məbləği 4 dəfə, minimum əməkhaqqı 8 dəfə, orta əməkhaqqı 3,6 dəfə artırılmışdır. 2003-cü ildə yoxsulluq şəraitində yaşayanlar əhalinin 49 faizini təşkil edirdisə, 2008-ci ilin yekunlarına görə, bu rəqəm 14 faizə düşmüşdü.

2003-2008-ci illər ərzində 4 beynəlxalq aeroport istismara verilmiş, 700 meqavat gücündə 8 elektrik stansiyası inşa olunmuş, 741 min yeni iş yeri açılmışdır. Bu dövrdə Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün Azərbaycan Prezidenti Heydər Əliyevin böyük səylər göstərdiyi, tikilməsinə dair 1999-cu ildə saziş bağlanmış nəhəng Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ilin iyul ayında, Bakı-Tbilisi-Ərzurum qaz kəməri isə 2007-ci ildə istifadəyə verilmişdir. Bunların məntiqi davamı olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlanılmışdır.

Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə böyük diqqət yetirirdi. O, söz verdiyi kimi fəaliyyətinin birinci müddətində qaçqın şəhərciklərinin ləğvinə nail oldu, beş il ərzində 12 çadır şəhərciyi ləğv edildi, onların əvəzinə müasir binalar, 36 yeni qəsəbə inşa olundu.

2003-2008-ci illərdə 1600 yeni məktəb tikildi, yüzlərlə məktəb təmir olundu. "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004-2008-ci illər) uğurla başa çatdırıldı, proqram çərçivəsində regionlarda iri infrastruktur layihələri həyata keçirildi, yeni müəssisələr açıldı. İqtisadi, sosial islahatlarla yanaşı, idarəçilik sahəsində dəyişikliklər aparıldı, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Müdafiə Sənayesi Nazirliyi yaradıldı.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin birinci müddətində görülən işləri, qazanılan böyük uğurları, onun tarixi xidmətlərini bütünlüklə əhatə etmək mümkün deyil. O, praqmatik, çevik siyasəti, sistemli yanaşması, inqilabi səciyyə daşıyan islahatları ilə Azərbaycanı siyasi, iqtisadi və hərbi baxımdan qüdrətli dövlətə çevirdi, zamanın çağırışlarına siyasi reallığı düzgün dəyərləndirərək adekvat cavablar verdi. Seçkiqabağı təşviqat zamanı verdiyi vədlərin əməli işlərdə öz təcəssümünü tapması sayəsində Prezident İlham Əliyev bir daha xalqın sonsuz məhəbbətini və dərin etimadını qazandı. Xalq ona inanır, onun simasında millətin passionar enerjisini müdrikliklə səfərbər etməyi və istiqamətləndirməyi bacaran qlobal strateji düşüncəyə malik siyasi lideri görürdü.

Prezident İlham Əliyevin iqtisadi siyasətinin mərkəzində hər zaman Azərbaycan insanı dayanmışdır. Büdcənin sosial yönümlülüyü, pensiyaların, sosial müavinətlərin, əməkhaqlarının artım dinamikası, həyata keçirilən neft və qaz layihələri, TANAP, TAP, BTQ kimi transmilli layihələr, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə görülən işlər hakimiyyət və xalq birliyini daha da möhkəmləndirdi, ona monolit xarakter verdi. Böyük enerji və nəqliyyat layihələri Azərbaycanın tranzit imkanlarını dəfələrlə artırdı, eyni zamanda qlobal enerji və nəqliyyat təhlükəsizliyinə mühüm töhfə oldu.

Milli iqtisadiyyatın gücləndirilməsinə, ölkənin inkişafında, xarici siyasətdə varisliyin qorunub saxlanılmasına çalışan Azərbaycan xalqı 2008-ci, 2013-cü, 2018-ci və 2024-cü illərdə də azad, demokratik, plüralist, sosial cəmiyyət quruculuğu yolunda önəmli uğurlara imza atan cənab İlham Əliyevə yenidən yekdilliklə səs verdi, etimad göstərdi.

Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasında əsas vəzifələrdən biri iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq, qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə ən müasir texnologiyaya və biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün mühüm şərtdir. Bu baxımdan enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun genişləndirilməsi, bölgələrə xüsusi diqqət yetirilməsi və hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla regional inkişaf mərkəzlərinin yaradılması əhalinin yaşayış səviyyəsinin tarazlaşdırılmasına, sosial rifahın yüksəlişinə güclü təkan verəcəkdir. Bütün bu proseslərdə Prezident İlham Əliyev dövlət başçısının əsas və sədaqətli silahdaşı olan millətin və monolit cəmiyyətin fundamental maraqlarından çıxış edir. Millətin və cəmiyyətin mənafelərini ifadə edən, özündə təcəssüm etdirən sosial-siyasi reallıq uğur qazanmağın başlıca şərtidir.

Tarixi şəxsiyyətlər xalqların taleyinə mühüm təsir göstərmək qüdrətinə malik olduğundan onların ideyaları, fəaliyyətləri ağır sınaqlar dövründə tarixin təkanverici qüvvəsinə çevrilir, bütöv bir ölkənin, regionun mənzərəsini dəyişir. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi zaman kəsiyində Azərbaycanın malik olduğu böyük iqtisadi resursları, hərbi qüdrəti, intellektual potensialı cəmləyib, səfərbər edib ən ağrılı problemləri müdrikliklə həll etdi, möhtəşəm tarix salnaməmizə şanlı səhifələr yazdı.

Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, torpaqlarımızın işğaldan azad olunmasının, suverenliyimizin bərpasının yolu ölkənin inkişafından, iqtisadiyyatımızın, ordumuzun gücləndirilməsindən keçir: "Xalqımız tarix boyu böyük müharibələrdən çıxmış, öz torpağını, mənliyini qoruyaraq qurbanlar vermişdir. Xalqımız hər dəfə belə müharibələrdən, döyüşlərdən, çətinliklərdən çıxaraq daha da mətin, iradəli olmuşdur... Əgər bizim bütün sülhsevər addımlarımız, təşəbbüslərimiz, apardığımız tədbirlər son nəticədə işğal edilmiş torpaqların azad olunmasını təmin etməsə, nəyin bahasına, hansı qurbanların bahasına olur-olsun, torpaqlarımızı azad edəcəyik... Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Bu, bizim müqəddəs borcumuzdur - əcdadlarımız qarşısında borcumuz, bugünkü nəsil qarşısında borcumuz, gələcək nəsillər qarşısında borcumuzdur".

Bu müqəddəs vəzifəni, tarixi missiyanı yerinə yetirmək səadəti möhtərəm Prezidentimiz cənab İlham Əliyevə nəsib oldu.

Möhtərəm Prezidentimiz çıxışlarının birində "... nəyi necə, nə vaxt etmək lazımdır, onu mən yaxşı bilirəm!" deməklə həqiqəti bəyan etmişdi! Xəbərdarlıq vaxtının dəqiq seçilməsi də onun haqlı olmasına dəlalət edir. 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq başlayan əks-hücum sonradan "Dəmir yumruq" əməliyyatı adı alaraq Vətən müharibəsinə çevrildi. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edildi. 28 sentyabr 2020-ci il tarixli sərəncam ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olundu, hərbi əməliyyatlara hazırlıq və onun keçirilməsinə dair qərarlar qəbul edildi.

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsinin gedişində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu, onun canlı qüvvəsi məhv edildi, hərbi texnikası dağıdıldı, Azərbaycan öz gücünü, qüdrətini göstərdi. "Dənizdən-dənizə böyük Ermənistan" və erməni ordusunun "məğlubedilməzliyi" haqqında uydurulan mif dünyanın gözü qarşısında yox oldu.

Bu möhtəşəm zəfərin baş memarı Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin vəsiyyətini ləyaqətlə yerinə yetirərək, Ulu Öndərin başladığı işi məntiqi sonluğuna çatdırdı, öz adını dünya və Azərbaycan tarixinə böyük dövlət xadimi, qüdrətli sərkərdə, Müzəffər Ali Baş Komandan kimi əbədi yazdırdı. Zəfərə gedən yol illər öncə başlasa da, Prezident İlham Əliyev ən əlverişli zamanı gözləyərək, hərb və diplomatiya müstəvisində böyük savaşın, intellektual mübarizənin qalibi oldu, bölgədə yeni reallıqlar yaratdı.

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə 8 noyabr Azərbaycan Respublikasında Zəfər Günü elan olundu.

Müzəffər Prezidentimiz nadir zəkası, qətiyyəti, cəsarəti və yenilməz iradəsi ilə dünyaya möhtəşəm azərbaycanlı obrazı təqdim etdi. Dövlətin və millətin inkişafı yolundakı bütün əngəlləri aradan qaldırdı, tarixi torpaqlarımızı təhdid edən separatçılıq, təxribatçılıq və xəyanətkarlıq yuvasını zərərsizləşdirdi.

Təəssüf ki, Ermənistan ağır məğlubiyyətdən dərs almadı, nəticə çıxarmadı. Birgə bəyanatın bəndlərinə uyğun olaraq Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk etməli, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı idi. Lakin məğlub ölkə üçtərəfli Bəyanatın tələblərini yerinə yetirmir, gizlin yollarla Qarabağ ərazisinə silah-sursat, hərbi texnika göndərir, genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətməkdə davam edirdi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan 2023-cü il sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular, lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Sentyabrın 28-də Qarabağdakı separatçı rejimin rəhbəri qondarma qurumun ləğvi barədə sənəd imzaladı.

Azərbaycanın Zəfər yürüşü Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda üçrəngli bayrağımızın yüksəldilməsi, ərazi bütövlüyümüzün tam bərpası ilə yekunlaşdı. 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunmuş təntənəli hərbi paradın keçirilməsi qələbəmizin möhtəşəm simvoluna çevrildi. Hazırda Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiya və demarkasiyası, regonda təhlükəsizliyin təmin edilməsi məsələlərinə dair danışıqlar aparır.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz öz torpaqlarını azad etməklə tarixi inkişafın irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülür. Reallaşdırılan önəmli layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, sağlam bünövrə yaradır. Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsində hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Genişmiqyaslı layihələrin icrası və Böyük qayıdışın təmin olunması məqsədilə Prezident İlham Əliyev 2022-ci il noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzaladı. Dövlət proqramı 2022-2026-cı illəri əhatə etməklə qarşıya olduqca mühüm vəzifələr qoydu. Hazırda dövlət proqramı çərçivəsində işlər uğurla davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərə tez-tez səfərlər edən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ciddi nəzarəti altında iqtisadi reinteqrasiya məsələlərinə xüsusi diqqət yetirilir. Bərpa və yenidənqurma prosesi sürətli, sistemli və planlı şəkildə həyata keçirilir. Böyük quruculuq meydanına çevrilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, elektrik stansiyaları inşa olunur. Qarabağ və Şərqi Zəngəzura qayıdan insanların sayı gündən-günə artır. Hər həftə, hər ay onlarla ailə öz yurduna qovuşur. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün işğaldan azad olunmuş ərazilərə qayıdacaq. Azərbaycanın dövlət başçısı Qarabağı nəinki regionun, bütün dünyanın müasir, abad, əsrarəngiz və təhlükəsiz bölgəsinə çevirməkdə qərarlıdır.

Azərbaycan Prezidenti noyabrın 8-də Bakıda Zəfər parkının açılışında xalqa müraciətində keçdiyimiz şərəfli yola, tarixi proseslərə nəzər salaraq demişdir: "Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi danışıqlar mövzusu olmayacaq və həyat bunu göstərdi.

Biz hazırlaşırdıq, güclü ordu yaradırdıq, iqtisadi inkişafı təmin edirdik, çünki Ermənistandan fərqli olaraq heç bir kənar yerdən yardım almırdıq, ancaq öz gücümüzə güvənirdik. İqtisadi inkişaf, siyasi çəkimizin böyük olması, sözümüzü beynəlxalq tribunalarda qətiyyətlə deməyimiz, xalq-iqtidar birliyi, gənc nəslin yetişdirilməsi, cəmiyyətdə vətənpərvərlik ruhunun bərqərar olması - bütün bu amillər bizi Qələbəyə doğru aparırdı. Bütün bu amillərin cəmləşməsi bu Qələbəni mümkün etmişdir. Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir. Biz düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik".

Vətən müharibəsində qazanılan Böyük Zəfər tarix boyu dəfələrlə deportasiyaya məruz qalmış qərbi azərbaycanlıların doğma vətənlərinə qayıtmaq inamını daha da gücləndirdi. Qərbi azərbaycanlıların sülh şəraitində təhlükəsiz və ləyaqətli şəkildə geriyə qayıtmasının yol xəritəsi olan Qayıdış Konsepsiyası mükəmməl tarixi sənəddir. Strateji hədəflərimizə nail olmaq üçün Qərbi Azərbaycan İcması Qayıdış Konsepsiyası əsasında ölkəmizdə və dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın təşkilatlanması, hüquqlarımızın təmin olunması istiqamətində əzmlə mübarizə aparır, ermənilərin Qərbi Azərbaycanda həyata keçirdikləri vandalizm aktlarını qətiyyətlə pisləyir.

Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, ATƏT, Türk Dövlətləri Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumların işində fəal iştirak edir, müxtəlif beynəlxalq forumlarda müasir dünyanın beyin mərkəzlərini düşündürən mürəkkəb məsələlərə dair elmi-nəzəri müzakirələrdə yeni eranın determinantları barədə özünün dolğun fikirlərini açıqlayır, ifrat mühafizəkarlığın sosial-siyasi mühitdə neqativ avtarkiya təhlükəsi doğurduğunu bildirir. Azərbaycan son onilliklərdə böyük beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir, demokratik və dünyaya açıq dövlət olduğunu nümayiş etdirir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlük, Qoşulmama Hərəkatına sədrlik, mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi qlobal hərəkatın - "Bakı Prosesi"nin təşəbbüskarı olmaq, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) böyük uğurla Azərbaycanda keçirilməsi beynəlxalq arenada ölkəmizə yüksək nüfuz qazandıran tarixi nailiyyətlərdir.

Bu gün hər bir azərbaycanlı fəxr edir ki, çağdaş Azərbaycanın dövlətçilik sükanı etibarlı əllərdədir. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin mükəmməl dövlətçilik fəlsəfəsini dərindən mənimsəyərək yeni əsrin yeni lideri, müdrik dövlət xadimi, mahir diplomat, qətiyyətli siyasətçi kimi qloballaşan dünyamızı çulğamış mürəkkəb geosiyasi mübarizə şəraitində ölkəmizin qarşısında duran strateji hədəflərə çatmaq üçün heyrətamiz əzmkarlıq, sarsılmaz iradə nümayiş etdirir, Azərbaycanı böyük inam və qətiyyətlə yeni zirvələrə doğru aparır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri, tarixi missiyası xronoloji çərçivəyə sığmır, ölkənin və millətin gələcəyinin üfüqlərinə işıq saçır. İllər, əsrlər keçdikcə onun yazdığı qəhrəmanlıq epopeyasının əzəmətini daha aydın dərk edəcəyik.

**Həsən HƏSƏNOV,**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü***

# Azərbaycanda sahibkarlığın inkişafını təmin edən Lider



**Zəngin fəaliyyəti, böyük xilaskarlıq missiyası, misilsiz insani keyfiyyətləri sayəsində Ulu Öndər zirvəsinə ucalmış və zəmanəmizin əbədiyaşar dahisinə çevrilmiş Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəni ziddiyyətlər burulğanından xilas etdi, Azərbaycanda yeni iqtisadi strategiyanın əsası qoyuldu.**

Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərllik etdiyi dövrdə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuş və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən az ölkələr olmuşdur.

Ötən illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafelərini özündə əks etdirməsi dövlət başçısı İlham Əliyevin yüksək bilik və intellektə, təcrübə və istedada, geniş dünyagörüşünə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha nümayiş etdirdi.

Ümumilikdə geridə qalan 21 il Azərbaycan dövlətinin yüksəlişi və öz hədəflərinə yetişməsi üçün formalaşdırdığı böyük potensialın bütün əzəməti ilə reallığa çevirdiyi əlamətdar mərhələdir. Müdrik xalqımızın 21 il öncə inanıb taleyini etibar etdiyi cənab İlham Əliyev həyata keçirdiyi qlobal layihələrlə Ümummilli Liderin zəngin dövlətçilik işində müəyyən olunmuş böyük amalları həyat gerçəklərinə çevirən qüdrətli siyasi xadim olduğunu təsdiqləmişdir. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə əsaslanması bir sıra strateji sahələrdə əldə olunmuş uğurlar fonunda aydın görünür.

Hazırda Azərbaycan dövləti çoxəsrlik şanlı tarixinin ən parlaq intibah dövrünü yaşadığını qürurla söyləyə bilərik. Azərbaycanın müstəqillik dövrünün yarıdan çoxu Prezident İlham Əliyevin adı ilə bağlıdır. Bu gün dünya dövlətləri arasında ləyaqətlə ucalaraq sahibləndiyimiz mövqe hər bir azərbaycanlının qürur mənbəyidir.

Cənab İlham Əliyev hər Yeni il üçün hökumətin həyata keçirməli olduğu tədbirlərin əhatə dairəsini və vaxtını dəqiq müəyyənləşdirməklə onların icra prosesini şəxsi nəzarətində saxlamış, habelə ölkənin strateji resurslarını milli inkişafa təkan verən qlobal layihələrin reallaşdırılması yönündə səfərbər etmişdir. Ölkə Prezidentinin xalqın mənafeyini daim uca tutmaqla həyata keçirdiyi iqtisadi siyasət strategiyasının uğurları, ilk növbədə makroiqtisadi göstəricilərdə öz əksini tapır.

Ötən dövrdə Azərbaycanın iqtisadi inkişafında mühüm dövr kimi dəyərləndirilməlidir. Qazanılan iqtisadi uğurlar, əldə edilən nailiyyətlər hesabına ölkəmiz bütün sahələrdə inkişaf yolunu tutub.

Bu dövr də həyata keçirilən işlərin nəticəsi kimi bir sıra iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, son 21 il ərzində ümumi daxili məhsul istehsalının real həcmi 4 dəfə artmış, ölkənin xarici ticarət dövriyyəsi 53 milyard ABŞ dollarına yüksəlmiş, qeyri-neft ixracı 10 dəfə artmışdır. Dövlət büdcəsinin gəlirləri 2003-cü ildə 1,2 milyard manat idisə, 2024-cü ildə bu rəqəm 34 milyard manatdan çox planlaşdırılmışdır.

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi illərdə qazanılan iqtisadi uğurların ümumi mənzərəsini əks etdirir. Dövlət başçısının strateji inkişaf kursunun uğuru nəticəsində Azərbaycan 2003-2024-cü illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmuşdur.

Cari ilin iqtisadi göstəriciləri də iqtisadiyyatın sürətli inkişaf tempini bir daha təsdiq etdi. Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə ölkə Prezidenti cənab İlham Əliyev çıxışında qeyd edib ki, "İlin əvvəlindən iqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir".

Ümumiyyətlə, 2024-cü ilin 11 ayında ölkədə 113,3 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuş, iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 6,4 faiz artmış, məhsula və idxala xalis vergilər ÜDM-in 10 faizini təşkil etmiş, əhalinin hər nəfərinə düşən ÜDM 11,1 min manata bərabər olmuşdur.

Ölkədə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin 11 ayında 58,3 milyard manatlıq məhsul istehsal edilmiş, qeyri neft-qaz sektorunda məhsul istehsalı 7,2 faiz artmışdır. 2018-ci illə müqayisədə 2024-cü ilin əvvəlinə əməkhaqqı fondu qeyri-neft sektorunun özəl bölməsində 2,4 dəfə artmışdır.

Azərbaycanın 2030-cu ilədək milli prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə iqtisadi aktivliyin bərpası sahibkarlıq subyektlərinin, buna uyğun olaraq yeni iş yerlərinin artımı ilə müşayiət olunur.

İqtisadi artım işgüzar aktivliyin və sahibkarların sayının ildən-ilə artmasına səbəb olub. Əgər 2002-ci ildə ölkədə cəmi 180 minə yaxın sahibkarlıq subyekti mövcud idisə, 2024-cü ilin əvvəlinə qeydiyyatda olan vergi ödəyicilərinin sayı 1,4 milyondan çox olmuş, aktiv vergi ödəyicilərinin sayı isə 800 min nəfərdən çoxdur.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində sahibkarlıq subyektlərinin 48,8 min investisiya layihəsinin maliyyələşdirilməsinə 3,1 milyard manat güzəştli kreditlər verilmişdir ki, maliyyələşdirilmiş layihələr hesabına 200 mindən çox yeni iş yerinin açılması imkanı yaranmışdır. Fond tərəfindən 2024-cü ilin on ayı ərzində müvəkkil kredit təşkilatları vasitəsilə 4724 layihənin maliyyələşdirilməsinə 188,2 milyon manat güzəştli kredit verilmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Regionların yeni siyasi-iqtisadi reallığından söz açarkən, ilk növbədə, 2004-cü ildən bugünədək ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası yada düşür. Ötən illər ərzində şəhər və rayonlarda, kəndlərdə, qəsəbələrdə infrastruktur layihələri uğurla gerçəkləşib, ölkə vətəndaşlarının həyat tərzinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülmüş və hazırda inkişafa hesablanmış belə layihələrin miqyası genişləndirilməkdədir.

Azərbaycanda gedən sürətli iqtisadi inkişaf dünya reytinq təşkilatları tərəfindən yüksək qiymətləndirilir. Beynəlxalq reytinq agentliyi "Fitch Ratings" Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqini "BB+" səviyyəsində təsdiqləyib.

Prezident İlham Əliyevin son illərdə Azərbaycana qazandırdığı uğurlardan bəhs edərkən onların zirvəsində dayanan tarixi Zəfərimiz böyük qürurla vurğulanır. Xalqımıza Qarabağ Zəfərini bəxş edən Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin güclü dövlət konsepsiyasının əsasını üç mühüm amil - iqtisadi, siyasi, hərbi güc təşkil edir ki, onların vəhdəti Vətən müharibəsində Qələbə qazanılmasını təmin etdi.

Bir neçə gün əvvəl ölkə Prezidenti cənab İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoruna müsahibəsində səsləndirdiyi fikirlər dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin Dmitri Kiselyova verdiyi müsahibədə beynəlxalq siyasət və qlobal əhəmiyyətli problemlər, onların həlli yolları, dövlətlərarası münasibətlər öz əksini tapmışdır. Dövlətimizin başçısının dünyada, o cümlədən qonşu ölkələrdə baş verən siyasi proseslər, neokolonializm təzahürləri və qlobal iqlim problemləri kimi mövzulara münasibət bildirməsi Azərbaycanın beynəlxalq əhəmiyyətinin yerləşdiyimiz region və postsovet məkanının çərçivələrini aşdığını nümayiş etdirir. Ölkə Prezidenti müsahibəsində, Rusiya ilə Azərbaycan arasında olan möhkəm təməl üzərində qurulmuş siyasi müttəfiqlik, azad edilmiş ərazilərdə aparılan bərpa işlərində iqtisadi əməkdaşlıq, Azərbaycanın dünya siyasətində vasitəçilik potensialı, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınlardan və digər önəmli mövzularla bağlı suallara cavab verib. Hazırda müxtəlif ölkələrin informasiya resursları dövlətimizin başçısının müsahibədə müxtəlif mövzularla bağlı səsləndirdiyi fikirləri yaymaqda və şərh etməkdə davam edirlər.

Bütün bunlar Prezident İlham Əliyevin regionda yaranmış yeni reallıqlara uyğun əməkdaşlıq təkliflərinə hər zaman açıq lider olduğunu bir daha təsdiqləyir.

Son illərdə işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyası uğurla həyata keçirilir. Bölgənin bərpa-quruculuq işlərinə infrastruktur layihələrindən başlanılıb və bu təsadüfi deyil. Çünki mükəmməl infrastruktur yaratmadan iqtisadiyyatın bərpası və insanların məskunlaşması mümkün deyil. Odur ki, indiyədək yüz kilometrlərlə avtomobil yolunun çəkilməsi istiqamətində xeyli iş görülüb. Tarixi "Zəfər" yolunun çəkilməsi təkcə infrastruktur layihəsi deyil, şanlı qələbəmizə qoyulan abidədir.

Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, bir çoxunun isə artıq açılışını edib.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra aparılan infrastruktur quruculuğu layihələrindən olan hava limanları nəinki iqtisadi nöqteyi-nəzərdən, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu artırıb. "Ağıllı kənd" layihələrində nəzərdə tutulan işlər də sürətlə davam edir. Ən diqqətçəkən məqam isə Azərbaycan dövlətinin bütün bu layihələrin həyata keçirməsinə çəkdiyi xərclərin daxili imkanlar hesabına etməsidir. Xarici şirkətlər bu yenidənqurma layihələrinə sadəcə podratçı kimi dəvət edilirlər.

Qarabağda inşa olunan yollar bölgənin yenidən qurulması istiqamətində atılan addımların tərkib hissəsi olmaqla yanaşı, həm də Zəngəzur dəhlizinin yaradılmasına xidmət edir. Region ölkələrini birləşdirəcək dəhlizlərin açılması və bu istiqamətdə inşa olunan yollar bölgənin inkişafını sürətləndirəcək və tranzit əhəmiyyətini artıracaq.

Azərbaycan sahibkarları əmindirlər ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağımızı yenidən dirçəldəcək, insanların öz doğma yurdlarına dönməsinə nail olunacaqdır. Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə görülən işlər və nəticələr bu gün deməyə əsas verir ki, Azərbaycan dünyaya özünün uğurlu inkişaf modelini təqdim edə bilmiş və qısa zaman kəsiyində ölkəmizdə, sözün əsl mənasında, inqilabi yeniləşmə və tərəqqiyə nail olunmuşdur.

Azərbaycan Respublikasının vətəndaşları olaraq, sahibkarlar da dövlətimizin, xalqımızın təəssübünü çəkir, onun hər uğuruna, nailiyyətinə ürəkdən sevinirlər.

Dörd il ərzində icra olunan layihələrə diqqət yetirdikdə əminliklə deyə bilərik ki, Qarabağ tezliklə Azərbaycanın deyil, dünyanın ən gözəl guşələrindən biri olacaq. Ona görə ki, burada bərpa-quruculuq işləri müasir dünya standartlarına uyğun icra edilir. Məsələn, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri insanların ətraf mühitə ziyan vurmadan yaşamasına hesablanmışdır.

Dövlət başçısının sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də vətəndaşlar tərəfindən ətraf mühitin qorunması işlərinə yaxından köməklik göstərilməsi məqsədilə nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının 2024-cü ildə ölkəmizdə təşkil edilməsi və keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin növbəti böyük uğurudur. Azərbaycan tərəfinin COP29-a yüksək səviyyədə evsahibliyi etməsi bütövlükdə bəşəriyyəti narahat edən iqlim dəyişmələri üzrə fundamental məsələlərin həllinə nə dərəcədə ciddi yanaşmasının göstəricisidir.

2023-cü il dekabrın 9-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərinin 29-cu görüşünə Azərbaycanın evsahibliyi etməsi barədə qərarın yekdilliklə dəstəklənməsi dünya dövlətlərinin Azərbaycanın beynəlxalq sülh və inkişaf məsələlərinə dair baxışına böyük dəstək verməsinin sübutudur.

Azərbaycan COP29-a doğru addım-addım, lakin uzaqgörənliklə, inamla, məqsəd aydınlığı ilə gəlmişdi.

Bakıda noyabrın 11-də öz işinə başlayan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) uğurla başa çatdı. Bu mötəbər tədbir dünya ictimaiyyətinin nəzərini iqlim dəyişikliklərinin yaratdığı fəsad və problemlərə yönəltməklə yanaşı, Azərbaycanın beynəlxalq uğuru kimi tarixə düşdü. Eyni zamanda bu tədbir respublikamızın antiazərbaycançı dairələr üzərində növbəti qələbəsi oldu.

Azərbaycan COP29-a ən yüksək və nümunəvi şəkildə evsahibliyi etdi. Tədbir günlərində hər hansı xoşagəlməz hadisə baş vermədi. Ümumilikdə isə COP29-un ən yüksək səviyyədə keçirilməsi, bu tədbirdə iştirak etmək üçün 200-ə yaxın ölkənin nümayəndələrinin, o cümlədən 80-dən çox prezident, vitse-prezident və baş nazirin Azərbaycana gəlməsi ölkəmizin dünya ölkələri sırasında layiqli yer tutmasının bariz nümunəsidir.

COP29-un bu il Bakıda keçirilməsi Azərbaycanda iqtisadiyyatın, o cümlədən sahibkarlığın dayanıqlı inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Ona görə də, cənab Prezident İlham Əliyevin sərəncamı ilə bu tədbirə hazırlıqla bağlı yaradılmış Təşkilat Komitəsində özəl sektoru Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası təmsil etmişdir.

Təsadüfi deyil ki, dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlığın keyfiyyətcə növbəti mərhələyə yüksəldilməsi və risklərin, məsuliyyətin dövlət və özəl sektor arasında optimal paylaşdırılması müasir dünyanın ən mühüm çağırışlarından biridir. Bu dayanıqlı inkişaf üçün mühüm alətlərdən hesab olunur və əsas məqsədi müvafiq investisiya mühitinin təkmilləşdirilməsi yolu ilə bu sahədə beynəlxalq investisiyaların ölkəmizə axınının stimullaşdırılmasından ibarətdir.

Bu hədəflərə nail olunmasında isə özəl sektorun üzərinə böyük məsuliyyət və öhdəliklər düşür və Azərbaycan Sahibkarlar Konfederasiyası bu missiyanı uğurla icra etməkdə biznesə dəstək verməyə hazırdır.

Belə ki, COP29 çərçivəsində "mavi zona"da Azərbaycan Sahibkarlar Konfederasiyası və Beynəlxalq İşəgötürənlər Təşkilatı birgə təmsil olunurdular.

Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Beynəlxalq İşəgötürənlər Təşkilatının vitse-prezidenti arasında keçirilən görüşdə bildirilib ki, Azərbaycan regionun ən inkişaf etmiş ölkəsidir və qeyri-neft sektorunun inkişafı istiqamətində bir neçə xüsusi proqramlar icra edir. Azərbaycanın özünəməxsus iqlimə malik olduğu vurğulanaraq, bioloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı üzrə imkan və potensiallar haqqında geniş məlumat verilib.

Eyni zamanda konfederasiyanın nümayəndə heyəti Beynəlxalq Əmək Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktorluğu ilə görüşərək, işəgötürən təşkilatları ilə əməkdaşlıq perspektivləri haqqında fikirlərini bölüşüb. Şərqdə işəgötürənlərlə işçilər arasında ilk kollektiv müqavilənin 120 il əvvəl məhz Azərbaycanda imzalandığı vurğulanaraq, konfederasiyanın BƏT ilə əməkdaşlığının uğurla davam etdiyi bildirilib.

Daha sonra konfederasiyanın nümayəndə heyəti "mavi zona"da fəaliyyət göstərən Azərbaycan pavilyonunda İqlimə Davamlı Kənd Təsərrüfatı Təcrübələrinin Təkmilləşdirilməsi üzrə Yüksək Səviyyəli Nazirlərin görüşündə iştirak ediblər. Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun çıxışçı olduğu paneldə maraqlı təcrübələr ətrafında çıxışlar dinlənilib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının ən aktiv üzvlərindən biri olan "Azərsun Holdinq" MMC-nin timsalında digər iş adamları da "KOB-ların "yaşıl iqlim" keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi"ni imzalayaraq "yaşıl keçid"ə dəstəklərini ifadə etmişlər. Tərəflər bəyannamə çərçivəsində iqlim dəyişmələri, "yaşıl texnologiyalar", "yaşıl sahibkarlıq" və "yaşıl iqtisadiyyat", maarifləndirmə və ətraf mühitin sağlamlaşdırılması tədbirləri üzrə əməkdaşlıq və birgə fəaliyyətlər həyata keçirəcəklər.

Qeyd edək ki, "KOB-ların "yaşıl iqlim" keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi" qlobal səviyyədə KOB-ların "yaşıl iqtisadiyyat"a keçidi üzrə birgə səylərin birləşdirilməsi məqsədini daşıyır. Bu sənəd kiçik bizneslərə təcrübələri mənimsəməkdə kömək etmək üçün məlumatlılığın və potensialın artırılması, "yaşıl maliyyə"yə çıxışın yaxşılaşdırılması, innovasiyaların təşviqi kimi öhdəliklər götürür. Bəyannamədə həmçinin KOB-ların "yaşıl təchizat" zəncirinə inteqrasiya etməsi və onların xalis sıfır emissiyaya keçidini asanlaşdırmaq üçün əməkdaşlıq və həll yolları vurğulanır.

Noyabrın 22-də Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Beynəlxalq İşəgötürənlər Təşkilatının "mavi zona"da yerləşən birgə pavilyonunda keçirilən növbəti tədbir "Yaşıl İnnovasiyanın Təşviqi: Sahibkarların bərpaolunan enerji ilə iqlim dəyişikliyi ilə mübarizə üçün gücləndirilməsi" mövzusuna həsr olunub.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə maliyyələşdirdiyi "İqlim dəyişikliyinə qarşı sahibkarlıqda bərpaolunan enerji mənbələrinin təşviqi" adlı layihənin davamı olaraq keçirilən bu tədbirdə iqlim dəyişikliyi ilə mübarizədə sahibkarların rolu, sahibkarlıq mühitinin transformasiya üçün hüquqi yanaşmalar və gələcək perspektivlərlə bağlı çıxışlar edilib.

Bütün yuxarıda qeyd olunanlar deməyə əsas verir ki, ümumiyyətlə, COP29 Azərbaycanın sədrliyi maliyyə, investisiya və ticarətin iqlim gündəliyinin mərkəzində qalmasını təmin etmək üçün BMT qurumlarını, beynəlxalq təşkilatları, çoxtərəfli inkişaf banklarını, çoxtərəfli iqlim fondlarını, özəl sektoru, vətəndaş cəmiyyətini, əsas koalisiyaları və digər maraqlı tərəfləri, həmçinin COP sədrlikləri və tərəfləri bir araya gətirdi. 150 tərəfdaş ölkənin təsdiq etdiyi hidrogen mövzularında öhdəliklər və bəyanatlar təqdim edildi. 75-dən çox hökumət və rəqəmsal texnologiya sənayesinin 1100-dən çox üzvü emissiyaları azaltmaq və iqlimə dayanıqlılığını gücləndirmək üçün rəqəmsal vasitələrdən istifadə edən bəyanatı təsdiqlədi. 8 BMT agentliyi, 3 çoxtərəfli inkişaf bankı və 3 iqlim fondu arasında birgə bəyanat qəbul edildi. Bu bəyanat çərçivəsində İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Rəhbər Prinsipləri qəbul edildi və COP sədrliklərinin İqlim və Səhiyyə üzrə Davamlılıq Koalisiyası yaradıldı. Beş COP sədrliyi (COP26-dan COP30-a qədər) və ÜST baş direktoru iqlim gündəliyinə sağlamlığı daxil edərək və gələcək COP konfranslarında əsas element olaraq sağlamlığı təbliğ etdi.

Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirən Azərbaycan Prezidenti "COP29-un iqlim diplomatiyasında dönüş nöqtəsi" olduğunu bildirdi. Artıq tarix yazmış COP29-un bütün bəşəriyyət üçün uğurla başa çatdığını qeyd edə bilərik. Bakıda keçirilən COP29-da bir çox vacib, uzun illər boyu həllini gözləyən məsələ ilə bağlı ortaq məxrəcə gəlindi. İnkişaf etməkdə olan ölkələr, kiçik ada dövlətləri, az inkişaf etmiş və Afrika ölkələrinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam işə salınması haqqında tarixi qərar qəbul olundu. Ən önəmlisi isə "Bakı Maliyyə Hədəfi" ilə bağlı razılıq əldə olundu. Bu hədəf inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan dövlətlər üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar səfərbər etməsini nəzərdə tutur.

Azərbaycanın COP29-a sədrliyi ilə aparılan intensiv çoxtərəfli diplomatiya nəticəsində Bakı Maliyyə Məqsədi və BMT karbon bazarları üzrə əldə edilmiş irəliləyişlər gözləntiləri üstələdi. Bakı Maliyyə Məqsədi əhəmiyyətli artım nümayiş etdirərək 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar həcmində iqlim maliyyəsinin təmin edilməsi üçün yeni qlobal hədəf qoyur. Buraya əvvəlki 100 milyard dollar həcmində hədəfi üç dəfə üstələyən 300 milyard dollar həcmində yeni əsas maliyyə hədəfi daxildir.

Dövlətimizin başçısının da qeyd etdiyi kimi, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Azərbaycanın nailiyyətlərindən biri də bu günlərdə Misirin paytaxtı Qahirə şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsidir. Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Azərbaycanın namizədliyinə dəstək bu təşkilata üzv dövlətlərlə uğurlu əməkdaşlığın göstəricisidir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan verir.

Konfederasiya tərəfindən mütəmadi olaraq "yaşıl iqtisadiyyat"a keçid zamanı iş yerlərinin ədalətli şəkildə bölüşdürülməsi, "yaşıl bacarıq"ların inkişaf etdirilməsi, bu sahədə işəgötürənlərin məsuliyyəti mövzularında müzakirələr aparılaraq, gələcəkdə görüləcək işlərlə bağlı təkliflər hazırlanmışdır.

Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bununla bağlı, Azərbaycan Sahibkarlar Konfederasiyası Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və onun tabeliyində olan qurumlarla əməkdaşlıq edərək, son illərdə bir sıra yerli və beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak etmişdir. Həmin tədbirlərdə yerli və xarici şirkətlərin nümayəndələri iştirak etmişlər ki, bu da özəl sektorda sağlam qüvvələrin birləşməsinə əsaslı zəmin yaradır.

Azərbaycan Sahibkarlar Konfederasiyası İqtisadiyyat Nazirliyi ilə birlikdə sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirməklə günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquqlarının qorunması istiqamətində mütəmadi olaraq iş apararaq bu sahədə öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Sahibkarlarımız da öz işlərini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan Hökuməti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2023-2024-cü illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında köməklik göstərir.

Bütün bunlarla yanaşı, ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi məqsədilə konfederasiyaya üzv sahibkarların iştirakı ilə xarici ölkələrdə və ölkəmizdə olan nümayəndəliklərlə keçirilmiş görüşlərdə, habelə konfederasiyanın tabeliyində olan komissiyaların iclaslarında iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı məsələlər təhlil edilmişdir. Sahibkarlardan daxil olan müraciətlərə baxılaraq, onların qaldırdığı məsələlərlə bağlı müvafiq dövlət orqanları ilə birgə araşdırmalar aparılmışdır. Eləcə də, "Vergi Məcəlləsi"ndə dəyişikliklər, tikintidə qeyri-rəsmi məşğulluğun qarşısının alınması və digər məsələlərlə əlaqədar hazırlanmış qanunvericilik layihələri ilə bağlı konfederasiya bir sıra təkliflərlə çıxış etmişdir.

Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində sahibkarlara həftəlik məlumat bülletenləri, hüquqi qanunvericiliklə bağlı yeniliklərin izahını əhatə edən bir neçə hüquqi icmal sənədi təqdim edilmişdir.

Cari ildə sahibkarların dövlət dəstək tədbirləri haqqında məlumatlılığını yüksəltmək, eləcə də Qarabağda yaradılan yeni iqtisadi zonalar, sənaye parkları və digər mövzuların daha geniş və analitik səpkidə təqdim edilməsi üçün "Biznes həyatı" jurnalının növbəti sayları dərc edilmişdir. Qeyd etmək istərdik ki, üzümüzə gələn 2025-ci ildə də konfederasiya tərəfindən bir sıra vacib tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Bütün dünyada iqtisadi inkişafın zəifləməsinə baxmayaraq, Azərbaycan rəhbərliyi 2025-ci il üçün iqtisadi inkişaf hədəflərini açıqlamış və gələcəkdə ölkə iqtisadiyyatını inkişaf etdirməklə Qarabağ və Şərqi Zəngəzuru yenidən dirçəltmək kimi məqsədlərin dayandığını bildirmişdir. Azərbaycan sahibkarları işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər. Bu məqsədlə Azərbaycan Sahibkarlar Konfederasiyası da öz növbəsində üzv olduğu beynəlxalq təşkilatlar, xaricdə yaşayan azərbaycanlı iş adamları, eləcə də milli sahibkarlarımızın potensial imkanlarından istifadə etmək məqsədilə mütəmadi olaraq iş aparır.

Son illərin reallıqları təsdiqləyir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün gücünü bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi Liderdir.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük bəxtəvərlikdir. İlham Əliyevin qeyd etdiyi kimi, xoşbəxt insandır ki, Ata vəsiyyətini yerinə yetirib. Həm də ona görə xoşbəxtdir ki, Azərbaycanın yeni, şanlı tarixinin müəllifi, xalqımızın bitib tükənmək bilməyən qürur və iftixarının ilham mənbəyidir.

**Məmməd MUSAYEV,**
*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti*

# İqtisadi və siyasi müstəqilliyin qarantı

**Müasir dövrdə dayanıqlı inkişaf prosesi real təminatlara əsaslanan iqtisadi siyasətin reallaşdırılması ilə yanaşı, ictimai mənafenin nəzərə alınmasını, insan və vətəndaş amilinin ön plana çəkilməsini zəruri edir. Qeyd edilən amillərin vəhdəti hər bir ölkədə ümumi məqsəd və strategiyanın reallaşdırılmasına imkan yaradır, habelə modernləşmə prosesinin vacib amilinə çevrilir.**

Bu gün əminliklə söyləmək olar ki, müstəqil Azərbaycanın son 30 ildə əldə etdiyi böyük uğurlar, ilk növbədə, sistemli və ardıcıl şəkildə gerçəkləşdirilən islahatların nəticəsidir. Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən cənab İlham Əliyevin 2003-cü ildən yürütdüyü siyasət dövlət başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. İqtisadi, siyasi, hüquqi liberallaşmaya xidmət edən islahatların dərinləşdirilməsi, Azərbaycanın inkişaf etməkdə olan ölkəyə çevrilməsi, hər bir vətəndaşın layiqli həyat tərzinin təmin edilməsi, ən başlıcası, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası keyfiyyətcə yeni mərhələnin ən mühüm uğurları sırasındadır.

Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü inkişaf strategiyasını ötən 21 ildə inamla davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirib, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına nail olub. Cənab İlham Əliyevin prezidentliyi iqtisadiyyat həyata keçirilən çoxşaxəli islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil edib. Başqa sözlə, praqmatik liderlik keyfiyyətlərinə malik olan dövlət başçısı Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideya səviyyəli hədəflər kimi müəyyənləşdirib.

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsini dərindən mənimsəmiş cənab İlham Əliyev son 21 ildə idarəçilikdə yeni ənənə və inqilabi xarakterli yeniliklərin müəllifinə çevrilib. Ölkəmizi davamlı tərəqqi yoluna çıxaran, təminatlı gələcəyə etibarlı zəmin yaradan mövcud siyasi kursun davam etdirilməsi cəmiyyətin həlledici çoxluğunun iradəsini əks etdirib. Xalqımız 2024-cü il fevralın 7-də keçirilmiş prezident, sentyabrın 1-də parlament seçkilərində taleyini növbəti dəfə bu siyasətə etibar edib. Bu dəyişməz seçim, eyni zamanda, Azərbaycan cəmiyyətinin öz layiqli liderinin siyasi fəhminə və parlaq şəxsiyyətinə sarsılmaz inamının əyani təcəssümü olub.

Dövlət başçısının milli maraq və mənafelərə əsaslanan uğurlu diplomatiyası, modern Ordu quruculuğu siyasəti, xalqı ətrafında səfərbər etmək bacarığı sayəsində Azərbaycan bu gün dünyada ərazi bütövlüyünü və suverenliyini hərb meydanında təmin edən, regionda yeni geosiyasi reallıqlar formalaşdıran qalib ölkə kimi tanınır. 44 günlük Vətən müharibəsi və ötən ilin sentyabrında keçirilən lokal antiterror tədbirləri zamanı qazandığımız parlaq zəfərlər dövlət başçısı İlham Əliyevin son 21 illik fəaliyyətinin nəticələrinin obyektiv dəyərləndirilməsi baxımından ən qürurverici, möhtəşəm hadisələrdir.

Prezident İlham Əliyevin və ailə üzvlərinin fevralın 7-də Xankəndiyə gələrək, bu şəhərdə səs verməl əri Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olması ilə bağlı bütün dünyaya, xüsusilə Ermənistana və onun Qərbdəki bəzi havadarlarına ünvanlanan sərt icmarış olub. Postsovet məkanında itirilmiş torpaqlarını geri qaytaran yeganə ölkə olan Azərbaycanın formalaşdırdığı yeni geosiyasi reallığın bütün dünyada qəbul olunması bu baxımdan xüsusi vurğulanmalıdır.

Prezident İlham Əliyevin sözünə imzası qədər sadiq lider olması, ölkəmizi dünyanın bir-birilə geosiyasi rəqabətdə olan əksqütblü güc mərkəzləri üçün etibarlı tərəfdaşa çevirməsi danılmaz reallıqdır. Azərbaycan bu gün nadir ölkələrdəndir ki, həm Rusiya, həm Avropa İttifaqı ölkələri, həm də ABŞ-lə münasibətlərini bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq meyarları üzərində qurur. Müxtəlif ölkələrin əlində siyasi alətə çevrilən Ermənistandan fərqli olaraq, ölkəmiz milli maraq və mənafelərini önə çəkərək müstəqil siyasət yürüdür, daxili məsələlərinə müdaxilə cəhdlərinə qarşı barışmaz mövqe tutur.

Dövlətimizin başçısı İlham Əliyev bir neçə gün əvvəl "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində bununla bağlı deyib: "Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur".

Hücum diplomatiyasına üstünlük verən Azərbaycan yekunlaşmaq üzrə olan 2024-cü ildə təkcə Cənubi Qafqazda deyil, ümumən Avropada maraqlarını təmin etməyə, konkret mərhələ üçün müəyyənləşdirdiyi strateji hədəfləri reallaşdırmağa nail olub. İlbəil genişlənən iqtisadi və hərbi potensialı, beynəlxalq əlaqələri rəsmi Bakıya hansısa güc mərkəzindən asılı olmadan qarşıya qoyduğu hədəflərə doğru addımlamaq imkanı yaradıb. Ölkəmizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, müxtəlif beynəlxalq qurumlarla münasibətlərinin inkişafı, diaspor və lobbi quruculuğu, Ermənistan üzərində hərbi-siyasi üstünlüyünün gücləndirilməsi, danışıqlar prosesinin yeni geosiyasi reallığa, milli maraqlara uyğun aparılması kimi vacib məsələlər xarici siyasətdə prioritet təşkil edib. Öhdəliklərinə sadiq tərəfdaş olması rəsmi Bakının müxtəlif güc mərkəzləri ilə münasibətlərinin xarakterinə də müsbət təsirini göstərib.

Azərbaycan il ərzində müxtəlif beynəlxalq platformalarda ölkəmizə qarşı əsassız kampaniyaları zərərsizləşdirib, eləcə də Ermənistanın müharibə cinayətlərinin ifşası istiqamətində fəal iş aparıb. Rəsmi İrəvanın və havadarlarının qarayaxma kampaniyasının qarşısının alınması, yeni geosiyasi reallıqların beynəlxalq ictimaiyyətə izah olunması istiqamətində ardıcıl və sistemli siyasət yürüdülüb. Rəsmi İrəvanla danışıqların ölkəmizin irəli sürdüyü sülh gündəliyi və beş prinsip əsasında davam etdirilməsi, birgə delimitasiya komissiyasının iclaslarının keçirilməsi, Qazaxın işğal altında olan 4 kəndinin ölkəmizə təhvil verilməsi, yekun sülh sazişi üzrə 17 müddəadan 15-nin razılaşdırılması regionda sülh və barışın əldə olunacağına müəyyən ümidlər yaradıb.

Regional və beynəlxalq münasibətlərdə mühüm oyunçuya çevrilən Azərbaycanın yürütdüyü xarici siyasətin qlobal planda sülh və təhlükəsizliyə xidmət etməsi, sabitləşdirici rol oynaması beynəlxalq səviyyədə açıq etiraf olunur. Qoşulmama Hərəkatının fəal üzvü kimi hərbi bloklara qoşulmamaq, qonşu dövlətlərlə münasibətləri sivil məcrada, qarşılıqlı maraqlar əsasında inkişaf etdirmək, geosiyasi təsirlər altında üçüncü dövlət əleyhinə cəbhə açmamaq xətti yürüdən, münaqişələrin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsipləri əsasında həllinə çalışan Azərbaycan bunun nəticəsində etibarlı tərəfdaşa çevrilib. Ərazisinə, iqtisadi və hərbi qüdrətinə rəğmən, bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurmuş ölkə rəhbərliyi Şərqlə Qərbin iqtisadi tərəfdaşlığını, mədəni dialoqunu möhkəmləndirən səmərəli təşəbbüslərlə çıxış edir, multikulturalizm və tolerantlıq ideyalarını dəstəkləyir, qlobal sülhə, təhlükəsizliyə töhfələrini verir.

Xüsusi vurğulamaq istərdim ki, dünyanın ən əhəmiyyətli, irimiqyaslı beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) noyabr ayında Azərbaycanda keçirilməsi də ölkəmizin artan beynəlxalq nüfuzunun bariz nümunəsi idi. COP29 təkcə iqlim problemlərinin deyil, həm də dünya üçün aktual olan digər problemlərin müzakirəsi baxımından uğurlu platforma kimi tarixiləşdi. Tədbir ərəfəsində "COP atəşkəsi" təşəbbüsü ilə çıxış edən Azərbaycan bu gün də müharibə və münaqişə şəraitində olan dövlətləri dialoqa, atəşkəsə çağırır, həmçinin özünün vasitəçilik səylərini təklif edir. Şiddətli xarakter alan müharibəyə rəğmən, Ukrayna ərazisindən təbii qazın tranzitinin davam etdirilməsi ilə bağlı Rusiya, Ukrayna və Avropa təsisatları tərəfindən ölkəmizə daxil olan müraciətlər bunu bir daha sübut edir. Bu ölkəmizin regiondakı nüfuzunun, sabitləşdirici rolunun qlobal miqyasda yüksək dəyərləndirildiyinin göstəricisidir.

Xarici siyasətdəki bu müstəqillik, ilk növbədə, ölkəmizin iqtisadi gücü və qüdrətindən irəli gəlir. Əgər Ulu Öndər Heydər Əliyevin müasirləşmə siyasəti 90-cı illərdə ictimai-siyasi və iqtisadi böhrandan inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü siyasi kurs respublikamızın milli inkişaf modelinin formalaşmasını təmin edib. Son 21 ildə dövlət başçısının iqtisadi siyasətinin əsasında məhz "Güclü dövlət, sabitlik və sosial rifah" tezisi dayanıb. Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü və qüdrətli dövlətə nail olmaq, hər bir fərdin mənafeyini müdafiə etmək mümkün deyildir. Güclü iqtisadiyyatı olan qüdrətli dövlətin, modern Ordunun yaradılması, qlobal təhdidləri zərərsizləşdirən hücumçu diplomatiyanın həyata keçirilməsi, dövlətçiliyə sadiq vətənpərvər gəncliyin yetişdirilməsi xalqımızın qəlbində qubara çevrilmiş Qarabağ düyünün milli maraqlarımıza uyğun çözümünə imkan verib.

Siyasi liderin gördüyü işlər, həyata keçirdiyi layihələr onun müəyyən zaman kəsiyindəki fəaliyyətinin dəyərləndirilməsi baxımından ən obyektiv istinad yeridir. "Mən hər bir azərbaycanlının prezidenti olacağam" - deyərək səlahiyyətlərinin icrasına başlayan dövlətimizin başçısı ötən 21 ildə bu vədini birmənalı doğruldub, sistemli, ardıcıl və koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi vədlərə sadiqliyini sübuta yetirib. Azərbaycan Prezidentinin ötən dövr ərzində vahid sistem halına gətirdiyi milli inkişaf modeli, eyni zamanda, onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi diqqət çəkib.

Ən ümumi şəkildə desək, dövlətimizin başçısının səmərəli iqtisadi siyasəti ötən dövrdə ölkəmizin davamlı tərəqqisinə, xalqın rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına, işsizlik və yoxsulluğun səviyyəsinin xeyli dərəcədə azaldılmasına zəmin yaradıb. Cənab İlham Əliyevin yürütdüyü iqtisadi siyasət nəticəsində ictimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılıb, cəmiyyətin ümumi potensialının ümummilli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində dinamizmi təmin edib. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi əsaslara söykənən fundamental qərarlar, xalqın mənafeyinə uyğun sosial-iqtisadi siyasət, çevik idarəçilik mexanizminin formalaşdırılması, mövcud imkanlardan Azərbaycan vətəndaşlarının rifahı naminə maksimum istifadə müasir tariximizin son 21 illik dövrünü səciyyələndirən mühüm yeniliklər sırasındadır.

Ötən dövrdə qazanılan sosial-iqtisadi nailiyyətlərdən söhbət gedərkən, Azərbaycan Prezidentinin dövlətə rəhbərliyinin ilk aylarına təsadüf edən 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanın əhəmiyyətini xüsusi qiymətləndirmək lazımdır. Çünki keçid dövrünə xas bir sıra köklü problemlərin həlli prosesinə məhz həmin fərmanla start verilib. Konseptual əhəmiyyətli bu sənəd sonrakı mərhələlərdə imzalanaraq uğurla icra edilən regional dövlət proqramları üçün baza rolunu oynayıb, qısa zaman ərzində ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyillərinə təkan verib.

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı ölkədə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar, urbanizasiya problemlərinin həlli və digər sistemli hədəflərin reallaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" regionların tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun inkişafı hesabına aradan qaldırılması üçün kompleks tədbirlər müəyyənləşdirib. Sonrakı mərhələdə qəbul olunan və 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən daha 3 regional proqram bölgələrin sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri nəzərəçarpacaq səviyyədə aradan qaldırıb, infrastrukturun yeniləşdirilməsinə imkan verib. Dövlət proqramları əsasında regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edib və bu da özəl sektorun, sahibkarlığın inkişafına təkan verib.

Dövlət başçısı ölkədə özəl sektorun dinamik inkişafına təkcə sosial-iqtisadi yüksəliş xəttinin deyil, həm də demokratikləşmə prosesinin ardıcıllığını, vətəndaş hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasını təmin edən başlıca vasitələrdən biri kimi yanaşır. Prezident İlham Əliyev istər respublika daxilində, istərsə də xarici səfərlər zamanı keçirdiyi görüşlərdə özəl sektoru dəstəklədiyini, inzibati strukturların iş adamlarının fəaliyyətinə yersiz müdaxiləsinə imkan verilməyəcəyini, orta təbəqənin formalaşması, sahibkarların sosial məsuliyyətinin artırılması məqsədilə maliyyə-kredit, vergi və gömrük rıçaqlarının təkmilləşdirilməsinin zəruri olduğunu bəyan edib.

Xatırlatmaq yerinə düşər ki, hələ 2005-ci ildə ölkə sahibkarları ilə görüşən Prezident İlham Əliyev onların qayğı və problemləri ilə maraqlanıb, irəli sürdükləri təkliflərə əsasən mühüm qərarlar qəbul edib. Sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının, ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması; icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması; sahibkarların hüquqlarının qorunması məqsədilə Apellyasiya şuralarının yaradılması; yoxlamaların məhdudlaşdırılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqi; ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi; "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi; dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması, güzəştli kreditlərin həcminin genişləndirilməsi öz müsbət nəticələrini verib.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənir və cəmiyyətin sosial sifarişini əks etdirir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması, bir sözlə, sosial-liberalizm xətti cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Ölkədə yeni mülkiyyət formalarının yaranması, sahibkarlığın sürətli inkişafı, bazar münasibətləri şəraitində qiymətlərin optimallaşdırılması əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Hər bir islahatın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir.

Prezident İlham Əliyevin yürütdüyü uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın artan iqtisadi imkanları əhalinin sosial müdafiəsi məqsədinə yönəldilir. Xüsusi vurğulamaq lazımdır ki, 2025-ci ildə dövlət büdcəsinin əsas xərc istiqamətlərindən biri məhz əhalinin sosial müdafiəsi və sosial təminatı ilə əlaqədar olacaq, sosial dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edəcək. 2025-ci ildə əməkhaqqı və sosial ödənişlərdə gözlənilən yeni artımların 2 milyondan artıq vətəndaşı əhatə edəcəyi gözlənilir.



Azərbaycanın möhtəşəm uğurlarında, dünyanın sayılıb-seçilən, mövqeyi nəzərə alınan dövlətlərdən birinə çevrilməsində ötən illərdə böyük uzaqgörənliklə reallaşdırılmış qlobal layihələrin də mühüm payı var. Ümummilli Lider Heydər Əliyevin yeni neft strategiyasının bəhrələri olan "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft boru kəmərinin, "Bakı-Tbilisi Ərzurum" qaz kəmərinin istifadəyə verilməsi, "Şahdəniz", "Abşeron", "Ümid" və digər perspektivli qaz yataqlarının istismarı, "Bakı-Tbilisi-Qars" dəmir yolu xəttinin istifadəyə verilməsi, Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan "Cənub qaz dəhlizi"nin gerçəkləşdirilməsi, ölkəmizin Orta dəhliz kommunikasiya qovşağındakı rolunun gücləndirilməsi, nəhayət, Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində atılan addımlar bu baxımdan xüsusi vurğulanmalıdır.

Prezident İlham Əliyevin diplomatik məharəti nəticəsində Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika qovşağı, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi statusunu getdikcə möhkəmləndirir. Dövlət başçısının çıxışlarında xüsusi vurğuladığı kimi, respublikamızın başladığı meqalayihələr hazırda Avrasiya regionunda enerji və daşımalar yollarını dəyişib. Azərbaycanın tranzit-logistika potensialının genişləndirilməsi və tranzit yükdaşımaların təşviqi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərinin, xüsusilə də Orta və Şimal-Cənub dəhlizlərinin inkişafı və potensialının artırılması üçün tərəfdaş ölkələrlə davamlı olaraq birgə səylər göstərir.

Azərbaycan qazını alan Avropa ölkələrinin sayının bu il daha da artaraq 12-yə çatması, eyni zamanda ölkəmizin "yaşıl enerji" dəhlizinin əsas resurs mənbəyi kimi Avropanın aparıcı tərəfdaşlarından birinə çevrilməsi qürurverici hadisələr sırasındadır. Mühüm uğurlarla yadda qalan COP29 çərçivəsində aparılan müzakirələr təsdiqlədi ki, respublikamızın təşəbbüsü ilə regionda həyata keçirilən alternativ enerji istehsalı ("yaşıl enerji") layihələri Azərbaycanın qlobal təchizatda sabitləşdirici rol oynamasına zəmin yaradıb. 2030-cu ilədək yaradılacaq azı 8 QVt "yaşıl enerji" güclərinin 70 faizindən çoxunun ixraca yönəldilməsi məqsədilə hazırda Avropaya müxtəlif marşrutlarla enerji təchizatının yeni xəritəsi tərtib edilir.

COP29 çərçivəsində əsas məqsədlərdən biri də məhz ölkəmizin bərpaolunan enerji mənbələri barədə dolğun təsəvvür yaratmaq, gələcəkdə "yaşıl enerji"nin ixracı və tranziti sahəsində aparıcı ölkələrdən birinə çevrilmək iddiasını nümayiş etdirmək olub. Avropanın bir sıra aparıcı ölkələrinin liderlərinin COP29-da fəal iştirak etmələri də, ilk növbədə, rəsmi Bakı ilə əməkdaşlığa verilən yüksək önəmin göstəricisi idi. Avropa İttifaqına üzv ölkələrin dövlət və hökumət başçıları son aylarda rəsmi Bakı ilə "yaşıl enerji" əməkdaşlığının əhəmiyyətinə diqqət çəkiblər. Bunu zəruri edən səbəblərdən biri də respublikamızın etibarlı, sabit mövqeyə malik biznes tərəfdaşı olması, zəngin neft və qaz resurslarından heç zaman siyasi alət kimi istifadə etməməsidir.

Xatırlatmaq lazımdır ki, 2022-ci ilin dekabr ayında imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" Azərbaycanın alternativ mənbələr hesabına istehsal edəcəyi "yaşıl enerji"nin Gürcüstan ərazisindən keçməklə Qara dənizin dibi ilə çəkiləcək 1100 kilometrlik sualtı kabel vasitəsilə Avropa ölkələrinə ixracını nəzərdə tutur. Layihə Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin gücləndirilməsinə, təchizat mənbələrinin şaxələndirilməsinə, Xəzər regionunda bərpaolunan enerji istehsalı potensialından istifadəyə geniş imkanlar açıb.

Dövlət başçısı İlham Əliyevin haqlı olaraq vurğuladığı kimi, müstəqil Azərbaycan tarixinin heç bir mərhələsində indiki qədər güclü və qüdrətli olmayıb. Cənab İlham Əliyev bu mərhələdə dövlətin mövcud resurslarından xalqın rifahı və firavanlığı naminə məqsədyönlü istifadəni hökumət qarşısında strateji vəzifə kimi müəyyənləşdirib. "Hər bir məmur xalqın xidmətçisi olmalıdır" - deyən cənab İlham Əliyev hökumətin xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkir. Ötən 21 ildə ayrı-ayrı dövlət məmurlarına etimad meyarı məhz onların fəaliyyətinə əsasən müəyyənləşdirilib, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə dolğun məlumatlandırılması zəruri sayılıb.

Xüsusi vurğulamaq lazımdır ki, hakimiyyətin icraedici qolunun müasirləşdirilməsi istiqamətində həlledici addımlardan biri də 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq referendumu ilə Azərbaycan Respublikasında vitse-prezidentlik institutunun yaradılması olub. 2017-ci il fevralın 21-də Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi idarəçiliyin müasirləşdirilməsi, hakimiyyətə ictimai inamın gücləndirilməsi baxımından səmərəli nəticələr verir. Bu vəzifəyə çoxşaxəli fəaliyyəti ilə milyonların rəğbətini qazanmış layiqli bir şəxsiyyətin təyinatı müasir dövlət idarəetməsində keyfiyyətcə yeni mərhələ açıb.

Azərbaycanın birinci xanımı formalaşdırdığı mükəmməl komanda ilə Prezident İlham Əliyevin islahatlar kursunun uğurla rellaşdırılmasına layiqli töhfələrini verir. Aztəminatlı insanların, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin həllində dövlətimizin basçısı ilə yanaşı, Birinci vitse-prezidentin də xidmətləri müstəsnalıq təşkil edir. Onun müasir idarəetmə səriştəsi, yeniliklərə meyilliliyi, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəldib. Yaxından iştirakı ilə inkişafın əsasını müəyyən edən idarəetmənin modern əsaslarla aparılması, situasiyaların səmərəli idarəolunması qarşıya qoyulan vəzifələrin uğurlu icrasını təmin edir.

Prezident İlham Əliyevin iqtisadi siyasəti, ilk növbədə, hər bir fərdin maraqlarını önə çəkib. "Siyasətimizin əsasında Azərbaycan vətəndaşı dayanır" - deyən dövlətimizin başçısı keyfiyyətcə yeni mərhələdə insan və vətəndaş mənafeyinə xidmət edən islahatların dərinləşdirilməsini təmin edib. Bu yanaşma dövlət idarəçiliyində yenilikçi və müasir baxışı, şəffaflığa xidmət edən institusional islahatları genişləndirərək, respublikamızın qısa müddətdə elektron xidmətlər sahəsində mühüm uğurlara imza atmasına şərait yaradıb. Korrupsiyaya qarşı mübarizə, şəffaflığın təmini tədbirləri çərçivəsində yaradılmış "ASAN xidmət", "DOST", "ASAN kommunal", "ABAD" və digər mobil xidmət mərkəzləri hazırda dünyada böyük populyarlıq qazanaraq, Azərbaycanın milli brendi kimi qəbul edilir. Bütün bunlar özəl sektorda geniş yayılmış "müştəri məmnunluğu" ideyasının dövlət idarəçiliyində tətbiqinə, dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan verib, insanların hakimiyyətə inam və etimadını gücləndirib.

Son illərdə ictimai həyatın bütün sahələrində aparılan kadr dəyişikliklərinin, şəffaflığa, bürokratik amillərin aradan qaldırılmasına xidmət edən struktur islahatlarının, tətbiq olunan innovativ idarəetmə texnologiyalarının başlıca mahiyyəti insanları önə, diqqət mərkəzinə çəkməkdir: idarəçiliyin müasirləşdirilməsi, bir çoxlarına həlli müşkül görünən neqativ amillərin tədricən aradan qaldırılması üçün siyasi iradə nümayişi, yerli və mərkəzi icra hakimiyyəti orqanlarında aparılan ciddi kadr dəyişiklikləri, yeniliklərlə ayaqlaşa bilməyən kadrların vəzifələrindən uzaqlaşdırılması sistem islahatlarının mühüm elementləri kimi diqqəti çəlb edir.

Ulu Öndər Heydər Əliyevin milli maraqlara əsaslanan mütərəqqi ideya və siyasi baxışlarını, gələcəyə hesablanmış planlarını son 21 ildə praktik şəkildə gerçəkləşdirməyə müvəffəq olmuş Prezident İlham Əliyev bu gün Azərbaycanda inqilabi xarakterli islahatlara müəlliflik edir.

*Dövlətimizin başçısı davamlı inkişaf naminə qarşıda müəyyənləşdirdiyi strateji hədəfləri inamla gerçəkləşdirmək, Azərbaycanı daha müasir və inkişaf etmiş dövlətə çevirmək əzmi nümayiş etdirir. Ölkəmizin hər bir vətəndaşı kimi, iş adamları da Prezident İlham Əliyevin yürütdüyü siyasəti ürəkdən dəstəkləyir, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli maraqlarımızla bağlı bütün məsələlərin bundan sonra da uğurlu həllini tapacağına ürəkdən inanırlar.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri,***
***iqtisad elmləri doktoru***

# Prezident İlham Əliyevin diqqət və qayğısı ilə qədim Nizami yurdu gündən-günə gözəlləşir










**Son illər ölkəmizdə vüsət alan sosial-iqtisadi inkişaf respublikanın ikinci ən böyük şəhəri olan qədim Gəncədə də müşahidə edilməkdədir. Həyata keçirilən uğurlu siyasət nəticəsində ölkənin bütün bölgələri kimi, Gəncə şəhəri də sürətlə inkişaf edir. Xüsusən Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində Gəncə şəhəri tarixi-mədəni şöhrətini bərpa edir, nəinki Azərbaycanın, bütövlükdə regionun müasir sənaye və turizm mərkəzinə çevrilir.**

Dövlət başçısının qədim Nizami yurduna göstərdiyi diqqət və qayğı nəticəsində həyata keçirilən layihələr Gəncənin simasını tanınmaz dərəcədə dəyişmişdir. Təkcə onu demək kifayətdir ki, 2011-2023-cü illər ərzində 1600 layihə həyata keçirilmişdir ki, bu da Gəncənin inkişafına təkan verən amillərdəndir.

İkinci Dövlət Proqramının icra edildiyi müddətdə Gəncənin və şəhərətrafı qəsəbələrin, yaşayış məntəqələrinin abadlaşdırılması, əhalinin kommunal xidmətlərə olan ehtiyaclarının yüksək səviyyədə ödənilməsi, təhsil, səhiyyə və mədəniyyət ocaqlarının, tarixi-memarlıq abidələrinin bərpası və yenidən qurulması, sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin yaradılması, sakinlərin məşğulluğunun təmin edilməsi, şəhər infrastrukturunun müasirləşdirilməsi və digər sahələrdə mühüm tədbirlər həyata keçirilmişdir.

Gəncə şəhərinin su təchizatı məsələsinə baxılması, şəhər daxilində ümumi uzunluğu 360 kilometr olan yüksək gərginlikli hava elektrik xətlərinin yeraltı kabellə əvəz olunması, şəhərin prospekt və küçələrinin, yeni park və meydanlarının işıqlandırılması üçün 2800 müasir tipli işıq dirəklərinin və fanarların quraşdırılması, 212 min 656 kvadratmetrdən çox asfalt örtüyünün salınması, 700-dən çox yüksək mərtəbəli yaşayış binalarının dam örtüyünün mansard formasında təzələnməsi və fasadlarının daşla üzlənməsi Gəncənin simasını daha da dəyişib. Bu abadlıq və quruculuq işlərinin şəhərin tarixi-memarlıq üslubuna uyğun aparılması görülən işlərin estetik keyfiyyətindən xəbər verir. Hazırda bu işlər uğurla davam etdirilir. Bütün bunlarla yanaşı, Nizami Gəncəvi, Mirzə Şəfi Vazeh, Abbas Səhhət, Məhəmməd Hadi, İstiqlal və Əziz Əliyev adına mədəniyyət və istirahət parklarının salınması, bünövrəsi Prezidentin xeyir-duası ilə qoyulmuş Gəncə Dövlət Filarmoniyasının fəaliyyətə başlaması və Uğurlu xan karvansarasının yenidən qurulması Gəncənin müasir quruculuq mərhələsində və mədəni həyatında baş verən ən mühüm hadisələr oldu.

Gəncə çayının sağ sahilində inşa edilən Bayraq meydanının yaradılması şəhərdə aparılan ən mühüm layihələrdən biridir. Meydanda 110 metr hündürlükdə dalğalanan üçrəngli bayrağın uzunluğu 50, eni 25 metr, postamentinin hündürlüyü isə 4 metrdir.

Digər bir mühüm layihə isə Qala Qapıları - Arxeologiya və Etnoqrafiya Abidə-kompleksidir. Kompleks şəhərin girişində, Gəncə-Bakı magistral yolunun hər iki tərəfində tikilib. Yol genişləndirilərək 22 metrə çatdırılıb. Qala divarlarının hər birinin uzunluğu 47, hündürlüyü 15 metr, Qala qülləsinin hündürlüyü isə 22 metrdir.

Yol boyu Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan və adları həkk olunmuş 5 nəhəng daş kitabə memarlıq elementini seyr etmək qürurvericidir.

Gözəlliyi ilə göz qamaşdıran Nizami Gəncəvinin məqbərəsi önündə dahi şairin adını daşıyan Nizami Gəncəvi Muzeyi inşa edilib. Yuxarıda qeyd etdiyimiz kimi dünyanın müxtəlif milli kitabxanalarından gətirilmiş nadir nüsxələr Nizami Gəncəvi Muzeyini elmi eksponat kimi bəzəyir. Bununla yanaşı, Nizami Gəncəvinin sələflər və xələflərinin əlyazmaları və şəkilləri, dünyanın tanınmış nizamişünaslarının şəkilləri, bioqrafiyaları və əsərləri, dahi mütəfəkkirin dövrü ilə bağlı tarixi əşyalar da Nizami Gəncəvi Muzeyinin eksponatları sırasına daxil edilmişdir.

Doğrudur, indi insanları heyrətləndirmək və valeh etmək çox çətindir. Lakin Gəncədə görülən quruculuq işləri, tarixini özündə əks etdirən abidələrə göstərilən qayğı və ən başlıcası yüksəksəviyyəli qonaq qarşılamaq mədəniyyəti insanları sözün həqiqi mənasında valeh edir.

Aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərinin əsas istiqamətlərindən biri də şəhərdaxili yolların genişləndirilməsi, təmiri və yenidən qurulması ilə bağlıdır. Nəqliyyatın intensiv hərəkəti üçün küçələrin əksəriyyəti genişləndirilmiş, bəzi yerlərdə hətta 20-24 metrə çatdırılmışdır.

Dövlət başçısının göstərişi ilə şəhərdə yaşıllıq sahələrinin artırılması, gül-çiçək kollarının, ağacların əkilməsi, suvarılması, mühafizəsi, onlara aqrotexniki qaydada qulluq göstərilməsi daim diqqət mərkəzindədir. Uzun illər yalnız şəhərin mərkəzi meydanı gül-çiçək və yaşıllığı ilə diqqəti cəlb edirdisə, indi şəhərin küçə və prospektləri, park və xiyabanları rəngarəng çiçəklər, milli ornamentli güldan, buta, xalça rəmzli çiçəklərlə bəzədilir.

Qısa zaman kəsiyində Gəncə şəhərində həyata keçirilən bu genişmiqyaslı işlər dövlət başçısı cənab İlham Əliyevin şəxsi tapşırığı və tövsiyələri ilə yanaşı, Gəncə şəhərinə və onun əhalisinə olan diqqət və qayğısı nəticəsində mümkün olmuşdur. Odur ki, Prezident İlham Əliyevin söylədiyi: "Gəncə çox qədim, gözəl tarixi şəhərdir. İndi şəhər qədim simasını saxlamaqla, yeni, müasir yanaşma ilə daha da gözəlləşir. Parklar, binalar bərpa edilir, gözəl küçələr salınır" - sözlər bu qədim şəhərdə aparılan genişmiqyaslı abadlıq və quruculuq işlərinə verilən yüksək qiymət kimi gəncəlilərin razılığına səbəb olmuşdur.

2014-cü il yanvarın 21-də Gəncəyə səfəri zamanı Prezident İlham Əliyev Gəncədə 1500 məcburi köçkün ailəsi üçün tikilmiş yeni yaşayış məhəlləsini seyr etdi. Daha sonra dövlət başçısı Kəlbəcər rayonundan məcburi köçkün Ofelya Məmmədovanın evində yaradılan şəraitlə tanış oldu. Çay süfrəsi arxasında ailə üzvləri ilə söhbət edən Prezident İlham Əliyev dedi: "İndi Gəncə şəhəri də görün necə gözəlləşibdir. Müasir şəhərə çevrilibdir. Bax bu ərazilər artıq şəhərə, şəhərin mərkəzinə çevrilir, gözəl magistral yol çəkilib, iş yerləri açılır. Gələcəkdə Gəncədə böyük sənaye komplekslərinin tikintisi, digər layihələr nəzərdə tutulur. Yəni yaxın gələcəkdə bəlkə də başqa rayonlardan buraya işləməyə gələcəklər. Ona görə Gəncə də gözəlləşir, siz də gözəl qəsəbədə yaşayırsınız. Mən buna çox sevinirəm, çox şadam".

Bəli, Gəncə sürətlə inkişaf edir. Mədəniyyət mərkəzləri, möhtəşəm binalar ərsəyə gəlir, tarixi abidələr yenidən bərpa olunur, yeni parklar salınır, əhalinin işlə təmin olunması üçün sənaye obyektləri istifadəyə verilir. Bir sözlə, Gəncə Ulu Öndər Heydər Əliyevin qayğısından bəhrələnən, möhtərəm Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına, onun qayğısına layiq olmağa özündə güc tapan, tarixinə sonsuz məhəbbət və qayğısı ilə seçilən bir şəhər olduğunu öz əməli işi ilə sübuta yetirir və bundan qürur duyur. Gəncədə inkişafdan danışanda bu yaxınlarda istifadəyə verilən idman sarayının, eləcə də Qafqazda yeganə olan Ekoloji Parkın, Gəncə Dövlət Milli Dram Teatrının adını çəkməmək olmaz. İstər şəhərdə idmanın inkişafına, istərsə də insanların sağlamlığına və mədəni inkişafına xidmət göstərəcək bu nəhəng obyektlərin açılışı Gəncə üçün əlamətdar hadisəyə çevrildi.

Prezident İlham Əliyevin 2011-ci il 13 dekabr tarixli "Gəncə şəhərinin Kəpəz rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Sərəncamı ilə Gəncə şəhərində Cavad xan, Məhsəti, Natəvan, Sadıllı, Şeyxzamanlı yaşayış məntəqələrinə qəsəbə statusu verildi.

Dövlət başçısının "Gəncə şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamı ilə Məhsəti, Sadıllı, Natəvan, Şeyxzamanlı və Cavad xan qəsəbələrini birləşdirən, ümumi uzunluğu 21 km olan avtomobil yollarının tikintisi məqsədi ilə ilkin olaraq, Gəncə Şəhər İcra Hakimiyyətinə 3,0 milyon manat vəsait ayrıldı. Yeni yaradılmış qəsəbələrdə bütün infrastruktur layihələrin həyata keçirilməsi istiqamətində işlər görüldü. Eyni zamanda bu qəsəbələrdə üç 640 yerlik məktəbin, beş 140 yerlik və iki 280 yerlik məktəbəqədər tədris müəssisələrinin tikintisi aparıldı.

Şəhərdə bir sıra qlobal problemlərin kompleks şəkildə həllinə də ölkə rəhbəri diqqətlə yanaşdı. Bu işlərin sistemli və dövlət proqramına uyğun aparılması məqsədilə şəhərin baş planı təsdiq edildi. Plana əsasən 2030-cu ilədək şəhərin ərazisi inkişaf perspektivlərinə uyğun olaraq iki dəfə artırılaraq 17 min hektara çatdırılması nəzərdə tutulmuşdur. Burada yeni məhəllələr, çoxmərtəbəli binalar, küçə və prospektlər, yeni müəssisələr, habelə təhsil, səhiyyə, turizm, incəsənət və mədəniyyət ocaqlarının, eləcə də istirahət zonalarının ünvanları da göstərilmişdir. Şəhərdə mövcud olan yaşıllıq sahəsi genişləndirilərək 2251 hektara çatdırılmaqla, Gəncə çayının sağ və sol sahilləri boyunca park-bulvar zonası yaradıldı. Ən əsası budur ki, baş planda milli memarlığın qədim üslubu ilə yanaşı, müasir şəhərsalmanın son nailiyyətləri də özünə yer almışdır.

Həyata keçirilən yenidənqurma və abadlıq işləri əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərlə paralel aparılır. İnsanların maddi-rifah halının yüksəldilməsi, onların məşğulluğunun təmin edilməsi məqsədilə nəzərdə tutulmuş tədbirlər də uğurla həyata keçirilir. Bunun üçün fəaliyyəti dayanmış müəssisələrin işini bərpa etmək məqsədilə güzəştli kreditlər verilir. Ölkə səviyyəli sənaye obyektləri işə salınır. Nəticədə şəhərin iqtisadiyyatı yüksəlməklə yanaşı, insanların gəliri də artır.

Prezidentin diqqəti ilə şəhərdəki tarixi abidələrə də qayğı artmışdır. İllərlə baxımsız qalmış tariximizin bu yadigarları bərpa olunur. Şəhər kimi ən azı 4 minillik tarixə malik olan Gəncənin qədimliyinin, onun tarixi simasının müəyyən edilməsində tarixi abidələrimiz mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan tarixi abidələrin bərpası Azərbaycan mədəniyyətinin zənginləşməsi üçün çox vacibdir. Çünki tarixin müxtəlif dövrlərini əhatə edən xeyli sayda abidələr keçmişimizə işıq sala bilir.

Prezident İlham Əliyevin təhsil sistemində gerçəkləşdirdiyi islahatlar Gəncədə də bu sahədə böyük uğurlara nail olunmasına imkan yaradıb. Şəhərdə aparılan genişmiqyaslı quruculuq işləri ilə yanaşı, təhsilə qayğı da diqqət mərkəzindədir. Belə ki, məktəb infrastrukturunun müasirləşdirilməsi, təhsil ocaqlarının əsaslı surətdə yenidən qurulması və təmir edilməsi, yeni tikiləcək məktəblərin layihələrinin gerçəkləşdirilməsi istər təhsil işçilərinin, istər şagirdlərin, istərsə də valideynlərin ürəyincədir.

Şəhid məzarları torpağımızın müqəddəsliyinə möhür vuran, onu ali məqama çatdıran əbədi bir abidədir. İndi Şəhidlər xiyabanı da əvvəlki deyil. Xiyaban və şəhid məzarları tamamilə yenidən qurulmuş, 367 adlı, 49 naməlum şəhidin şərəfinə 18 metr hündürlüyündə 8 guşəli monumental abidə ucaldılmışdır. Adı, ünvanı bəlli olan da, naməlumlar da şəhər rəhbərliyi və ictimaiyyətin nümayəndələri tərəfindən hər an hörmət və məhəbbətlə anılır.

Son illər Azərbaycan Prezidentinin Gəncəyə unudulmaz səfərlərinin hər biri möhtəşəm tikililərin təməlinin qoyulması və inşası başa çatan sənaye müəssisələrinin, muzeylərin, məktəb və uşaq bağçasının, eləcə də digər mühüm obyektlərin açılışı ilə müşayiət olunub.

Möhtərəm Prezident İlham Əliyevin tövsiyə və göstərişlərini çevik və məqsədyönlü şəkildə həyata keçirən şəhər rəhbərliyi yüksəliş yolunu daha möhtəşəm şəkildə davam etdirmək əzmindədir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***







# İlham Əliyevin uğurlu islahatlar kursu ilə...

## Azərbaycan həmkarlar ittifaqları öz fəaliyyətini dövlət başçımızın qarşıya qoyduğu tapşırıqlar əsasında müəyyənləşdirir

**Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda baş verən hərtərəfli tərəqqi ölkəmizdə həmkarlar ittifaqları hərəkatının inkişafına da birbaşa təkan verib.**

Respublikamızda əmək hüquqlarının qorunmasında, işçilərin sosial məsələlərinin həllində mühüm rola malik olan həmkarlar ittifaqları bu gün öz fəaliyyət istiqamətini dövlətimizin başçısı İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlar əsasında müəyyənləşdirib. Ötən il Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 30 illiyi ilə əlaqədar yığıncaq iştirakçılarına ünvanladığı məktubda da Prezident İlham Əliyev bir daha vurğuladı ki, müasir inkişafın reallıqları və bu günün çağırışları Azərbaycanda həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı dəyişikliklərin aparılmasını, dünya təcrübəsindən faydalanaraq işlərinin yenidən qurulmasını labüd edir. Eyni zamanda ölkə iqtisadiyyatının sürətli inkişafı Azərbaycan həmkarlar ittifaqlarından yeni yaradılmış iş yerlərində işçilərin əmək hüquqlarının qorunmasında və sosial problemlərinin həllində əzmkarlıq və qətiyyətli addımlar atmasını tələb edir.

Biz də öz fəaliyyətimizi ölkəmizdə formalaşan həmkarlar ittifaqları ənənəsinə uyğun qurmuşuq və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yol xəritəsinə əsaslanaraq bu sahədə əməli addımlar atırıq. Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqının da üzv olduğu Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) barədə ümumi məlumat verərək deyim ki, bu ittifaq öz üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarını və qanuni mənafelərini müdafiə etmək üçün iş yeri, peşə, ərazi, sahələr üzrə yaradılmış həmkarlar ittifaqı təşkilatlarının ümumölkə birliyidir. Hər bir həmkarlar təşkilatında olduğu kimi, ATİAHİ-nin də fəaliyyətində könüllülük, üzvlərin bərabərliyi, şəffaflıq prinsipləri əsas götürülür. Bu ittifaq müstəqil, qeyri-kommersiya və qeyri-siyasi təşkilatdır. Xüsusi olaraq vurğulamaq istərdim ki, ittifaqın fəaliyyətində gəlir əldə etmək və bu gəlirləri öz üzvlərinin arasında bölmək əsas məqsəd kimi nəzərdə tutulmur. Həmçinin bu fəaliyyətə dövlət və təsərrüfat orqanları, sahibkarlar, onların birlikləri, ictimai və siyasi təşkilatlar tərəfindən nəzarət olunmur. İttifaq öz fəaliyyətini Azərbaycan Konstitusiyasına, Həmkarlar ittifaqları haqqında qanuna və digər qanunvericilik aktlarına, eləcə də ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrə, qurumun öz nizamnaməsinə, həmkarlar ittifaqının bağladığı müqavilələrə əsasən həyata keçirir. Təbii ki, ATİAHİ Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzvüdür və onun nizamnaməsini tanıyır.

### AHİK-in bütün üzv təşkilatlarında mütərəqqi islahatlar həyata keçirilir

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bütün üzv təşkilatlarında mütərəqqi islahatlar həyata keçirilir. Lakin burada bir məqamı xüsusi nəzərə almaq lazımdır ki, həmkarlar ittifaqları dövlət qurumu deyil və dövlət ölkə qanunvericiliyində nəzərdə tutulan hallar istisna olmaqla həmkarlar təşkilatlarının fəaliyyətinə müdaxilə etmir. Buna görə də həmkarlar ittifaqlarında keçirilən islahatları bu gün dövlətimiz tərəfindən



ölkənin müxtəlif sahələrində həyata keçirilən əsaslı islahatların tərkib hissəsi kimi nəzərdən keçirmək düzgün olmaz. Bu islahatlar sırf həmkarlar ittifaqlarının daxili məsələlərini əhatə edir və təşkilatların fəaliyyətlərini daha effektiv etmək məqsədi daşıyır. Yəni bu yeniliklərin mahiyyətində həmkarlar təşkilatı üzvlərinin hüquqlarının daha effektiv şəkildə müdafiə olunması, onların istirahətlərinin daha səmərəli təşkili kimi məsələlərin həlli dayanır.

Qeyd etdiyim kimi, həmkarlar təşkilatlarının əsas funksiyalarından biri də işçilərin, yeni təşkilat üzvlərinin səmərəli istirahətlərini təşkil etməkdir. Məhz bu məqsədlə 1992-ci ildə Həmkarlar İttifaqlarının Kurortlarının idarə edilməsi üzrə Azərbaycan Respublikası Şurasının bazasında "Kurort" Səhmdar Cəmiyyəti təsis edilmişdir. Bu istiqamətdə işlərin mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsi məqsədilə "Azərbaycan Kurortları" Dövlət Proqramı (2007-2017-ci illər) və 2007-ci ildə təbii müalicə resursları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun və dövlət proqramı cənab Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamla qüvvəyə minmişdir. Digər tərəfdən isə AHİK-in tərkibində son vaxtlar daha çox xarici turistlərin qəbulu üzrə ixtisaslaşmış "Turizm və Ekskursiyalar" Şurası da fəaliyyət göstərirdi. Məhz bu iki qurumun birləşdirilməsini və onların bazasında Kurort-Turizm Mərkəzinin yaradılmasını hazırda AHİK strukturlarında həyata keçirilən islahatlardan biri kimi göstərmək olar. Bu birləşmə nəticəsində sanatoriya və istirahət mərkəzlərinə yollayışların alınması daha çox əlçatan olmuşdur. Belə ki, artıq həmkarlar təşkilatlaına üzv olan əməkdaşlar kurort-turizm mərkəzinə birbaşa müraciət edərək asanlıqla yollayışlar əldə edə bilirlər.

Əvvəllər yollayışların alınması zamanı, xüsusilə yay vaxtları respublika komitəsində çoxsaylı növbələr yaranırdı. İndi isə, aparılan islahatlar nəticəsində əməkdaşların müraciətləri respublika komitəsinin elektron poçtlarına göndərilir və poçt vasitəsi ilə yollayışlar asanlıqla əldə edilir. Onu da qeyd edək ki, payız-qış-yaz mövsümlərində yollayışlara 20 faiz güzəştlər tətbiq olunub və üzv-əməkdaşlar ümumi məbləğin 15 faizini ödəməklə 7-14 günlük yollayışlarla operativ təmin edilirlər.

### Bayram günlərində əməkdaşların kollektiv şəkildə istirahətləri təşkil edilir

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının rəhbərliyi bu kimi məsələlərə xüsusi diqqətlə yanaşır. Məsələn, cari ilin 7-13 noyabr tarixlərində ATİAHİ Respublika Komitəsinin sədri Araz Paşayevin təşəbbüsü və təşkilatçılığı ilə bizim 100 nəfər əməkdaşımız Zəfər günü münasibəti ilə Nabranda yerləşən "Təhsil" İstirahət Mərkəzində "Alimlərin zəfər düşərgəsi" adlı tədbirdə iştirak və istirahət etdilər. Əməkdaşlarımızı və bədii hissəni aparacaq gənc incəsənət adamlarını istirahət mərkəzinə rahat şəkildə çatdırmaq üçün 3 ədəd komfortlu avtobus ayrılmışdı. Səfər çərçivəsində Xaçmaz şəhərində Ulu Öndər Heydər Əliyevin adını daşıyan Park və Şəhidlər xiyabanı da ziyarət olunmuşdur. İstirahət mərkəzində əməkdaşlarımız üçün 7 gün ərzində müxtəlif mədəni-kütləvi tədbirlər, Xaçmaz-Quba-Qusar rayonlarına gəzintilər, idman tədbirləri təşkil olunmuşdur. Bu tədbirlərin hamısını Azərbaycan Təsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin işçiləri təşkil etmişdilər. İlk dəfə idi ki, belə bir tədbir payız-qış mövsümündə təşkil olunmuşdur. Bu cür tədbirlərin davamlı olması respublika komitəsi tərəfindən planlaşdırılır.

Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqı tərəfindən yenə də 8 Noyabr Zəfər Günü münasibətilə Birinci və İkinci Qarabağ müharibələri qazilərinin və şəhid ailələrinin iştirakı ilə böyük bir bayram tədbiri də keçirilmişdi. Həmin tədbirdə 81 nəfər qazi və şəhid ailə üzvləri iştirak etmiş və onların hər birinə pul mükafatı da verilmişdir. Yeni il bayramı günlərində də Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqına üzv olan bütün təşkilatlarda kütləvi tədbirlər keçiriləcək. Üzv əməkdaşların azyaşlı uşaqları və nəvələrinin bayram şənliklərində iştirak etmələri üçün artıq 2000 ədəd pulsuz bilet və eyni sayda hədiyyələr nəzərdə tutulub. Bundan başqa ATİAHİ Respublika Komitəsi şəhid ailələrinin, qazilərin və ucqar rayonlarda işləyən müəllimlərin və onların ailələrinin Nabranda yerləşən "Təhsil" İstirahət Mərkəzində istirahətini təşkil etməyi planlaşdırır.

Azərbaycan həmkarlar ittifaqları ölkədə gedən bütün proseslərdə fəal iştirak edir, həmçinin ümumi işlərə dəstəyini göstərir. Təşkilat iş prinsipində cənab Prezident İlham Əliyevin siyasi kursunu əsas götürərək daim gələcək fəaliyyət proqramını təkmilləşdirərək müasir zamanın tələblərinə uyğunlaşdırır.

**Habil QURBANOV,**
***Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri,***
***hüquq elmləri doktoru, professor***



# Müəllifi İlham Əliyevdir

## ...Tarixin ən qüdrətli Azərbaycanının, tarixin ən abad Qarabağının

**Azərbaycan tarixinin son 21 illik qısa zaman kəsiyinə nəzər saldıqda ölkəmiz adına qazanılan ən böyük uğurların, qələbələrin, zəfərlərin məhz elə bu dövrdə əldə edildiyini görürük. 2003-cü il oktyabrın 15-də, xalqın yekdil qərarı ilə Prezident seçilən İlham Əliyev ötən müddətdə ədaləti, haqqı, milli maraqlarımızı beynəlxalq hüququn prinsip və normaları çərçivəsində qətiyyətlə təmin etdi. Əldə olunan bütün nailiyyətlərin altında imzası olan və nəyi, necə və nə vaxt etməyi yaxşı bilən Qalib Lider İlham Əliyev sözün əsl mənasında Azərbaycanı başdan yaratdı, onu güvənli, etibarlı, eyni zamanda hesablaşılan güclü dövlətə çevirdi.**

Bu gün dünyanın hər yerindən görünən qüdrətli Azərbaycanın, yenidən dirçəldilən, abadlıq ünvanına çevrilən Qarabağın müəllifi də məhz İlham Əliyevdir.

### Dünyada söz sahibi

Azərbaycan cəmi 21 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Cənubi Qafqazın lider ölkəsi olub, dünyada söz sahibi kimi tanınıb. Ölkəmiz bütün sahələr üzrə böyük inkişaf yolu keçib və dünyanın enerji, nəqliyyat qovşağına çevrilib. O da əbəs yerə deyil ki, bu gün bölgə ilə bağlı reallaşdırılan bütün layihələr, gerçəkləşdiriləcək planlar Azərbaycanla razılaşdırılır. Beynəlxalq miqyaslı məsələlərlə bağlı müzakirələrin, dialoqların aparıldığı unikal platforma olan Azərbaycan qlobal problemlərin həllində fəallıq göstərir, dünyada sülhü təşviq edir. COP29 kimi beynəlxalq əhəmiyyətli tədbirə evsahibliyi etməsi üçün dünyanın əksər ölkələrinin yekdilliklə Azərbaycan lehinə səs verməleri də təsadüfi xarakter daşımırdı. COP29-da iştirak etmək üçün Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən Azərbaycana 196 ölkədən 70 mindən çox iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir gəldi. Bakıya gələn dövlət başçıları, digər rəsmi nümayəndələr ölkəmizin bu tədbirə hazırlığını yüksək qiymətləndirdilər, Azərbaycanın məharətlə sədrlik etdiyi bu nəhəng tədbirin layiqli səviyyədə təşkilinə görə şəxsən Prezident İlham Əliyevə təşəkkürlərini bildirdilər. Noyabrın 12-də - Liderlər Sammitinin açılış mərasimində Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxışında Prezident İlham Əliyevə xitabən söylədi: "Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız".

Bu mötəbər tədbirdə məhz İlham Əliyevin adının sülhlə qoşa çəkilməsi heç də təsadüfi deyildi...

### Zəfər salnaməsi, sülh nümunəsi

Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə birbaşa rəvac verib.

Ümumilikdə regiona barış əhvalı gətirən Qarabağ Zəfəri ölkəmizin taleyinə də dönüş nöqtəsi kimi yazıldı. Azərbaycan torpaqları işğal altında olan ölkədən Zəfər ölkəsinə, Azərbaycan xalqı məğlub xalqdan qalib xalq zirvəsinə ucaldı. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə yetişən vətənpərvər gənclik milli mənafelərimiz, torpaqlarımızın azadlığı, şəhidlərimizin qisası uğrunda düşmənlə haqq savaşına atıldılar. Qəhrəman oğullarımız Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarını layiqincə yerinə yetirərək hələ müharibənin ortalarında Onun bir növ parol xarakteri daşıyan "Şuşasız bizim işimiz yarımçıq qalar", - deyə, verdiyi mesajı ildırım sürəti ilə yerinə yetirərək Qarabağın ürəyi Şuşanı bir həmlədə azad etdilər. Vətən savaşının 44 günündə həm də informasiya cəbhəsində savaşan, ölkəmizin düşmənlərini təkbaşına susduran Müzəffər Lider İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Ağdam, Kəlbəcər, Laçın bir güllə atılmadan, bir itki verilmədən azad edildi.

Azərbaycan tarixinin Zəfər salnaməsini qızıl hərflərlə yazan Müzəffər Lider İlham Əliyev suverenliyimizi təmin etdi, bayrağımızı Xankəndidə dalğalandırdı. 2023-cü ilin sentyabrında "dəmir yumruq" heç bir gün də çəkməyən antiterror tədbirləri ilə Qarabağda kök salmış erməni separatçılarının yuvasını birdəfəlik dağıtdı. Status cəhənnəmə getdi, sərsəm "böyük Ermənistan" planları məhv edildi.

Son dörd ildə Prezident İlham Əliyev ölkəmizə qələbə ardınca qələbə bəxş etdi. Azərbaycan xalqı olaraq biz heç Şuşa Zəfərinə doymamış, Xankəndi qələbəsini yaşadıq, ərazi bütövlüyümüz, suverenliyimiz təmin edildi. Təqvimimizə neçə-neçə yeni bayram günləri yazıldı. Şuşa, Ağdam, Laçın, Kəlbəcər, Cəbrayıl, Xocalı... şəhərlərinin azadlıq günləri oldu. Ən şirin bayramımız təsis olundu - 20 Sentyabr Dövlət Suverenlik Günü.

Qalib Lider İlham Əliyevin yürütdüyü məharətli diplomatik siyasətin növbəti qələbəsi isə bu ilin mayında Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması oldu. 4 qeyri-anklav kənd Qalib Lider İlham Əliyevin tələbi ilə bir güllə atılmadan, qan tökülmədən azad edildi.

Biz Xocalı qatillərinin bir-bir həbs edilərək layiqli cəzalarını almaları üçün əliqandallı, başıaşağı şəkildə Bakıya gətirilmələrini gördük. Vaxtilə insanlarımızın cəlladına çevrilən murdar erməni qaniçənlərinin qarşımızda tir-tir əsmələrinə, yalvarmalarına, ağlamalarına şahidlik etdik...

Bütün bunlar İlham Əliyevin ədaləti idi...

### Əyilməz ruh, Vətən sevgisi

Bu il mayın 28-də xocalılı körpələr, uşaqlar, yeniyetmələr, gənclər, ahıllar doğma torpaqlarına qayıtdılar. Bu dəfə sevinc gözyaşları içərisində. O insanların üzlərindəki gülümsəmə illərdir ürəyimizdə dağa çevrilən Xocalı yarasına sanki məlhəm çəkdi.

28 May Müstəqillik Gününü həm də xocalılıların yurdlarına qayıdış günü kimi tariximizə həkk edən Müzəffər Lider İlham Əliyevin o gün xocalılılarla birgə Xocalı şəhərini gəzməsi, evlərinin ilk əziz qonağı olması, onlara gözaydınlığı verərək sevinclərini bölüşməsi düşmənlərimizə göz dağı oldu. Xocalıya qayıdış Azərbaycan xalqının əyilməz ruhunu, Vətən sevgisini təcəssüm etdirdi. Bu şəhərə yenidən həyatın qaytarılması Böyük qayıdışın Azərbaycan xalqının milli çağırışı olduğunu bir daha parlaqlığı ilə gözlər önünə sərdi.

Bir daha göstərdi ki, əzmi, qətiyyəti, siyasi iradəsi ilə torpaqlarımızı azadlığına qovuşduran qalib sərkərdə İlham Əliyev düşmənin viran qoyduğu, torpağını belə yandırdığı Xocalını, ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzuru abad yurda çevirir və əzəli sahiblərinə qovuşdurur.

### Uğurların rəqəmlərdə əksi

Bu il şuşalılar, cəbrayıllılar, xocalılılar, suslular, ballıcalılar doğma yurda qayıtmağın xoşbəxtliyini yaşadılar. Yanvar ayından etibarən Füzuli, Laçın, Şuşa, Xocalı, Cəbrayıl şəhərlərinə, eləcə də Laçının Sus kəndinə mütəmadi olaraq köç karvanları yola salındı. Dekabrın 12-də isə Xocalı rayonunun Ballıca kəndinə ilk qayıdış oldu. İlk mərhələdə köçürülən 152 nəfərdən ibarət 27 ailəyə mənzillərin açarları təqdim edildi.

Ümumiyyətlə, Vətən müharibəsindən cəmi ilyarım sonra Zəngilanın Ağalı kəndinin sakinlərinin qayıdışı ilə başlanğıcı qoyulan Böyük qayıdış ötən müddətdə uğurla davam etdirilib. İndiyədək Qarabağ və Şərqi Zəngəzurun 10 yaşayış məntəqəsinə 2544 ailə - 9857 nəfərin qayıdışı həyata keçirilib. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 369 ailə (1388 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 237 ailə (912 nəfər) Cəbrayıl şəhərində, 27 ailə (152 nəfər) Xocalı rayonunun Ballıca kəndində məskunlaşıb.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Bu ilin ən əlamətdar hadisələrindən biri də Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması, yəni bu bölgəmizə elmin də qayıdışıdır. Ölkəmizin müxtəlif bölgələrindən bu universitetə üz tutan minlərlə gənc Qarabağ Universitetinin ilk fəxrli tələbələri statusunu daşıyırlar.

### Milli missiya

Vətən müharibəsi bitdikdən dərhal sonra işğaldan azad edilən ərazilərimizdə bərpa və quruculuq işlərinə başlanılması qısa zamanda Qarabağ və Şərqi Zəngəzura qayıdışın həyata keçirilməsinə mühüm zəmin yaradıb. Təbii ki, bu vətəndaşlarımızın yurdlarına sürətli qayıdışı onlar üçün yaradılan hərtərəfli və layiqli həyat şəraiti sayəsində mümkün olur.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən dörd il müddətində dövlət büdcəmizin əsas prioritetlərindən biri də milli hədəf olan Böyük qayıdışın həyata keçirilməsidir. Belə ki, 2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən bərpa-quruculuq işlərinə toplam 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb.

44 günlük müharibə bitdikdən dərhal sonra start verilən və 10 min kvadratkilometr ərazidə aparılan böyük tikinti-quruculuq işləri sayəsində Qarabağ və Şərqi Zəngəzur abad məkana çevrilir. Bu yerlərdə çoxsaylı yaşayış məntəqəsi yenidən qurulur, böyük infrastruktur layihələri həyata keçirilir, avtomobil və dəmir yolları, nəhəng tunellər çəkilir, su anbarları, məktəblər, xəstəxanalar, beynəlxalq hava limanları tikilib istifadəyə verilir. Həmçinin "yaşıl zona" elan edilən Qarabağ və Şərqi Zəngəzurda nəinki ölkəmizdə, Cənubi Qafqazda ilk dəfə olaraq "ağıllı kənd və şəhərlər" salınır.

Qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan hava limanları tikilərək fəaliyyətə başlayıb. Daha bir beynəlxalq hava limanı isə Laçında tikilir. Bu ərazilərdə erməni vandalizminə tuş gələn mədəni irsimiz Heydər Əliyev Fondu tərəfindən müvəffəqiyyətlə bərpa olunur.

Prezident İlham Əliyevin Mehriban xanım Əliyeva ilə birgə Qarabağ və Şərqi Zəngəzura səfər edərək yeni layihələrin təməllərini qoyması, yeni açılışlar etməsi o torpaqlarda həyata keçirilən quruculuq işlərinin miqyasını bir daha nümayiş etdirir.

### Fəxr mənbəyimiz

İşğaldan azad edilən torpaqlarımızda aparılan böyük quruculuq işləri sayəsində əzəli sakinlərinə qovuşan yurdlarımızın sayı gün keçdikcə artır. Elə təkcə bu il ərzində Şuşa, Xocalı, Cəbrayıl şəhərlərinin, Xocalının Ballıca kəndinin timsalında yenidən qurulan yurd yerlərimizə həyat qayıtdı.

Dövlətimiz Qarabağ və Şərqi Zəngəzuru başdan-başa cənnətməkana çevirir, ruhunu dirçəldir. 30 il ərzində məcburi köçkünlüyün maddi-mənəvi məhrumiyyətləri ilə yaşamış vətəndaşlarımız indi sevinclə yurdlarına qayıdırlar. Azərbaycan xalqı olaraq bu günlərin həsrətini çox çəkmişdik. Ancaq daha yurd həsrəti də bitib, məcburi köçkün adı da tarixə qovuşub. Artıq Qarabağ və Şərqi Zəngəzur adlı cənnətməkanın yeni növrağı başlayır.

Bütün bu qələbələrə görə idi ki, bu ilin fevralında keçirilən Zəfər seçkisində xalqımız yekdilliklə Azərbaycanı inkişaf etdirərək dünya səviyyəli ölkəyə çevirən, ərazi bütöblüyünü, suverenliyini təmin edən, yüzminlərlə məcburi köçkünü yurd həsrətindən qurtaran, Qarabağ və Şərqi Zəngəzuru abadlaşdıran Qalib Liderinə yenidən səs verdi. Tarixin ən qüdrətli Azərbaycanının müəllifi İlham Əliyevə minnətdarlığını bu cür izhar etdi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qarşılıqlı səfərlər münasibətlərin inkişafına böyük töhfələr verir



**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 23-də ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin Sədri Zaur Askenderovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Milli Məclisin Sədri qonaqları salamlayaraq, ötən ilin mart ayında Zaur Askenderovla Bakıda keçirdiyi görüşü məmnunluqla xatırlayıb. Xalqlarımız arasındakı tarixi əlaqələrdən, ortaq dəyərlərdən danışan spiker Sahibə Qafarova əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan-Rusiya münasibətlərinin bu gün də prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən uğurla davam etdirilməsindən məmnunluğunu ifadə edib. O, qarşılıqlı səfərlərin bu münasibətlərə böyük töhfələr verdiyini diqqətə çatdıraraq, Rusiya Federasiyasının subyektləri, o cümlədən Dağıstan Respublikası ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası və Dövlət Duması ilə Azərbaycan Respublikası Milli Məclisi arasında mövcud olan sıx əlaqələr barədə məlumat verib.

Spiker Sahibə Qafarova indiyədək Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən 300-dək sənədin imzalandığını bildirərək, onların arasında "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edilib ki, Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır və ölkəmizdə bir sıra təhsil ocaqlarında rus dili geniş tədris olunur.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad etdiyi ərazilərdə aparılan tikinti-quruculuq işləri, orada həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, mötəbər beynəlxalq tədbir olan COP29-un ölkəmizdə keçirilməsi ərəfəsində Azərbaycana qarşı edilən təzyiqlər, Azərbaycanla Ermənistan arasında sülh prosesinin gedişi və bu prosesə yaradılan maneələr haqqında ətraflı məlumat verib.

Görüş üçün təşəkkürünü bildirən Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin Sədri Zaur Askenderov Dağıstan və Azərbaycan xalqlarının tarixi əlaqələri, paylaşdıqları ortaq dəyərlərdən danışıb. O, spiker Sahibə Qafarovanı yenidən bu vəzifəyə seçilməsi və parlament seçkilərinin uğurla keçirilməsi münasibətilə təbrik edib. Bildirilib ki, ilk dəfə Azərbaycanın bütün suveren ərazisində keçirilmiş bu parlament seçkiləri tarixi önəm daşıyır.

Qonaq Rusiya-Azərbaycan münasibətlərinin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin daha da güclənməsi, xalq diplomatiyasının əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Görüşdə parlamentlərin qarşılıqlı münasibətlərin inkişafında oynadığı mühüm rol qeyd edilib, Milli Məclisin həm Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası və Dövlət Duması ilə, həm də Dağıstan Xalq Məclisi ilə əlaqələrinin əhəmiyyətindən danışılıb, qarşılıqlı səfərlərin intensivliyinin vacibliyi qeyd edilib.

Zaur Askenderov Dağıstanda böyük Azərbaycan diasporunun olduğunu və azərbaycanlıların Dağıstanda vahid ailə kimi yaşadıqlarını diqqətə çatdırıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin daha da inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycanla İtaliya arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub



**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 23-də İtaliya Respublikasının Azərbaycandakı səfiri Luka Di Cianfrançesko ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycanla İtaliya arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub. Bildirilib ki, enerji və iqtisadi sahədə mövcud olan əməkdaşlıq əlaqələri digər sahələrdə də münasibətləri daha da genişləndirməyə imkan verir.

Söhbət zamanı parlamentlər arasında əlaqələrin daha da inkişafının vacibliyi qeyd olunub. Vurğulanıb ki, parlamentlərarası əlaqələr oxşar dəyərlərə malik olan xalqlarımızın bir-birini daha yaxından tanımasına, bu əlaqələrin daha da gücləndirilməsinə xidmət edir. Qarşılıqlı təmasların gücləndirilməsində dostluq qruplarının mühüm rola malik olduğu qeyd edilib. Tərəflər qanunverici orqanların beynəlxalq platformalarda da əməkdaşlıq məsələlərini nəzərdən keçiriblər. İki ölkə arasında strateji əlaqələrə uyğun olaraq, parlamentlər arasında əlaqələndirmənin və qarşılıqlı dəstəyin daha da gücləndirilməsinin əhəmiyyəti qeyd edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova özünün İtaliyaya rəsmi səfərini məmnunluqla xatırlayaraq, qarşılıqlı səfərlərin əlaqələrin daha da genişləndirilməsinə müsbət töhfə verdiyini bildirib. O, İtaliya parlamentinin üzvlərinin bu il ölkəmizdə keçirilən prezident və parlament seçkilərini müşahidə etdiyini, həmçinin COP29 çərçivəsində keçirilən Parlament görüşündə iştirak etdiklərini xatırladıb.

Söhbət zamanı Milli Məclisin Sədri deyib ki, Azərbaycan 30 illik işğala, bir milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, suveren, müstəqil, demokratik, inkişaf edən ölkədir. Buna baxmayaraq, spiker Sahibə Qafarova bəzi Qərb ölkələrinin Azərbaycana qarşı yalan, böhtan kampaniyası apardığını, xüsusilə COP29 ərəfəsində bu cür kampaniyaların daha da genişləndiyini bildirib. O cümlədən bəzi milli parlamentlərdə və beynəlxalq parlament təşkilatlarında ölkəmizlə bağlı qərəzli qərarların qəbul edilməsinin yolverilməz olduğu, bu addımın həmin təşkilatların özlərinin nüfuzuna xələl gətirdiyi vurğulanıb. Sahibə Qafarovanın sözlərinə görə, sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, suverenlik məsələlərinə münasibətdə ikili standartlar qəbulolunmazdır.

O, həmçinin regionda mövcud olan vəziyyət, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işləri barədə də diplomata məlumat verib. Spiker bir sıra Qərb ölkələrinin regionda sabitliyi pozmaq cəhdlərini tənqid edib.

İtaliyanın ölkəmizdəki səfiri Luka Di Cianfrançesko COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb. O, İtaliya Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin bu mühüm qlobal tədbirdə iştirak etdiyini söyləyib.

Diplomat ölkəsi ilə Azərbaycan arasında çoxşaxəli əməkdaşlıq əlaqələrinin mövcud olduğunu, bu əlaqələrin daha da inkişafına töhfə verməyə çalışdıqlarını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Bakıda Azərbaycan Din Xadimlərinin Forumu keçirilib

**Dekabrın 23-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər" mövzusunda Azərbaycan Din Xadimlərinin Forumu keçirilib. Forumda müvafiq dövlət qurumlarının, ölkəmizdə fəaliyyət göstərən müxtəlif konfessiyaların nümayəndələri, dini təhsil müəssisələrinin müəllimləri, ilahiyyatçı alim və mütəxəssisləri, respublikamızın müxtəlif regionlarından gəlmiş din xadimləri iştirak ediblər.**



Tədbir çərçivəsində "Qərbi Azərbaycan: xəritələr, eksponatlar, abidələr, deportasiya" mövzusuna həsr olunmuş fotosərgi nümayiş etdirilib. Eksponatlarda Ermənistanın ərazisində qalmış və dağıdılmış tarixi abidələr öz əksini tapıb.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin forumun iştirakçılarına müraciətini oxuyub.

Sonra Azərbaycan Respublikası ərazisindəki dini ibadət yerləri, ziyarətgahlar, qəbiristanlıqlar, ixtisaslaşdırılmış satış məntəqələri, ölkədə fəaliyyət göstərən din xadimləri haqqında informasiya bazasının sistemləşdirilmiş formada toplandığı vahid elektron xidmətlər portalı olan AMİN (Azerbaijan Multicultural Information Network) layihəsinin videotəqdimatı keçirilib. Layihə barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına ünvanlanmış müraciəti bu tədbirə verilən ən ali qiymətdir. Müraciətdə əksini tapmış tövsiyələr gələcəklə bağlı planlarımızın fəlsəfəsini və ideoloji məzmununu müəyyənləşdirəcək. Komitə sədri qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modeli tarixi ənənələrə və ümumbəşəri dəyərlərə istinad edir. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasətin mərkəzində dini, etnik mənsubiyyət deyil, insan amili dayanır. Dörd il öncə Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək torpaqlarımızı işğaldan azad etdi. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəniyyət abidələrinin bərpası işləri uğurla həyata keçirilir. Bu forum dini maarifləndirmə, dünyəvi dəyərlərin, multikulturalizm ənənələrinin təşviqi, dinin siyasiləşdirilməsinə yol verilməməsi ilə bağlı müzakirələrin aparılması baxımından böyük əhəmiyyət daşıyır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışı zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının böyük zəfər qazandığını vurğulayıb. Cəmiyyətin dini maarifləndirilməsi sahəsində din xadimlərinin üzərinə böyük vəzifələr düşdüyünü deyib. Bildirib ki, qalib Azərbaycanın azad Qarabağda apardığı genişmiqyaslı quruculuq işləri, bərpa olunan dini-mənəvi irsimiz, dövlətimizin artan beynəlxalq nüfuzu dini-mənəvi maarifləndirmədə əks olunmalı və din xadimlərimiz bu şərəfli gerçəklikləri insanlara ən yüksək şəkildə çatdırmağı bacarmalıdırlar.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, ölkəmiz bütün dünyaya həm dini tolerantlıq, həm də multikulturalizmin mərkəzi kimi təqdim edilir. Dini maarifləndirmə məsələlərinin əhəmiyyətindən söz açan Əli Əhmədov qeyd edib ki, ölkəmiz bu istiqamətdə böyük uğurlar qazanıb. Vətəndaşlarımızın həm dini olduğu kimi dərk edərək ona münasibətini anlamaları və müəyyənləşdirmələri, həm də cəmiyyətə baxışlarını formalaşdırmaları baxımından dini maarifləndirmənin düzgün aparılması çox mühüm əhəmiyyət kəsb edir. Dini maarifləndirmənin həyata keçirilməsinin kifayət qədər həssas məsələ olmasından danışan Milli Məclis Sədrinin birinci müavini bu prosesin hədəf kütləsinin düzgün müəyyənləşdirilməsindəki önəmini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanda bütün sahələrdə, xüsusilə suverenliyin və ərazi bütövlüyünün tam təmin olunması ilə tarixi nailiyyətlər əldə edilmiş, həmçinin din və əqidə məsələlərində mühüm dəyişikliklər baş vermişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli dünyada islamofobiya hallarının artmasına, bunun bəşəriyyətə zərbələr vurmasına baxmayaraq, Azərbaycanda ictimai-siyasi və dini sabitliyin mövcud olduğunu diqqətə çatdırıb. Bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri mənəvi kamilləşmənin mühüm prinsipinə çevrilib. Ölkəmiz bu baxımdan dünyaya bir nümunədir. Bu sahədə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin siyasətinin əvəzsiz rol oynadığını bildirən akademik Azərbaycanın dinlərarası dialoq sahəsində böyük təcrübəyə malik olduğunu vurğulayıb. Əlavə edib ki, ölkəmizdə tolerantlıq siyasəti cəmiyyətimizin normasına çevrilib.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ölkəmizdə müxtəlif xalqlar və etnik qrupların daim sülh şəraitində yaşamalarından və bu əsasda formalaşmış birgəyaşayış modelinin özünəməxsus unikallığını qoruyub saxlamalarından danışıb. Vurğulayıb ki, bu, öz növbəsində malik olduğumuz və haqlı olaraq hər zaman qürur duyduğumuz multikultural və tolerant dəyərlərin əsasını təşkil edir. Ölkəmizdə Konstitusiya və qanunvericilik çərçivəsində bütün dinlərin bərabər inkişafı, fərqli mədəniyyətlərə mənsub insanlara isə birgə yanaşı yaşamaq imkanları təmin edilib.

Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə dövlət-din münasibətlərinin dünyəvilik prinsipi ilə tənzimlənməsindən danışıb. Bildirib ki, ümumtəhsil pilləsi üzrə proqramlarda "Həyat bilgisi", "Azərbaycan tarixi", "Ümumi tarix" fənləri üzrə təhsilalanlara mədəni və dini müxtəlifliyə hörmət hissinin tərbiyəsi, dinlər haqqında aydın təsəvvürlərinin formalaşması, multikultural dəyərlərə hörmət aşılanır.

Tədbirin "Dünyəvi dövlətdə dini təhdidlər: siyasi-ideoloji baxış", "Qadın hüquqlarının həyata keçirilməsində din amilinin rolu", "Azərbaycan multikulturalizmi: təcrübə, ənənə və müasir çağırışlar" və "Dünyəvi dövlətdə dini təhsil modelləri: nəzəriyyə və praktika" mövzularına həsr olunan panel sessiyalarında dini sahədəki siyasətin əsas istiqamətləri, aktual məsələləri, ölkədə dini durumla bağlı mövcud vəziyyət müzakirə olunub və dəyərli tövsiyələr irəli sürülüb.

Forumun iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Növbəti sosial islahat paketi ümumən 3 milyon insanı əhatə edəcək
















Əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 2024-cü il 23 dekabr tarixli Sərəncam dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.

Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq.

Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində Prezidentə təqdim edəcək.

2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcək.

Həmçinin sərəncamla Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin edəcək.

Beləliklə, həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Yeni sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

# Azərbaycanın xarici işlər naziri Serbiya Respublikasında işgüzar səfərdədir







Dekabrın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidenti Aleksandar Vuçiç tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub, qarşılıqlı yüksəksəviyyəli səfərlərin əhəmiyyəti vurğulanıb.

Görüşdə ikitərəfli strateji tərəfdaşlıq münasibətləri, eləcə də regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan və Serbiya tərəfindən hər zaman qarşılıqlı şəkildə ərazi bütövlüyü və suverenliyə göstərilən davamlı dəstəyin təqdirəlayiq olduğunu bildiriblər.

Ölkəmizi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu evsahibliyi münasibətilə təbrik edən Prezident Vuçiç COP29 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşü məmnunluqla xatırlayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər müzakirə edilib.

* * *

Dekabrın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiyaya işgüzar səfəri çərçivəsində bu ölkənin Baş naziri Milos Vuçeviç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və Serbiya arasında ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan və Serbiya arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafında ali və yüksəksəviyyəli səfər və təmasların əhəmiyyətini qeyd edib, bu sahədə mövcud dinamikanın qorunmasının vacibliyi vurğulanıb.

İki ölkə arasında xüsusilə iqtisadi-ticari əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın vacib platforma olduğu qeyd edilib. Energetika sahəsində əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə olunub, münasibətlərin perspektivlərinə toxunulub. Alternativ enerji istehsalı və ixracı sahəsində əməkdaşlığın vacibliyi qeyd edilib. Ölkəmizin "yaşıl enerji" istehsalı sahəsində potensialı barədə məlumat verilib.

Bununla yanaşı, ölkələrimiz arasında turizm sahəsində birgə layihələrin həyata keçirilməsinə, bu xüsusda birbaşa hava nəqliyyatı əlaqələrinin yaradılmasına qarşılıqlı maraq ifadə olunub.

Bu il ölkəmizdə keçirilmiş COP29 tədbirinin nəticələri barədə ətraflı məlumat təqdim olunub, iqlim diplomatiyası sahəsində birgə səylərin vacib olduğu diqqətə çatdırılıb. "Expo-2027" tədbirinin ölkələrimiz arasında əlavə əməkdaşlıq imkanları yaradacağına dair əminlik ifadə edilib.

C.Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumatlandırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Dekabrın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiyaya işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Marko Curiç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, geniştərkibli görüş zamanı nazirlər Azərbaycan-Serbiya strateji tərəfdaşlığının müxtəlif aspektləri, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

İki ölkə arasında qarşılıqlı hörmət və etibarlı tərəfdaşlığa, beynəlxalq hüququn əsas norma və prinsiplərinə, xüsusilə suverenlik və ərazi bütövlüyünün qarşılıqlı dəstəklənməsinə əsaslanan strateji tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Strateji tərəfdaşlığın inkişafına töhfə verən amillər arasında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, liderlər arasında dostluğun əhəmiyyəti vurğulanıb. İki ölkə arasında enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, turizm sahələri üzrə əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, iqtisadiyyat, ticarət və investisiya istiqamətləri üzrə əməkdaşlığın inkişafının zəruriliyi vurğulanıb. Xalqlararası əlaqələrin genişləndirilməsində humanitar sahədə əməkdaşlığın, qarşılıqlı vizadan azad olunma tədbirlərinin töhfələri qeyd edilib. Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Ceyhun Bayramov ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) əldə olunan uğurlardan bəhs edib, Serbiya tərəfinin ali səviyyədə iştirakı və töhfələrinə görə təşəkkür edilib. "Yaşıl enerji" sahəsində ölkəmizin planları və regionumuzun elektrik enerjisinin ixracı sahəsində rolu barədə məlumat verilib.

Serbiyanın "Expo-2027" tədbirinə hazırlıq işlərində uğurlar arzulanıb, bu tədbirin Serbiyanın artan əhəmiyyətinin göstəricisi olduğu vurğulanıb.

Qarşı tərəf həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırılıb. Sülh müqaviləsində açıq qalan bəndlər üzrə razılığın əldə olunması, Ermənistan Konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə yönələn iddialara son qoyulmasının sülh prosesinə hədə törədən mövcud çağırışların aradan qaldırılması üçün əhəmiyyəti qeyd edilib. Bununla yanaşı, ATƏT çərçivəsində Minsk qrupunun rəsmi olaraq ləğvinə Ermənistanın maneçilik səylərinin sülh prosesinə zidd olduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Daha sonra keçirilmiş mətbuat konfransında nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının sədri Ana Brnabiç ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və Serbiya arasındakı mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişaf perspektivləri və iki ölkə arasında parlamentlərarası müstəvidə əlaqələr müzakirə edilib.

Görüşdə qarşılıqlı hörmət, etimad, beynəlxalq hüquqa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub.

Parlament diplomatiyasının əhəmiyyətini nəzərə alaraq ikitərəfli əsasda, o cümlədən beynəlxalq parlament platformaları çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacib olduğu qeyd edilib. Bu xüsusda eyni zamanda ölkələrimizin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının işi təqdir olunub.

Azərbaycan tərəfinə Serbiyanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi birmənalı dəstəyə görə təşəkkür edilib, Serbiyanın ölkəmizlə qarşılıqlı hörmət əsasında əməkdaşlığın inkişafından məmnunluq duyduğu diqqətə çatdırılıb. Beynəlxalq təşkilatlarda, BMT-də və Avropa Şurasında qarşılıqlı dəstəyə görə təşəkkür ifadə olunub.

Nazir Ceyhun Bayramov bu il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) nəticələri barədə qarşı tərəfi məlumatlandıraraq yeni iqlim maliyyəsi hədəfinin razılaşdırılması və digər istiqamətlərdə əldə olunan uğurların qlobal iqlim gündəliyində əhəmiyyətindən bəhs edib.

Serbiyanın "Expo 2027" tədbirinə hazırlıq işlərində uğurlar arzulanıb, bu tədbirin Serbiyanın artan əhəmiyyətinin göstəricisi olduğu vurğulanıb.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

* * *

Dekabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov Serbiyanın dəvəti əsasında bu ölkəyə işgüzar səfəri çərçivəsində bu ölkənin Səfirlər Müşavirəsində iştirak və çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov çıxışı zamanı Azərbaycan-Serbiya strateji tərəfdaşlığının siyasi, iqtisadi, enerji, humanitar aspektlərindən, ölkələrimizi birləşdirən ümumi çağırışlar və onlarla mübarizədə ortaq yanaşmamızdan ətraflı bəhs edib.

İki ölkə arasında 30 ilə yaxın tarixi olan diplomatik münasibətlərin bu gün Azərbaycan və Serbiya rəhbərliyinin birbaşa iştirakı ilə özünü əməldə, çoxşaxəli strateji tərəfdaşlıqda göstərdiyi qeyd olunub.

Azərbaycan və Serbiya arasında Strateji Tərəfdaşlıq Şurası, Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya, habelə siyasi məsləhətləşmələr mexanizminin əməkdaşlığın inkişafında vacib rolundan bəhs edilib.

Ölkələrimiz arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın perspektivlərindən geniş şəkildə bəhs olunub, Azərbaycanın Avropada enerji diversifikasiyasının transformasiyasında oynadığı rolun əhəmiyyəti, o cümlədən cari ildə qaz ixracı sahəsində Serbiya ilə əməkdaşlığın nəticələr verməsi məmnunluqla vurğulanıb. "Yaşıl enerji" sahəsinin ölkəmizin prioritetlərindən biri olduğu, bu istiqamətdə Qara dəniz sualtı enerji kabeli layihəsi, Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq kimi təşəbbüslərin Xəzər və Qara dəniz hövzələrindən keçməklə Avropa və Mərkəzi Asiyanın əlaqələndirilməsində mühüm addımlar olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov həmçinin bu il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) nəticələri barədə müşavirə iştirakçılarını ətraflı məlumatlandıraraq yeni iqlim maliyyəsi hədəfinin razılaşdırılması, Paris Sazişinin 6-cı maddəsi üzrə danışıqların yekunlaşdırılması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması üçün hazır vəziyyətə gətirilməsi istiqamətində əldə olunan uğurların qlobal iqlim gündəliyində əhəmiyyətindən bəhs edib.

Azərbaycan və Serbiyanı birləşdirən ortaq xüsusiyyətlər qismində ölkələrimiz arasında ərazi ölçüsü, əhali sayı, xalqlarımız arasında mövcud tarixi bağlar ilə yanaşı, təxminən eyni tarixi dövrdə müstəqillik qazanan hər iki ölkənin beynəlxalq hüququn selektiv tətbiqinə məruz qaldığı, ölkələrimizin ikili standartlar problemi ilə üzləşdiyi bildirilib.

Ölkələrimizin xarici aktorlara arxalanmamağın, geosiyasi qarşıdurmalarda tərəf olmamağın, manipulyasiya və müdaxilələrdən qaçmaq üçün birbaşa danışıqlara üstünlük verilməsinin əhəmiyyətini anladığı qeyd edilib. Bu baxımdan Azərbaycanın və Serbiyanın xarici siyasətində eyni dəyərləri, xüsusilə ərazi bütövlüyü və suverenliyə daimi dəstəyi rəhbər tutmasının və bunun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tədbirdə Serbiyanın xarici işlər naziri Marko Curiç, XİN-in kollektivi, bu ölkənin xaricdəki səfirləri, habelə Serbiya parlamentinin sədri Ana Brnabiç iştirak ediblər.

Ciddi siqnal

# Laqeydlik, səhlənkarlıq, yoxsa məsuliyyətsizlik





**Paytaxt Bakı ildən-ilə böyüyür və gözəlləşir. İqtisadi və mədəni inkişafın yaratdığı imkanlardan yetərincə bəhrələnən şəhər sakinləri isə daha rahat və firavan yaşayırlar. Bu gün Bakının mərkəzi ilə ətraf kəndləri arasındakı "boşluq" tamamilə yox olmuş, qədim kəndlər və yeni yaşayış massivləri şəhərlə birləşərək vahid orqanizmə çevrilmişdir.**





Şəhərin mərkəzindəki məhəllələrdə ömrünü başa vurmuş köhnə evlər, sovet dövründə inşa edilmiş beton binalar sökülərək yerində yeni yaşayış evləri tikilir, bir-birindən yaraşıqlı park və bulvarlar salınır.

Əvəzi dövlət tərəfindən bazar qiymətləri ilə ödənilən belə evlərin sakinlərinin bir qismi Bakı ətrafına üz tutaraq keçmiş bağ yerlərindən özlərinə torpaq sahələri alır, yeni evlər inşa etdirərək daha rahat və gen-bol yaşayırlar.

Sovet dönəmində "bağ evləri" sayılan ərazilərdə artıq çoxsaylı, bir-birindən yaraşıqlı fərdi evlər inşa olunmuşdur. Bunlardan bir də Albalılıq yaşayış massividir. Son illər ərzində buraya köçənlərin miqdarı sürətlə artmış, əhalinin sayı və sıxlığı yüksək həddə çatmışdır.

Yeni sakinlər təmiz hava ilə nəfəs alır, yeni yaşıllıqlar salır, şəhərin səs-küyündən uzaq olduqlarından özlərini daha asudə hiss edirlər.

İnsanlar şəhərdən nisbətən uzaqlaşsalar da, daim informasiya ehtiyaclarını ödəməyə çalışır, mobil telefonları vasitəsilə həm dünyada baş verənləri izləyir, həm də sosial şəbəkəyə qoşulmaqla fərdi maraqlarını təmin edirlər.

Azərbaycan dünyada internetə əlçatanlılıq baxımından fərqlənən ölkələrdəndir. Belə ki, əhalinin doxsan faizindən çoxu internet istifadəçisidir. Dövlət öz vətəndaşlarının sürətli və keyfiyyətli internetlə təmin olunmasını daim diqqət mərkəzində saxlayır.

Abşeron yarımadası tarixən güclü küləklərin cövlan etdiyi məkan sayılır. Son illərdə iqlim dəyişmələri sahəsində baş verənlər dünyanın hər yerində özünü qasırğalar, leysan yağışları və sellər formasında daha çox göstərir. Xəzərə yaxın ərazilərdə isə küləyin gücü və yağışların intensivliyi daha çox duyulur.

İndi isə keçirik birbaşa mətləbə.

Güclü küləklərdən biri Albalılıq yaşayış massivindəki telefon və internet naqillərinin daşıyıcısı olan ağac dirəklərdən birini sındıraraq yıxdı. Sanki qəribə heç nə baş verməyib! Vaxtaşırı respublikamızın rayonlarında küləyin törətdiyi fəsadlar - evlərin damlarının uçması, ağacların aşaraq minik avtomobillərinin üzərinə düşməsi və digər fəsadlar barədə müxtəlif televiziya kanallarında çoxlu süjetlər göstərilir.

Dərhal da müvafiq qurumlar hadisə yerlərinə yollanır, güclü küləyin, selin törətdiyi dağıntıların nəticələrini aradan qaldırır, ziyan görmüş vətəndaşları yalqız və köməksiz qoymurlar.

Telefonları kəsilən, interneti işləməyən Albalılıq massivinin sakinləri də tezliklə sınmış dirəyin dəyişdiriləcəyini, qırılmış xətlərin bərpa ediləcəyini, informasiyasızlıqdan qurtulacaqlarını güman edirdilər. Axı qeyd etdiyimiz kimi, bunun üçün müvafiq qurumlar, qəza xidmətləri, operativ işləyəcək mütəxəssislər var.

Günlər keçdi, kimsədən səs-səmir çıxmadı: nə telefon işlədi, nə internet!

Rabitə işçiləri isə, ümumiyyətlə, gözə dəymədilər!

Bir neçə gündən sonra "bəlkə xəbərləri yoxdur?" - deyə hadisə barədə müvafiq qurumun - Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 155 nömrəli çağrı mərkəzi ilə telefon əlaqəsi yaratdıq. Bildilər və qeydə aldılar!

Bir neçə gün keçdi, amma heç bir dəyişiklik olmadı!

Yenidən məsələyə müdaxilə etməyi qərara alaraq 12 dekabr saat 15.38-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 155 nömrəli çağrı mərkəzinə telefon açmaqla operatorla əlaqə saxladıq.

Sorğumuzu qeydə alaraq qəzanın 24 saat ərzində aradan qaldırılacağını bildirdilər.

Günlər keçdi, vəd yerinə yetirilmədi!

İkinci dəfə dekabrın 16-sı saat 14.27-də yenidən qaynar xəttə zəng etdik, vəziyyətin dəyişmədiyini, heç bir tədbir görülmədiyini söylədik.

Bu dəfə bizimlə danışan operator öz adını söylədi: Zeynəb.

Lakin Zeynəbin vədi də yerinə yetirilmədi.

Dekabrın 17-si saat 11.36-da təkrar zəngimizə çağrı mərkəzi cavab vermədi.

16.55-də vurduğumuz zəngə cavab olaraq nazirliklə əlaqə saxlamağımız tövsiyə edildi.

Dekabrın 20-də 598-58-58 nömrəsini nə qədər yığsaq da, yenə cavab verən olmadı (Görünür artıq telefon nömrəmizi tanıyırdılar və bizə cavab verməyə üzləri olmadığına görə dəstəyi qaldırmırdılar).

Dekabrın 21-i saat 14.16-da yenidən 155 nömrəli çağrı xidmətini yığdıq, bu dəfə operator Emil Babazadə ilə danışdıq.

Nəticə hələ də sıfırdır!

Söz versələr də, əməl etmirlər!

Rabitəçilərin öz məsuliyyətli işlərinə belə soyuq və biganə yanaşmaları yalnız təəssüf hissi doğura bilər!

Prezident İlham Əliyevin səmərəli fəaliyyəti sayəsində Azərbaycana məxsus neçə-neçə peyk səmada uçur. Kiçik məmurların fəaliyyətsizliyi isə ölkə vətəndaşlarını internetə həsrət qoyur!

Dirəyin sınmasından iyirmi gündən artıq vaxt keçməsinə baxmayaraq, hələ də davam edən bu məsuliyyətsizlik və anlaşılmazlıqla bağlı respublika Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyinə bir neçə sual ünvanlamaq istərdik:

- *Bir dirəyin sınması ilə abunəçi iyirmi gündən çox internetsiz və rabitəsiz qalırsa, buna nə ad vermək olar? Laqeydlik, səhlənkarlıq, yoxsa məsuliyyətsizlik?*
- *Əgər iyirmi günə bir dirək dəyişdirilmirsə, onda küləkli və çovğunlu qış Bakısında birdən-birə üç, beş, on dirək sıradan çıxarsa, o zaman onların bərpası nə qədər vaxt aparar?*
- *Abunəçiyə vəd verilərək aldadılmasının, günü-günə sataraq qəzanın nəticələrinin aradan qaldırılmamasının təqsiri kimdədir, köməksiz və narazı vəziyyətdə qalanlar kimdən imdad diləməlidirlər?*
- *Əgər müvafiq rayon telefon qovşağının işçiləri öz vəzifə borclarını vicdan və məsuliyyətlə yerinə yetirmirlərsə, onda abunəçilər kimə və hara müraciət etməlidirlər?*
- *Abunə haqqını irəlicədən ödəyən abunəçilərin işləməyən günlər üçün verdikləri pullar geri qaytarılacaqmı, yoxsa o da məsuliyyətsizliyin badına gedəcəkdir?*
- *Vəzifə borclarına biganə yanaşanlar barədə tədbir görüləcəkmi və qarşıdakı qışda daha sürətli küləklər əsəcəyi təqdirdə yeni qəzalar baş verərsə, eyni vəziyyətin təkrarlanmayacağına kim zəmanət verir?*

Axı qış hələ Abşerona yeni qədəm qoyur...

Ekoloqlarımız isə onun daha sərt keçəcəyini proqnoz edirlər. Bu həm də o deməkdir ki, qarşıda bizi yeni qasırğa və şiddətli küləklər gözləyir!

Rabitəçilər necə, buna hazırdırlarmı?

*"AZƏRBAYCAN"*

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Prezident İlham Əliyev almaniyalı həmkarına başsağlığı verib
Azərbaycana göstərilən növbəti qlobal etimad
Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin daha bir məntiqi nəticəsi
İndi Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının da üzvüdür
Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb
Azərbaycanın prinsipləri dəyişməzdir
Avropa terrora təslim olur

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Cənub-qərb küləyi əsəcək, günün ikinci yarısında şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 5-7°, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 764 millimetr civə sütunu, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-14° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 3-8° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4° isti, dağlıq ərazilərdə 4°-dək şaxta, gündüz 7-12° isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 3-8° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-14° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° isti, gündüz 8-13° isti, dağlarda gecə 3-5° isti, gündüz 6-10° isti olacağı proqnozlaşdırılır.

# *"El Pais":* NATO üzv ölkələrdən hərbi xərclər üzrə öhdəliklərin yerinə yetirilməsini tələb edib

**NATO İspaniyanın və hərbi xərclərə ən az pul xərcləyən digər müttəfiqlərinin müdafiə investisiyaları üzrə öhdəliklərini yerinə yetirmələrini istəyir.**

AZƏRTAC xəbər verir ki, "El Pais" qəzetinin məlumatına görə, Donald Trampın tezliklə Ağ evə qayıdışı alyansda müdafiə xərclərinin artırılması ilə bağlı müzakirələri yenidən canlandırıb. Bu baxımdan NATO səkkiz ölkədən hərbi xərclər üzrə öhdəliklərini yerinə yetirməsini tələb edib. Həmin dövlətlərin arasında müdafiə investisiyalarına görə sonuncu yeri tutan və yalnız 2029-cu ilədək hərbi xərclərini ümumi daxili məhsulun vəd edilən iki faizi səviyyəsinə çatmağı planlaşdıran İspaniya da var. Şimali Atlantika Alyansı isə yenidən hərbi xərclərin ÜDM-in üç faizinə çatdırılması ideyasının müzakirəsinə qayıdıb.

NATO-nun proqnozlarına görə, 2024-cü ildə 32 müttəfiq ölkədən 24-nün müdafiə xərcləri ÜDM-in iki faizini ötməlidir. İspaniya, Xorvatiya, İtaliya, Kanada, Portuqaliya və Belçika kimi ölkələrin müdafiə xərcləri isə 1,28-1,81 faiz arasında qalacaq.

Qeyd edək ki, alyansın 2014-cü ildə Böyük Britaniyada keçirilən sammitində üzv ölkələr hərbi xərclərini ÜDM-in iki faizinə çatdırmaq barədə öhdəlik götürüb. "Financial Times" qəzetinin məlumatına görə, ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp öz nümayəndələri vasitəsilə NATO ölkələrinə müdafiə xərclərini ÜDM-in beş faizinə çatdırmağı tələb edib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Flora Sadıqova Qabil və Xavər Əfəndiyevlərə əzizləri

**YEGANƏ XANIMIN**

Qax rayonunda vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4233
Sifariş 2977

Qiyməti 60 qəpik